*Kitabı müasir demokratik və dünyəvi Azərbaycan dövlətinin banisi, Azərbaycan xalqının ulu öndəri, unudulmaz tarixi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsinə ithaf edirəm.*

**Müəllif**

FƏZAİL AĞAMALI

# HARMONİK İNKİŞAFIN YÜKSƏLİŞ DÖVRÜ

BAKI – 2008

Elmi redaktor: **Əli Əhmədov**
***Fəlsəfə elmləri namizədi, dosent***
Redaktor: **Azər Mənsimli**

**F.R.Ağamalı. "Harmonik inkişafın yüksəliş dövrü". Bakı, 2008**

Tarix elmləri doktoru Fəzail Ağamalının hazırladığı kitab Azərbaycan Respublikasının dövlət başçısı Ilham Əliyevin prezidentlik fəaliyyəti dövründə həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin bütün aspektlərini lakonik şəkildə əhatə edir.

Müəllif geniş faktoloji bazaya və arqumentlərə söykənərək milli dövlətçilik konsepsiyasının əsasını təşkil edən Heydər Əliyev siyasi irsinin fundamental prinsiplərini, siyasi varisliyin milli dövlətçiliyimiz üçün son dərəcə vacib və zəruriliyini təhlil etmiş, ölkənin harmonik inkişafını, cəmiyyətin demokratikləşməsini və xarici siyasətin prioritet inkişaf səviyyəsinə qaldırılmasını haqlı olaraq İlham Əliyevin novatorluğu, liberal dəyərləri əsas götürməsi və islahatçılığı ilə əlaqələndirmişdir.

Kitab geniş oxucu auditoriyası, elmi işçilər və müasir Azərbaycan tarixini öyrənənlər üçün nəzərdə tutulmuşdur.

**Kitab millət vəkili, «Azəryolservis» ASC-nin sədri Cavid Qurbanovun dəstəyi ilə çap olunmuşdur. Müəllif göstərdiyi dostluq köməyinə görə C.Qurbanova səmimi təşəkkürünü bildirir.**

A $\frac{0802000000\text{-}53}{\text{On-}047\text{-}07}$

**Az-2**
**A-29 Bakı, Ozan, 2008.**

# GİRİŞ

Bütün xalqların həyatında dövlətin idarə edilməsində siyasi varislik ciddi əhəmiyyətə malikdir. Tarixin konkret məqamında ümummilli lider Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin labüdlüyünü şərtləndirən amillər isə şübhəsiz ki, bu kursun bütünlüklə Azərbaycanın dövlətçilik maraqlarının həyata kecirilməsinə yönəlməsindən ibarət idi. Ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun, milli dövlətçilik konsepsiyasının varisliyinin təmin olunması zamanın tələbi, xalqın sosial sifarişi kimi gündəmə gəlirdi. Heydər Əliyev siyasi kursu və idarəçilik sistemindən imtina edilməsi cəmiyyətimizdə baş verə biləcək mümkün təlatümlərə, ağır faciələrə səbəb ola bilərdi və artıq Azərbaycan xalqı ulu öndərimizin siyasi hakimiyyətdən kənarda olduğu 1980-cı illərin sonu - 1990-cı illərin əvvəllərində bu prosesləri yaşamışdı. Ona görə də, Azərbaycan xalqı ümummilli liderinin müəyyənləşdirdiyi siyasi kursun varisliyinin təmin olunmasında israrlı idi.

İctimai rəy ulu öndərimizin müəllifi olduğu milli dövlətçilik konsepsiyasını davam etdirə biləcək yeganə siyasi lider kimi, birmənalı olaraq İlham Əliyev seçimi üzərində qərar tutdu. Opponentlərindən fərqli olaraq İlham Əliyevin Heydər Əliyev siyasi kursuna dair baxışlar sistemi institutlaşmış xarakter daşıyırdı. Həmin baxışların taktiki, strateji və perspektiv rakursunda ulu öndərin dövlətçilik konsepsiyasının ehtiva etdiyi prioritetlər dayanırdı. Ən əsası isə, tarixi şəxsiyyətin siyasət məktəbində formalaşmış, peşəkar diplomat, müasir lider imicinə və yüksək in-

tellektə malik İlham Əliyevin mövcud ənənəyə sadiqliyinin təkcə nəzəri müstəvidə deyil, həm də əməli fəaliyyətdə sistemli olaraq öz təsdiqini tapması, Ona cəlbedicilik qazandıran başlıca cəhətlərdən idi.

İlham Əliyev ölkə prezidenti seçildikdən dərhal sonra novatorluq və islahatçılıq niyyətlərini ortaya qoydu. O, ulu öndərimizin iqtisadi, sosial, hüquqi və siyasi islahatlarının fundamental prinsiplərinə, dünyada gedən proseslərin və dəyişikliklərin məntiqinə söykənərək Azərbaycanın demokratik yolla inkişafının daha da sürətləndirilməsinə xidmət edən mühüm addımlar atdı. İmzaladığı genişmiqyaslı dövlət proqramları, fərman və sərəncamlar, Milli Məclisin müzakirəsinə təqdim etdiyi qanun layihələri, bunların real və konkret addımlarda təzahürü, birmənalı olaraq İlham Əliyev haqqında islahatçı prezident imicini formalaşdırmışdır.

Bütün bu keyfiyyətlər Prezidenti genişmiqyaslı maraq obyektinə çevirmişdir. Onun Azərbaycan üçün son dərəcə mühüm əhəmiyyətə malik olan bir çox sahələrdə üzərinə götürdüyü missiyanı uğurla həyata keçirməsi, siyasi proseslərə yanaşma tərzi, xüsusilə, rasional, analitik təfəkkürə söykənən çıxışları ölkə daxilində, eləcə də, beynəlxalq ictimaiyyətdə böyük maraq doğurmuşdur.

İlham Əliyev hələ 1990-cı illərin ortalarından etibarən Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, eləcə də, Milli Olimpiya Komitəsinin prezidenti kimi geniş fəaliyyət göstərməklə yanaşı, ölkəmizin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri statusunda da Azərbaycanın milli maraqlarının təmin olunması ilə bağlı mühüm işlər görmüşdür. Onun rəhbərlyi altında Azərbaycan nümayəndə heyəti Dağlıq Qarabağ məsələsinin Avropa Şurasında müzakirə-

si zamanı böyük uğurlar əldə etmişdir. İlham Əliyevin təşəbbüsü ilə AŞ PA-da Ermənistanın işğalçılıq siyasəti Avropanı narahat edən bir problem kimi gündəmə gətirilmiş, əsir və girovların qaytarılması, Dağlıq Qarabağda narkotik maddələrin yetişdirilməsi və bundan əldə edilən gəlirlərin terrorçuluq fəaliyyətinə yönəldilməsi, Dağlıq Qarabağda tarixi və mədəniyyət abidələrinin dağıdılmasına dair sənədlər müzakirəyə çıxarılmışdır. Azərbaycanın parlament nümayəndə heyətinə rəhbərlik etdiyi dövrdə AŞ PA-nın vitse-prezidenti və qurumun büro üzvü kimi mühüm vəzifələrə seçilən İlham Əliyevin ardıcıl səyləri nəticəsində Avropa Şurası Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini pisləmişdir.

Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin ən layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən İlham Əliyev, 1990-cı illərin sonlarına doğru artıq geopolitik məkanda siyasi-iqtisadi proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi siyasi xadim kimi çıxış edirdi. Bu ərəfədə Heydər Əliyev siyasi kursunun layiqli davamçısı statusu Onun siyasi portretini zənginləşdirən ştrix kimi nəzərə çarpırdı. O, ulu öndərimizin müəyyənləşdirdyi yeni neft strategiyası çərçivəsində dünyanın transmilli korporasiyaları ilə imzalanmış müqavilələrin Azərbaycanın milli maraqlarına cavab verməsi üçün böyük səy göstərmişdi. Bununla yanaşı, Milli Olimpiya Komitəsinin prezidenti kimi Onun ölkəmizdə idmanın kütləviliyini təmin etmək məqsədilə həyata keçirdiyi müvafiq tədbirlər qısa zaman kəsiyində öz bəhrəsini vermişdi. Azərbaycan idmançılarının mötəbər yarışlarda qazandıqları qələbələr mütəmadi xarakter almış, olimpiya hərəkatında ölkəmizin fəallığı artmışdı. Azərbaycanın id-

man ölkəsinə çevrilməsi, respublikamızın bütün regionlarında olimpiya - idman komplekslərinin tikilərək vətəndaşların ixtiyarına verilməsi prosesi geniş vüsət almışdı.

Azərbaycan vətəndaşları İlham Əliyevin deputatlıq fəaliyyəti dövrünü də xoş duyğularla xatırlayırlar. Birinci çağırış Milli Məclisin səlahiyyət müddəti dövründə parlamentdə təmsil etdiyi Qaradağ rayonu ərazisində tikdirdiyi yaşayış binaları, çoxsaylı infrostruktur obyektləri hələ o illərdə Ona yüksək etimad qazandırmışdı. 2000-ci ildə ikinci çağırış Milli Məclisə seçkilər dövründə isə Yeni Azərbaycan Partiyasının proporsional siyahısına rəhbərlik edən İlham Əliyevin əldə etdiyi yüksək nailiyyət, Onun vətəndaşlar arasında ölkəmizin gələcəkdə uğurlu inkişaf yolunu təmin edəcək alternativsiz lider kimi qəbul olunması reallığını daha da möhkəmləndirdi.

2003-cü il avqustun 4-də İlham Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin yekdil razılığı ilə ölkənin Baş naziri vəzifəsinə təyin olunması da, əslində, xalqın ona verdiyi dəstəyin ifadəsi idi. Hökumətə rəhbərlik etdiyi ilk günlərdən vətəndaşların mənafelərinin qorunması tendensiyasını Nazirlər Kabineti üçün başlıca prioritetə çevirərək, hakim komandanı mövcud problemlərin həlli istiqamətində səfərbərliyə alan İlham Əliyev, ümummilli lider Heydər Əliyevdən sonra ölkənin taleyinə, müqəddəratına cavabdeh olan dövlət xadimi kimi Azərbaycan xalqı və dünya tərəfindən qəbul olundu, beynəlxalq nüfuz və böyük ictimai dəstək qazandı. Baş nazir işlədiyi dövrdə əldə edilən mühüm təcrübə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinə əlavə ictimai-siyasi dividendlər gətirdi və məmləkətimizin yeni inkişaf strategiyası eyni dinamizmlə davam etdirildi.

**«O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».** Bu fikirlər isə ulu öndərimiz Heydər Əliyevin 2003-cü ilin prezident seçkiləri ərəfəsində öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürməsi ilə bağlı Azərbaycan xalqına müraciətindən qaynaqlanır. 2003-cü ilin 15 oktyabrında keçirilən prezident seçkisindən sonrakı zaman kəsiyində Azərbaycanın həyatında baş verən ictimai-siyasi proseslərə, qazanılan uğurlara diqqət yönəltsək, ümummilli liderin böyük uzaqgörənliklə söylədiyi bu fikirlərin həyatda nə dərəcədə özünü doğrultduğunun şahidi olarıq. Bu gün Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizin əldə etdiyi uğurlar, əslində, ulu öndərimizin bir vaxtlar ideallarında yaşatdığı və onların həyata keçirilməsi üçün zəruri əsaslar hazırladığı ülvi arzulardır.

Mövcud reallıqları operativ və obyektiv şəkildə qiymətləndirməyi bacaran, cəmiyyətin sosial sifarişinə uyğun praqmatik qərarlar qəbul edən İlham Əliyevin formalaşan siyasi fenomeninin cəmiyyətimizdə inam və etimad göstəricisinə çevrilməsi, ilk növbədə, təbii-siyasi amillərdən qaynaqlanır. **Peşəkar siyasətçi kimi İlham Əliyevin siyasi-psixoloji portretinin əsas ştrixlərini təşkil edən məqamlar Onun Azərbaycan və dünya siyasi arenası üçün**

**uğurlu və orijinal şəxsiyyət olduğunu birmənalı şəkildə sübuta yetirir. O, öz simasında Qərb standartları ilə kübar rəftarın, rasional düşüncə tərzinin, sarsılmaz vətənpərvərliyin, praqmatizmin milli mentalitetimizlə uğurlu sintezini yaratmış, bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə yeni nəfəs, siyasi ruh və müasirlik gətirmişdir.**

İlham Əliyevin dövlətə rəhbərliyinin ilk aylarından etibarən Azərbaycanda və ümumilikdə bütün regionda cərəyan edən proseslərin avanqardına çevrilməsi cəmiyyətin siyasi tələbatlar sisteminin məntiqi sonluğu kimi dəyərləndirilməlidir. Bununla yanaşı, İlham Əliyev fenomenini zəruri ictimai-siyasi hadisəyə çevirən amillər sırasında siyasi prinsiplərə sadiqlik, Heydər Əliyev siyasi kursuna bağlılıq və sədaqət, intellektual imkanlar və siyasi istedad, cəmiyyət üçün açıq və şəffaf olması, tolerantlıq, səmimi və humanist keyfiyyətlər və s. məqamlar xüsusilə qeyd olunmalıdır.

Müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin başladığı böyük işlər, həyata keçirdiyi iqtisadi, sosial, hüquqi və siyasi islahatlar, taleyüklü məsələlər, planlar, gənc dövlətimizin milli maraqlarına xidmət edən daxili və xarici siyasət, bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk günlərindən etibarən seçkiqabağı görüşlərdə verdiyi vədlərinə əməl edərək, ölkə iqtisadiyyatının daha sürətlə inkişaf etdirilməsi və əhalinin maddi-rifah halının yaxşılaşdırılması istiqamətində çox mühüm tədbirlər həyata keçirməkdədir. Dövlət başçısının 23 noyabr 2003-cü il tarixində imzaladığı **«Azərbaycan Resublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Fərmanı, 11 fevral 2004-cü ildə imzalanmış**

**«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»** və digər çoxsaylı sənədlərin icrası ölkəmizin dinamik inkişafını təmin etmişdir. Qısa muddət ərzində respublikanın müxtəlif yerlərində 100 minlərlə iş yeri açılmış, yeni istehsal müəssisələri yaradılmış, regionlarımızın tarazlaşdırılmış inkişafı təmin olunmuşdur. Azərbaycanda daxili siyasi sabitliyin qorunması üçün zəruri əsasların daha da möhkəmləndirilməsi, xarici ölkələr, nüfuzlu beynəlxalq təşkilatlarla münasibətlərin yeni inkişaf müstəvisinə qədəm qoyması da bu dövrün həyatımıza gətirdiyi ən böyük nailiyyətlərdəndir.

Dövlət rəhbərinin yürütdüyü məqsədyönlü siyasət nəticəsində ölkəmizdə işsizlik, yoxsulluq səviyyəsi minimuma yaxınlaşmış, milli iqtisadiyyatımızın neft asılılığına düşməməsi məqsədilə qeyri-neft sektorunun inkişafı istiqamətində əsaslı irəliləyişlər əldə edilmiş, sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar yaradılmışdır. Xalqın aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi yönündə görülən işlər isə bu gün daha böyük intensivliklə davam etdirilir, xalqımızın öz dövlətinə və dövlət rəhbərinə inamını artırır.

Azərbaycan xalqını uzun illər boyu narahat edən Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi də daim İlham Əliyevin diqqət mərkəzindədir. Ölkəyə rəhbərliyi dövründə bu istiqamətdə böyük əzmkarlıq nümayiş etdirən dövlət başçısının qətiyyətli mövqeyindən geri çəkilməməsi, beynəlxalq aləmi, nəhayət ki, münaqişənin Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həlli zərurəti üzərində düşünməyə məcbur etmişdir. Problemin həllinə səy göstərən nüfuzlu beynəlxalq təşkilatlar, dünyanın fövqəldövlətləri artıq dərk etməyə

başlamış ki, Azərbaycanı onun milli maraqları ilə ziddiyyət təşkil edən hər hansı bir güzəştə məcbur etmək mümkünsüzdür. Problemin sülh yolu ilə həlli tapılmayacağı təqdirdə, Prezident İlham Əliyevin xalqın iradəsinə güvənərək, digər vasitələrin köməyi ilə Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyinə şübhə yoxdur.

Son illər əldə edilən sosial-iqtisadi nailiyyətlər ölkəmizin müdafiə potensialını daha da artırmış, ulu öndərimiz Heydər Əliyevin qurduğu milli ordumuz daha da güclənmişdir. Bu gün Azərbaycanın təkcə müdafiə büdcəsinin işğalçı Ermənistanın ümumilikdə dövlət büdcəsinə bərabər olması, faktı Azərbaycanın hərbi üstünlükləri haqqında tam təsəvvür yaradır.

İlham Əliyev dəfələrlə bildirmişdir ki, Qarabağsız Azərbaycan olmayacaqdır. Bu münaqişənin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü, habelə beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində öz həllini tapacağı dövlət başçısının birmənalı mövqeyidir. Azərbaycan Prezidenti qətiyyətlə bəyan etmişdir: **«...Nə 5 ildən sonra, nə 10 ildən sonra, nə 15 ildən sonra, nə də 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır. Mən nə qədər Prezidentəm, buna yol verməyəcəyəm».**

Belə bir qətiyyət, heç şübhəsiz ki, xalqın iradəsindən, əldə edilmiş sosial-iqtisadi nailiyyətlərin dövlətimiz üçün yaratdığı imkanlardan, Azərbaycanın beynəlxalq aləmdə ildən-ilə daha da güclənməkdə olan mövqeyindən, ən əsası isə, cəmiyyətdəki sabit sosial-siyasi durumdan irəli gəlir.

İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə vətəndaş cəmiyyəti quruculuğu ardıcıl xarakter daşımış, milli həmrəylik əldə olunmuşdur. Ümummilli maraqlara uyğun məsələlərlə bağlı ölkə daxilindəki siyasi qüvvələr arasında

normal dialoqun alınması, Azərbaycan siyasətində radikalizm təzahürlərinin getdikcə öz yerini liberalizm elementlərinə verməsi xalqımızın son illərdə əldə etdiyi ən ciddi uğurlar sırasındadır. Prezident vətəndaş cəmiyyətinin qurulması, söz azadlığının, fikir müxtəlifliyinin təmin olunması üçün səylərini əsirgəmir.

İlham Əliyev dövlət rəhbəri kimi çox qısa zaman kəsiyində dünya azərbaycanlılarının həmrəyliyi xəttini kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldıra bildi və artıq Azərbaycan diasporu dünyanın əksər ölkələrində proseslərə əhəmiyyətli şəkildə təsir göstərə biləcək real güc mərkəzinə çevirmişdir. Bu gün planetin hansı qitəsində yaşadığından asılı olmayaraq hər bir azərbaycanlı qüdrətli bir dövlətinin varlığı ilə qürur duyur və bu dövlətin dəstəyini yaxından hiss edir.

İlham Əliyevin ardıcıl səyləri nəticəsində Avratlantik məkana geniş inteqrasiya yolu tutmuş Azərbaycan öz iqtisadi, demokratik, mədəni və mənəvi nailiyyətləri ilə bu gün də sivilizasiyalararası dialoqun fəal iştirakçısıdır. Ulu öndərimiz Heydər Əliyevin müəllifliyi ilə artıq reallaşan Bakı - Tbilisi - Ceyhan əsas-ixrac boru kəməri layihəsi bu gün qlobal proseslərin ən əhəmiyyətli tərəflərindən biri kimi Azərbaycanın dünya üçün əhəmiyyətini daha da artırır. İlham Əliyevin əzmlə həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqaz regionunun ən güclü, lider dövlətinə çevirmiş, iqtisadi inkişaf tempinə görə dünyada rekord göstəricilərə sahib olmuşdur. Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu prosesinin bu gün İlham Əliyev tərəfindən daha böyük dinamizm, yüksək əzmkarlıqla davam etdirilməsi vətəndaşlarımızın sabaha inamını artırır.

Bu gün Prezident İlham Əliyevin üzərinə götürdüyü missiya olduqca məsuliyyətlidir, ağırdır, lakin onun siyasi iradəsi nikbinlik üçün tam əsaslar yaradır. Onun siyasi gücü qabaqcıl dünyagörüşə sahib olmasında, intellektual imkanlarında, idarəetmənin müxtəlif sahələrində topladığı təcrübədə və bütövlükdə universal xarakterli istedadındadır. O, addım-addım böyük siyasət dünyasının ən mürəkkəb sirrlərinə yiyələnib, yetkinlik məktəbi keçib, zirvələrə doğru böyük yola çıxıb.

# I FƏSİL

# MİLLİ DÖVLƏTÇİLİK KONSEPSİYASI

*Dövlətçilik insanlarda vətənpərvərlik duyğusunu, Vətən anlamının milli mənə daxil edilməsini nəzərdə tutur. Əgər hər hansı bir ölkədə hər kəs təkcə öz mənafeyini, ailəsinin mənafeyini düşünürsə, xalqın taleyinə, ümummilli siyasi və iqtisadi mənafelərə biganədirsə - deməli, burada dövlətçilik ənənələri yoxdur. Gərək hər bir vətəndaş ölkəsinin böyük siyasəti haqqında düşünsün.*

**Heydər Əliyev**

## MİLLİ DÖVLƏTÇİLİYİN TƏMƏL DAŞI

İnsan cəmiyyətinin təşəkkül tapdığı dövrdən mütəfəkkirlər, filosoflar, tarixçi alimlər tarixdə şəxsiyyətin rolunu müəyyənləşdirmək üçün aramsız fikir mübadiləsi aparmışlar. Geniş fikir müxtəlifliyinə rəğmən, ümumi qənaət belədir ki, güclü şəxsiyyətlər, bir qayda olaraq, tarixin gedişinə təsir göstərə, bəzən bu axarı dəyişə, hətta öz şərəfli ömür yolları ilə bütöv bir tarix yaza bilirlər.

Şübhəsiz, hər bir xalqı dünyada tanıdan onun istedadlı alimləri, mütəfəkkirləri, mədəniyyət xadimləri ilə yanaşı, əbədiyaşarlıq hüququ qazanmış tarixi şəxsiyyətləridir. Siyasət elmi bütün elmlərin hamısından mürəkkəb olduğu üçün, nüfuzlu siyasətçi bütün elm sahələrinin əsaslarını bilməklə yanaşı, həm də, uzaqgörənliyə, müdrikliyə, yüksək təşkilatçılıq qabiliyyətinə, siyasi lider olmaq bacarığına, güclü intuisiyaya, bütövlükdə fitri istedada malik olmalıdır. Dahilik səviyyəsinə çatmış

tarixi simalar, əslində, Tanrının seçilmiş insanlarıdır. Azərbaycan xalqı da öz tarixində hər dövr üçün böyük tarixi şəxsiyyətlər yetirmişdir. Azərbaycanın XX əsrdəki siyasi tarixində isə onu təkcə SSRİ miqyasında deyil, bütün dünyada tanıdan, inkişaf etmiş dövlətlər sırasına çıxaran böyük şəxsiyyət məhz Heydər Əliyev olmuşdur.

Heydər Əliyevin siyasi obrazı Azərbaycan xalqı üçün ona son dərəcə əziz və doğmadır. Bu nurlu və işıqlı obraz Azərbaycan xalqının dövlətçilik şüurunu, bütöv bir idarəçilik məktəbini, müasir ictimai-siyasi fikrin ən mükəmməl və davamlı keyfiyyətlərini özündə cəmləşdirir. Bu şəxsiyyət, həm də ona görə doğmadır ki, Onda hər bir azərbaycanlının ən üstün məziyyətləri toplanmışdır. Heydər Əliyev siyasi xarakterinin bəzi mühüm cizgilərinin təhlili, əslində, ən yeni tariximizin şərəfli bir mərhələsi, dövlət quruculuğu prosesi, Azərbaycanın dünya arenasına çıxışı haqqında bəhs etmək deməkdir.

Heydər Əliyev şəxsiyyəti elə bir fenomenə çevrilib ki, hər kəs onda öz fikri, əqli, elmi-nəzəri, habelə şəxsiyyət kimi formalaşmağa imkan verən keyfiyyətləri görə bilir. Bu obraz 70 il Sovet müstəmləkə əsarəti altında yaşamağa məhkum olmuş bir xalqın, öz övladını nəhəng imperiya idarəçiliyinin zirvəsinə yüksəltməsi kimi unikal özünütəsdiqin təcəssümüdür. Heydər Əliyev obrazının dəyəri ictimai şüurda bununla məhdudlaşmır, O, Azərbaycanın daha işıqlı gələcəyinin ən etibarlı təminatı ucalığında dərk edilir.

İstər sovet dövründə, istərsə də, dövlət müstəqilliyimizin yenidən bərpa edilməsindən sonra, O, misli görünməmiş bir səmimiyyət və sədaqətlə Azərbaycan xal-






AYCAN
LİKASI



qının müasir dünyanın mədəni və demokratik dəyərlərinə tapınan millətlərin cərgəsinə qoşulması, dirçəlməsi və tərəqqisi naminə gecəli-gündüzlü gərgin əmək sərf etmişdir. Heydər Əliyev şəxsiyyətinin üstünlüyü daha iki səciyyəvi əlamətlə - ideyalılığı və təmənnasızlığı ilə fərqlənir. Güclü, qüdrətli Azərbaycan ideyası, dövlətin fasiləsiz inkişafı konsepsiyası Onun həyat kredosu idi.

Tarixi taleyimiz belə gətirib ki, Azərbaycan uzun illər yadelli işğalçıların fasiləsiz hücumlarına məruz qalmış, ikiyə bölünmüş, parçalanmış, müstəmləkə rejiminin ən ağır işgəncələri altında yaşamağa məcbur edilmişdir. Bütün bunlar azmış kimi, Sovet imperiyası illərində repressiyalar, milli-mənəvi dəyərlərin sıxışdırılması, İkinci Dünya müharibəsinin törətdiyi misli görünməmiş fəlakətlər ölkəmiz üçün kifayət qədər problemlər yaratmışdı. Doğrudur, xalqımız bütün məhrumiyyətlərə mətinliklə sinə gərərək öz varlığını, dilini, dinini, milli-mənəvi dəyərlərini qoruyub saxlamağı bacarıb. Lakin bütün bu keyfiyyətləri ümumdövlət səviyyəsinə qaldıran və onu daha geniş miqyasda gerçəkləşdirən Heydər Əliyev oldu. Məhz Onun fəaliyyəti sayəsində Azərbaycan aqrar ölkədən qüdrətli sənaye respublikasına, yüksək intellektual səviyyəsi ilə müsəlman dünyasında və Şərqdə fərqlənən diyara çevrilmişdir.

Heç kəsə sirr deyil ki, İkinci Dünya müharibəsinin başa çatmasından 24 il keçməsinə baxmayaraq Azərbaycan ittifaq respublikalarından nə iqtisadi, nə mədəni, nə də elmi-texniki göstəricilərinə görə fərqlənirdi. İnkişaf dinamikası çox zəif, hətta yox dərəcəsində idi. Bu ətalət 1969-cu ilin iyul ayına qədər davam etdi. Heydər Əliyevin sovet Azərbaycanına rəhbər vəzifəyə seçilməsi ilə

Azərbaycan inkişaf və çiçəklənmə dövrünə qədəm qoydu. Bu tarixi Azərbaycanda yeni dövrün başlanğıcı kimi dəyərləndirənlər də yanılmamışlar. Heydər Əliyevin idarəçilik qabiliyyəti və məqsədyönlü siyasi fəaliyyəti tezliklə öz nəticələrini verməyə başladı. Artıq 1970-ci illərdə Azərbaycanın iqtisadi, elmi-texniki, mədəni və infrastruktur sahələrində inkişafını şərtləndirən çox mühüm addımlar atıldı. Respublikanın iqtisadi gücünü və sənaye potensialını möhkəmləndirəcək bir sıra fabrik və zavodlar inşa edildi. Azərbaycan istehsalı olan məhsullar dünya bazarına çıxarılaraq ölkəmiz dünyaya tanıdıldı.

Heydər Əliyevin respublikanın idarə edilməsində özünəməxsus cəsarət və sərbəstliyi var idi. Onun SSRİ rəhbərliyi ilə danışıqlar aparmaq bacarığı və onları inandıraraq öz istəyinə nail olması hər kəsə məxsus keyfiyyət deyildi. Heydər Əliyevin idarəçilik üsulu da o dövr üçün yeni idi. Yəni, ölkədaxili problemlərin həlli ilə, ilk növbədə, respublika rəhbərliyinin özü məşğul olurdu. Bu isə zamanında müstəqil özünüidarənin əlaməti sayıla bilərdi. Buna görə də, bütün təzyiqlərə baxmayaraq Heydər Əliyevin Azərbaycana rəhbərliyi ilə ölkənin iqtisadi, ictimai-siyasi və elmi-mədəni tarixində yeni dövrün əsası qoyuldu. Gərgin və məqsədyönlü fəaliyyəti ilə Heydər Əliyev Azərbacanı ittifaq miqyasında belə, adı çəkilməyən bir respublikadan öz iqtisadi və mədəni inkişafı ilə artıq dünyanın tanımağa başladığı qabaqcıl respublikaya çevirdi.

Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi müddətdə ölkədə o dövr üçün müasir avadanlıq və texnologiya ilə təmin olunmuş 250 irihəcmli zavod və fabrik tikildi. Artıq Azərbaycan özünün güclü iqtisadi bazasını

yaradırdı. Bugünkü iqtisadi tərəqqinin şah damarı sayılan neft sənayesinin artıq ötən əsrin 70-ci illərində qoyulurdu. Belə ki, həmin dövrdə Azərbaycan neft hasilatı və neft məhsullarının istehsalı üzrə SSRİ-də öncül yer tuturdu. Azərbaycan sənayesində neft maşınqayırması sektoru təkcə Azərbaycana deyil, eyni zamanda, Qazaxıstanın, Türkmənistanın və SSRİ-nin neft istehsal edən digər regionlarının karbohidrogen ehtiyatlarının mənimsənilməsinə xidmət edirdi. Eyni zamanda, digər sovet respublikaları ilə qarşılıqlı iqtisadi əlaqələrin yüksək səviyyədə qurulması həm iqtisdiyyatın inkişafı və güclənməsinə, həm də potensial mütəxəssislərin hazırlanmasına şərait yaradırdı. Kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində də Azərbaycan SSRİ-nin qabaqcıl respublikaları sırasında idi.

İqtisadiyyatın inkişafı ilə yanaşı elm, texnika, mədəniyyət və hərbi sahədə də mühüm işlər görülürdü. Yeni-yeni təhsil ocaqları açılır, gənclərin respublikadan kənarda təhsil alması üçün geniş imkanlar yaradılırdı. Həm SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsil almaları, həm də, xarici dövlətlərlə tələbə mübadiləsi potensial kadr bazasının formalaşmasına zəmin hazırlayırdı. Bununla yanaşı, milli hərbi kadrların hazırlanması üçün 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb açıldı. Həmin məktəbin müasir Azərbaycanın hərbi kadr potensialının yaranmasında və formalaşmasında müstəsna əhəmiyyəti vardır. Yüksək rütbəli hərbi kadrların hazırlanmasının nə dərəcədə vacib olduğu bugünkü Azərbaycan reallığında özünü daha aydın büruzə verir.

Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövr mədəniyyətin çiçəklənmə dövrü kimi səciyyələndirilə bilər. O zaman üçün ən müasir standartlara cavab verən möhtəşəm mədəniyyət ocaqları - Respublika sarayı, Gülüstan sarayı, Opera studiyası tikildi, Opera və Balet Teatrı yenidən bərpa edildi. Bütün bunlarla yanaşı, Azərbaycanın görkəmli dövlət, elm və mədəniyyət xadimlərinin ev muzeyləri yaradıldı, heykəlləri ucaldıldı.

Yuxarıda sadalanan bütün faktlar bir daha sübut edir ki, Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövr, o zamankı Azərbaycanın intibah dövrü, müasir Azərbaycanın isə möhkəm iqtisadi bazanın, ən müxtəlif sahələr üzrə bacarıqlı mütəxəssislərin hazırlanması dövrü idi. Məhz belə bir sosial-iqtisadi bazisin mövcudluğu SSRİ-nin süqutundan sonrakı mərhələdə – keçid dövründə Azərbaycan iqtisadiyyatını tənəzzüldən sığortaladı, postsovet ölkələri bürüyən böhran və çöküşdən xilas etdi.

## SİYASİ OLİMPƏ QAYIDIŞ: ANARXİYANIN SONU, MİLLİ DİRÇƏLİŞİN BAŞLANĞICI

Heydər Əliyevin təmənnasız xidmətləri xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. Sovet dövründə olduğu kimi, dövlət quruculuğunun erkən mərhələsi də Azərbaycanın müstəqilliyini istəməyən, hər vəchlə buna müqavimət göstərən daxili və xarici qüvvələrin təzyiqləri ilə müşayiət olunurdu. Milli maraqlarımız bu ziddiyyətlər məngənəsindən itkisiz, ağrısız, qansız-qadasız çıxmağın yollarını aramağı tələb edirdi. Çünki müstə-

qillik uğrunda verdiyimiz qurbanların sayı çox böyük idi. Belə bir çətin işin öhdəsindən isə yalnız Azərbaycanın dövlət müstəqilliyi xəttini fövqəlideya səviyyəsinə yüksəltmiş tarixi şəxsiyyət gələ bilərdi. Bu xalqımızın tarixində keyfiyyətcə yeni bir missiya idi.

Siyasi liderin obrazı mütləq milli əxlaq və mental xüsusiyyətləri ifadə etməlidir. Əks təqdirdə onun vasitəsilə ictimai şüura effektiv və güclü təsir göstərmək olmaz. Heydər Əliyevin bu baxımdan üstün cəhətlərindən biri Azərbaycan xalqının mental xüsusiyyətlərinə, psixologiyasına yeni dövrdə yaranmış boşluqdan istifadə edərək siyasi mübarizə meydanına atılmış cılız siyasətbazlarla müqayisə edilməyəcək dərəcədə yaxşı bələd olması idi. Heydər Əliyev xalqına xidmətdə əxlaq qaydalarını daim əsas tutmuş və bu da Onun siyasi inandırıcılıq potensialını daha da artırmışdır.

Bütün bunlar Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsində və bu istiqamətdə cərəyan edən proseslərin önündə getdiyini birmənalı olaraq təsdiqləyir. Lakin, o da məlumdur ki, dövlət müstəqilliyinin elan edilməsi ilə heç də bütün problemlər həll olunmur. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində formal xarakter daşıyırdı. Ayaz Mütəllibov öz kölə xislətinə sadiq qalaraq ölkəni Moskvadan verilən direktivlərlə idarə edirdi. Azərbaycan dövlətçiliyinə qarşı ən real təhlükə isə AXC-Müsavat hakimiyyəti dövründə yarandı. Əbülfəz Elçibəy iqtidarının səriştəsizliyindən sui-istifadə edən xarici dövlətlər hər vəchlə Azərbaycanı hərbi-siyasi platsdarma çevirməyə cəhd göstərir və çalışırdı ki, ölkədə dövlət idarə-

çiliyi onların sifarişləri əsasında həyata keçirilsin. 1992-ci ilin mayından başlayan bu tendensiya Azərbaycan dövlətçiliyini sarsıtmaqda idi. Lakin Heydər Əliyev Azərbaycan dövlətçiliyini səriştəsiz AXC-Müsavat hakimiyyəti ilə Surət Hüseynov qaragüruhu arasında gedən amansız mübarizələrin cəngindən xilas edə bildi.

1993-cü ildə Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlişi ilə Azərbaycan cəmiyyətində dövlətçilik ideyaları fundamental mahiyyət kəsb etməyə başladı. Eyni zamanda, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev Azərbaycan dövlətçiliyini faciələrdən və iflasdan xilas etdi. Bu dövrün əsas səciyyəvi cəhəti həm də onda idi ki, Heydər Əliyev ictimai-siyasi sabitliyi təmin etməklə demokratik dövlət modeli konsepsiyasını həyata keçirməyə başladı. Həmin illərdə Onun Azərbaycan dövlətçiliyi uğrunda apardığı fəal mübarizə, çoxşaxəli fəaliyyət daha çox maraq və heyranlıq doğurur. Bu mübarizəni ölkədə siyasi sabitliyin təmin edilməsi və Azərbaycan dövlətçiliyinə qarşı çıxan anarxist qüvvələrin neytrallaşdırılması kimi dəyərləndirmək olar.

Təsadüfi deyil ki, Heydər Əliyev anarxist qüvvələrin zərərsizləşdirilməsindən sonra siyasi, hüquqi, iqtisadi, sosial sahədə demokratik islahatlar proqramının həyata keçirilməsinə start verdi. Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında dövlət müstəqilliyinin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində görülən əsas işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını

qoydu. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi, ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. Heydər Əliyevin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd, müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı.

1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Bu, dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynadı. Beləliklə, Azərbaycanın dünya dövlətləri sırasında özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində fəaliyyətin əsasları qoyuldu.

Heydər Əliyev siyasi kursu bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir. Hüquqi dövlət quruculuğu, ölkənin sosial-iqtisadi inkişafı, Azərbaycanda mülki cəmiyyətin formalaşması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf sahəsində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdir. Bu baxımdan Heydər Əliyev tərəfindən müstəqil Azərbaycanın uğurlu neft strategiyasının hazırlanaraq həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ulu öndərə bəlli idi ki, Ermənistanın təcavüzünə qarşı aparılan qeyri-bərabər döyüşlər davam etdikcə,

bir tərəfdən xarici dövlətlərdən hərtərəfli yardım alan Ermənistan vasitəsilə Azərbaycan daha ağır vəziyyətə düşəcək, digər tərəfdən transmilli neft şirkətlərini ölkəmizə cəlb etmək, onlarla müqavilələr bağlamaq və beləliklə, Azərbaycan neftini sərbəst, heç bir dövlətin təhlükə yarada bilməyəcəyi marşurutla Qərbə ixrac etmək mümkün olmayacaqdır. Azərbaycan neftinin Qərb bazarına çıxarılması Azərbaycana milyardlarla valyutanın axması ilə yanaşı, həm də, təhlükəsizliyimizin və dövlət müstəqilliyimizin təminatı demək idi.

Son dərəcə ağır şəraitdə Heydər Əliyev dilema qarşısında qalmışdı: nizami ordusu, güclü hərbi qüdrəti olmayan Azərbaycan ya daha geniş imkanları olan Ermənistanla müharibəni davam etdirməli və beləliklə, böyük itkilər verməli, yaxud da müharibədə fasilə yaradıb, iri neft şirkətlərini ölkəmizə gətirməklə Azərbaycanı gücləndirməli, hərbi potensialını artırmaqla təcavüzün qarşısını almalı və onun nəticələrini aradan qaldırmaqla Azərbaycanın ərazi bütövlüyün təmin etməli. Ulu öndər ikinci yolu tutdu və atəşkəsə nail oldu. Beləliklə, Heydər Əliyev neft strategiyasının uğurlu başlanğıcının əsasını qoydu.

Azərbaycanın neft strategiyasının əsas prinsipləri, ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır və bu strategiyanın həyata keçirilməsi iqtisadi maraqlarla yanaşı, milli təhlükəsizlik maraqlarının təmin olunmasına söykənir. Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft strategiyası təkcə dövlətin iqtisadi maraqlarının reallaşmasına deyil, həm də, dövlət

müstəqilliyinin qorunub saxlanılmasına və milli təhlükəsizliyinin təmin olunmasına yönələn siyasi xəttin yürüdülməsinə, buna uyğun situasiyanın formalaşdırılmasına xidmət edir. Məhz bu strategiya nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bilmiş və zaman-zaman qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur. Yeni dünya düzənində güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun strategiya müəyyənləşdirməyə nail olmuş Heydər Əliyev, son nəticədə Azərbaycanın hegemon supergüclərdən asılı vəziyyətə düşməsinin qarşısını nəinki ala bilmiş, eyni zamanda, Azərbaycanın bu subyektlər arasında mübarizənin xarakterini müəyyənləşdirməyə yönələn dövlət statusu qazanmasına nail olmuşdur.

Gizli və aşkar təzyiqlərə baxmayaraq, müstəqil Azərbaycan üçün, sözün həqiqi mənasında, tarixi hadisə baş verdi: 1994-cü ilin 20 sentyabrında Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə istismarı haqqında dünyanın iri neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında ilk müqavilə - "Əsrin müqaviləsi" imzalandı. Bəzi Xəzəryanı dövlətlər həmin müqavilənin yurisdiksiyasını tanımadıqlarını elan etdi. Bəhanə də vardı: Xəzərin beynəlxalq hüquqi statusu hələ müəyyənləşdirilməmişdir. Etiraz edənlər arasında Rusiyanın o vaxtkı rəhbərliyinin mövqeyi paradoksallığı ilə seçilirdi: rəsmi Moskva həm "Əsrin müqaviləsi"ndə iştirak edir, həm də müqaviləni tanımırdı. "Əsrin müqaviləsi" imzalanandan cəmi iki həftə sonra Azərbaycanda dövlət çevrilişi cəhdi baş verdi. Azərbaycan

dövlətçiliyini hədəfə götürmüş daxili irtica və onun xaricdəki havadarları çox güclü idi. İqtidarın devrilməsi ehtimalı böyük idi. Lakin çevriliş cəhdi uğursuzluqla nəticələndi: Heydər Əliyevin siyasi qətiyyəti, dəmir iradəsi və vəziyyətdən çıxış yolu tapmaq məharəti əks tərəfin silahından güclü çıxdı. Bununlada Xəzərdə cərəyan edən proseslərlə bağlı Azərbaycana təzyiqlər azalmadı. Xəzərin statusu məsələsi gündəlikdən düşmürdü. Əslində, statusun müəyyənləşdirilməsini ən çox istəyən Azərbaycan idi. Bakı Xəzərin milli sektorlara bölünməsini təklif edirdi. Amma Onun bu mövqeyini sahilyanı dövlətlərdən heç biri dəstəkləmirdi.

Xəzərlə bağlı mübahisələrdə Rusiya dənizin sərvətlərini ümumi istifadədə saxlamağı tələb edir və onu digər regional güc - İran da dəstəkləyirdi. Digər iki dövlət - Qazaxıstan və Türkmənistan ən yaxşı halda susurdu. Həqiqətdə isə, Xəzərin statusu heç kimi maraqlandırmırdı. Münaqişəli vəziyyət yaratmaqda məqsəd Azərbaycanın Xəzərdə neft çıxarmasına və nəticə etibarilə, dövlətimizin böyük perspektivlər vəd edən beynəlxalq əməkdaşlığa qoşulmasına imkan verməmək idi. Xəzər ətrafında gedən dramatik və təhlükəli oyunlarda Azərbaycan tək olsa da qətiyyətli idi.

Prezident Heydər Əliyev neft və onunla bilavasitə bağlı məsələlərdə, hər cür təzyiqlərə baxmayaraq, bir addım da geri çəkilmədi. Əvvəla, Azərbaycanın mövqeyi obyektiv və beynəlxalq hüquq normalarına uyğun idi, həm özünün, həm də digər sahilyanı dövlətlərin mənafeyini tam nəzərə alırdı. İkincisi, neft Azərbaycan üçün təkcə çoxlu gəlir gətirə biləcək karbohidrogen ehtiyatı

deyil, ilk növbədə, dövlətin və xalqın tale məsələsi idi. Neft, hər şeydən əvvəl, milli dövlətçiliyimizin və təhlükəsizliyimizin möhkəmlənməsinə xidmət etməli idi. Ona görə də, bu məsələ də hər hansı güzəşt ola bilməzdi.

Prezident Heydər Əliyev axıradək prinsipial mövqe nümayiş etdirdi və uğur qazandı. Xəzərin statusu məsələsində mövqeyini dəyişən Azərbaycan yox, Rusiya oldu. Moskva dənizin dibinin milli sektorlara bölünməsi ideyasını qəbul etdi. Qazaxıstan da eyni cür hərəkət etdi. Ardınca Xəzəryanı ölkələr arasında müvafiq ikitərəfli saziş imzalandı. Doğrudur, Xəzərin beynəlxalq hüquqi statusu indiyədək müəyyənləşdirilməmişdir. Lakin bu istiqamətdə irəliləyiş göz qabağındadır: Xəzərdə kəskin mübahisə doğuran məqamlar üzrə prinsipial razılıq əldə edilmiş, gərginlik ovqatı konstruktiv əməkdaşlıq mühiti ilə əvəz edilmişdir; Azərbaycan öz sektorunda neft hasilatını ildən-ilə artırır.

Xəzər uğrunda mübarizə başlayanda iri dövlətlər öz maraqlarını ortaya qoymuşdu. Nəzərə alınmayan təkcə Azərbaycanın maraqları idi. Prezident Heydər Əliyev Azərbaycanın maraqlarını qəbul etdirdi. Dünya dövlətləri əmin oldu ki, hər bir regionda olduğu kimi, Cənubi Qafqaz - Xəzər bölgəsində də aparıcı mövqeyə malik, bir növ qovşaq rolu oynayan dövlət var və bu, Azərbaycandır. Bu ölkənin mövqeyini nəzərə almadan bölgədə fəaliyyət göstərmək cəhdi uğursuzluğa məhkumdur.

Prezident Heydər Əliyev eyni qətiyyəti strateji boru kəmərləri layihəsinə münasibətdə də nümayiş etdirdi. Bu layihəni inhisara alıb Azərbaycan neftini nəzarət altında saxlamaq istəyən məlum qüvvələrin boru kəmər-

lərinin inşasına mane olmaq cəhdləri boşa çıxdı. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismarı çoxdan başlayıb. Bakı-Tbilisi-Ərzurum qaz kəməri isə yaxın gələcəkdə reallaşdırılacaq. Başqa sözlə, Prezident Heydər Əliyevin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi Xəzər siyasəti sayəsində dənizin hövzəsində qarşılıqlı, faydalı əməkdaşlıq mühiti formalaşmışdır. Bu, Azərbaycanın mənafeyinə tam uyğundur.

1994-cü ilin 20 sentyabrında dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" bu mənada Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynadı. Həmin saziş nəticəsində bütün dünyanın diqqət mərkəzinə çevrilən Azərbaycan, eyni zamanda, qlobal məkanda özünün statusunu müəyyənləşdirməyə nail ola bildi. Dövlət müstəqilliyinə dayanan bu status əksər dövlətlərdən fərqli olaraq Azərbaycanın beynəlxalq subyektlərdən asılı tərəf kimi deyil, əksinə dünya birliyinin bərabərhüquqlu üzvü olması ilə ölçülür.

Heydər Əliyev Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarına nəql edən Bakı - Tbilisi - Ceyhan strateji neft kəmərini təkcə Azərbaycanın deyil, ümumilikdə, Cənubi Qafqaz - Mərkəzi Asiya regionunun gələcək taleyini müəyyənləşdirən strateji layihəyə çevirməyi bacardı. Bu gün dünya dövlətlərinin regiondakı siyasətini məhz bu qlobal enerji layihəsinə nəzərən müəyyənləşdirməsi, həm də Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi yolunda atdığı mühüm addımlar apardığı gərgin əməyin nəticəsi kimi qiymətləndirilməlidir.

## YÜKSƏK İNKİŞAFA, VƏTƏNDAŞ CƏMİYYƏTİNƏ XİDMƏT EDƏN İSLAHATLAR

Taleyin hökmü ilə iki dəfə xilaskarlıq missiyasını öz üzərinə götürərək Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev hər dəfə xalqın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda onun köməyinə çatmış, dayaq olmuş, xalqı zamanın ağır sınaqlarından üzüağ çıxarmışdır. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması məhz Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Ulu öndərin fenomenal yaddaşı, dəmir məntiqi, gərgin siyasi vəziyyətlərdən ustalıqla çıxmaq bacarığı, mürəkkəb siyasi situasiyalarda qərar vermək qabiliyyəti, uzaqgörənliyi, intellektual səviyyəsi, sabaha inamlı baxışı, sərt və qayğıkeş rəhbərlik xüsusiyyəti, cəmiyyətin siyasi, iqtisadi və mənəvi tarazlığını saxlamaq səriştəsi barədə hələ çox tədqiqatlar aparılacaq. Onun xalqına şöhrət gətirən tarixi fəaliyyəti və təcrübəsi xalqımızın yalnız bu günü deyil, işıqlı sabahı üçün də böyük perspektivlər açır, gələcəyə böyük nikbinlik yaradırdı. Ümummilli liderimiz Heydər Əliyev böyük şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür və buna xidmət edən bütün zəruri tədbirləri həyata keçirirdi. Məhz Heydər Əliyevin

gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılmışdır. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulmuş və onun təkmilləşdirilməsi üçün bütün zəmin yaradılmışdır.

Bu gün Azərbaycanda Qərb standartlarına cavab verən kütləvi informasiya vasitələrinin mövcudluğu məhz bu reallığın nəticəsidir. Son illər Azərbaycanda mətbuat azadlığı sahəsində ciddi islahatlar aparılmışdır. Bu siyasət Azərbaycan mətbuatının gələcək inkişafının istiqamətini və perspektivlərini müəyyənləşdirib, ölkədə çoxlu sayda müstəqil mətbuat orqanlarının fəaliyyətə başlamasına təkan verib. Görülən tədbirlər nəticəsində Azərbaycanda senzura ləğv edilib, çoxsaylı müstəqil televiziya kanalları fəaliyyətə başlayıb, azad mətbuatın hüquqi-normativ bazası formalaşıb və s.

Sözsüz ki, Azərbaycanda azad söz və azad mətbuatın bərqərar olması Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ilə qədər qeyri-müəyyənlik içərsində çabalayan, siyasi təzyiqlərə, "senzor qayçısının" amansız həmlələrinə məruz qalan ölkə mətbuatı Heydər Əliyevin siyasi iradəsi nəticəsində həyata yenidən vəsiqə aldı. Heydər Əliyev bilirdi ki, mətbuat üçün hakimiyyətlə işləmək nə qədər vacibdirsə, hakimiyyət üçün də mətbuat bir o qədər lazımlıdır. Bu iki element siyasi sistemin ayrılmaz komponentləridir. Ümummilli lider KİV-in ölkənin demokratik inkişafındakı rolunu çox böyük peşəkarlıqa

qiymətləndirməyi bacarırdı. İctimaiyyətə doğru informasiyanı yalnız kütləvi informasiya vasitələrinin köməyi ilə çatdırmağın səmərəsini, müstəqil dövlətin qurulmasında KİV-in rolunu Heydər Əliyev çox gözəl bilirdi və hakimiyyətdə olduğu illər ərzində bu reallığa daim həssaslıqla yanaşırdı.

Heydər Əliyevin mətbuata münasibəti daim demokratik inkişafın zəruri tələblərinə söykənirdi. Təsadüfi deyil ki, 1998-ci il avqustun 6-da Heydər Əliyev **"Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında"** fərman imzaladı. Fərmana əsasən mətbuatda dövlət sirrlərini mühafizə edən Baş idarə ləğv olundu. Bu, senzuranın ləğvi demək idi. Həmin vaxtdan etibarən, sözsüz ki, Azərbaycan mətbuatında yeni bir mərhələ başlandı. Eyni zamanda, Heydər Əliyevin hakimiyyətinin ilk illərində yerli jurnalistlərlə əlaqələr, demək olar ki, yox səviyyəsində idi, məmur - jurnalist münasibətləri mövcud reallıqlara əsaslanmırdı. O, bu problemi də tez bir zamanda həll etdi. Mütəmadi olaraq mətbuatla ünsiyyətlər qurdu, cəmiyyətə media ilə işləmək vərdişlərini aşıladı. Lakin o da etiraf olunmalıdır ki, Azərbaycan mətbuatında ən çox tənqid olunan məhz Heydər Əliyev olub. Hətta, bəzi məqamlarda Onun haqqında ağlasığmaz yazılar da dərc olunurdu. Bütün bunlara baxmayaraq, O, özü haqqında yazılanlara dözümlə yanaşmağı bacarırdı və bu yanaşmanı cəmiyyətə təlqin və təbliğ edirdi.

6 mart 2000-ci il tarixdə Azərbaycan Respublikası Prezidenitinin sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşı-

laşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu.

Aparılan məqsədyönlü və ardıcıl islahatların tərkib hissəsi kimi Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, beynəlxalq təcrübəyə əsaslanaraq, kütləvi informasiya vasitələrinin yaranması və fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 20 iyul 2001-ci il tarixli fərmanı ilə Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı və Əsasnaməsi təsdiq edildi.

Milli mətbuat günü münasibəti ilə ulu öndərin 2000-ci il iyulun 21-də jurnalistlərlə görüşündən cəmi 9 gün sonra Heydər Əliyevin **"Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında"** imzaladığı sərəncam da bu gün öz dəyər və əhəmiyyətini saxlamaqdadır. Həmin sərəncamla kütləvi informasiya vasitələrinin maddi-texniki və maliyyə bazasının gücləndirilməsi, söz, mətbuat və fikir azadlığı üçün geniş imkanlar yaradılması məqsədi güdən 5 maddədən ibarət fəaliyyət proqramı müəyyən edildi. Bu tapşırıqlar və tövsiyyələr sırasında kütləvi informasiya vasitələrinin rəhbərləri, jurnalist təşkilatları ilə birlikdə müstəqil mətbuatın formalaşdırılması və inkişafında xüsusi xidməti olan redaktorların, aparıcı qəzet redaksiyalarının mükafatlandırılması, istedadlı jurnalistlərə prezident təqaüdləri verilməsi üçün təkliflər və s. barədə mühüm göstərişlər də var idi. Bu böyük insanın xalqın tələbi ilə hakimiyyətə qayıtması, sözün əsil mənasında, mətbuatın da qurtuluş günü oldu. Etiraf etməliyik ki, bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı azad mətbuata hörmət olmadan mümkün deyil.


STATOIL
EXXON
TP
PENNZOIL
ITOCHU
AIOC
12 NOYAB


bp




FINAL
HYUNDAI
Mənim ən böyük

Ümummilli lider Heydər Əliyev respublikada ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra qadın problemlərinə münasibət köklü surətdə dəyişdi. Qadınların hüquq bərabərliyi, cəmiyyətdəki rolu və ictimai fəaliyyəti 1995-ci ildə qəbul edilmiş Konstitusiyada da öz əksini tapdı. Həmin ildə Pekində keçirilən IV Ümumdünya Qadın Konfransında iştirak etmək üçün Dövlət Milli Şurası yaradıldı. Bununla yanaşı, 1995-ci ildə Azərbaycan **"Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi"** Konvensiyasına qoşuldu. Qadınların problemlərinin dövlət səviyyəsində həll olunması üçün 1998-ci il yanvarın 14-də ümummilli lider Heydər Əliyev **"Qadın Problemləri üzrə Dövlət Komitəsi"**nin yaradılması haqda fərman imzaladı. Komitənin yaradılmasından sonra Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı tərtib edildi. Bu planın tərtib olunmasında Pekin Konfransının 12 maddəsi nəzərə alınaraq bütün dövlət qurumları və QHT-lər iştirak edib. Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 33 saylı qərarı ilə 2000-ci il martın 6-da təsdiq edildi. Heydər Əliyevin elə həmin tarixdə imzaladığı "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" fərman XX əsrdə əldə olunmuş nailiyyətlərə varislik prinsipi baxımından yanaşma və gələcəkdə Dövlət Qadın Siyasətinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün çox mühüm bir sənəddir. Heydər Əliyevin birbaşa rəhbərliyi ilə çox uğurla yürüdülən dövlət qadın siyasətinin ən mühüm məqamlarından biri də, uzunmüddətli fasilədən sonra Azərbaycan

qadınlarının qurultayının keçirilməsi idi. 1998-ci il 14-15 sentyabr tarixində Azərbaycan qadınlarının I qurultayı keçirildi. Qurultaya göndərdiyi təbrik məktubunda ümummilli lider Heydər Əliyev fərəh hissi ilə deyirdi: **"Hesab edirəm ki, bu qurultay XX əsrdə Azərbaycan tarixində ən böyük hadisələrdən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda gələcək qadın hərəkatının əsasını qoyurlar".** Azərbaycan qadınlarının II qurultayı 27 sentyabr 2003-cü ildə keçirilmişdir.

Vətəndaş cəmiyyəti quruculuğu prosesində dövlət qadın siyasəti ilə paralel olaraq gənclər siyasətini də eyni səviyyədə həyata keçirirdi. Bu yöndə atılan ilk addımlardan biri Gənclər və İdman Nazırliyinin yaradılması oldu. Ümumilli lider Heydər Əliyevin 1994-cü il 26 iyul tarixində imzaladığı fərmanla yeni bir dövlət qurumu təsis edildi. Azərbaycanın sosial, iqtisadi və mədəni inkişafının ümummilli strategiyasına uyğun olaraq gənc nəslin tərbiyə edilməsi, gənclər arasında ümumbəşəri və milli dəyərlərin təbliğinin təmin edilməsi və bu kimi digər mühüm məsələlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yaradıldı.

Bu prosesin məntiqi davamı kimi Heydər Əliyev 1996-cı il 26 yanvar tarixində Azərbaycan Respublikası gənclərinin I forumunun keçirilməsi haqqında sərəncam imzaladı. Sərəncama əsasən 1996-cı il fevral ayının 2-də Azərbaycan Respublikası gənclərinin I forumu keçirildi. Bu mühüm hadisəni əbədiləşdirmək məqsədilə Heydər Əliyev 1997-ci il fevral ayının 1-də daha bir sərəncam imzalayaraq 2 fevral tarixini, «Azərbaycan gəncər günü» kimi qeyd olunmasını rəsmiləşdirdi. 1999-cu

il mart ayının 2-3-də Azərbaycan gənclərinin II forumu keçirildi. Bütün bu fundamental tədbirlərlə yanaşı dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində həllini gözləyən bir sıra problem və məsələlər qalırdı. Ölkə əhalisinin yarıdan çoxunu təşkil edən uşaq, yeniyetmə və gənclərin üzləşdikləri problemləri həll etmək, onları yeni dövrün tələblərinə uyğun hazırlamaq, kompleks tədbirlərin həyata keçirilməsini zəruri edirdi. Məhz bu məqsədlə Heydər Əliyev 1999-cu il 29 iyul tarixdə **"Dövlət Gənclər Siyasəti haqqında"** fərman imzaladı. Bu fərman Heydər Əliyevin Azərbaycan gənclərinə göstərdiyi diqqət və qayğının göstəricisi idi.

Azərbaycanda insan hüquqlarının təmin edilməsi sahəsində də ümummilli lider Heydər Əliyevin fəaliyyəti fundamental xarakter daşıyır. Azərbaycanda hüquqi dövlət quruculuğu və insan hüquqları sahəsində həyata keçirilən hüquqi islahatlarda hüquqi maarifləndirmənin rolu xusüsi qeyd olunur. Azərbaycan Respublikası Prezidentinin **"İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında"** 1998-ci il 22 fevral tarixli fərmanında insan hüquqlarının maarifləndirilməsi, tədrisi və təbliği sahəsində mühüm islahatların həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyi münasibətilə keçiriləcək tədbirlər Proqramı" da, öz növbəsində, insan hüquqlarının müdafiəsilə bağlı mühüm tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu. Bu proqrama əsasən, müvafiq dövlət

qurumları qarşısında insan hüquqlarının müdafiəsi və təbliği baxımından əhəmiyyət kəsb edən bir sıra vəzifələr qoyulmuşdu. İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı və insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili haqqında qanun layihəsinin hazırlanması, Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsində insan hüquqlarının beynəlxalq standartlara uyğün müdafiəsi üzrə tədrisin təşkil olunması və digər bu kimi vəzifələri qeyd etmək olar. Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli növbəti sərəncamı ilə təsdiq edilmiş **"İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"**nda insan hüquqlarının müdafiəsi və təbliği ilə məşğul olacaq təsisatların yaranması, digər məsələlər geniş yer almışdı. Qeyd olunan bütün hüquqi-normativ sənədlərin qəbul olunması və orada təsbit olunmuş məsələlərin hamısı, əlbəttə, Heydər Əliyevin apardığı hüquqi islahatların nəticəsi kimi dəyərləndirilməlidir.

Heydər Əliyevin insan hüquqları sahəsində atdığı ən böyük addımlardan biri ölüm hökmünün ləğv edilməsidir. Məhz Onun şəxsi təşəbbüsü ilə 1993-cü ildən bu hökmün icrasına moratorium qoyulmuş, 10 fevral 1998-ci il tarixli qanunla tamamilə ləğv edilmişdir. Bununla əlaqədar Azərbaycan Respublikası Mülki və Siyasi Hüquqlar Haqqında beynəlxalq Paktın 2-ci Protokoluna qoşulmuş oldu.

Həyata keçirilən hüquqi islahatlar sırasında insan hüquqları sahəsində qanunvericiliyin inkişafı tarixində ən mühüm hadisələrdən biri - 28 dekabr 2001-ci il tarix-

də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının insan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu"nun qəbul edilməsidir. Müvəkkilin fəaliyyətinin Konstitusiya qanunu səviyyəsində tənzimlənməsi, onun cəmiyyət üçün əhəmiyyətinin göstəricisi kimi dəyərləndirilməsi demək idi. Qanun qəbul edildikdən 6 ay sonra, 2002-ci il iyulun 2-də Azərbaycan Respublikasının ilk Ombudsmanı seçildi.

Heydər Əliyevin dövlətçilik konsepsiyası təkcə ondan ibarət deyil ki, xalq müstəqilliyə qovuşsun, Azərbaycan müstəqil dövlət imicini qoruyub saxlaya bilsin. Onun siyasi baxışlarına görə, müstəqillik millətə həm də ona görə lazımdır ki, dövlət quruculuğu və sosial təşkilatlanma hansısa başqa bir qüvvənin deyil, xalqın, millətin maraqlarına xidmət etsin, ümummilli ahəng üstündə köklənsin. Yəni, bütün daxili potensial - təbii sərvətlərdən tutmuş, intellektual mülkiyyətə və mədəni-mənəvi dəyərlərə qədər bütün imkanlar elə səfərbər edilməli və istiqamətlənməli idi ki, hər bir vətəndaş ümummilli tərəqqi müstəvisində şəxsi maraqlarını da reallaşdıra bilsin.

1997-ci ildə xarici jurnalistlərlə görüşündə müxbirin dövlətçilik ənənələrinin yaranması və hansı göstəricilərlə şərtlənməsi sualını cavablandıran böyük siyasi xadim cavab vermişdi ki, bu, ilk növbədə, əhalinin xalqa, xalqın millətə, sakinlərin vətəndaşlara çevrilməsi istiqamətində gedən prosesdir: **"Dövlətçilik insanlarda vətənpərvərlik duyğusunu, Vətən anlamının milli mənə daxil edilməsini nəzərdə tutur. Əgər hər hansı bir ölkədə hər kəs təkcə öz mənafeyini, ailəsinin mənafeyini düşünürsə, xal-**

**qın taleyinə, ümummilli siyasi və iqtisadi mənafelərə biganədirsə - deməli, burada dövlətçilik ənənələri yoxdur. Gərək hər bir vətəndaş ölkəsinin böyük siyasəti haqqında düşünsün".**

Milli-mənəvi dəyərlərə dövlətçilik mövqeyindən qiymət verilməsi ölkəmizdə azərbaycançılığın qorunub-saxlanması və inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Heydər Əliyev azərbaycançılıq ideologiyasının bütün tərkib hissələrini milli ideologiyamızın strukturlarına daxil etməklə mənəviyyat və dövlətçiliyin sintezindən çıxış edirdi. Ona görə azərbaycançılığın əsas komponentlərindən biri milli dövlətçilik, digəri isə milli-mənəvi dəyərlərdir. Heydər Əliyevin ən böyük tövsiyyəsi də ondan ibarət idi ki, milli dövlətçiliyimizin qorunması və sonsuza qədər yaşaması üçün, ilk növbədə, ziyalılar milli-mənəvi dəyərlərin keşiyində durmalı, onu yaşatmalıdırlar.

Məhz bu məqsədlə Heydər Əliyev Azərbaycan dilinin qorunması, ölkədə vahid dil və əlifba siyasətinin həyata keçirilməsi üçün 2001-ci il avqust ayında latın qrafikasına keçilməsi barədə fərman imzaladı.

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri, ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunmasıdır. Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində bu problem öz həllini tam şəkildə tapmış və beynəlxalq təşkilatlarda bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas qarantlarından birinə çevrilmişdir. Bu gün Azərbaycan dünyanın əksər dövlətləri ilə qarşılıqlı diplomatik əlaqələr yaradıb və 300-dən çox beynəlxalq təş-

kilatla əməkdaşlıq edir. Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı kimi nüfuzlu qurumların tamhüquqlu üzvü olan Azərbaycan paralel olaraq Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı kimi dünyada gedən proseslərin istiqamətini müəyyənləşdirən qurumlarla qarşılıqlı, əlverişli tərəfdaşlığı nəzərdə tutan münasibətlər qurub. Bu nailiyyətlər məhz Heydər Əliyevin yürütdüyü uzaqgörən siyasətin nəticəsi kimi meydana çıxıb.

Azərbaycan Respublikası 2001-ci il 26 yanvar tarixində Avropanın və bütövlükdə dünyanın ən mötəbər təşkilatlarından biri olan Avropa Şurasına üzv qəbul edildi. Bununla da Azərbaycan dünyanın inkişaf etmiş aparıcı demokratik dövlətləri ilə bir sırada dayandı. Bu yalnız ümummilli lider Heydər Əliyevin Azərbaycanda demokratiya və hüquqi dövlət quruculuğu istiqamətində apardığı ardıcıl siyasət nəticəsində mümkün oldu. Bu gün Azərbaycan dünyada sivil, demokratik bir dövlət, azad ölkə kimi tanınır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra vətəndaş cəmiyyəti, demokratik dünyəvi dövlət və buna uyğun insan hüquqları sisteminin yaradılması istiqamətini götürmüşdür. Azərbaycan Respublikası Avropa Şurasına üzv olmaqla onun bir sıra konvensiyalarına, o cümlədən, İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyasına qoşulmuşdur. Konvensiya Azərbaycan Respublikasının

Prezidenti tərəfindən Azərbaycan Avropa Şurasına üzv olma ərəfəsində - 25 yanvar 2001-ci ildə Strasburqda imzalanmış və 25 dekabr 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmişdir.

Azərbaycan Respublikası tərəfindən İnsan Hüquqları haqqında Konvensiyanın ratifikasiya edilməsilə bağlı sənəd Avropa Şurasının Baş katibinə təqdim olunmuş və 15 aprel 2002-ci ildə depozitə edilmişdir. Həmin tarixdən etibarən respublikamızın yurisdiksiyası altında olan hər bir şəxsin Avropa İnsan Hüquqları Məhkəməsinə Konvensiya ilə müəyyən edilmiş şərtlər daxilində müraciət etmək hüququ yaranmışdır.

## DÖVLƏTİMİZİN MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASI

Heydər Əliyevin müstəqilliyin möhkəmləndirilməsi yolunda apardığı uğurlu siyasətin əsas istiqamətlərindən biri də, dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Əslində, ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil Azərbaycanın dövlətçiliyi üçün qarantiya deyil, təhlükəyə çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən ciddi səhvlər, son nəticədə ölkədə qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsinin subyektlərinin

meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi, dövlətçilik prinsiplərinə əsasən deyil, şəxsi siyasi maraqlara nəzərən formalaşdırılması sonda Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükə yaratmışdı. Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı ciddi mübarizə apardı və son nəticədə dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit, güclü silahlı qüvvələrin yaradılmasına nail oldu.

Bu gün Azərbaycan öz texniki və maddi təchizatına görə başqa dövlətlərin silahlı qüvvələrindən geri qalmayan hərbi qüvvələrə sahibdir. Bu da Heydər Əliyevin müstəqilliyin dövlətləşdirilməsi istiqamətində yürütdüyü ardıcıl siyasətin əsas nəticələrindən biridir. Azərbaycan Silahlı Qüvvələri dövlətin ərazi bütövlüyünün təminatçısı olmaqla yanaşı, həm də beynəlxalq hərbi qurumlarla bərabərtərəfli əməkdaşlıq edir.

Şübhə yoxdur ki, Azərbaycan cəmiyyəti Heydər Əliyevin milli dövlətçilik irsini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının və siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn fəlsəfi dünyagörüş kimi qəbul edir. Qlobal miqyasda da hegomon dövlətlər, o cümlədən, Qərbin demokratik dairələri Azərbaycanın perspektivini bu kursdan kənarda təsəvvür etmirlər. Heydər Əliyevin milli dövlətçilik irsinin alternativsizliyi özünü təkcə praktik məsələlərdə təsdiqləməyib və bu amil həm də cəmiyyətin ideoloji təfəkkür tərzinin formalaşması baxımından ciddi əhəmiyyətə malikdir. Məsələn, danılmaz faktdır ki, müəyyən zaman kəsiyində Azərbaycanda demokratiya anlayışı mahiyyəti üzrə

başa düşülməyib. Ən yaxşı halda ictimai rəy bunu 1993-cü ilin iyun hadisələrinə qədər olan proseslərin fonunda anarxist meyillər kimi qavrayırdı. Amma bu gün demokratik dəyərlər qanunların və milli mentalitetin tənzimlədiyi sərhədlərdən kənara çıxmır və o dialektik inkişafa uyğun olaraq getdikcə ictimai şüur tərəfindən tam şəkildə mənimsənilir. Bu baxımdan, Azərbaycanda həqiqi demokratiya məhz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki bu irs Onu nə kütləvi özbaşınalıq kimi başa düşməyə, nə də ki, ifrat Qərb demokratiyasının neqativ cəhətlərinin tüğyan etməsinə rəvac verir. Faktiki olaraq bu kursun bütün sahələrdəki tənzimləmə missiyası ideoloji müstəvidə də özünü doğruldub.

Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində Azərbaycan cəmiyyətinin vahidliyinin təmin olunmasını özünün əsas strateji vəzifəsi hesab edirdi. Ona görə də, siyasi mübarizədə sosial baza, kütləvi simpatiya və digər resurslardan məhrum olan bəzi qüvvələrin regional amili hakimiyyət uğrunda mübarizənin təkanverici qüvvəsinə çevirmək cəhdləri iflasa uğradı. İctimai şüur belə bir fikri çoxdan aksiomalaşdırıb ki, Heydər Əliyev Azərbaycan cəmiyyətinin monolitliyini təmin etdi, onun müxtəlif müstəvilərdə - sosial bərabərsizlik, regional amil, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan vermədi. Azərbaycan dövlətçiliyinin yaşamasını təmin etmək baxımından bu irəliyə doğru atılan çox ciddi addım idi. Bunu ötən illərin reallıqları da təsdiqləyir.

Heydər Əliyevin baxışlar sisteminə görə, demokratiya üçün vacib olan başlıca şərtlər siyasi sabitlik və güc-

lü dövlət hakimiyyətidir. Təsadüfi deyil ki, 1993-cü ildə başlanan proseslər cəmi iki il ərzində Azərbaycanda demokratikləşmə prosesinin inkişafı üçün real zəmin yaratdı, bu prosesə mane ola biləcək bütün xarici və daxili qüvvələr tamamilə neytrallaşdırıldı. Heydər Əliyevin simasında hakimiyyətə ictimai inam bərqərar oldu, cəmiyyət başa düşdü ki, o həyatın ümidinə buraxılan, bədbin siyasi tale yaşamağa məhkum olunan qara kütlə deyil. Bu mərhələnin özəlliyi ondan ibarət idi ki, siyasi stabillik olmadan cəmiyyətin digər problemlərinin həlli mümkün deyildi. Siyasi sabitliyin ardınca kardinal islahatlar gəlməli idi və Heydər Əliyev bu yöndə növbəti uğurlu addımları atdı.

Növbəti mərhələni isə dövlət quruculuğu və demokratikləşmə prosesi kimi səciyyələndirmək olar. Ölkədə inzibati hakimiyyətin proseslərə tam nəzarət etməsi, parlament və məhkəmə hakimiyyətlərinin qurulması üçün cəmi bir neçə il lazım gəldi. Həmin dövrdə güclü dövlət hakimiyyətinin qurulması ilə demokratikləşmə prosesinin paralel şəkildə aparılması son dərəcə əhəmiyyətli idi. Onu da qeyd edək ki, bu heç də asan məsələ deyildi, çünki istənilən ölkədə demokratikləşmə prosesi inzibati hakimiyyəti zəiflədir, Azərbaycanda isə bu prosesin başlanması ölkəni anarxiyaya sürükləyə bilərdi. Amma Heydər Əliyev hər iki proses arasında balansı təmin etməklə ortaya analoqu olmayan siyasi model qoydu.

Güclü dövlət hakimiyyətin demokratikləşmə prosesinə real təminatlar yaradırdı. Çünki həmin dövrdə Azərbaycan cəmiyyətində demokratikləşmə birmənalı proses deyildi, bunun daxili qatlarında bir sıra anarxist

qüvvələr pərdələnməyə çalışırdılar. Onlar öz planlarını elə bir şəkildə gerçəkləşdirməyə cəhd göstərirdilər ki, guya bu sırf demokratiya xəttidir. Bu səbəbdən ölkədə cərəyan edən kütləvi siyasi proseslərin içərisindən bu tip qüvvələri tapıb neytrallaşdırmaq çox çətin idi. Bunun yeganə yolu isə ən ekstremal situasiyalara hazır olan güclü hakimiyyət modelinin yaradılmasında idi. Belə bir reallığı çox yaxşı dəyərləndirən Heydər Əliyev sübut etdi ki, demokratiya ancaq güclü hakimiyyətin iradəsi hesabına mövcud ola bilər. O, ölkədə Qərb standartlarını uğurla tətbiq etdi və həmin standartların milli mentalitetlə vəhdətini yaratdı. Doğrudan da, müasir siyasi nəzəriyyələrdə bu prinsip prioritet kimi qəbul edilib və sivil ölkələrdə demokratiya güclü hakimiyyət və milli mentalitetdən kənarda təsəvvür edilmir. Heydər Əliyevin ölkədə qurduğu güclü hakimiyyət Azərbaycan cəmiyyətini demokratikləşmə prosesindən yayındıra biləcək tendensiyalardan qorumaq baxımından əhəmiyyətli idi.

Bu amilin isə daha mühüm strateji əhəmiyyəti var. Həmin dövrdə Azərbaycanın iqtisadi inkişafına, xarici investisiyalara və iş adamlarına real təminatlar verilməli idi. Hətta əcnəbi iş adamlarını və xarici kapitalı Azərbaycana cəlb edən təbii amillər nə qədər əlverişli olsaydı belə, onlar siyasi təminatlar olmadan riskli addımlar atmazdılar. Lakin Heydər Əliyevin siyasi iradəsi və təminatı ilə ölkəyə qısa müddətdə cəlb edilən xarici kapital, Azərbaycanın hərbi və geosiyasi təhlükəsizliyi üçün başlıca qaranta çevrildi. Bütün maraqlar qarşılıqlı şəkildə ödənildi.

Heydər Əliyev hakimiyyətinin son illəri yeni mərhələ kimi səciyyələnir və özünün kompleks xarakteri ilə seçilir. Bunu stabil inkişaf mərhələsi adlandırmaq daha məqsədəuyğun olardı. Ölkədə demokratikləşmə prosesi normal məcrada davam etdi, siyasi sistemin elementləri arasında total ziddiyyətlər aradan qalxdı, iqtisadi inkişaf təmin olundu, ölkənin beynəlxalq imici ilə bağlı ciddi pozitiv irəliləyişlər ortaya çıxdı. Azərbaycan tarixində yeni siyasi mərhələ adlandırıla biləcək bu illərdə dövlət institutlarının tam yeni əsaslarda, dünya standartlarına uyğun şəkildə formalaşması prosesi başa çatdı. Heydər Əliyevin yürütdüyü siyasətin pozitiv mahiyyəti ondan ibarət idi ki, O, cəmiyyəti keyfiyyətcə yeni dəyərlərlə demokratik dəyişikliklərə və vərdişlərə hazırlaya bildi.

Heydər Əliyevin yenilməz iradəsi, düşüncəsinin dinamizmi, dünyada gedən prosesləri anlamaq, təhlil edib modelləşdirmək və siyasi davranışın ən əlverişli sxemlərini reallaşdırmaq qabiliyyəti Azərbaycanı XXI əsrə dinamik inkişaf edən dövlət kimi çıxarmış, dayanıqlı milli tərəqqisini təmin etmişdir. Ulu öndərimiz yeni dünya düzənində gedən proseslərin məcrasını düzgün müəyyənləşdirərək ölkəmizin yeni əsrə və həm də yeni minilliyə qüdrətli və güclü dövlət kimi çıxmasını təmin etmişdir.

Heydər Əliyevin xarici siyasət kursunun prioritet məsələlərindən biri də Azərbaycan Respublikasının milli dövlətçilik maraqlarının qorunması, ölkənin dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulması və Azərbaycanın haqq mübarizəsinin bütün dünyaya bəyan edilməsi idi. Dünya azərbaycanlılarının təşkilatlan-

ması, müstəqil Azərbaycan Respublikası ilə siyasi, iqtisadi, mədəni və mənəvi əlaqələrin inkişaf etdirilməsi son dərəcə mühüm məsələlərdən idi. Azərbaycanda 31 dekabr - «Dünya azərbaycanlılarının həmrəylik günü»nün bayram kimi qeyd olunması milli diasporun formalaşmasında, Azərbaycan lobbisinin inkişafında başlıca məqamlardan biri idi. Bu günün tarixi Naxçıvan MR Ali Məclisinin **«Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında»** 1991-ci il 16 dekabr tarixli qərarı və bilavasitə bu işlərin təşəbbüskarı, eyni zamanda, həmin tarixi qərara imza atan şəxs - Heydər Əliyevdir.

Məhz bu məqam xaricdə yaşayan soydaşlarımız tərəfindən Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə gəldikdən sonra gördüyü işlərə diqqəti artırmış, Azərbaycan dövlətinin varlığına və gələcəyinə inam və ümidlər yaratmış, onların Vətənlə əlaqələrinin genişlənməsinə səbəb olmuşdur.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 2000-ci il iyunun 22-də Moskvada Azərbaycanlıların Ümumrusiya Konqresinin təsis yığıncağında iştirakı və proqram xarakterli çıxışı Azərbaycan diasporunun formalaşması istiqamətində atılan real addımlardan biri olmuşdur.

2001-ci il 9-10 noyabr tarixində Bakıda Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi icmalararası münasibətlərin formalaşmasında və soydaşlarımızda milli şüurun artmasında yeni bir mərhələ oldu. Bu mühüm hadisənin davamı olaraq respublikadan kənarda yaşayan həmvətənlərimizin təşkilatlanması, onların qarşılıqlı fəaliyyətinin təmin olunması, Azərbaycan Res-

publikası ilə birbaşa əlaqələr qurulması, vahid siyasi xətt yürüdülməsi məqsədilə bütün fəaliyyətlərin koordinasiya edilməsi və digər mühüm məsələlərin həll olunması üçün yeni bir mərkəzin - infrastrukturun yaranmasına ehtiyac duyulurdu. Məhz belə bir mühüm məqamda Heydər Əliyev müdrik və uzaqgörən siyasəti və özünün çoxillik təcrübəsindən irəli gələn bir jestlə 5 iyul 2002-ci il tarixdə yeni bir dövlət qurumunun - Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında fərman imzaladı. Bu komitə xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədini güdürdü.

Heydər Əliyevin müəyyənləşdirərək həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu, Azərbaycanın milli maraqlarını tam təmin etməklə ölkəmizi xarici qüvvələrin münaqişə meydanından maraqların uzlaşdığı geopolitik məkana çevirmişdir. Ulu öndərin ölkə rəhbərliyinə gəlişindən sonra, ilk növbədə, yaxın qonşularımız - Rusiya Federasiyası və İran İslam Respublikası ilə diplomatik əlaqələrdə özünü göstərən gərginlik aradan qaldırıldı. Sonrakı illərdə isə dünyanın inkişaf etmiş bütün dövlətləri ilə diplomatik əlaqələr yaradıldı və əməkdaşlıq haqqında respublikamızın maraqlarına cavab verən ikitərəfli sazişlərə imza atıldı.

Beləliklə, ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı digər sahələrdə olduğu kimi, ölkənin xarici siyasət xəttində də əsaslı və müsbət dəyişikliklərə gətirib çıxardı. O, Azərbaycanın tarixi inkişaf yolunu, o cümlədən, xarici siyasət üzrə hədəflərini və istiqamətləri dəqiq şəkildə müəy-

yən etdi. Xarici siyasət doktrinası müəyyən edilərkən Azərbaycanın keçdiyi tarixi yol, ölkənin mövcud durumu, perspektiv vəzifələr, o cümlədən, strateji və taktiki məsələlər tam şəkildə nəzərə alınmışdı. Heydər Əliyev tərəfindən əsası qoyulmuş xarici siyasət kursunun uğurla həyata keçirilməsi tezliklə öz bəhrəsini verdi. Belə ki, Azərbaycanın bölgədə təklənməsinə son qoyuldu, Ermənistanın təcavüzünün qarşısı alındı, müharibə cəbhəsində atəşkəsə nail olundu, neft müqavilələrinin imzalanması ilə Azərbaycan öz sərvətlərinə sahib olduğunu dünyaya nümayiş etdirdi, beynəlxalq və regional təşkilatlarda ölkəmizin mövqeyi möhkəmləndi, sosial-iqtisadi tərəqqi üçün əlverişli zəmin yarandı.

Heydər Əliyevin rəhbərliyi ilə xarici siyasətimizdə Azərbaycan - Ermənistan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətində də çox gərgin iş aparılmış, əhəmiyyətli nəticələr əldə edilmişdir. Ən böyük nəticə kimi Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təcavüzü beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə pislənmiş, bu barədə bir sıra qərarlar qəbul edilmişdir. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 Qətnamədə və BMT sədrinin 6 bəyanatında Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılması, qaçqın və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması tələb edilmişdir. 1994-cü ildə ATƏT-in Budapeşt zirvə görüşündə Ermənistan - Azərbaycan münaqişəsini tez bir zamanda aradan qaldırmaq məqsədilə ATƏT-in sülhü qoruyan çoxmillətli qüvvələrini yaratmaqla əlaqədar qərar qəbul edilmişdir.

Budapeşt zirvə görüşündən sonra Minsk Qrupu çərçivəsində danışıqlar prosesi intensivləşmiş, həmcinin, Azərbaycan və Ermənistan prezidentlərinin səlahiyyətli nümayəndələri səviyyəsində Ermənistanla birbaşa ikitərəfli danışıqlar kanalı yaradılmış, hərbi əsirlərin və girovların azad edilməsi mümkün olmuşdur. Lüksemburqda Ermənistan Respublikası və Azərbaycan Respublikası prezidentlərinin verdikləri birgə bəyanat münaqişənin aradan qaldırılması istiqamətində mühüm addımlardan biri kimi nəzərdən keçirilə bilər. Həmin bəyanat, əslində, tərəflərin silahlı münaqişəyə beynəlxalq prinsiplər və normalar əsasında son qoymaq əzmini nümayiş etdirən ilk birgə sənəd sayıla bilər. Ulu öndərin gərgin diplomatik səyləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycan Respublikasının daxilində xüsusi statusun verilməsi, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmasının təhlükəsizliyinin təmin olunmasını nəzərdə tutan, Azərbaycanın mövqeyini əks etdirən prinsiplərin 1996-cı ilin dekabr ayında 53 dövlət tərəfindən təsdiqlənməsi, xalqımız üçün mühüm tarixi əhəmiyyətə malik Lissabon sənədinin qəbulu da münaqişənin həlli prosesində Azərbaycanın milli maraqlarını təmin edən diplomatik uğurlardandır.

Beləliklə, 1993-cü ildən bəri ölkəmiz tam müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan dövlətçiliyini ardıcıl şəkildə möhkəmləndirib inkişaf etdirməyə və milli maraqları qorumağa yönəlmişdir. Azərbaycan xarici siyasətini həm də beynəlxalq hüquq norma və prinsiplərinə, o cümlədən, dövlətlərin suve-

renliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur. Bu prinsipləri rəhbər tutaraq və uzunmüddətli milli mənafelərdən çıxış edərək, Azərbaycanın xarici siyasəti respublikanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və milli təhlükəsizliyinə təhlükə törədən, ilk növbədə, Azərbaycana qarşı Ermənistan tərəfindən edilmiş təcavüzün aradan qaldırılmasına yönəlmişdir. Regional miqyasda əmin-amanlıq və sabitliyin bərqərar edilməsi, nəhəng nəqliyyat və əməkdaşlıq layihələrinin gerçəkləşdirilməsi kimi strateji məqsədlərə nail olmaq xətti də, Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir.

# II FƏSİL

# SİYASİ VARİSLİK: SİYASİ VƏ İDEOLOJİ ƏSASLAR

***Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm! Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam!***

**İlham Əliyev**

## SİYASİ VARİSLİYİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Ümummilli lider Heydər Əliyev siyasi kursunun varisliyinin təmin olunması xalqın bu kursa dərin inamından, gerçək arzularından keçib gəlir. Bu, çox mühüm şərtdir. Daim ictimaiyyətin diqqət mərkəzində qalaraq millətin saf və müqəddəs istəklərində, sabaha yönələn ümidlərində özünə yer tutmaq mühüm məsələdir. Bəlkə də, elə buna görədir ki, 2003-cü il oktyabrın 15-də vətəndaşların mütləq əksəriyyəti qəti mövqeyini ortaya qoyarkən, İlham Əliyev amilini, ilk növbədə, dayanıqlı və təhlükəsiz sabah axtarışlarının cavabı olaraq önə çəkirdilər.

Heydər Əliyev siyasi məktəbinin öncül prinsiplərinə yaradıcılıqla yanaşan İlham Əliyev özünün idarəçilik

fəlsəfəsində yeni ideyaların, dünyada gedən proseslərin məntiqindən doğan və həyatın zəruri etdiyi islahatların yer alacağını əsas götürməklə siyasətdə ehkamçılığın deyil, təkamül və liberal dəyərlərin daşıyıcısı olduğunu təsdiq və demokratiyanın ölkəmiz üçün strateji seçim olduğuna sədaqət nümayiş etdirir. İlham Əliyev Heydər Əliyev siyasi kursuna sadiq olacağını, bu kursu daim uca tutacağını hələ 2003-cü il avqustun 4-də Azərbaycan Respublikasının Baş Naziri təyin edilərkən birmənalı olaraq bəyan etmişdi ki, **hər şeydən əvvəl, mənim təyinatım o deməkdir ki, Prezident Heydər Əliyevin Azərbaycanda 1993-cü ildən bəri apardığı siyasəti davam etdiriləcək. Bu, bizim ölkə üçün çox vacibdir. Bütün bunları geridə qoymaq üçün olduqca çox vaxt və səylər tələb olundu. Ona görə də, cəmiyyətin əsas məqsədi sabitliyi qorumaq və aparılan siyasətin dəyişilməsinə yol verməməkdir. Mən çalışacağam ki, indiyədək əldə olunanların hamısı nəinki qorunub saxlansın, həm də hökumət iqtisadi islahatlar sahəsində bu vaxtadək əldə etdiyimiz nailiyyətləri daha da artırsın. İqtisadiyyatın inkişafı ilə yanaşı, demokratiyanı da inkişaf etdirmək vacibdir. Azərbaycan gərək siyasi və iqtisadi cəhətdən güclü, demokratik ölkə olsun. Bu, bizim ümumi məqsədimizdir.**

İlham Əliyevin Baş nazir təyin olunması dövlətçiliyimiz tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Bu təyinatın ictimai-siyasi proseslərdə doğurduğu ciddi rezonans belə qənaətə gəlməyə əsas verdi ki, İlham Əliyev amili yaxın gələcəkdə də ölkənin siyasi həyatında mühüm hadisə kimi öz aktuallığını saxlayacaq. İlham Əliyevin hökumət başçısı kimi potensialı ilə bağlı müzaki-

rələrin intensiv şəkildə ictimailəşməsi hadisəyə cəmiyyətin mütləq əksəriyyətinin müsbət yanaşmasının təzahürü idi. İlham Əliyevin Baş nazir təyin olunmasına yönələn ictimai reaksiya Azərbaycan cəmiyyətində Heydər Əliyev siyasi xəttinin və bu xəttin prioritet olaraq qəbul etdiyi prinsiplərin yerini qəti şəkildə müəyyənləşdirməyə imkan verdi. Bu baxımdan, bir qədər yaxın keçmişə qayıdaraq həmin təyinatdan sonra ölkədə yaranmış situasiyanın inkişaf dinamikasını təhlil edərək, bir neçə amil üzərində dayanmağa xüsusi ehtiyac duyuruq:

**Birincisi**, bu təyinat Heydər Əliyev komandasının ölkədə yeganə monolit qüvvə olması barədə təsəvvürləri daha da möhkəmləndirdi. Bir daha sübut olundu ki, Heydər Əliyevin dövlətçilik ənənələrini siyasi mübarizədə təməl prinsipləri hesab edən və siyasi maraqları yalnız bu kursun davam etdirilməsindən ibarət olan qüvvələrin hələ uzun illər dövlət idarəetmə müstəvisində mövqeləri avanqard mahiyyət kəsb edəcək. Bu həqiqəti komandada tərəddüd edənlər də qəbul etmək məcburiyyətində qaldılar. Məsələyə siyasi texnologiya aspektindən yanaşdıqda isə birmənalı şəkildə etiraf edilməlidir ki, özünün kadr bankını, intellektual arsenalını bir daha nümayiş etdirməyə nail olan Heydər Əliyev iqtidarı cəmiyyətin perspektiv seçim problemini də son və qəti şəkildə öz xeyrinə həll etməyə nail oldu.

İlham Əliyevin Baş nazir vəzifəsinə təyin olunmasından sonra ictimaiyyət bir daha əmin oldu ki, yaranmış stabillik və bundan sonra da qazanılacaq uğurlar məhz cəmiyyət - Heydər Əliyev həmrəyliyinin məntiqi nəticəsidir.

**İkincisi,** hökumət rəhbərliyində baş vermiş dəyişiklik hakimiyyətin strateji xəttinin konturlarını daha aydın dərk etməyə imkan verdi. İlham Əliyevin hökumət başçısı təyin olunması cəmiyyətin siyasi dəstəyini rəsmiləşdirmək baxımından çox əhəmiyyətli idi. Bu amil hələ ilk dəfə İlham Əliyevin parlament seçkilərində Yeni Azərbaycan Partiyasının proporsional siyahısına rəhbərlik etdiyi dövrdə nəzərə çarpmışdı və o vaxtdan proseslərin inkişaf meyilləri bu dəstəyin arta biləcəyini söyləməyə əsas verirdi. **Müşahidəçilər haqlı olaraq hələ o dövrdə İlham Əliyev amilinin birləşdirici qüvvə ola biləcəyini istisna etmirdilər.** Bu təyinat İlham Əliyevin timsalında hakimiyyət komandasının intellektual imkanlarının cəmləşməsinə imkan verdi və hakimiyyət strukturlarının işgüzar imicini daha da yüksəltdi.

**Üçüncüsü,** bu təyinat Heydər Əliyev siyasi kursunun perspektivləri barədə cəmiyyətdə tam siyasi arxayınlıq yaranması baxımından da mühüm siyasi hadisə idi. Təyinatla hakim elita cəmiyyətin bütün təbəqələrinin ona meyilləndiyi siyasi qüvvə olduğunu təsdiq etməklə yanaşı, həm də İlham Əliyevin qazandığı statusun intellektual güc hesabına əldə edildiyi gerçəkliyini ortaya qoydu. Bu, Azərbaycanın siyasi həyatı üçün əlamətdar hadisə idi. Çünki müstəqillik əldə edildiyi dövrdən bəri, ölkənin siyasi həyatında yaşanan ictimai kataklizmlər və bir qayda olaraq, əvvəlki hakimiyyətlərin qeyri-standart idarəçilik və dağınıq siyasi dünyagörüşü cəmiyyətdə çox ciddi problemlər yaratmış, hətta Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırmışdı. Yaşanan situasiyadan fərqli olaraq ötən 10 il ərzində cə-

miyyət kataklizmlərdən azad olmuşdu və bu baxımdan Heydər Əliyevin siyasi kursuna bəslənən ümummilli simpatiyanın İlham Əliyevin siyasi fəaliyyətinə pozitiv transferi önəmli hadisə hesab edilirdi. İlham Əliyevin Baş nazir təyinatı həm də onun göstəricisi hesab olundu ki, ictimai rəy özünün tam siyasi baxış bucağını ortaya qoydu və İlham Əliyev amilinin Heydər Əliyev dövlətçilik ənənələrinin davam etdirilməsi baxımından alternativinin olmaması gerçəkliyini qəbul etdi.

İlham Əliyevin Baş nazir təyin olunması Heydər Əliyevin dövlətçilik kursunun varisliyinin təmin edilməsi kimi strateji əhəmiyyət kəsb edən sosial sifarişə qarşı neqativ və qeyri-konstruktiv düşüncələrlə yaşayan qüvvələr üçün ciddi siyasi zərbə oldu. Faktiki olaraq, yeni siyasi mərhələdə bu tip qüvvələrin mövcudluğu hakimiyyətin 10 ildən bəri bərqərar olan demokratik simasını mənfi streotiplərlə yükləyə bilərdi. Digər tərəfdən, hesab etmək olar ki, İlham Əliyevin siyasi idarəçilikdə həlledici təsir imkanlarına malik olması bəzi köhnə təfəkkürlü və sərt bürokratik üsul-idarə tərafdarlarının da siyasiləşməsi və pozuculuq fəaliyyəti qarşısında ciddi maneəyə çevrildi.

Beləliklə, İlham Əliyevin Baş nazir statusu əldə etməsi Azərbaycan xalqında özünəinam hissini möhkəmləndirdi, sabitlik və firavanlığa, dinamik inkişafa təminat yaratdı. Heydər Əliyev siyasi xəttinin İlham Əliyev tərəfindən davam etdirilməsi Azərbaycan dövlətinin zəngin və qüdrətli gələcəyi, onun regionun lider dövlətinə çevrilməsi, ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaşımız üçün yüksək və rahat həyat şəraitinin yaradılması demək idi.

2003-cü ilin avqustunda İlham Əliyev Baş nazir təyin olunarkən müxalifət gözləyirdi ki, bu seçim hakimiyyət komandasında birmənalı qarşılanmayacaq və iqtidardaxili ziddiyyətlər tədricən parçalanmaya rəvac verəcək. Lakin gözlənildiyi kimi onlar ciddi şəkildə yanıldılar. İlham Əliyevin təyinatı iqtidar komandasında nəinki ziddiyyət və fikir ayrılığı yaratmadı, əksinə Heydər Əliyevin monolit komandası Onun siyasi varisi və ölkənin gələcək lideri ətrafında daha sıx şəkildə birləşdi.

İlham Əliyevin Baş nazir təyin olunması Azərbaycan cəmiyyəti üçün gözlənilən, ümumilikdə isə, Azərbaycan xalqının gələcəyi, Heydər Əliyevin 10 ildə iflas və fəlakətdən sabit inkişaf yoluna çıxardığı dövlətin perspektivi baxımından tamamilə məntiqi, qanunauyğun və zəruri təyinat idi. Təsadüfi deyil ki, sözügedən təyinat Azərbaycan cəmiyyətinin mütləq əksəriyyəti tərəfindən razılıq hissi ilə qarşılandı. Xalq özünün sabahı və Heydər Əliyevin ən möhtəşəm əsəri olan müstəqil Azərbaycan dövlətinin gələcəyi üçün arxayınlıq əldə etdi.

Cəmiyyət, ictimai rəy Azərbaycan dövlətinin inkişaf yolunun sabit qalacağına, son 10 ildə möhkəm əsaslar üzərində təşəkkül tapmış dövlətçilik xəttinin davam edəcəyinə dəstəyini verdi. Eyni zamanda, iqtidar komandası ulu öndər Heydər Əliyevin qərarını yüksək qiymətləndirərək təyinat ətrafında daha sıx birləşdi. Bir sözlə, özlərinin qapalı çevrəsində illüzior spekulyasiyalardan, xəyali hakimiyyət bölgüsündən uzağa gedə bilməyən, reallığı adekvat qiymətləndirmək gücündə ol-

mayan Azərbaycan müxalifəti və onların siyasi texnoloqları bir daha yanıldıqlarını nümayiş etdirdilər.

Etiraf edilməlidir ki, Azərbaycanın Nazirlər Kabinetinə rəhbərlik etmiş şəxslərin heç birinin təyinatı bu qədər geniş rezonans doğurmamışdı. Səbəb isə çox sadə idi: İlham Əliyev həmin posta təyin edilənədək beynəlxalq müstəvidə və Azərbaycan ictimai rəyində yüksək səviyyədə qəbul olunan siyasi və dövlət xadimi idi. Onun 1994-cü ildən Azərbaycan neft strategiyasının həyata keçirilməsində göstərdiyi müstəsna xidmətlər və 2001-2003-cü illərdə Avropa Şurasında qazandığı nüfuzu qeyd etmək kifayətdir. Təsadüfi deyil ki, İlham Əliyev Baş nazir kimi ilk təbrikləri məhz Avropa Şurasının rəhbərliyindən almışdı. Əlbəttə, İlham Əliyevin beynəlxalq müstəvidəki nüfuzu yalnız Avropa Şurası ilə məhdudlaşmır. 1994-cü ildən Azərbaycanın neft strategiyasının həyata keçirilməsində böyük rol oynayan, "Əsrin müqaviləsi"ndən başlayaraq Azərbaycanın xarici neft şirkətləri ilə imzaladığı 23 müqavilənin hazırlanması və həyata keçirilməsində, ixrac neft kəmərlərinin reallaşmasında fəal iştirak edən İlham Əliyev dünyanın transmilli korporasiyalarında, biznes və iqtisadi mərkəzlərində işgüzar və bacarıqlı təşkilatçı və yüksək intelektə malik koordinator nüfuzunu qazanmışdı. Azərbaycanda işləyən və Azərbaycanla əməkdaşlığı davam etdirmək arzusunda olan dövlətlər və iri şirkətlər həmin keyfiyyətləri həm də bir arxayınlıq, təminat amili kimi qəbul edirdi. İlham Əliyevin Baş nazir təyinatına beynəlxalq müstəvidə verilən yüksək dəstək, eyni zamanda, Azərbaycanda aparılan islahatlara Qərbə inteqrasiya

kursuna, 10 ildə lider Heydər Əliyevin yeritdiyi siyasətin gələcək təminatçısına verilən dəstək idi.

Azərbaycanın Baş naziri olaraq iştirak etdiyi ilk beynəlxalq forumda O, ölkəmizin bir nömrəli problemini kəskin şəkildə dünya liderlərinin diqqətinə çatdırdı. 2003-cü il sentyabrın 24-25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 58-ci sessiyasında nitq söyləyən İlham Əliyev, Birləşmiş Millətlər Təşkilatını Ermənistanın Azərbaycana qarşı təcavüzünə seyrçi qalmaqda ittiham edərək, ölkəmizin prinsipial mövqeyini bir daha dünyaya bəyan etdi: **"Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui-istifadəyə cəhd etməsin!"**. Terror və təcavüzlə mübarizə aparan beynəlxalq birliyi Qarabağ məsələsində ikili standartlara yol verməməyə çağıran İlham Əliyev, Azərbaycanın heç zaman "mövcud reallıqlar" əsasında həll variantı ilə razılaşmayacağını və Azərbaycan torpağının bir qarışını belə heç kimə verməyəcəyini bildirdi.

İlham Əliyev 2003-cü il oktyabrın 31-də prezident kimi andiçmə mərasimindəki çıxışında da, Azərbaycanı Heydər Əliyev yolu ilə irəli aparacağını bəyan etdi: **"Əlbəttə, çətinliklər olacaq. Amma mən çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yola getməzdim"**.

Heydər Əliyev yolunun layiqli şəkildə davam etdirilməsi Azərbaycanı daha qüdrətli, zəngin və firavan dövlətə çevirmək, ölkənin hər bir vətəndaşı üçün arxa və dayaq olmaq deməkdir. İlham Əliyev Azərbaycan Prezidenti kimi imzaladığı ilk fərman və sərəncamlarla sübut etdi ki, bu istiqamətdə aydın, geniş və icra mexa-

nizmlərinə dəqiq ölçülüb-biçilmiş fəaliyyət proqramına malikdir. 2003-cü il noyabrın 24-də imazalanan "**Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında**" fərman, 2004-cü il fevralın 11-də təsdiq edilən "**Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008)**", 2004-cü il iyulun 1-də "**Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı**", sahibkarlığın təşviqi, sosial-iqtisadi sahənin inkişaf etdirilməsi ilə bağlı ciddi xarakter daşıyan sərəncamlar onun fəaliyyət proqramının çeşidli istiqamətlərini ehtiva edir.

İlham Əliyev regionlara hər səfərində sözügedən qərar və sərəncamların icrasını daima şəxsi nəzarətində saxlayır, ortaya çıxan çətinliklərin vaxtında və yerindəcə həll olunmasını təmin edir. Bu, bir tərəfdən idarəçiliyin təkzibedilməz amili kimi dəyərləndirilə bilərsə, digər tərəfdən də ulu öndərimizin fəaliyyət vərdişlərinin yaşadıldığının bariz təzahürüdür. "**Cəmiyyətə sabitlik lazımdır. İnsanlar iş, yaxşı maaş, uşaqlarını təhlükəsiz mühitdə böyütmək istəyirlər və bizim vəzifəmiz onlara bu şəraiti təmin etməkdir**". İlham Əliyev bu fikri prezident seçkiləri ərəfəsində, əhali ilə görüşlərində bəyan etmişdi və elə fəaliyyətinin ilk günlərindən sübut etdi ki, o, Prezident kimi ölkədə dayanıqlı sabitliyin və hər bir vətəndaş üçün möhkəm sosial rifahın qarantına çevrilmək əzmindədir.

**"Qarşımda çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Azərbaycan xalqı görəcək ki, mən Azərbay-**

**can üçün, xalqımız üçün yaxşı prezident olacağam. Əgər xalq mənim fəaliyyətimi dəstəkləyirsə, inanırsa, bu, ən böyük mükafatdır".** Bu bəyanatı isə İlham Əliyev prezidentliyinin ilk günlərində vermişdi. Azərbaycan xalqı yeni liderinin arxada qalan illəri göz önünə gətirərək birmənalı şəkildə deyə bilər ki, İlham Əliyev heç bir sözü populizm, yaxud, deklarativ çıxış naminə demir. Onun verdiyi hər bir söz real, əməli işlə tamamlanır.

Mühüm olan budur ki, Heydər Əliyevin siyasi varisi ulu öndərimizdən təkcə mükəmməl idarəçilik vərdişləri və zəngin siyasi irsi deyil, həm də Azərbaycan xalqının mütləq əksəriyyətinin Heydər Əliyevə olan yüksək etimad və dəstəyini də miras kimi qəbul etmişdir. Ümummilli lider Heydər Əliyevin nəhəng seçici elektoratı Onun siyasi varisinin liderliyini qəbul etdi və 2003-cü ilin prezident seçkilərində İlham Əliyevə səs verdi. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanı o vaxtkı səriştəsiz iqtidardan hansı vəziyyətdə təhvil aldığını, bu illər ərzində Azərbaycan dövlətçiliyinin hansı sınaqlardan çıxdığını, möhkəmləndiyini yaxşı bilən, Heydər Əliyevin dövlətçilik xəttinin real, əməli nəticələrini bilavasitə görən, bu siyasətin ayrılıqda hər bir vətəndaşa və ümumilikdə bütün xalqa firavanlıq, sabitlik və təhlükəsizlik təmin etdiyini gözəl dərk edən yüz minlərlə seçici, bu yolun davam etdirilməsini istədi. İlham Əliyev də, öz növbəsində, Azərbaycan xalqına güvənir, bu xalqın dəstəyinə inanır və onun etimadını doğruldacağına söz verir, bu istiqamətdə ardıcıl siyasət yürüdür, əməli və konkret addımlar atır.

İlham Əliyevə görə dövləti idarə etmək iddiasında olan kəs, bunun üçün hər şeydən öncə xalqın dəstəyinə arxalanmalıdır. Çünki bu və ya digər dövlət rəhbərinə xaricdən nə qədər dəstək verilsə də, əgər onun ölkə daxilində, xalq arasında dayaqları zəifdirsə, bu halda onun iflası da qaçılmazdır. Xalqa arxalanmaq, liderlik gücünü və iradəsini xalqdan almaq ümummilli lider Heydər Əliyevin siyasi portretinin başlıca məziyyətlərindən idi. İlham Əliyev də siyasət olimpindəki ilk addımları ilə eyni prinsipə sadiq olduğunu nümayiş etdirdi. O, ABŞ-ın "Assoşieyted Press" agentliyinə müsahibəsində bu məsələyə münasibətini belə açıqlamışdı: **"Əgər lider öz xalqı tərəfindən dəstəklənirsə, əlbəttə, bütövlükdə, vəziyyəti nəzarətdə saxlamaq onun üçün çox asandır. Bütün rayonlardan mənim ünvanıma təbriklər göndərilir. Sadə insanlar mənim təyinatımı dəstəkləyirlər, onu yüksək qiymətləndirirlər, çünki çoxları hakimiyyətdə boşluq yaranacağından, sabitliyin pozulacağından qorxurdu. Mən isə gələcəkdə də sabitliyi təmin etmək və ölkəni inkişaf etdirmək üçün əlimdən gələni etməyə çalışacağam. Mən həmişə deyirəm, ölkə, xalq qarşısında xidmətlər özünütəsdiqin ən yaxşı üsuludur. Mən həmişə fikirləşmişəm və indi də o fikirdəyəm ki, ən başlıcası bu siyasətin davam etməsidir. Mənim üçün, zənn edirəm ki, ölkəmizin əksər vətəndaşları üçün də ən başlıcası Heydər Əliyev siyasətinin davam etdirilməsi, qorunub saxlanmasıdır. Əgər bu gün məni bunun üçün lazımlı adam hesab edirlərsə, bu məsuliyyəti üzərimə götürməyə hazıram".**

## SİYASİ VARİSLİYİN SOSİAL-SİYASİ VƏ İDEOLOJİ ASPEKTLƏRİ

2003-cü ilin avqust-sentyabr aylarında dünyanın ən nüfuzlu siyasi məclislərində Azərbaycanın milli maraqlarını layiqincə müdafiə edən, eyni zamanda, ölkə daxilində xalqın böyük əksəriyyətinin etimad və rəğbətini qazanan İlham Əliyev artıq siyasi olimpin bir addımlığında idi. Odur ki, ölkə elektoratının mütləq çoxluğunun 15 oktyabr prezident seçkilərində ona dəstək verəcəyi artıq heç kimdə şübhə doğurmurdu. Azərbaycanın nüfuzlu daxili siyasi qüvvələri də Heydər Əliyevin siyasi varisinə prezidentlik xeyir-duasını, nəsihətini gözləyirdi. 2003-cü il oktyabrın 2-də ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqına müraciəti, təkcə Azərbaycanın gələcək dövlət başçısına siyasi xeyir-dua deyil, həmçinin, Azərbaycanın müstəqillik tarixini və onun gələcək inkişaf yolunu dəqiqliklə səciyyələndirən proqram xarakterli siyasi sənəd idi: **"Əziz həmvətənlər, hörmətli Azərbaycan vətəndaşları! Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun Prezidenti kimi mənim həyat amalım yalnız Sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin an-**

**larda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.**

**Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Azərbaycanın iqtisadi həyatı yenidən qurulur, yüksək dinamizmlə dirçəlir və inkişaf edir. Dövlətimiz getdikcə öz müdafiə qabiliyyətini artırır, hərbi cəhətdən güclənir. Bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət kəsb edən məsələləri həll edə bilmişik. İlk növbədə, dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq. İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq. Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik. Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən, ərazi bütövlüyünü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu, məhz belə də olacaq".**

Azərbaycan xalqına müraciətində səhhətindəki problemlərlə bağlı prezidentliyə namizədliyini geri götür-

düyünü elan edən ulu öndər əmin olduğunu vurğulayırdı ki, Onun başladığı yol uğurla davam etdiriləcək, Azərbaycan xalqı və dövləti layiq olduğu yüksək inkişaf və rifaha doğru inamla addımlayacaq: **"Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir".**

Əlbəttə, Heydər Əliyev siyasi kursunun və milli dövlətçilik konsepsiyasının varisliyinin təmin olunması sosial sifariş kimi önə çıxmışdı. Təbii ki, bu konsepsiyanın üstünlüyü, obyektiv xarakter daşıması Heydər Əliyevin hakimiyyətdə olduğu on ildə özünü dəfələrlə nümayiş etdirdi. Zaman-zaman cəmiyyət belə bir siyasi iradə nümayiş etdirdi ki, bu kursun, aparılan siyasətin varisliyi mütləq təmin olunmalıdır. Cəmiyyəti narahat edən əsas amil hakimiyyət sükanının yenidən təsadüfi şəxslərin, meydan eyforiyasından ayıla bilməyən naşıların əlinə düşməsi qorxusu idi. Təhtəlşüurda baş qaldıran stereotiplər xalqdan tələb edirdi ki, siyasi iradə nümayiş etdirsin. Bu belə də oldu və xalqımız öz seçimini birmənalı olaraq İlham Əliyev fenomeni üzərində saxladı.

Azərbaycan xalqı Heydər Əliyevin daxili və xarici siyasət kursuna alternativ görmədiyi kimi, bu strategiyanı uğurla davam etdirəcək siyasi xadimi də haqlı olaraq ümummilli liderin komandasında müəyyənləşdirdi. Sözsüz ki, bu inam məhz İlham Əliyevin fəaliyyəti üzərində köklənmişdi. Cəmiyyətdə qəti olaraq belə bir rəy formalaşmışdı ki, İlham Əliyev Heydər Əliyevin siyasi kursunun müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz dövlət xadimidir.

İlham Əliyev mövcud reallıqları operativcəsinə və obyektiv olaraq qiymətləndirməyi bacarır. Bu amil Onu fərqləndirən üstün keyfiyyətlər sırasındadır. O, cəmiyyətin sosial sifarişinə uyğun olaraq çevik və düzgün qərarlar qəbul edir. Ölkənin sosial-iqtisadi problemlərinə Onun münasibəti xüsusilə həssasdır. İlham Əliyev həm də istedadlı strateq olaraq Azərbaycanın geosiyasi mövqeyini peşəkarlıqla qiymətləndirir. Etiraf edilməlidir ki, İlham Əliyev fenomeninin cəmiyyətin böyük bir təbəqəsinin simpatiya subyektinə çevrilməsi, ilk növbədə, fərdi-mənəvi amillərdən qaynaqlanan gerçəklikdir. İlham Əliyevin siyasi-psixoloji portretinin əsasını təşkil edən elementlər Onun Azərbaycan və dünya siyasi arenası üçün uğurlu şəxsiyyət olduğunu birmənalı olaraq sübut edir. **O, baxışlar sistemində və davranışlarında Qərb standartlarının - kübar rəftarın, rasional düşüncə tərzinin, alovlu vətənpərvərliyin, praqmatizmi milli mentalitetlə son dərəcə dəqiqliklə uzlaşdırılmış vəhdətin tipik modelini yaratmağa nail olub.** İlham Əliyev bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə həm də yeni nəfəs, enerji və müasirlik gətirib. Onun siyasətçi kimi forma-

laşmasına təsir edən komponentlərin sırasında siyasi romantizm, psevdovətənpərvərlik, nimdaş siyasi davranış elementləri yoxdur. İlham Əliyevin ölkədə və dünyada cərəyan edən siyasi proseslərin öncülünə çevrilməsi, cəmiyyətdəki rasional və konstruktiv siyasi lider aclığının diktəsi ilə gündəmə çıxan obyektiv bir prosesin məntiqi yekunudur. Bütün bunlarla yanaşı, İlham Əliyev fenomenini zəruri ictimai-siyasi hadisəyə çevirən digər amillər də mövcuddur.

Həmin amillər məcmusu İlham Əliyevin siyasi proseslərin fövqündə duran və bu prosesləri istiqamətləndirən populyar və islahatçı liderə çevrilməsinə zəmin yaratmış komponentlər kimi nəzərdən keçirilməlidir. O da etiraf olunmalıdır ki, ulu öndər Heydər Əliyevin Azərbaycan cəmiyyətinə və bu cəmiyyətin tələbatlar sisteminin əsasını təşkil edən siyasi münasibətlər müstəvisinə bəxş etdiyi mühüm nailiyyətlərdən biri də, ölkədə yeni siyasətçilər nəslinin formalaşması üçün münbit şərait yaratması idi. Dahi şəxsiyyət ölkədə elə siyasi ab-hava formalaşdırdı ki, yüksək intellektə, geniş erudisiyaya və siyasi istedada malik olan istənilən şəxs öz gələcəyini müəyyənləşdirmək üçün çox ciddi işlər görə bilsin. Sözsüz ki, yaradılmış bu imkan son illər, ilk növbədə, Azərbaycan siyasətinə yeni insanların gəlişinə əhəmiyyətli dərəcədə təsir göstərdi. Birmənalı şəkildə qeyd etmək olar ki, İlham Əliyev fenomeni ümummilli lider Heydər Əliyevin yaratdığı normal siyasi şəraitin nəticəsi kimi meydana çıxdı. Sözsüz ki, bu amilin önə çıxmasında İlham Əliyev üçün ayrıca prioritet imkan yaradılmadı və münbit siyasi şəraitdə meydana çıxan imkanlar heç bir fərq qoyulmadan hər kəs tərə-

findən istifadə edildi. Hər bir siyasi liderdə siyasi istedadın az və ya çox olması subyektiv məsələdir. Sözsüz ki, İlham Əliyevin qısa zaman kəsiyində özünə fərqli üstün mövqelər qazanması, Onun siyasi istedadı ilə birbaşa bağlıdır və burada radikal müxalifətin irəli sürdüyü fərziyyələrin heç bir əsası yoxdur.

İlham Əliyevin siyasətdə üstün keyfiyyətlərindən biri də Onun yüksək siyasi mədəniyyət nümayiş etdirməsidir. Müxalif dairələrin Onun haqqında az qala siyasi azğınlıq səviyyəsinə çatan anti-təbliğat şousuna baxmayaraq, İlham Əliyev təmkinini pozmur, hadisələrə rasional mövqe sərgiləyir, bununla da müxalifətin informasiya hücumunun kiçik və əhəmiyyətsiz hadisə olduğunu ictimai rəyə qəbul etdirir. Yüksək siyasi mədəniyyət, tolerantlıq, siyasi kamillik kimi pozitiv keyfiyyətlər Onun siyasi portretinin özgün cizgilərindəndir.

Bütün bunlarla yanaşı, etiraf etməliyik ki, İlham Əliyevin 15 oktyabr 2003-cü il prezident seçkilərində qələbəsini nə intensiv təbliğatın uğurları, nə də ki, radikal müxalifətin primitiv hücum kombinasiyalarının yaratdığı əks-effekt kimi qiymətləndirmək düzgün olardı. İlham Əliyevin 2003-cü il oktyabrın 15-də əldə etdiyi nailiyyət daha çox Onun sistemli və düzgün koordinasiya olunmuş fəaliyyətinin məntiqi nəticəsi idi. Seçkilər dövründə İlham Əliyevə münasibətdə siyasiləşmiş təbəqənin və apolitik kütlənin mövqeyində monolitliyin nəzərə çarpması, ilk növbədə, Onun siyasi fəaliyyətinin tərəfləri arasındakı əlaqənin son dərəcə uzlaşdırılmış şəkildə qurulmasından irəli gəlirdi. Bu xətt onun fəaliyyətində ardıcıllıq təşkil edir. İlham Əliyevin taktiki gediş-

ləri istər daxili, istərsə də xarici siyasət məsələlərinə münasibəti biri digərini təkzib etmir, əksinə, məntiqi ardıcıllıqla bir-birini tamamlayır. Onun baxışlar sistemində ziddiyyətli və kəsişən xətlər yoxdur, əksinə proseslərə münasibəti birmənalı və dəqiqdir. Bu baxımdan, İlham Əliyevin pozitiv siyasi obrazının mahiyyətini ictimai rəyin adekvat münasibətlərində axtarmaq lazımdır. Liderlik xüsusiyyətlərinin əksəriyyət tərəfindən qəbul edilmək, geniş siyasi təbəqənin inamını qazanmaq və elektoratın dəstəyinə malik olmaq kimi politoloji bir mənanı ehtiva etdiyini nəzərə alsaq, bu anlayış bütün kateqoriyalar üzrə İlham Əliyevin xeyrinədir.

Yuxarıda qeyd etdiklərimizlə yanaşı, hadisələrə birmənalı münasibət və onların siyasi yozumunu ifadə edən orijinal üslub, cəmiyyətlə İlham Əliyev arasındakı bütün təmas xətti boyunca şəffaflığı təmin etmişdir. Bir sözlə, ictimai rəyin İlham Əliyevlə bağlı hər hansı bir cavabsız sorğusu mövcud deyildir. Ən başlıcası isə, belə bir şəffaflığın müqabilində İlham Əliyevlə ictimai rəy arasında qarşılıqlı inam mühiti bərqərar olmuşdur.

İlham Əliyev daim cəmiyyətə əsil vətəndaşlıq hissləri aşılayıb. Bu fikri Onun hələ 1997-ci ildə ABŞ-ın Kembric Universitetində çıxışı zamanı vurğuladığı bir məqam da təsdiqləyir: **"Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqını maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhvə yol versək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür, heç bir səhfə yol verə bilmərik".**

Bu gün iftixar hissi ilə deyə bilərik ki, həqiqətən o zaman İlham Əliyev böyük cəsarət və iradə nümayiş etdirərək milli mənafelərin qorunması naminə əzmlə çalışdı.

1997-ci ilin fevral ayında ABŞ-ın Hyuston şəhərində Enerji Tədqiqatları Assambleyasının enerji problemlərinə dair keçirdiyi beynəlxalq konfransda, 1998-ci ilin mart ayında isə Vaşinqtonda, Los-Anjelesdə və San-Fransiskoda bir sıra konfransların, seminarların işində iştirak edən İlham Əliyev ABŞ-ın dövlət və siyasi xadimləri, işgüzar dairələrin nümayəndələrilə görüşüb səmərəli danışıqlar aparmış, Amerikanın nüfuzlu mətbu orqanlarına müsahibələr vermiş, diplomatik məharəti, yüksək intelekti, elmi mədəniyyətilə hamıda özünə qarşı rəğbət qazandırmışdı.

Onun diplomatik fəaliyyətinin özəyində neft amilindən Azərbaycan xalqının, müstəqil Azərbaycan dövlətinin mənafeyi naminə istifadə etmək məqsədi dururdu. Özü bu barədə belə deyirdi: **"Məlumdur ki, neft bəzi ölkələrə çiçəklənmə, inkişaf gətirir, bəzən düşmənçiliyə səbəb olur. Biz indidən elə etməliyik ki, neft beynəlxalq əməkdaşlıqda Azərbaycanın mövqeyini daha da möhkəmləndirsin, xalqımızın gələcək firavan həyatının möhkəm əsası qoyulsun. Mən əminəm ki, Azərbaycan öz müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəkdir. Əminəm ki, ölkəmizin ərazi bütövlüyü tezliklə təmin olunacaq, xalqımız sülh şəraitində yaşayacaq və gələcəkdə biz neftdən gələn gəlirləri sosial sektora - səhiyyə, mədəniyyət, təhsil sahələrinə yönəldəcəyik. Mən inanıram ki, Azərbaycan beynəlxalq aləmin mühüm, ayrılmaz hissəsi kimi durmadan inkişaf edəcəkdir".**

İlham Əliyev öz siyasi opponentlərinə münasibətdə də qarşı tərəflə müqayisədə fərqli xüsusiyyətlərə malikdir. O, müxalifət liderlərindən fərqli olaraq rəqiblərinə olan münasibətini şəxsi antipatiya və yaxud siyasi streslərin təsiri altında müəyyənləşdirmir. Çünki bir siyasətçi kimi siyasi illüziyalar onun xarakterinə yaddır. Müxalifət liderləri kimi İlham Əliyev abstrakt siyasi baxışların daşıyıcısı deyil. Hələ prezident seçkilərinə hazırlıq dövründə Onun siyasi gedişlərində daha çox konkretlik müşahidə edilirdi. Açıqlamalarından aydın olurdu ki, İlham Əliyevin rəqiblərinə qarşı adekvat siyasəti etik normalara əsaslanır. Bu isə siyasi praqmatizmin və siyasi mədəniyyətin ən ciddi göstəricilərindəndir.

Faktiki olaraq bu gün ictimai rəy üçün seçim problemi yoxdur və "sıfır" variantı, demək olar ki, öz aktuallığını itirib. Daxili və xarici siyasətdə, ictimai şüurda İlham Əliyevin Heydər Əliyevin zəngin dövlətçilik irsinin kompleks şəkildə davam etdirmək potensialına malik lider kimi qəbul edilməsi artıq təkzibolunmaz reallıqdır. Məsələyə bu konteksdən yanaşdıqda əminliklə demək olar ki, İlham Əliyevin peşəkar siyasətçi kimi malik olduğu üstün keyfiyyətlərlə bu məsələnin ideoloji tərəfləri bütöv bir sistemin daxili strukturunu təşkil edir. Başqa sözlə desək, mövcud siyasi kursun inkişafını, gələcəyini İlham Əliyevsiz təsəvvür etmək mümkün deyil. İlham Əliyevin prezidentliyi ölkənin milli maraqlarının etibarlı şəkildə qorunacağı ilə bağlı hər bir vətəndaşda şəxsi arxayınçılıq, bütövlükdə isə cəmiyyətə ictimai inam aşılayır. Heydər Əliyev tərəfindən müəyyənləşən ölkənin milli maraqları, xarici siyasət prioritetləri, dövlətçiliyin

təməl prinsipləri, iqtisadi inkişaf imkanları və digər önəmli strateji xəttin və həmin sahələri birləşdirən vahid konsepsiyanın real imkanlara malik lider tərəfindən davam etdirilməsi məhz İlham Əliyevin taleh yazısıdır.

İlham Əliyevin siyasətdə uğurlarını təmin edən belə bir məhsuldar fəaliyyət üçün stimul yaradan ideoloji amillərin də rolunu vurğulamağa ciddi ehtiyac var. İlham Əliyevin ictimai rəydəki statusunun möhkəmlənməsinə təsir göstərən mühüm məqamlardan, bəlkə də, ən başlıcası Onun təkmil siyasi ideologiyaya - Heydər Əliyevin zəngin siyasi irsinə və milli dövlətçilik fəlsəfəsinə söykənməsidir. Siyasi fəaliyyətini dar qrup çərçivəsində həyata keçirməyə meyilli olmayan, öz potensialını daha geniş müstəvidə nümayiş etdirməyə qadir olan və mühüm nəticələr əldə etməyə yönəldən İlham Əliyevin əldə etdiyi siyasi dividendlər, bu baxımdan, təsadüfi hesab oluna bilməz. Cəmiyyətin İlham Əliyev amilinə dəqiq, qərəzsiz münasibətinin əsas göstəricilərindən biri kimi bu amilin rolu inkaredilməzdir.

Prezident seçkilərinə qədər İlham Əliyevin siyasi fəaliyyətində bir-birini sürətlə əvəzləyən nailiyyətlərin çıxış nöqtələrindən biri də məhz bu amil idi. Əgər itirdikləri siyasi mövqelərin törəməsi olan psixoloji diskomfort müxalifət liderləri üçün səciyyəvi xüsusiyyətdirsə, onlardan fərqli olaraq İlham Əliyevin psixoloji hazırlığı kifayət qədər yüksək idi. Ola bilsin ki, opponentlər bu yanaşmanı ümumi nəzəri mülahizə hesab edərək, burada hansısa bayağı stereotiplər axtarmağa cəhd göstərsinlər. Amma yenə də müqayisəli təhlil ortaya kifayət qədər ciddi faktların qoyulmasına zəmin yaradır.

Məlumdur ki, hər bir liderin malik olduğu siyasi leksikonun tərkibi Onun siyasi keyfiyyətlərinin əsas cizgilərini müəyyənləşdirir. Linqivistik baxımdan istənilən liderin siyasi portretini və onun siyasi yetkinlik səviyyəsini öyrənmək olar. Məsələn, əksər müxalifət liderlərinin siyasi leksikonu daha çox revanşizmi təbliğ edən ifadələrdən ibarətdir. Bu isə onu göstərir ki, müxalifət liderləri siyasəti ictimai-tarixi hadisə kimi deyil, ardı-arası kəsilməyən intriqalar həlqəsi kimi qəbul edirlər. İlham Əliyevdə isə əksinə, siyasi leksikon, yüksək erudisiya qabiliyyəti Onun söykəndiyi dəyərləri və intelektual səviyyəsini əks etdirir. Müxalifət liderlərindən fərqli olaraq obrazlaşdırılmış ifadə tərzləri, o cümlədən siyasi jarqon elementləri Onun söz ehtiyatına yaddır. İlham Əliyev siyasi prosesləri praqmatikcəsinə izah etməyi bacarır və baş verən siyasi hadisələr Onun baxışlarında fantastik təsəvvürlər yaratmır.

Müxaliflər İlham Əliyevin ali hakimiyyətə gəlmək və onu əldə saxlamaq imkanınına da şübhə ilə yanaşır, Onun idarəetmə, rəhbərlik bacarığı və səriştəsini tamamilə inkar edirdilər. Təbii olaraq, belə bir sual ortaya çıxır: heç bir ali savadı olmayan, idarəçilik orqanlarında çalışmayan, siyasətə institut laboratoriyalarından gələn və böyük siyasətin əlifbası ilə mitinqlər və çayxana söhbətləri vasitəsi ilə tanış olan adamlar yüksək dövlət vəzifələrinə gəlməyi və dövləti idarə etməyi özlərinə layiq bilirlər, ancaq dünya siyasətinin bütün incəlikləri haqqında geniş elmi və nəzəri biliyə malik olan, peşəkar diplomat təhsilli, tanınmış dövlət xadimləri ilə uğurlu danışıqlar aparmağı bacaran, Azərbaycanın problemlə-

rini həll etmək gücünü nümayiş etdirən, idarəçilikdə kifayət qədər səriştəsi və təcrübəsi olan İlham Əliyev isə buna hazır hesab olunmur? Rəqiblərinin versiyalarının əksinə olaraq obyektivliyi şübhə doğurmayan müstəqil, hətta müxalif meyilli elmi araşdırma mərkəzlərinin keçirdiyi rəy sorğuları belə İlham Əliyevin bütün müxalif siyasətçilərdən reytinq göstəricilərinə görə yüksəkdə durduğunu sübut edirdi.

Bəzi siyasət həvəskarları belə bir iddia irəli sürürdülər ki, İlham Əliyev gələcəkdə siyasi fəaliyyətlə məşğul olmaq istəyirdisə, mütləq xalq hərəkatında iştirak etməli idi. Bu düşüncəyə görə, xalq hərəkatında iştirak etmək təkcə küçə-meydanlarda populist çıxışlar etməkdən, pafoslu şüarlar söyləməkdən, sensasiyalı bəyanatlar verməkdən ibarətdir. Halbuki, İlham Əliyev 20 Yanvar hadisələrindən dərhal sonra Heydər Əliyevlə birlikdə sovet imperiyasının paytaxtında faciəni törədənlərə qarşı öz etirazını bildirmiş, eyni zamanda, Azərbaycan həqiqətlərinin, xalqımızın uğrunda mübarizə apardığı ideyaları müxtəlif siyasi dairələrdə, böyük siyasətin müəyyən olunduğu auditoriyalarda sivil formada təqdim və təbliğ etmişdir. Görünür, bir qrup şəxslərin siyasi mübarizə və siyasi fəaliyyətin nə olduğun anlaması üçün hələ xeyli vaxt tələb olunacaq. Opponentlər özləri də arqumentlərinin gücsüzlüyünü və əsassızılığını yaxşı dərk edir və belə bir yanlış təbliğat kampaniyasının da hər hansı bir effekt verməyəcəyini, təsirsiz qalacağını bilməmiş deyillər. Onu da bilirlər ki, seçimində bir dəfə səhv etmiş Azərbaycan xalqı bir daha hakimiyyətin siyasət həvəskarlarına və təsadüfi adamlara keçməsinə imkan verməyəcəkdir.

Müxalifət düşərgəsinin təbliğatında, bəlkə də, ən aparıcı mövzu olan "varis planı" məsələsi bu düşərgənin interpretasiyalarında az qala ən böyük təhlükə kimi dəyərləndirilirdi. Söz yox ki, prezident seçkilərindən sonra müxalifət rəhbərləri bu məsələdə çox ciddi şəkildə yanıldılar, hətta pərtliklərini də gizlətməyə çalışaraq müəyyən jestlərə əl atmalı oldular. Müxalif liderlərin tez-tez, özü də xüsusi intonasiya ilə qabartdığı "varis planı" məsələsini ortaya atmaqda məqsəd, bir tərəfdən iqtidara qarşı mübarizənin effektivliyinə nail olmaqdan ibarət idisə, digər tərəfdən, əlbəttə, öz zəifliklərini ört-basdır etmək niyyəti güdürdü.

Nəhayət, müxalifətin bu siyasi anlayış ətrafındakı təbliğatının əsassızlığı proseslərin gedişində bütün çılpaqlığı ilə üzə çıxdı və tam təsdiqləndi. Xatırladaq ki, prezident seçkiləri ərəfəsində keçirilən mitinqlər zamanı müxalifət ortaya belə bir tezis atmışdı ki, guya müxalifətin təzyiqləri iqtidarı "varis planı"ndan birdəfəlik əl çəkməyə məcbur edib. Belə hesab etmək olardı ki, bu məsələ ilə bağlı söz-söhbətin bundan sonra yenidən gündəliyə çıxarılması heç müxalifətin özünə də əlverişli olmayacaqdır. Müxalifətin "varis planı" barədəki cəfəng və uydurma iddialarının iflası özünü həm də onda göstərdi ki, bu düşərgədə sözügedən məsələ ilə bağlı heç bir yekdillik və vahid mövqe yox idi. Gah iddia olunurdu ki, Qərb bu "planı" dəstəkləməyəcək, gah bildirilirdi ki, dövlət başçısı həmin məsələni Rusiyanın dəstəyi ilə həll etməkdədir, gah da deyilirdi ki, Türkiyə və Avropa Birliyi Azərbaycan iqtidarının "varis planı" ilə bağlı addımlarını sakit qarşılayacaq. Göründüyü kimi, seçki ön-

cəsi müxalifət ideoloqları bu məsələdə də, sadəcə olaraq, çaşqınlıq, səbatsızlıq və tərəddüd içində idilər.

Bu yanlış tendensiyanın süquta uğramasında adı "varis" kimi hallanan İlham Əliyevin özünün də ciddi xidmətləri oldu. Belə ki, İlham Əliyev bir neçə siyasi gedişlə müxalifətin Ona sonsuz qərəzlə yanaşan kəsimini seytnot vəziyyətinə saldı.

## SİYASİ VARİSLİK VƏ XARİCİ AMİL

İlham Əliyevin liderlik keyfiyyətlərinin beynəlxalq aspektləri də müzakirə edilən ən populyar mövzular sırasındadır. ABŞ politoloqu Rouls hesab edir ki, liderin beynəlxalq imici onun daxili siyasətdəki statusu ilə vahid ansambl təşkil etməli, bu parametrlər bir-birini tamamlamalıdır. Amma etiraf edilməlidir ki, dünyada çox az lider var ki, o, həm xarici, həm də daxili siyasətin bütün paralel müstəvilərində öz uğurlarını təmin edə bilsin. Liderin beynəlxalq imicinin hansı səviyyədə olması ilk növbədə onun öz ölkəsinin milli maraqlarının reallaşması əmsalında öz təsdiqini tapır. Əgər İlham Əliyevin siyasi lider kimi imicinə bu aspektdən yanaşsaq, qeyd olunan nəzəri müddəanın doğruluğunun tamamilə şahidi oluruq. Belə ki, istər vaxtilə neft strategiyasının reallaşması ilə bağlı gördüyü işlər, istər Avropa Şurasındakı fəaliyyəti, istərsə də Milli Məclisin deputatı kimi ölkə daxilində əldə etdiyi böyük nüfuz İlham Əliyevin liderlik keyfiyyətlərinin həm rasional, həm də xarizmatik tərəfləri barədə real təsəvvürlər yaratmışdır.

Təbii ki, İlham Əliyevin prezident seçilməsində bir sıra xarici ölkələr, Azərbaycanda strateji maraqları

olan qüvvələr də pozitiv mövqe nümayiş etdirdilər. Çünki onlar qəti əmin idilər ki, İlham Əliyev mövcud siyasi kursu bacarıqla, heç bir çətinlik çəkmədən, ardıcıl olaraq davam etdirəcəkdir.

Azərbaycanda gedən prosesləri diqqət mərkəzində saxlayan xarici mətbuat və araşdırma mərkəzləri birmənalı olaraq İlham Əliyevi yeni formasiya siyasətçisi kimi dəyərləndir, Onun Azərbaycanın prezidenti olacağını labüd və zəruri hesab edirdilər. ABŞ-ın nüfuzlu "Vaşinqton post" qəzeti 17 avqust 2003-cü il tarixli sayında "Azərbaycan müxalifətinin seçkiləri udmaq şansı yoxdur" sərlövhəli məqaləsində yazırdı: **"Bu ölkədə müxalifət nə Heydər Əliyev, nə də İlham Əliyev üçün real qüvvə deyil. Müxalifətin heç bir proqramı yoxdur. Onlar öz aralarında kimin birinci olması ilə bağlı mübarizə aparır və heç zaman bir-birini başa düşmürlər".** Həmin ayın sonunda Amerika Konqresinin nümayəndə heyətinin tərkibində Bakıya səfər edən konqresmen Kurt Ueldon isə İlham Əliyevə xitabən bu məqamı daha açıq ifadə etmişdi: **"Biz bilirik ki, Siz bu vəzifənin öhdəsindən layiqincə gələcəksiniz. Bir çox ölkələrin xalqları arzulayırlar ki, onların Sizin kimi bacarıqlı lideri olsun. Bu sarıdan Azərbaycan xoşbəxt ölkədir. İnanıram ki, Siz Azərbaycana layiqincə xidmət edəcək, ölkənizə atanız qədər sadiq olacaqsınız, onun inkişafını təmin edəcəksiniz".**

Hələ 2003-cü ilin sentyabrında İlham Əliyevin Azərbaycanın Baş naziri kimi xarici ölkələrə səfərləri, verdiyi bəyanatlar beynəlxalq müstəvidə Azərbaycanın gələcək liderinin yüksək diplomatik keyfiyyətləri barədə yetərincə müsbət rəy formalaşdırmış və bir daha təsdiq etmişdi ki, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan

ümummilli lider Heydər Əliyevin başladığı xarici siyasət kursunu uğurla davam etdirəcəkdir.

Məlumdur ki, Qərbin Azərbaycandakı strateji maraqlarının sərhədləri yalnız iqtisadi amillərlə kifayətlənmir. Burada geopolitik maraqlar da müstəsna əhəmiyyətə malikdir. Bəs, həmin geopolitik maraqlar nədən ibarətdir və ümumiyyətlə, İlham Əliyev həmin maraqların təminatı üçün hansı imkanlara malikdir? İlk növbədə, stabillik amili nəzərə alınmalıdır. Bir qədər virtual da olsa müxalifət liderlərini hakimiyyətdə təsəvvür etsək siyasi proseslərin, ilk növbədə, xaosla müşayiət olunacağı şübhə doğurmur. O da məlumdur ki, siyasi xaos ancaq anti-Azərbaycan meyilli qüvvələrin təşəbbüsü ələ almaları üçün ən münbit siyasi şərait demək idi. Müxalifətin özünüqoruma instinktinin zəifliyi hakimiyyətin ən kiçik siyasi "təkanlardan" belə sarsılmayacağına təminat vermirdi. Amma belə bir təhlükə İlham Əliyev üçün xarakterik deyildi. Son on ilin siyasi təcrübəsi sübut edirdi ki, hakimiyyətin diletantlardan qorunması üçün, hazır və vaxtında tətbiq edilməsi nəzərdə tutulan ciddi mexanizmlər var. Həmin mexanizmlərdən biri Heydər Əliyevin siyasi kursuna olan kütləvi inam və İlham Əliyevin şəxsində həmin kursun davam etdirilməsinə olan müsbət ictimai dəstək idi.

İlham Əliyevin beynəlxalq dəstək imkanlarını şərtləndirən amillər sırasında Onun siyasi imici mühüm rol oynadı. Xüsusilə, burada Onun diplomatik keyfiyyətləri, böyük dövlətlərin siyasi və hakimiyyət dairələri ilə əlaqələri diqqəti cəlb edir. Əgər radikal müxalifətin nəhəng dövlətlərə münasibəti yalnız onlardan real dəstək alınmasına hesablanırdısa, İlham Əliyevin dövlətlə-

rarası ortaq strateji maraqlara dair konkret missiyaların daşıyıcısı olması, Onun beynəlxalq imicinə də öz pozitiv təsirini göstərirdi. Başqa sözlə desək, O, hakimiyyətə gəlişini reallaşdırmaq üçün bu əlaqələrdən sui-istifadə etmir, sadəcə olaraq, Onun dəstəklənməsi ortaq strateji maraqların tələbi kimi üzə çıxırdı və bu baxımdan İlham Əliyevin beynəlxalq aləmdə formalaşan müsbət imici az rol oynamırdı.

Məlumdur ki, Azərbaycanda iri neft şirkətlərinin iqtisadi maraqlarının təmin olunmasının başlıca şərti sayılan təhlükəsizlik və sabitlik durumunun davamlılığına Heydər Əliyevdən sonra da təminat axtaran ABŞ və Qərb dövlətləri İlham Əliyevi bu kursun davamçısı kimi qəbul edirdilər. Əslində O, Azərbaycanın neft strategiyasının dünya dövlətləri tərəfindən dəstəklənməsinə və bölgəyə investisiyaların cəlb olunmasına yönəlmiş uzunmüddətli prosesin dünən iştirakçısı idisə, bu gün artıq təşkilatçısı və təminatçısı ola bilərdi. Bütün bu amillər İlham Əliyevin real şanslarına marağın əhəmiyyətli dərəcədə müsbət təsir etdiyini göstərirdi.

Artıq 15 oktyabr 2003-cü ilə qədər İlham Əliyevin siyasi fəaliyyəti Onun barəsində tam və bitgin təsəvvürlər yaratmışdı. Araşdırmalar sübut edirdi ki, 2000-ci illərin əvvəllərində ölkənin siyasətçiləri sırasında ən çox maraq dairəsində olan, siyasi divident qazanan və bunun müqabilində total təzyiqlərə məruz qalan məhz İlham Əliyev olub. Bu fikri müxalifət mətbuatının monitorinqi bir daha təsdiqləyir. Ona qarşı ünvanlanan təzyiqlərin mahiyyəti daha çox müxalifətin daxili narahatlığını ifadə edirdi. Onların daxili narahatlığını isə şübhələr deyil, İlham Əliyevin potensial imkanları şərtləndirirdi.

İlham Əliyevin siyasi baxışlarının kifayət qədər aydın olması təsadüfi deyil, çünki bu baxışlarda yalnız və yalnız həm daxili, həm də xarici siyasətdə Heydər Əliyevin milli maraqlara söykənən siyasi və dövlətçilik ənənələrinin inkişaf etdirilməsi durur. Xüsusilə, Azərbaycanın xarici siyasəti ilə bağlı iki təməl istiqamət - balanslaşdırma və neft strategiyasının uğurla həyata keçirilməsi Onun siyasi potensialı ilə mütənasibdir. Sözsüz ki, istər Qərb ölkələri, istərsə də daxili - ictimai rəy Heydər Əliyev xarici siyasət kursunun təməl prinsipi olan bu iki amilin gələcək taleyi barədə bu gün də düşünməkdədir. İlham Əliyevin siyasi baxışlarındakı şəffaflıq da məhz bununla bağlıdır. Komparativ təhlil zamanı aydın olur ki, müxalifətin xarici siyasətlə bağlı təsəvvürləri ya kompleks şəkildə formalaşmayıb, ya da ki, onların strateji planları bir dövlət kimi Azərbaycanın müstəqilliyi üçün təhlükəli tendensiyaya çevrilə bilər.

İlham Əliyev siyasətdə dinamikliyə xüsusi önəm verir. Yəni Onun imici kortəbii və ötəri kombinasiyaların sintezindən ibarət deyil. Həmçinin, İlham Əliyevin təsadüfi və siyasətdə konkret əhəmiyyət kəsb etməyən məsələlərin müzakirəsinə qoşulmaması və daha çox qlobal xarakterli problemlərlə bağlı münasibətini bildirməsi ictimai rəydə Ona yönələn rəğbətə həlledici təsir göstərmişdi. Onun üçün primitiv, mediativ təbliğat heç də siyasətə gəlmək üçün trampilin funksiyasını yerinə yetirməyib. Halbuki, müxalifət liderləri bütün təbliğati və praktik fəaliyyətlərini yalnız medianın imkanları üzərində qurmuşlar, bu isə ancaq və ancaq qarşılıqlı ittihamlardan uzağa getmir. İlham Əliyevlə ictimai rəy arasındakı münasibətlər universal xarakter daşıyır. Bu

cür münasibətlərin yaranması Onun həm də siyasi peşəkarlığının göstəricisidir.

Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya sosial sifariş və ictimai tələb kimi dövlətin qarşısına qoyulub. Bununla yanaşı, təbii ki, xarici siyasətin həyata keçirilməsi üsulları, kombinasiyalar, dəsti-xətt heç zaman statistik ola bilməz. Bir-birini sürətlə təqib edən geosiyasi proseslərin nəbzini tutmaq da ən vacib şərtlərdən biridir. Məhz İlham Əliyevin siyasi və diplomatik peşəkarlığı həmin problemlərin həllinə zəmanət verir və ölkəni xoşagəlməz tendensiyalardan sığortalayır.

Etiraf olunmalıdır ki, həm gerçək situasiya, həm real imkanlar, həm də İlham Əliyevin parlaq siyasi karyerası dövlət başçısının mövqeyinin daha da möhkəmlənməsini şərtləndirən elementlərdir. Bu baxımdan, prezidentin andiçmə mərasimindən dərhal sonra ön plana çıxan və təcrübədə artıq sınaqdan keçirilən amillərə marağın hədsiz dərəcədə artmasını təbii qəbul etmək lazımdır.

İlk növbədə, ölkədəki ictimai-siyasi sabitlik prezidentə imkan verdi ki, həyata keçirdiyi siyasətdə əsas ağırlığı sosial-iqtisadi problemlərin çözülməsi, həmçinin, Azərbaycanın bir nömrəli problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətinə yönəltsin. İlham Əliyevin hakimiyyətinə alternativ ciddi siyasi müxalifət, yaxud 10 il əvvəl olduğu kimi hərbi müxalifət təhlükəsi yoxdur. Dövlətçilik maşını sistemli şəkildə oturaqlaşıb və dövlət artıq 1993-cü ilin deyil, müasir dünyanın gerçəklikləri ilə yaşayır. Bu vacib amillərə söykənən İlham Əliyev ölkədaxili proseslərin konstruktiv məcrada inkişafını davam etdirmək, onu sürətləndirmək imkanını qısa zaman kəsiyində təsdiqlədi. O,

qısa bir vaxtda nəinki hakim komanda, hətta bütün Azərbaycan üçün birləşdirici amil kimi qəbul olundu.

2003-cü il 15 oktyabrdan sonra bu sahədə "buzların əriməsi", radikal müxalifət düşərgəsində olan bir sıra qüvvələrin neytral və loyal müstəviyə transformasiya olunması, müxalifətin ifrat düşmənçiliyə yuvarlanmasına etirazların kütləvi xarakter alması dediklərimizi təsdiqləyir. Bu baxımdan, prezidentin atdığı mütərəqqi addımlar - həm seçkidən əvvəl, həm də seçkidən sonra, müxalifəti dialoqa səsləməsini də yüksək qiymətləndirmək lazımdır. Dövlət başçısının bu dəvəti Azərbaycan cəmiyyətində sivil siyasi münasibətlərin qorunmasına və inkişafına xidmət edir. O, daim milli birliyin fəal müdafiəçisi olub və bu istiqamətdə ardıcıl təşəbbüslər, konkret addımlarla çıxış edib. Lakin təəssüflər olsun ki, radikal müxalifət dairələri vətəndaş həmrəyliyinə xidmət edən bu çağırışı dərk etmək qabiliyyətində deyillər.

Proseslərin təhlili göstərir ki, prezident xalqın mütləq qisminin dəstəyini qazanmaqla, böyük gücə söykənərək Dağlıq Qarabağ danışıqlarında uğur qazanmaq üçün milli birliyə nail olmaq, həm də ötən əsrin sonlarından başlayaraq izlənən sosial-iqtisadi yüksəliş üçün daha güclü zəmin yaratmaq istəyindədir.

İlham Əliyevin prezidentliyi ölkənin beynəlxalq əlaqələri baxımından da keyfiyyətcə daha effektiv zamana təsadüf edir. İndi Azərbaycan nə beynəlxalq tanınma həsrətində olan, nə ətrafında formalaşdırılmış antitəbliğat maneəsini aşıb keçməyə çalışan, nə də dünyaya çıxış yolları arayan dövlətdir. Azərbaycan son on ildə ciddi əsaslara malik, balanslaşdırılmış xarici siyasət kursu hesabına, üstəlik məlum 11 sentyabr hadisələrin-

dən sonra formalaşmış antiterror koalisiyasının fəal iştirakçısı olaraq strateji əhəmiyyətli bölgədə yerləşən, bəzi müstəqil dövlətlərə xas olan "banan respublikası" ənənələrini inkar edən regional güc mərkəzidir. Azərbaycan artıq daxildə dövlətçiliyimizin inkişafı, sosial-rifahın təminatı, xarici siysətdə isə milli maraqların ödənməsi üçün təsirli vasitələrə malikdir.

Şübhəsiz, İlham Əliyevin prezidentliyi dönəminə təsadüf edən əsas fundamental amil 15 oktyabr 2003-cü ildən sonra yeni siyasi baxışlar sisteminin formalaşması mərhələsinin başlanmasıdır. **Ümumiyyətlə, İlham Əliyevin hakimiyyəti bütövlükdə yenilik anlayışı ilə sıx surətdə bağlıdır. Bunu nəinki Onun seçki təbliğatı, həm də seçkidəki qələbəsindən sonra yeni ictimai düşüncə sisteminin formalaşması, Azərbaycanın siyasi həyatına müasir oyun qaydaları - praqmatiklik, liberal iqtisadi münasibətlər, açıq vətəndaş cəmiyyəti, sivil siyasi mübarizə, siyasi qüvvələr palitrasında rəqiblərini təkcə tənqid etmək deyil, həm də fəaliyyətinə, bacarıq və qabiliyyətinə görə qiymət vermə ənənələrinin yaranması bir daha sübut edir.**

## GÜCLÜ LİDER, ZƏİF MÜXALİFƏT

Əslində, bütün bunlar Azərbaycan siyasəti üçün ənənəvi müxalifətçilik, populizm, radikallıq, anarxizm, dağıdıcılıq, qaraguruhçuluq, inqilabçılıq, destruktivlik tendensiyalarının aktuallığını itirməsi demək idi.

Azərbaycan Prezidenti xarizmatik liderdir. Onun mütərəqqi siyasi keyfiyyətləri insanlarla çoxsaylı görüşlərində özünü büruzə verir. İlham Əliyevin vətəndaşlarla ən qısa ünsiyyəti belə Onun yüksək siyasi keyfiyyətlə-

rini parlaqlığı ilə əks etdirir. Danışıq tempi, nitqindəki rəvanlıq, məntiqi ardıcıllıq, təmkin Azərbaycan Prezidentinin siyasi portretinin özgün cizgilərindəndir. İlham Əliyev dövlət adamı olaraq nəzəriyyəçidən daha çox praktikdir. O, öz nitqlərini hər hansı nəzəriyyələr, doqma və ehkamlar üzərində deyil, real həyatda təsdiqini tapmış müddəalar üzərində qurur. Auditoriyanın xarakterindən asılı olmayaraq Azərbaycan Prezidenti insanlarla ünsiyyət anlarında müstəqil dövlətimizin qarşısında dayanan yeni planlar, perspektivlər haqqında fikir və düşüncələrini aydın şəkildə çatdırır.

Dövlət rəhbərinin hər bir nitqi Onun respublikanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatının bütün sahələri üzrə geniş məlumata malik olduğunu sərgiləyir. Bütün məsələlərə ölçülüb-biçilmiş yanaşma tərzi Azərbaycan Prezidentinin çıxışlarını nəzəri və təcrübi hazırlıq üzərində kökləndiyini göstərir. Siyasi illüziya və populizmdən uzaq olması, problemlərə interpretativ mövqedən və real situasiyadan yanaşması, gerçəkliyi təhrif etməməsi, İlham Əliyevin kamil siyasətçi portretini formalaşdıran cizgilərindəndir. Bütün bu keyfiyyətlər çələngini Onun malik olduğu yüksək qətiyyət, intellekt, enerji, potensial, işgüzarlıq tamamlayır. Heydər Əliyevin zəngin idarəçilik keyfiyyətlərini dərindən əxz etməsi, bu və ya digər problem ətrafında müzakirələrin fəal iştirakçısı kimi yetişməsi, çağdaş Qərb liderlərinə xas imici, ən başlıcası, təmiz keçmişi İlham Əliyev fenomeninin cəmiyyət üçün cəlbediciliyini artıran ən əsas amillərdəndir. Azərbaycan Prezidenti xarakter etibarilə səmimidir. Bu keyfiyyət xüsusilə Onun sıravi vətəndaşlar-

la təmaslarında daha qabarıq şəkildə üzə çıxır. İlham Əliyev bütün müdrik dövlət adamları kimi hər kəslə dil tapmağı, prezident - vətəndaş arasındakı psixoloji səddi götürməyi bacarır. Bu da dövlət rəhbərinə xalqın böyük rəğbətini, inamını qazandırır. Dövlət rəhbəri öz komandasında təmsil olunan şəxslərlə də səmimi, qarşılıqlı hörmətə əsaslanan rəftarın tərəfdarıdır. Amma bütün bunlar yeri gəldikcə Azərbaycan Prezidentinin yetərincə sərt qərarlarını, qəti addımlarını da istisna etmir. İlham Əliyev milli ənənələrə, mənəvi dəyərlərimizə müsbət mənada mühafizəkar prizmadan yanaşır. Bütün xarizmatik liderlər kimi, İlham Əliyev də özünə qarşı son dərəcə tələbkardır. O, ictimai rəydə özünənəzarətin və qanunçuluğun təminatçısı kimi tanınır. Dövlət rəhbərinin fəaliyyətində nəzərə çarpan ciddi nizam-intizamı və böyük məsuliyyət hissini müşahidə etmək çətin deyil.

Bu reallıqların fonunda görünən həqiqət ondan ibarətdir ki, Prezident İlham Əliyevin dövlət başçısı olaraq seçkidən sonrakı nailiyyətləri, son beş il ərzində ölkədə gedən inkişaf, aparılan islahatlar və quruculuq prosesləri qarşısında radikal müxalifət liderləri lazımsız siyasi tullantıya çevriliblər. Müxalifət partiyaları seçkidən sonrakı siyasi passivlik, elektoratsızlıq, etimadsızlıq və siyasi tənəzzül böhranından çıxa bilmir. 2003-cü il prezident seçkisindən ötən zaman kəsiyində müxalifət düşərgəsində siyasi passivliklə müşahidə olunan kəskin böhran yaşanmaqdadır. Böhranı və siyasi passivliyi yaradan bir sıra səbəblər mövcuddur:

**Birinci** səbəb, on il hakimiyyət iddiasında olmuş müxalifət liderlərinin 2003-cü il prezident və 2005-ci il

parlament seçkilərində seçicilərin dəstəyini qazana bilməmələri və seçkidə məğlubiyyətə uğramalarıdır. Ötən illərdəki prezident və parlament seçkilərinin demokratik, şəffaf və vətəndaşların siyasi fəallığı şəraitində keçməsi və seçkinin nəticələrinin qanuniliyi müxalifət düşərgəsini fakt qarşısında qoydu. Seçkilər sübut etdi ki, vətəndaşlar müxalifət liderlərinə etimad və inam bəsləmir, müxalifətin hakimiyyətə gəlmək istəyini dəstəkləmirlər. Seçkilərin nəticələrinin müxalifətçiləri belə bir fakt qarşısında qoyması, radikal düşərgəyə öz mənəvi-psixoloji təsirini göstərməyə bilməzdi və belə bir psixoloji yaşantı təbii ki, müxalifətçilərin siyasi fəaliyyətinə öz mənfi təsirini göstərməli idi. Müxalifətçilərin passivliyə düçar olmaları ümumxalq etimadsızlığının yaratdığı mənəvi-psixoloji və siyasi böhranın labüd sonluğudur.

**İkinci,** müxalifət düşərgəsi paralel olaraq başqa bir böhranı da yaşamaqdadır - kütləvi inamsızlıq! Söhbət yalnız seçicilərin müxalifət liderlərinə inamsızlığından getmir. Bu cür münasibət seçkidən sonra həm də müxalifətin öz daxilində yarandı. Belə ki, on il ərzində partiyadaşlarını hakimiyyətə gələcəyinə inandıran müxalifət liderləri, onları çoxsaylı mitinq və aksiyalara çağırmaqla "siyasi mübarizə" apardıqları barədə inam, görüntü yaratmaq istəmişdilər. Lakin prezident və parlament seçkilərindəki məğlubiyyət müxalifət partiyalarının yerli təşkilatlarına və sıravi üzvlərinə reallığı, yəni bu "siyasi mübarizə"nin nədən ibarət olduğunu tamamilə anlatdı. Müxalifət partiyalarının yerli təşkilatları və sıravi üzvlər dərk etdilər ki, indiyə qədər inandıqları liderlər onları yalnız siyasi oyunlara, öz liderlik mərəzlərinə,

daxili ambisiya savaşlarına çəkərək, onları aldadıblar. Onlar başa düşdülər ki, bir qrup müxalifət funksioneri onlardan siyasi alət kimi istifadə edib, "siyasi mübarizə", "demokratiya uğrunda mübarizə" görüntüsü yaratmaqla daxili və xarici maliyyə himayədarlarından pullar alıb və bu illər ərzində öz həyat şəraitlərini yaxşılaşdırmaqla, şəxsi maraqlarını ödəməklə məşğul olublar. Digər həqiqət isə odur ki, seçkidə vətəndaşların çox böyük əksəriyyətinin etimadsızlığı ilə üzləşən sıravi müxalifət mənsubları seçkidən sonra öz liderlərinin siyasi perspektivlərinə olan inamlarını tamamilə itirdilər. Bütün bu həqiqətlərlə üzləşən müxalifət partiyalarının aparıcı funksionerləri və üzvləri öz liderlərinə inamsızlıq və etimadsızlıq göstərərək, partiya sıralarını tərk etdilər. 2003-cü il prezident seçkilərindən dərhal sonra müxalifət partiyalarını kütləvi tərketmələr bürüdü, bəzi yerli təşkilatları isə fəaliyyətlərini tamamilə dayandırdıqlarını bəyan etdi.

**Üçüncü,** müxalifətə güclü siyasi zərbə vuran real amil Azərbaycan vətəndaşlarının ulu öndər Heydər Əliyevin siyasi kursunu dəstəkləməsi və bunu seçki vasitəsilə sübut etməsi oldu. Müxalifət liderləri seçki məğlubiyyətlərini həm də xalqın iradəsinin yekunu kimi qiymətləndirmək zərurəti ilə üz-üzə qaldılar.

**Dördüncü,** Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, demokratik yolla prezident seçilmiş İlham Əliyevin dövlət başçısı olaraq müxalifətçilərin qərəzli davranışlarına, siyasi manipulyasiyalarına, yalan və böhtanlarına reaksiya verməməsi radikal, qərəzli, qeyri-konstruktiv müxalifət partiyalarını Azərbaycan cəmiy-

yətində tamamilə ifşa və iflas vəziyyətinə saldı, onların cəmiyyət üçün əhəmiyyətsizliyini bir daha təsdiqlədi.

Prezident İlham Əliyevin yalnız ölkənin və millətin gələcək inkişafı, əhalinin sosial durumunun yaxşılaşması və Dağlıq Qarabağ probleminin həlli ilə, ölkənin iqtisadi yüksəlişilə məşğul olmasının, sahibkarlığın inkişafı üçün tədbirlər həyata keçirməsinin, Azərbaycanın daha da güclü dövlətə çevrilməsi istiqamətində real fəaliyyət göstərməsinin fonunda müxalifət öz pozuculuq, antitəbliğat, dezinformasiya fəaliyyəti, öz qərəzli və aldadıcı davranış cəhdləri ilə çox cılız, zəif, perspektivsiz, dayanıqsız və dağınıq görünür. Əslində, bu görünüş seçkidən sonrakı müxalifətin əsil real görünüşüdür. Yəni, radikal müxalifət ölkədə gedən siyasi, iqtisadi, sosial proseslərin və prezident İlham Əliyevin dövlətçilik fəaliyyətinin qarşısında necə varsa, elə də görünür. Odur ki, müxalifət liderlərinin özlərini siyasi reabilitasiya cəhdi nə qədər başa düşüləndirsə, bu cəhdin əbəs, əhəmiyyətsiz olduğu və gözlədikləri nəticələri verməyəcəyi də bir həqiqətdir.

Təbii ki, bu reallıq hakimiyyət və ictimai rəyə yaxşı məlumdur. Bu baxımdan, təsadüfi deyil ki, hakimiyyət bütün imkanlarını və resurslarını məhz ölkənin problemlərinin həlli istiqamətində səfərbər edib. Məlumdur ki, 1993-cü ildən etibarən həyata keçirilən köklü tədbirlərə baxmayaraq, Azərbaycanın hələ də həllini gözləyən bəzi problemləri var və onların çözümü məsuliyyəti məhz İlham Əliyev hakimiyyətinin üzərinə düşür. Bunlar, qeyd etdiyimiz kimi, ilk növbədə, Dağlıq Qarabağ münaqişəsi və regional təhlükəsizlik amilinin formalaş-

dırılması, demokratik institutların inkişafı, vətəndaş-cəmiyyət-dövlət, vətəndaş-məmur münasibətlərinin yeni baxışlar sistemi çərçivəsində tənzimlənməsi, intellektual imkanların artırılması, orta təbəqənin, milli sahibkarlığın möhkəmləndirilməsi əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması və s.

Beləliklə, Azərbaycanda demokratiyanın daha bir nailiyyəti kimi tarixilik qazanmış 15 oktyabr 2003-cü il prezident seçkilərindən keçən müddət ölkəmizdə sosial-iqtisadi yüksəlişin, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin yeni bir mərhələsinə çevrilmişdir. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu dövlətçilik strategiyasını özünəməxsus dinamizm, böyük əzm, yüksək vətənpərvərliklə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sistemli siyasət ölkəmizdə demokratik islahatların ardıcıllığını təmin etmişdir. Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini daha da möhkəmləndirmiş, sosial-iqtisadi inkişafına, insanın hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması vəziyyətinə və digər meyarlara görə dünyanın ən qabaqcıl ölkələri sırasına qədəm qoymuşdur. İlham Əliyevin Azərbaycan dövlətinə rəhbərlik etməsinin səciyyəvi cəhətləri və əsas əlamətləri bunlarla məhdudlaşmır.

İnsan amilinin önə çəkilməsi, bütün məsələlərdə Azərbaycan vətəndaşlarının hüquq və mənafelərinin müdafiəsi, xalqa xidmət prinsipinin dövlət və hökumət strukturları qarşısında başlıca vəzifə kimi qoyulması, mövcud iqtisadi potensialın insan kapitalına çevrilməsi üçün imkanların səfərbərliyə alınması İlham Əliyevin idarəçilik üslubunun ən xarakterik göstəriciləridir.

# III FƏSİL

# DAVAMLI VƏ DİNAMİK İNKİŞAF

*Mənim dünyagörüşüm belədir, mənim fəlsəfəm belədir. Mən Azərbaycanı müasir dövlət kimi görmək istəyirəm. Zəngin, iqtisadi cəhətdən möhkəm, siyasi cəhətdən azad, müasir, dünyaya açıq, əməkdaşlığa hazır, öz mövqeyini müdafiə edən, qüdrətli ordu potensialına malik olan, öz ərazi bütövlüyünü bərpa edən ölkə kimi görmək istəyirəm və bu yolda əlimdən gələni edəcəyəm. Məni bu yoldan heç kim və heç nə döndərə bilməz!.*

**İlham Əliyev**

## DÖVLƏT İDARƏÇİLİK SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Müasir dünya xalqların iradəsi əsasında dövlət idarəçiliyi missiyasını öz üzərinə götürmüş liderlər qarşısında yeni şərtlər müəyyənləşdirir. Bu şərtlərin hansı səviyyədə yerinə yetirilməsi, çağdaş dünyamızda gedən inkişaf proseslərinin ölkənin milli tərəqqisinə doğru istiqamətləndirilməsi hər bir dövlət rəhbərinin siyasi peşəkarlığından, uzaqgörənliyindən, öz xalqına, vətəninə bağlılığından asılıdır.

Ümummilli lider Heydər Əliyevin böyük müdrikliklə müəyyən etdiyi inkişaf strategiyasını bu gün uğurla həyata keçirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik missiyasını diqqətlə nəzərdən keçirsək, dövlət başçı-

sının fəaliyyətində bu şərtlərin necə dəqiqliklə ifadə edildiyini görərik. Bu şərtlərdən ən mühümü, şübhəsiz, nizamı çox tez-tez pozulan qlobal siyasət arenasının sərt müdaxilələri qarşısında uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlik nümayişidir. Azərbaycan Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində son illər əldə edilən uğurlar da elə bu amilə əsaslanır.

Demokratik cəmiyyət quruculuğunda ən mühüm məqamlardan biri də infrastrukturda aparılan islahatlar, yeni təsisatların yaradılmasıdır. Bu mənada ötən beş ili məhsuldar dövr kimi səciyyələndirmək olar. Azərbaycanın inkişaf etmiş dünya dövlətləri sırasına qatılması üçün zəruri olan demokratik mühit, hüquqi dövlət atributlarının yaradılması vacib şərtdir. İlham Əliyev prezident seçildikdən sonra aparılan məqsədyönlü islahatlar çərivəsində bir sıra nazirliklərin yaradılması haqda fərmanlar imzaladı. Belə ki, 20 fevral 2004-cü il tarixində **"Azərbaycan Respublikasinin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması haqqında"** sərəncam imzalanmışdır. Sərəncama əsasən Azərbaycan Respublikasının Rabitə Nazirliyi ləğv edilərək onun əsasında Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradıldı. 16 dekabr 2005-ci il tarixdə **«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yaradılması haqqında»** Azərbaycan Respublikası Prezidentinin fərmanı imzalandı. Azərbaycan Respublikasında təbii fəlakətlərin, texnogen xarakterli qəzaların və yanğınların qarşısının alınmasını, onların nəticələrinin aradan

qaldırılmasını, belə hallarda xilasetmə və bərpa işləri üzrə müvafiq orqanların fəaliyyətinin vahid mərkəzdən idarə olunmasını, ölkədə mülki müdafiə işinin təşkilini və həyata keçirilməsini təmin etmək məqsədi ilə yaradılmış bu nazirliyin tabeliyinə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mülki Müdafiə İdarəsi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yanğından Mühafizə İdarəsi, Dövlət Sularda Xilasetmə Xidməti, Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-kommunal departamentinin "İzotop" xüsusi kombinatı, Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin Tikilməkdə olan Obyektlərin Birləşmiş Müdiriyyəti və Müdiriyyətin anbarları verilmişdir. Eyni zamanda, Azərbaycan Respublikasının Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsi, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Material Ehtiyatları Komitəsi ləğv edilərək onların funksiyaları, əmlakı və tabeliyində olan idarə və təşkilatlar, əsas fondları və dövlət ehtiyatları ilə birlikdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilmişdir. Eyni tarixdə imzalanmış digər bir fərmanla **Azərbaycan Respublikasinin Müdafiə Sənayesi Nazirliyi** formalaşdı. Azərbaycan Respublikasında dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi ləğv edilərək onun bazasında Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi yaradıldı.

Bütün yuxarıda qeyd etdiklərimiz bir daha təsdiq edir ki, Prezident İlham Əliyev Heydər Əliyevin dövlət

idarəçiliyi məktəbinin ən mühüm və üstün cəhətlərinə sədaqət nümayiş etdirir və ona yeniliklər gətirir.

Ümummilli liderimiz Azərbaycanda elə bir mükəmməl idarəçilik sistemi yaratmışdır ki, həmin sistem hələ çox illər bundan sonra da ölkəni uğurla inkişafını təmin edəcəkdir. Bu idaretmə mexanizimi dövlət qulluğunda çalışan məmurlardan peşəkarlıq, yüksək nizam-intizam, peşəsinə hörmət, tapşırılan vəzifələri məsuliyyət və vicdanla icra etmək, vətənpərvərlik və humanistlik kimi keyfiyyətlər tələb edir. Heydər Əliyevin məmurlardan başlıca tələbi və tövsiyəsi ondan ibarət idi ki, dövlət qulluqçusu öz nümunəvi fəaliyyəti ilə cəmiyyət üçün örnək olmalı, işini cəmiyyətin sifarişlərinə, tələblərinə uyğun şəkildə qurmağı bacarmalıdır.

Bu məqsədlə son illər ölkəmizdə ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmiş, dövlət qulluğu sahəsində qanunvericlik bazası təkmiləşdirilmiş, mükəmməl hüquqi-normativ baza yaradılmış, ən başlıcası isə 21 iyul 2000-ci il tarixdə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə **"Dövlət qulluğu haqqında"** qanun qüvvəyə minmiş, sonrakı illərdə isə ona bir çox dəyişikliklər edilmişdir. Bu qanunvericik bazası ölkəmizdə dövlət idarəçiliyi sahəsində peşəkar kadrların fəaliyyət göstərməsi üçün hüquqi-normativ baza yaradıb, məmurların nizam-intizam və peşə hazırlığı səviyyəsinin artmasına misilsiz xidmətlər göstərib. Bunu nəzərə alan Prezident İlham Əliyevin sərəncamı ilə 23 İyun Dövlət qulluqçularının peşə bayramı kimi təsis edilmişdir. Qeyd edək ki, dövlət başçısının bu sərəncamı Birləşmiş Millətlər Təşkilatının tövsiyəsi əsasında verilmişdir.

Müasir dünyanın siyasi, iqtisadi, mədəni və geopolitik şərtləri ilə ayaqlaşaraq Qərbə inteqrasiya strategiyasına üstünlük verən Prezident İlham Əliyevin hakimiyyət dövrünün bütün sahələr üzrə yeni tarixi mərhələ olduğunu düşünənlər, sözsüz ki, haqlıdırlar. Bu mərhələnin özəlliyi həm də ondan ibarətdir ki, dövlət idarəçiliyinə peşəkar kadrlar cəlb olunmuş, yeni təfəkkür tərzinə, müasir informasiya texnologiyalarına malik məmur korpusunun yaradılması sahəsində irəliyə doğru mühüm addımlar atılmışdır. Eyni zamanda, gənc nəslin dövlət qulluğuna cəlb edilməsi, cəmiyyətin bütün sferalarında peşəkarlara böyük üstünlük verilməsi, müasir, hərtərəfli, intellektual, qabaqcıl dünyagörüşə malik, yüksək təhsil almış şəxslərin dövlət idarəçiliyinə gətirilməsi əsas norma kimi qəbul edilmişdir.

Həmçinin, son illər dövlət qulluğunun təkmilləşdirilməsi məqsədi ilə idarəetmə sistemində islahatlar aparılarkən qarşıya bir neçə əsas məqsəd qoyulmuşdur. Onlardan ən əsası ölkə vətəndaşlarının idarəetmə prosesində fəal iştirakının və hakimiyyət orqanlarına təsir etmək imkanlarının təmin olunmasıdır. Digər məqsəd Qərb standartlarına əsaslanan məmur korpusun yaradılmasıdır. Ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyət başına gəldikdən sonra, hər il ölkədən yüzlərlə gənc Avropa, Amerika və Rusiyanın nüfuzlu ali təhsil müəsissələrinə qəbul olunur. Bu gənclər həmin təhsil ocaqlarında müasir idarəetmə texnologiyasının bütün incəliklərinə dərindən bələd olmuş, yeni dünyagörüşü qavramışlar. Bu proses hazırda uğurla davam etdirilir. Belə ki, 2006-cı il üçün ölkənin ali məktəblərinə yüksək

balla qəbul olunacaq müxtəlif ixtisaslar üzrə 5 tələbənin 2007-ci ildə Avropanın qabaqcıl ali məktəblərində təhsil almağa göndərilməsi barədə Prezident İlham Əliyevin verdiyi tapşırıq, bu siyasətin uğurla davam etdirilməsinin bariz nümunəsidir.

Dövlət qulluğunun təkmilləşdirilməsi sahəsində ölçülüb-biçilmiş kadr islahatlarının da özünəməxsus rolu vardır. Belə ki, son illər aparılan kadr islahatlarının əsas məqsədi həm də bürokratik problemlərin aradan qaldırılmasıdır. İlham Əliyevin məmurlara tələbi kifayət qədər ciddidir: hər bir şəxsin məmur kimi mövcudluğu onun fəaliyyətinin keyfiyyətindən və məsuliyyətindən asılıdır; kadrlar təmsil olunduqları komandaya böyük etimad göstərmiş insanların inamını ödəməli, sadə vətəndaşla aralarında olan bürokratik maneələri dəf etməlidir; idarəçilikdə, fəaliyyətdə, düşüncədə yenilik və sivil dəyərlər tətbiq olunmalı, bunlar iş prosesində effektiv nəticələrini verməlidir. Təsadüfü deyil ki, Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin son iclaslarının birində, dövlət başçısı bu mövzu ilə bağlı kifayət qədər sərt danışmış və prinsipial mövqeyini açıqlamışdır. Dövlət qulluğu sferasında islahatlar dedikdə, ilk növbədə, məmur-vətəndaş münasibətlərinin müasir Avropa standartları səviyyəsində tənzimlənməsindən söhbət getməlidir.

Yeri gəlmişkən, artıq iki ildir ki, Azərbaycanda dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi üzrə reallaşdırılan Avropa İttifaqının "TACİS" layihəsi həyata keçirilir. Dövlət qulluğuna qəbulda yeni sistemin tətbiqi, kadrların idarəedilməsi üzrə yeni mərkəzi

qurumun yaradılması və dövlət qulluqçularının təlim sisteminin təkmilləşdirilməsi bu layihənin əsas qayəsini təşkil edir. Məlum olduğu kimi, dövlət qulluğunun idarəedilməsi ilə bağlı rəsmi qurumun yaradılması barədə Azərbaycan Prezidenti tərəfindən müvafiq fərman imzalanmışdır.

Onu da qeyd edək ki, Prezidentin siyasi iradəsinə uyğun olaraq dövlət orqanlarında islahatların başa çatdırılması məqsədi ilə bu orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və onların fəaliyyətində təkrarçılığın aradan qaldırılması istiqamətində son illər bir sıra institusional tədbirlər görülmüşdür. Dövlət qulluğu sahəsində aparılan islahatları sürətləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli fərmanı ilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır. Eyni zamanda, korrupsiya və hüquqpozmalarla bağlı müraciətlərə, ərizə və şikayətlərə baxılması qaydalarının və müddətlərinin təkmilləşdirilməsi məsələləri Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın və Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin Əsasnamələrində özünün dolğun əksini tapmışdır. Dövlət qulluğu sahəsində aparılan islahatların məntiqi davamı olaraq "Məhkəmələr və hakimlər haqqında" qanuna edilmiş yeni əlavə və dəyişikliklərə, "Məhkəmə-Hüquq Şurası haqqında" qanuna görə, fiziki və hüquqi şəxslər hakimlər tərəfindən "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunda nəzərdə tutulan korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsi barədə məluma-

ta malik olduqda, birbaşa Məhkəmə-Hüquq Şurasına müraciət edə bilərlər. Məhkəmə-Hüquq Şurası bu halda öz qərarı ilə hakimlər haqqında intizam icraatı başlaya bilər.

Bütün bunlarla yanaşı, dövlət quluqçularının fəaliyyəti ilə bağlı ictimaiyyəti məlumatlandırmaq, ümumiyyətlə, bu sahədə şəffaflığı təmin etmək məqsədilə mərkəzi icra hakimiyyəti orqanlarında onların fəaliyyətini əks etdirən internet səhifələr tərtib edilmiş, ərizə və şikayətlərin elektron poçt vasitəsilə qəbul edilməsi işi təşkil edilmiş, korrupsiyaya qarşı mübarizə məqsədilə daxili nəzarəti həyata keçirən struktur bölmələr, dövlət qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi üçün müvafiq komissiyalar yaradılmışdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında dövlət qulluqçularını və işçiləri maarifləndirmək və təlimatlandırmaq məqsədilə mütəmadi olaraq seminarlar keçirilməkdədir. Eyni zamanda, dövlət qulluğu sahəsində islahatları sürətləndirmək məqsədilə qeyd etdiyimiz kimi, artıq iki ilə yaxındır ki, Azərbaycan Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya fəaliyyət göstərir. Hazırda dövlət orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi və mərkəzi icra hakimiyyəti orqanları arasında səlahiyyət bölgüsünun daha dəqiq müəyyən edilməsi üçün onların nümunəvi əsasnaməsinin qəbul olunması prosesi gedir. Eyni zamanda, dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə dövlət qulluqçularının etik davranış kodeksi hazırlanmışdır. Həmçinin, prokurorluq, daxili işlər, gömrük, vergi, dövlət sərhəd xidməti orqanları əməkdaşlarının etik davranış ko-

deksləri təsdiq edilmişdir. Dövlət qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi üçün tədbirlər görülmüşdür. Qeyd edək ki, qəbul edilmiş standartlara əsasən artıq bir neçə ildir ki, dövlət qulluğunun bütün sahələrində dövlət qulluğuna qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Qeyd edək ki, 1993-cü ildən etibarən dövlət qulluğu sahəsində əldə edilən nailiyyətlərin əsası, məhz 1969-cu ildən başlamış missiya ilə qoyulmuşdur. Belə ki, ümummilli liderimiz Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində respublikamızın böyük və qüdrətli elmi, intellektual, kadr, iqtisadi, sənaye, kənd təsərrüfatı və enerji potensialının yaradılmasına nail olmaqla, onun bu gün müstəqil yaşamasının möhkəm təməlini qoymuşdur. Bütün bunlar ulu öndər Heydər Əliyevin böyük və misilsiz rəhbərliyi, uzaqgörənliyi və təcrübəsi, diplomatik bacarığı və siyasi qətiyyəti nəticəsində mümkün olmuşdur. İndi bu missiya Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və dövlət qulluğu günü-gündən təkmilləşdirilir. İlk növbədə, etiraf olunmalıdır ki, İlham Əliyevin hakimiyyətinə alternativ ciddi siyasi müxalifət, yaxud 11 il əvvəlkitək hərbi müxalifət təhlükəsi yoxdur. Dövlətçilik təkmilləşdirilib və dövlət artıq 1993-cü ilin deyil, müasir dünyanın gerçəklikləri ilə yaşayır və idarə olunur.

Etiraf olunmalıdır ki, 1990-cı illərin əvvəllərində Azərbaycanda dövlət idarəçiliyi sahəsində hökm sürən özbaşınalıq, məsuliyyətsizlik, hərc-mərclik, dövlət və ictimai əmlakın amansızcasına talan edilməsi ölkəni ciddi problemlərlə üz-üzə qoymuşdu. Məhz dövlət qullu-

ğunun korrupsiyalaşması tendensiyasının əsası da həmin illərdə qoyuldu. Xüsusilə, A.Mütəllibovun hakimiyyəti illərində yüksək vəzifəli dövlət məmurlarının himayəsi və birbaşa dəstəyi ilə sovet dövründən miras qalmış kolxoz və sovxozlar ciddi talana məruz qalmışdı. O dövrdə qiymətin dövlət tərəfindən müəyyən olunması, həmçinin, dövlət sifarişlərinin yerinə yetirilməsi prosesində "şapka" üsulunun tətbiq olunması bəzi məmurları milyonların sahibinə çevirdi. Ölkənin milli sərvətləri qeyri-qanuni şəkildə ixrac edildi, ondan qazanılan vəsaitlər isə ayrı-ayrı dövlət məmurlarının xarici banklardakı hesablarına köçürüldü. Nəticədə isə strateji xammalın ixracı və gündəlik istehlak mallarının idxalı üzərində məmur himayəsi ilə idarə edilən mafioz qruplaşmalar yarandı. Bunun nəticəsində ən gəlirli ticarət və biznes sahələrinin inhisarlaşması prosesi sürətlə inkişaf etdi. Bu tendensiya, əlbəttə, A.Müttəlibov iqtidarının mahiyyətindən, o dövrdə ölkədə hökm sürən anti-demokratik idarəetmə formasından, hərbi-polis rejiminin bərqarar olmasından irəli gəlirdi.

AXC-Müsavat cütlüyünün birillik hakimiyyətini isə dövlət qulluğunda korrupsiyanın leqallaşması dövrü kimi səciyyələndirmək olar. Məlumdur ki, həmin vaxt həyata keçirilən səriştəsiz kadr siyasəti "hakimiyyət piroqu"nu hərəkat dövründə və ondan sonrakı illərdə daha çox radikalizmə qapılan, öz intellekt, savad və idarəetmə keyfiyyətlərini deyil, məhz emosiyalarını nümayiş etdirən şəxslər arasında bölüşdürülməsinə əsaslanırdı. O dövrdə belə rəy formalaşmışdı ki, dövlət idarəçiliyinə məhz bu şəxslərin - müəllim, həkim, jurnalist və s.

kateqoriyadan olan cəmiyyətin aztəminatlı hissələrinin cəlb olunması, korrupsiyaya qarşı mübarizədə effekt verəcək. Təbii ki, bu diletant dünyagörüş tezliklə iflasa uğradı. A.Mütəllibov iqtidarını korrupsiyada ittiham edən AXC-Müsavat hakimiyyəti çox keçmədi ki, ölkədə bu tendensiyanın daşıyıcısına çevrildi.

İndi isə ölkəmizdə tamam başqa dəyərlər hökm sürür. Prezident İlham Əliyev dövlət qulluqçularına müvafiq tapşırıqların verilməsi ilə kifayətlənmir, dövlət başçısı regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində gərgin fəaliyyətinin məntiqi davamı olaraq, görülən işlərlə yaxından tanış olmaq məqsədilə ardıcıl olaraq respublikanın rayonlarına səfərlər edir. Məlumdur ki, həmin səfərlər zamanı yerli hakimiyyət orqanları Prezidentə görülən işlərlə bağlı hesabatlar təqdim edir və dövlət başçısının tövsiyə və tapşırıqlarını alırlar. Bu baxımdan, dövlət başçısının regionlara ardıcıl səfərləri ölkəmizdə dövlət qulluğunun yeni əsaslar üzərində qurulmasını təmin etmişdir.

## İQTİSADİ İSLAHATLARIN DÖNÜŞ MƏRHƏLƏSİ

Siyasi və hüquqi sistemin bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması və əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının yüksək dinamizmlə davam etdirilməsi, ictimai həyatın Azərbaycanı uğurlu inkişaf yoluna çıxarmış, Cənubi Qafqaz bölgəsində həyata keçirilən qlobal enerji-kommunikasiya la-

yihələrinin əsas təminatçısına çevirmiş, beynəlxalq əlaqələrinə ciddi impulslar vermişdir. Qərbə inteqrasiya kursunu qətiyyətlə davam etdirən, vətəndaş cəmiyyəti quruculuğu yolu ilə addımlayan, beynəlxalq və regional əməkdaşlıq mərkəzinə çevrilən, ümumi daxili məhsulun artım tempinə görə dünyanın lider dövlətləri sırasında yer tutan Azərbaycan, qarşıya qoyduğu strateji hədəflərə doğru inamla irəliləyərək bütövlükdə dünya siyasətində böyük nüfuz qazanır. Respublikamızın sürətli iqtisadi inkişafı vətəndaşların sosial vəziyyətinin nəzərəçarpacaq səviyyədə yaxşılaşması, çoxlu sayda yeni iş yerlərinin açılması, regionların tarazlı inkişafı, infrastrukturun yeniləşməsi kimi pozitiv nəticələrlə əlamətdardır. Hazırda respublikamızda mövcud olan daxili sabitlik, əmin-amanlıq, demokratik inkişafın, qanunçuluğa və hüquq qaydalarına, ədalət meyarlarına ciddi şəkildə riayət olunmasının, habelə iqtisadi tərəqqinin başlıca təminatlarından biri kimi çıxış edir.

Bu uğurlu harmoniya, eyni zamanda, mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycanın dünya miqyasında sivil, demokratik yolla inkişaf edən, beynəlxalq hüquq normalarına və prinsiplərinə hörmətlə yanaşan ölkə imicini daha da möhkəmləndirmiş, xarici siyasi əlaqələrində yeni mərhələnin əsasını qoymuşdur. Bu nailiyyətlərin məntiqi nəticəsi olaraq Azərbaycan cəmiyyəti Heydər Əliyev dövlətçilik irsini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının və siyasi sistemin sabitliyinin təmin edilməsinə yönəlmiş fəlsəfi dünyagörüş kimi qəbul edir. Dünyanın aparıcı dövlətləri, o cümlədən, Qərbin demokratik dairələri Azər-

baycanın perspektivini bu kursdan kənarda təsəvvür etmirlər.

Etiraf etməliyik ki, müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında başlanmış iqtisadi islahatlar Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı hələ andiçmə mərasimindəki çıxışı zamanı ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda sosial, iqtisadi, siyasi, hüquqi, hərbi, mədəni, humanitar və digər sahələrdə başlanmış fundamental islahatları davam etdirəcəyini, ölkənin hər bir vətəndaşının Prezidenti olacağını bəyan etmişdi.

Prezident seçkilərindən sonra keçən zaman kəsiyində dövlət başçısının verdiyi bütün vədlərin əməli fəaliyyətə və praqmatizmə söykəndiyini bir daha təsdiqlədi. İlk növbədə, bəlli oldu ki, İlham Əliyev yaxın beş ildə ölkə qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. Ən başlıcası, **"Əsil siyasət real, konkret iş görməkdən ibarətdir"** - deyən Azərbaycan Prezidenti, bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün ciddi siyasi iradəyə, qətiyyətə və əzmkarlığa malikdir. Eyni zamanda, belə bir reallıq da öz əksini tapdı ki, İlham Əliyev öz dövlətçilik kursunu ulu öndər Heydər Əliyevin müəllifi olduğu dövlətçilik konsepsiyası üzərində formalaşdırır. Azərbaycan Prezidentinin istər ölkə daxilində, istərsə də respublikamızın hüdudlarından kənarda baş verən hadisə və proseslərə münasibəti birmənalı və dəqiqdir. Döv-

lət başçısının Azərbaycan üçün əhəmiyyətli məsələlərə reaksiyası heç zaman gecikmir. Bütün bunlar İlham Əliyev haqqında ictimai rəydə daha dolğun təsəvvür yaradır. Hər kəs Azərbaycanın dövlət başçısını yüksək dəyərlərin daşıyıcısı kimi qəbul edir, qiymətləndirir.

İlham Əliyevin Azərbaycanı dinamik sosial inkişafa, tərəqqiyə, davamlı sabitliyə və yüksəlişə xidmət edən strateji xəttinin layiqincə davam etdirəcəyi Onun proqram xarakterli ilk iqtisadi fərmanından bəlli oldu. 24 noyabr 2003-cü ildə **«Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında»** Fərman imzalayan İlham Əliyev, bir ictimai-siyasi formasiyadan digərinə keçidin doğurduğu obyektiv problemlərin sürətli həllinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə rəvac verdi. Məlum olduğu kimi, fərmanda ölkə iqtisadiyyatında müşahidə olunan dinamik inkişafın sürətləndirilməsi yolları nəzəri-praktiki və konseptual əsasda göstərilmişdir. Sənəddə iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına, xüsusən də, işsizliyin azaldılmasına, gənclərin faydalı məşğulluğunun artırılmasına, regionların bərabər inkişafına, qeyri-neft sektorunun gücləndirilməsinə, müəssisələrdə beynəlxalq standartlara cavab verən məhsulların istehsal olunmasına və onların dünya bazarına çıxarılmasına, aqrar sektorda islahatların başa çatdırılmasına yönəlmiş müddəalar öz dolğun əksini tapmışdır. Bundan əlavə, neft-qaz sənayesində gəlirlərin idarə olunması üzrə uzunmüddətli strategiyanın işlənib hazırlanması, Dövlət Neft Fondundan ayrılan vəsaitin şəffaflığını qorumaq məqsədilə onun büdcə xərcləri çərçivəsində ün-

vanlı istifadəsini təmin edən tədbirlərin görülməsi, əhalinin pensiya təminatının yaxşılaşdırılması, kommunal islahatların aparılması, sahibkarlığın inkişafına mane olan amillərin, o cümlədən, inhisarçılığın aradan qaldırılması, qaçqın və məcburi köçkünlər üçün müvəqqəti qəsəbələrin salınması kimi mühüm məsələlər də fərmanda öz əksini dolğun şəkildə tapmışdır. Digər bir vacib məqam - icra strukturları tərəfindən vətəndaşların zəruri ehtiyaclarına və qanuni tələblərinə diqqətlə yanaşılması məsələsi də fərmanda konkret müddəa ilə təsbit olunmuşdur.

Ümumiyyətlə, son beş il iqtisadi inkişaf, sosial tərəqqi, effektiv xarici siyasət, sabitliyin qorunub saxlanılması və onun dönməzliyinin təmin edilməsi yönümündə Prezident İlham Əliyevin fəaliyyəti mühüm uğurlarla əlamətdar oldu və xalqımızın tam dəstəyini qazandı. Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar ölkə başçısının xalqın problemlərinə, onun sosial-iqtisadi təminatının yaxşılaşdırılmasına diqqətinin bariz nümunəsidir və atılan hər bir addım bunu sübut edir. Etiraf olunmalıdır ki, XX əsrin sonunda və XXI əsrin başlanğıcında ulu öndər Heydər Əliyevin rəhbərliyi altında dünya ölkələrinin təcrübəsi nəzərə alınmaqla və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində ölkənin sosial-iqtisadi inkişaf strategiyası müəyyən edilmiş və o, müvəffəqiyyətlə həyata keçirilməkdədir. Bu strategiyanın əsas mahiyyəti bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə sabit sosial-iqtisadi inkişafın təmin olunmasından, əhalinin həyat səviyyəsinin ilbəil yaxşılaşdırılmasından ibarətdir. Uğurla həyata keçirilən bu

strategiya nəticəsində ölkə iqtisadiyyatının strukturu mülkiyyət və təşkilati-hüquqi baxımdan köklü surətdə dəyişdirilmiş, bir sıra mərkəzi və dövlət idarəetmə orqanı ləğv edilmiş, digərlərinin ancaq tənzimləmə funksiyaları saxlanılmaqla təsərrüfat funksiyaları tamamilə dayandırılmışdır.

Məlumdur ki, Azərbaycanın iqtisadi inikşafının səviyyəsi onun beynəlxalq aləmdə yerini müəyyən edir və ölkənin müstəqil xarici siyasətinin həyata keçirilməsinə təsir göstərir. Keçən əsrin sonunda güclənən qloballaşma prosesi informasiya, texnologiya, işçi qüvvəsi və kapitalın hərəkəti sahəsində ölkələr arasında mövcud maneələrin azaldılmasına şərait yaratmışdır. Əlbəttə, belə bir şəraitdə ehtiyatların artırılması və eləcə də, dünyanın iqtisadi ehtiyatlarının cəlb olunması məqsədilə milli rəqabət qabiliyyətliliyinin gücləndirilməsi Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Buna görə də, ölkədə investisiya mühitinin yaxşılaşdırılması və yüksək texnologiyaları mənimsəməyə qadir olan iqtisadi sistemin formalaşdırılması sahələrində işlər daha fəal şəkildə davam etdirilməkdədir.

Məlumdur ki, vətəndaş cəmiyyətinin mühüm göstəricilərindən biri də, məhz ölkədə müstəqil demokratik institutların formalaşması və azad sahibkarlıq subyektlərinin fəaliyyəti üçün normal şəraitin yaradılmasıdır. Özəl sektorun dinamik inkişafı təkcə sosial-iqtisadi yüksəlişi deyil, həm də demokratikləşmə prosesini və vətəndaş hüquqlarının etibarlı qorunmasını təmin edir.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri sahibkarlıq sektorunun səmərəli və rəqa-

bətqabiliyyətli fəaliyyətinin təmin olunmasıdır. Bu sferanın sahibkarlığın inkişafı tələblərinə uyğun təkmilləşdirilməsi işgüzar mühitin əlverişliliyini şərtləndirən başlıca amil kimi çıxış edir. Son illər sahibkarların vergi yükünün azaldılması, investisiyaların stimullaşdırılması istiqamətində görülmüş tədbirlər daxili mənbələrdən istifadənin genişlənməsinə imkan yaradıb. Ötən müddət ərzində sahibkarlığın inkişafına dövlət yardımı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri olaraq qalmışdır. Sahibkarlığın inkişafı sahəsində qəbul olunmuş dövlət proqramları çərçivəsində ölkə iqtisadiyyatının tənzimlənməsi sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə köməyi sistemi təkmilləşdirilir. Sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atılır. Sahibkarlara zəruri hüquqi, texniki yardım, informasiya və digər xidmətlər göstərən strukturlar formalaşdırılır.

Prezident İlham Əliyevin sahibkarlıq fəaliyyətinə qayğısı sayəsində bu sektorda mühüm inkişaf müşahidə olunmaqdadır. Təsərrüfat subyektlərinin fəaliyyətinə nəzarətedici və yoxlayıcı orqanlar tərəfindən əsassız müdaxilənin aradan qaldırılması, lisenziyalaşdırılan fəaliyyət növlərinin azalması, iqtisadiyyatın liberallaşmasının dərinləşməsi istiqamətində əldə edilən nailiyyətlərin təkzib olunmaz göstəricisidir.

Bütün bunların nəticəsi kimi ümumi daxili məhsul istehsalında özəl sektorun çəkisi ildən-ilə artır. Cəmiyyətdə davamlı inkişafın, sabitliyin, mədəni tərəqqinin əsas qarantı kimi çıxış edən orta təbəqənin sıraları genişlənir. Yeni iqtisadi ideyalar irəli sürülərək həyata ke-

çirilir. Azərbaycan istehsalı olan məhsulların rəqabət qabiliyyəti yüksəlir. Azərbaycan məhsulu xarici bazara yol tapır. Azərbaycan təcrübəsinə istinad edən beynəlxalq iqtisadi mərkəzlər üçün belə bir tendensiya da son dərəcə maraqlıdır. Əsas proqnozlarını neft sektoruna aid proseslərlə bağlayan iqtisadçı ekspertlər son illərə qədər belə güman edirdilər ki, neft müqavilələri ilə bağlı işlər başa çatdıqdan, bütün əsas enerji layihələri icra olunduqdan sonra ölkəmizə sərmayə axını səngiyəcəkdir. Amma həyat irəli sürülən proqnozların əksini göstərməkdədir. Azərbaycan bu proses başa çatandan sonra da xarici sərmayəçilər üçün yenə cəlbediciliyini saxlayır. Dünyanın ən tanınmış biznes qurumları, iş adamları bu gün də Azərbaycan iqtisadiyyatının ən müxtəlif sferalarına investisiya yatıraraq iqtisadi mənfəət əldə etmək üçün hökumətə müraciətlər ünvanlayır, yaradılan əlverişli mühitdə öz biznes-planlarını həyata keçirmək imkanı qazanırlar. Bu onu göstərir ki, ölkəmiz xarici sərmayədarlar üçün təkcə malik olduğu zəngin enerji ehtiyatlarına görə əhəmiyyətli deyil. Möhkəm əsaslara söykənən ictimai-siyasi sabitlik, əlverişli iqtisadi mühit, investisiyalara verilən dövlət təminatları, qeyri-neft sektorunun inkişafı üçün hələ sərf edilməmiş böyük potensial da xarici investorlar üçün ölkəmizin önəmini getdikcə gücləndirir.

Qeyri-neft sektorunun inkişafı, gələcəkdə ziyanlı təzahürlərə yol açmasın deyə, milli iqtisadiyyatımızın neft amilindən asılılığının azaldılması, özəl sektorun inkişafına diqqət Azərbaycan Prezidentinin müvafiq dövlət və hökumət strukturları qarşısında müəyyən etdiyi

ən əsas prioritetlərdən biri kimi diqqəti çəkir. Neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi, insan kapitalının ardıcıl olaraq gündəmə gətirilməsi, həyata keçirilən çoxsaylı sosial-humanitar proqramlar bizi bu məqsədə doğru aparan aydın inkişaf yoludur. Ölkəmizin sosial tərəqqisinə yönələn proqramlar uğurla icra edilir. Əyalətlərimizin siması dəyişir, respublika boyunca yeni-yeni məktəblər, xəstəxana binaları, mədəniyyət obyektləri, idman qurğuları və digər bu kimi infrastruktur obyektləri tikilərək vətəndaşlarımızın ixtiyarına verilir.

Etiraf olunmalıdır ki, Azərbaycan Prezidenti İlham Əliyev dövlət quruculuğu, güclü iqtisadiyyatın yaradılması, cəmiyyətin demokratikləşməsi, əhalinin maddi-rifah halının yüksəldilməsi istiqamətlərində çoxşaxəli fəaliyyət həyata keçirir. Görülən işlər, eyni zamanda, Azərbaycanın siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə beynəlxalq əlaqələrinin genişlənməsinə, qloballaşan dünyada etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycan Prezidenti İlham Əliyevin iqtisadi konsepsiyasının fəlsəfəsində yeni iqtisadi təfəkkür və müasir yanaşma dayanır. Bunu aşağıdakı kimi konkretləşdirmək olar:

- **milli iqtisadiyyatın dünyada gedən iqtisadi proseslərdə baş verə biləcək istənilən dəyişikliyə münasibətdə operativ preventiv tədbirlərinin reallaşdırılması;**
- **dünyanın iqtisadi nəbzini tuta bilmək;**

**- hərtərəfli inkişafın əsasında sosial-iqtisadi rifahın öncüllüyü;**

**- Dağlıq Qarabağ probleminin iqtisadi yüksəliş yolu ilə həlli modeli;**

**- demokratiyanın əsas sütununu təşkil edən vətəndaş cəmiyyətinin qurulması (iqtisadi dayaq və azad sahibkarlıqdan kənarda vətəndaş cəmiyyəti ola bilməz);**

**- uğurlu, yüksək və müasir intellektə malik, etibar ediləcək şəxslərə əsaslanan kadr siyasəti;**

**- gerçək tələb və ehtiyaca hesablanmış struktur islahatları;**

**- dövlətin icra orqanlarına (nazirliklərdən tutmuş yerli təmsilçilərədək) mərkəzləşdirilmiş dəstək və paralel olaraq tələbkarlıq və s.**

Beləliklə, Azərbaycanda iqtisadi quruculuq yuxarıda göstərilənlər, ümumiləşdirilmiş şəkildə isə bir neçə amil baxımından özəl keyfiyyətlərə malikdir. Son 5 ildə ciddi inkişaf edən Azərbaycan iqtisadiyyatının ən mühüm özəlliyi də mövcud problemlərə proqram xarakterli kompleks yanaşmadır. Dövlət hər hansı bir sahədə proqram tipli tədbirlər həyata keçirmək üçün möhkəm maliyyə dayaqlarına malik olmalıdır. İndi bunun üçün heç vaxt olmayan və olmayacaq bir fürsət yaranıb: qarşıdakı illəri ekspertlər Azərbaycanın neft ixracından ən çox gəlir əldə edəcəyi mərhələ kimi qiymətləndirirlər. Yəni 2013-cü ilədək "qara qızıldan" qazanılan neft kapitalının həcmi artan templə irəliləyəcək, göstərilən andan etibarən isə gəlirlərdə sabitlik bərqərar olacaq. Paralel olaraq, dünya bazarlarında enerji daşıyıcılarına

olan yüksək tələbat və qiymətlər real imkan yaradır ki, əlavə dividentlər də iqtisadi qüdrətin artımı və sosial rifaha yönəldilsin.

Dünyanın geosiyasi səhnəsində baş verənlər Azərbaycanın iqtisadi imkanlarının daha da genişlənməsi üçün əlverişli şərait yaradır. Neftin qiyməti artmaqdadır, neft ixracatçılarında və onların ətrafında mövcud olan qeyri-sabit situasiya alternativ yanacaq mənbələrinin cəlbediciliyini artırır. Son bir neçə ildə OPEK-in əsas üzvlərinin, demək olar ki, hamısının bir nömrəli neft idxalçısı - ABŞ-la münasibətləri gərginləşib. (Venesueladan tutmuş müsəlman aləminin "neft çənləri" statusunu daşıyan ölkələrinədək). Azərbaycan bu vəziyyətdən maksimum effektiv və praqmatik nəticə götürə bilər. İri karbohidrogen ehtiyatlarına malik Rusiyanın da enerji tranziti siyasəti böhranlardan sığortalanmayıb. Bu fonda Avropada Azərbaycanın potensialına maraq xüsusilə artır. Qonşu İranla ABŞ arasındakı gərginlik sürətlə intensivləşir, özü də "nifaq alması" təkcə Tehranın "nüvə dosyesi" deyil. İranın dünyada 4-cü neft ixracatçısı olduğunu nəzərə alsaq, hadisələr əgər İraq ssenarisi ilə cərəyan edərsə, dünya enerji bazarında hansı vəziyyətin yaranacağını güman etmək olar.

Etiraf edək ki, Xəzər neftinin Avropa bazarlarına nəqlində müstəsna rol oynayan qlobal enerji layihəsinin icrası prosesinin uğurla başa çatdırılması - Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin istismara verilməsi də müstəqil Azərbaycanın çağdaş tarixinin ən parlaq səhifələrindən biri olmaqla, ümummilli liderimiz Heydər Əliyevin böyük uzaqgörənliklə irəli sürdüyü yeni

neft strategiyasının praktik olaraq gerçəkləşdiyinin əyani təsdiqinə çevrilmişdir. Bu möhtəşəm tədbir siyasi və geoiqtisadi önəminə görə böyük tarixi hadisə olub, təkcə Azərbaycan üçün deyil, bütövlükdə regionun və Qərbin bəzi aparıcı dövlətləri üçün mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev bu hadisənin xalqımız üçün strateji əhəmiyyət kəsb etdiyini əminliklə vurğulamışdır. **"Heydər Əliyevin adını daşıyan, Onun təşəbbüsü ilə başlanmış Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin tikintisi başa çatmışdır. Bu, böyük tarixi hadisədir və Azərbaycanın neft strategiyasının təntənəsidir. Bütövlükdə, Azərbaycanın son illər ərzində apardığı siyasətin təntənəsidir. Çünki Bakı - Tbilisi - Ceyhan neft kəməri həm iqtisadi, həm də coğrafi-siyasi nöqteyi-nəzərdən çox əhəmiyyətli və Azərbaycan dövləti üçün həlledici əhəmiyyətə malik bir layihədir"** - deyən dövlət başçısı əlavə etmişdir ki, 20 il ərzində Azərbaycanın neft-qaz müqavilələrindən əldə etdiyi vəsait ilkin hesablamalara görə 140 milyard dollar olacaqdır. Lakin İlham Əliyev neftdən əldə olunan gəlirlərin iqtisadiyyatın digər vacib sahələrinə yönəldilməsini, qeyri-neft sektorunda müasir istehsal müəssisələrinin açılması yolu ilə yeni iş yerlərinin yaradılmasını, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin daha da gücləndirilməsini özünün iqtisadi siyasətində prioritet vəzifə kimi nəzərdən keçirir. İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, neft Azərbaycan üçün son məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün bir vasitədir. **"Biz öz siyasətimizi elə aparmalıyıq ki, guya Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələrində və ilk növbədə, qeyri-neft sektorunda mövcud strukturlar**

**inkişaf etdirilməlidir. Biz yalnız bu yolla Azərbaycanı hərtərəfli inkişaf etmiş dövlətə çevirə bilərik"** - deyən dövlət başçısının 24 noyabr 2003-cü il tarixli **"Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında"** və 11 fevral 2004-cü il tarixli **"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının** təsdiq edilməsi haqqında" fərmanlarında da neftdən əldə olunan gəlirlərin iqtisadiyyatın digər sahələrinə yönəldilməsini vacib sayır.

Onu da qeyd edək ki, bu Dövlət Proqramlarının icrasına 50-dən artıq dövlət strukturu cəlb edilmiş, ölkənin bütün potensialı bu işə səfərbər olunmuşdur. Proqramlarda nəzərdə tutulmuş məsələlərin düzgün həyata keçirilməsi nəticəsində artıq regionların inkişafında dinamiklik təmin edilmiş və sosial-iqtisadi problemlərin aradan qaldırılması, yeni istehsal müəssisələrinin inkişafı istiqamətində zəruri addımlar atılmışdır. Azərbaycan hökuməti regionlarda aqrar sektorun inkişafı, yeni istehsal müəssisələrinin yaradılması, xidmət və digər infrastruktur obyektlərin əhalinin istifadəsinə verilməsi, turizm sahəsində irəliləyişlərin əldə olunması üçün bütün səyləri səfərbərliyə almışdır. Sahibkarlığın inkişafı üçün nəzərdə tutulmuş güzəştli kreditlərin verilməsi prosedurunun getdikcə təkmilləşdirilməsi, fermerlərə texniki yardım məqsədilə "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması, yerlərdə elektrik enerjisi probleminin həlli üçün modul tipli elektrik stansiyalarının inşası, nəqliyyat-kommunikasiya sisteminin bərpası, müasir informasiya texnologiyalarının tətbiqi, regional səhiyyə, təhsil mərkəzlərinin yaradılması sahəsində gö-

rülən işlər də bu qəbildəndir. Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasının gedişi, yeni iş yerlərinin açılması ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi, ümumiyyətlə, regionlardakı vəziyyətlə tanışlıq məqsədilə respublikanın əksər rayon və şəhərlərinə səfərlər etmiş, bu səfərlərin nəticəsi kimi rayonlarda canlanma yaranmış, abadlıq, tikinti və quruculuq işləri geniş vüsət almış, infrastrukturun yeniləşməsi, rentabelli istehsal müəssisələrinin, daimi iş yerlərinin açılması istiqamətində bir sıra mühüm addımlar atılmışdır.

Sözügedən fərmanlar İlham Əliyevin prezidentliyə namizəd kimi ölkə əhalisinə verdiyi seçkiqabağı vədlərin yığcam, konkret istiqamətləri və həyata keçirilmə yolları göstərilmiş genişmiqyaslı tədbirlər toplusu idi. Fərmanlarda sosial-iqtisadi islahatların dərinləşdirilməsi, o cümlədən, işsizliyin azaldılması, çadır şəhərciklərində məskunlaşmış köçkünlər üçün yeni müvəqqəti qəsəbələrin və evlərin tikilməsi, regionların yerli amilləri nəzərə alınmaqla inkişaf proqramlarının hazırlanması, qeyri-neft sektoruna investisiyaların stimullaşdırılması, aqrar sektorda islahatların ikinci mərhələsinə başlanması, əhalinin sağlamlığını qorumaq məqsədilə yüksək keyfiyyətli məhsul və dərman ləvazimatlarının istehsalının və idxalının təmin edilməsi və s. istiqamətlərdə tədbirlər nəzərdə tutulmuşdur. Ümumilikdə bu sənədləri Azərbaycan hökumətinin yaxın bir neçə il üçün dəqiq fəaliyyət proqramı kimi qəbul etmək olar. Artıq nəzərdə tutulmuş müddəalardan ikisi-ölkədə yüksək keyfiyyətli dərman ləvazimatının istehsal və idxalının

təmin edilməsi, çadır şəhərciklərindəki köçkünlər üçün yeni qəsəbələrin tikintisi öz həllini tapıb. Xatırladaq ki, Ermənistanın işğalı nəticəsində yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız üçün yaşayış qəsəbələrinin tikilməsi 2001-ci ildən, Azərbaycanın Neft Fondu yaradıldıqdan sonra başlanıb. İlham Əliyev hələ 2004-cü ilin oktyabrında Biləsuvar rayonunda cəbrayıllı göçkünlər üçün tikilmiş yeni qəsəbənin açılışındakı çıxışında bildirmişdi ki, Azərbaycanın neft gəlirləri, ilk növbədə, qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına yönələcək və qalan çadır düşərgələri də tezliklə ləğv ediləcək. Sonrakı illərdə Ağdamdan olan 3860 məcburi köçkün ailəsi üçün qəsəbənin tikilməsi, Ağcabədi, Goranboy və Tərtər rayonlarında yeni binaların inşası barədə Prezidentin fərmanı, məhz həmin vədin yerinə yetirilməsinin ifadəsidir.

Azərbaycan Prezidenti iqtisadi və sosial yüksəlişlə bağlı həyata keçirilən bütün tədbirləri daim diqqət mərkəzində saxlayır. Bunu İlham Əliyevin bölgələrə səfərlərinin coğrafi zənginliyi də təsdiqləyir. Bu səfərlər zamanı Prezidentin iştirakı ilə istifadəyə verilən yeni istehsal, xidmət sahələri və müxtəlif təyinatlı obyektlər ölkəmizin hər yerində geniş vüsət alan dinamik inkişafın əyani göstəricisidir. Bu obyektlər sırasında reallaşan infrastruktur layihələr ölkəmizin kompleks inkişafını tamamlayır.

Prezident İlham Əliyevin 2007-2008-ci illərdə də regionlara səfəri rəngarəng olmuşdur. Dövlətimizin başçısının Gəncə və Şirvan şəhərlərinə, Qobustan, İsmayıllı, Yevlax, Neftçala, Hacıqabul, Qazax, Tovuz, Masal-

lı, Cəlilabad, Şamaxı, Oğuz, Qəbələ, Xızı rayonlarına, Naxçıvan Muxtar Respublikasına, Qaradağ rayonunun Ələt qəsəbəsinə səfərləri mühüm infrastruktur obyektlərinin istifadəyə verilməsi ilə yadda qalmışdır. Prezident İlham Əliyev Şirvanda Müalicə-Diaqnostika Mərkəzinin, Hacıqabulda Bakı - Qazax avtomobil yolunun Hacıqabul - Kürdəmir hissəsinin, Naxçıvanda Azərbaycan ilə İran arasında Şahtaxtı - Poldəşt sərhədkeçid məntəqəsinin, Şərur rayon mərkəzi xəstəxanasının, Qazax və Masallıda olimpiya idman komplekslərinin və s. sosial və sənaye obyektlərinin açılışında iştirak etmiş, yenidən qurulan Hacıqabul mərkəzi rayon xəstəxanasının, Cəlilabadda avtovağzal binası və Qəbələdə "Qəbələ" oteli ilə tanış olmuşdur.

Qeyd edək ki, uzun müddət tikintisi yarımçıq qalmış, tamamilə yararsız hala düşmüş Hacıqabul mərkəzi rayon xəstəxanasının binası məhz Prezident İlham Əliyevin tapşırığı və qayğısı ilə yenidən qurulmuş, ən müasir avadanlıq və tibbi ləvazimatla təchiz edilmişdir. Ötən il dövlətimizin başçısı Tovuzda, Qobustan rayonunun inzibati mərkəzində olimpiya idman komplekslərinin, Şirvanda "Cənub" elektrik stansiyasının, Hacıqabul Rayon Uşaq Tibb Mərkəzinin, Şamaxı Müalicə-Diaqnostika Mərkəzinin təməlqoyma mərasimlərində də iştirak etmişdir.

Prezidentin iştirakı ilə təməli qoyulan ən mühüm infrastruktur layihələrindən biri Oğuz - Qəbələ - Bakı su kəməridir. 2007-ci ilin ilin mart ayında tikintisinə başlanılan və smeta dəyəri təxminən 480 milyon manat olan Oğuz - Qəbələ - Bakı su kəmərinin tikintisi bu il

başa çatdırılacaq və istifadəyə veriləcək. Artıq Bakıdan Şamaxıya müasir yolun çəkilişinə başlanmışdır. Yaxın vaxtlarda, həmçinin, İsmayıllıya və Qəbələyə, sonra isə Gürcüstan sərhədinə qədər yol çəkilişi davam etdiriləcəkdir.

Beləliklə, bu gün Azərbaycanın bütün bölgələrində böyük infrastruktur layihələri həyata keçirilir: yeni yollar çəklir, modul tipli elektrik stansiyaları, müasir olimpiya idman kompleksləri tikilir. Müəllifi Heydər Əliyev olan yeni neft strategiyasının uğurları və iqtisadiyyatın sürətli inkişafı olmasaydı, təbii ki, ölkəmizin kompleks inkişafına xidmət edən bu layihələri də həyata keçirmək mümkün olmazdı.

Müasir dövrdə bir sıra ölkələrdə mövcud sosial-iqtisadi problemlərin həllinə, elmi-texniki nailiyyətlərdən geniş və səmərəli istifadəyə və bu ölkələrin beynəlxalq əmək bölgüsündə daha fəal iştirakına xüsusi iqtisadi zonalar kimi iqtisadi fəaliyyətin yeni formasının tətbiqi ilə nail olunur. Beynəlxalq təcrübə göstərir ki, xüsusi iqtisadi zonalar ayrı-ayrı ərazilərin və bütövlükdə ölkələrin iqtisadi inkişafına güclü təsir imkanına malikdir.

Azərbaycan Respublikasında son illər həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bazar iqtisadiyyatının bərqərar olması, ölkənin davamlı sosial-iqtisadi inkişafı və beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiyası üçün münbit şərait yaranmışdır. Hazırda Azərbaycan Respublikası sosial-iqtisadi inkişafının yeni mərhələsindədir. Bununla əlaqədar ölkədə qəbul edilmiş strateji proqramların və layihələrin həyata keçirilməsində, prioritet sosial və iqtisadi vəzifələrin həllində

xüsusi iqtisadi zonalar mühüm rol oynaya bilər. Eyni zamanda, belə zonaların yaradılması Azərbaycanın əlverişli coğrafi mövqeyinin üstünlüklərindən istifadə etməklə xarici iqtisadi əlaqələrin daha da genişlənməsinə təkan verə bilər.

Ölkə iqtisadiyyatının və onun ayrı-ayrı regionlarının inkişafı üçün əlverişli şəraitin yaradılması, investisiyaların prioritet sahələrə yönəldilməsi, yeni iş yerlərinin açılması, müasir idarəetmə təcrübəsindən istifadə edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 6 mart 2007-ci il tarixdə **"Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında"** fərman imzaladı. Bununla bağlı artıq konkret addımlar atılmaqdadır.

İlham Əliyevin sosial-iqtisadi islahatlar yönündə atdığı addımları beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Hələ 2005-ci ilin noyabrında Bakıda səfərdə olan Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru Donna Dousset-Koyrolo Azərbaycanın yüksək iqtisadi göstəricilərlə özünü güclü bir ölkə kimi doğrultduğunu və beynəlxalq maliyyə qurumlarının ölkəmizə etimadının daha da artdığını vurğulamışdır. Məhz bu etimadın nəticəsidir ki, dünyanın ən böyük maliyyə qaynaqları Azərbaycanın ən nəhəng iqtisadi layihəsinə - Bakı - Tbilisi - Ceyhan neft kəmərinin tikintisinə real dəstəyini verdi və "Əsrin tikintisi"-nin bu yöndə heç bir problemi qalmadı. Ötən illər ərzində ölkə həyatının müxtəlif sahələrini əhatə edən onlarla sənəd, qanun, fərman və sərəncam imzalanıb. Həmin sənədlərin böyük bir qismi Azərbaycanın demok-

ratik dünya birliyinə inteqrasiyasını dərinləşdirməyə yönəlib.

Uğurla davam etdirilən iqtisadi siyasət və genişmiqyaslı islahatlar iqtisadiyyatın dinamik inkişafını, o cümlədən, makroiqtisadi sabitliyi təmin etmiş, bütün sahələrə investisiya qoyuluşu əhəmiyyətli dərəcədə artmış, əhalinin yaşayış tərzi yaxşılaşmış, inflyasiyanın səviyyəsi məhdudlaşmış, manatın xarici dönərli valyutalara nisbətən məzənnəsi sabitləşmişdir. Məlum olduğu kimi, dövlət müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasında dövriyyəyə buraxılmış milli valyutanın məzənnəsi həmin dövrdə baş verən hərbi-siyasi və sosial-iqtisadi böhranın təsiri nəticəsində qısa müddət ərzində sürətlə aşağı düşmüş və ölkədə yüksək qiymətlər miqyası formalaşmışdı. 1996-cı ildən başlayaraq ölkənin sosial-iqtisadi inkişafında qazanılmış uğurlara baxmayaraq formalaşmış yüksək qiymətlər miqyası və manatın aşağı nominal məzənnəsi mühasibat sistemində və statistikada uçot və hesabatların tərtibatında, müəssisələrarası və bank hesablaşmalarının aparılmasında çətinliklərə səbəb olur, əhalidə, xüsusilə, işgüzar adamlarda milli valyutaya inamsızlıq yaradırdı.

İqtisadiyyatın sürətli artımı və inkişaf potensialı Azərbaycan Respublikasının dövlət atributu olan milli valyutanın - manatın məzənnəsinin dünyanın aparıcı valyutalarının mübadilə məzənnələrinə uyğun səviyyədə formalaşması üçün əlverişli şərait yaranmışdır. Bunu nəzərə alaraq və milli pul nişanlarının dizaynını, mühafizəsini, nominal strukturunu beynəlxalq stan-

dartlara uyğunlaşdırmaq, pul nişanlarında milli və tarixi ənənələri daha qabarıq ifadə etmək, ölkədə pul dövriyyəsini daha da yaxşılaşdırmaq, məzənnə və qiymətlər miqyasını optimallaşdırmaq, manatın funksiyalarının daha səmərəli yerinə yetirilməsini təmin etmək, uçot və hesablaşma sistemini sadələşdirmək və dövlət xərclərinə qənaət etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2005-ci il 7 fevral tarixində **«Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında»** fərman imzaladı. Fərmanda 2006-cı il yanvarın 1-dən Azərbaycan Respublikasında milli valyutanın - manatın denominasiyasının həyata keçirilməsi və 1 yeni manatın 5000 köhnə manata bərabər hesablanması nəzərdə tutulurdu. Pul islahatı, aparılan məqsədyönlü iqtisadi islahatlar çərçivəsində həyata keçirilən ən böyük layihələrdən biri kimi dəyərləndirilməlidir.

Səlahiyyətlərinin icrasına başladığı ilk gündən İlham Əliyev respublikanın sosial-iqtisadi, siyasi, mədəni və humanitar sahələrdə inkişafı üçün fəaliyyət prioritetlərini düzgün müəyyənləşdirmiş, onların vaxtında icrası məqsədilə müvafiq tədbirlər həyata keçirmişdir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq şəkildə büruzə verir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam yaradır.

Uğurla həyata keçirilən sosial-iqtisadi strategiya nəticəsində 2005-2008-ci illərdə Azərbaycan iqtisadiyyatı ən sürətlə inkişaf edən ölkə kimi dünyada önə çıxmış, qibtəediləcək makroiqtisadi göstəricilərə nail olmuşdur. Təkcə bunu demək kifayətdir ki, dövlət büdcəsi 2005-ci ildə 2,1 mlrd. manat, 2008-ci ildə 12,4 mlrd. manata çatmışdır. Ötən müddətdə iqtisadiyyata 7 milyard dollara yaxın xarici investisiyanın qoyulması Azərbaycanda sahibkarlığın inkişafı üçün əlverişli mühitin mövcudluğunu bir daha təsdiqləyir. Bazar iqtisadiyyatı prinsiplərinin Azərbaycanda tam bərqərar olması, xarici investisiyaların daha çox qeyri-neft sektoruna, regionların inkişafına yönəldilməsi, Azərbaycanda azad sahibkarlıq və biznes mühitinin təmin olunması istiqamətində əməli tədbirlərin görülməsi də İlham Əliyevin yürütdüyü iqtisadi siyasətin aparıcı xətti kimi diqqəti çəkir.

## SAHİBKARLIĞA ÖNƏMLİ DİQQƏT

Ölkədə sahibkarlığın yaranması və inkişafı, ilk növbədə, ulu öndər Heydər Əliyevin adı və fəaliyyətilə bağlıdır. Onun rəhbərliyi ilə hazırlanmış və qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyanın 59-cu maddəsində hər bir Azərbaycan vətəndaşının azad sahibkarlıq hüququ birdəfəlik təsbit edildi. Müasir sahibkarlığın inkişaf mərhələsi 27 iyun 1997-ci ildə təsdiq olunan və 1997-2000-ci illəri əhatə edən kiçik və orta sahibkarlığa dövlət köməyi proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ilə başlandı. 2002-ci ildə

Heydər Əliyevin yerli və xarici iş adamları ilə görüşündən və həmin ilin avqust-sentyabr aylarında sahibkarlığın fəaliyyətinin təşkili üçün imzalanan sənədlər sahibkarlıq subyektlərini Azərbaycanın sosial-iqtisadi inkişafının əsas amilinə çevirdi. Beləliklə, özəl sektorun ölkə iqtisadiyyatında payı artmağa başladı. 2003-cü ilin yekunlarına görə qeyri-dövlət sektorunun xüsusi çəkisi 73,4 faiz çatdı. (1994-cü ildə bu rəqəm cəmi 29 faiz idi).

Prezidentlik fəaliyyətini sahibkarlığın və bölgələrin davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, özəl sektorun yüksəlməsi və milli iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektorunun hesabına aradan qaldırılması prinsipi üzərində quran İlham Əliyev, bu baxımdan, ciddi uğurlara imza atdı. İlham Əliyevin iqtisadi idarəçilik üslubunda nəzərə çarpan ən əhəmiyyətli məqamlardan biri Azərbaycanda yeni mülkiyyət formalarının yaranması, sahibkarlığın sürətli inkişafı və əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarının qorunmasıdır. Onların maraqları mütləq nəzərə alınır və ölkəmizdə özəl sektorun daha da inkişafı üçün atılan hər bir addımın bu təbəqənin maraqlarına vura biləcəyi cüzi ziyan belə, təxirəsalınmaz sosial müdafiə tədbirləri hesabına kompensasiya edilir.

Dövlətin hərtərəfli dəstəyi müqabilində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi ölkənin sosial-iqtisadi inkişafına, ölkədə ictimai-siyasi sabitliyin möhkəmlənməsinə, demokratikləşmə proseslərinin sürətlənməsinə, vətəndaş cəmiyyəti quruculuğuna təkan verən mütərəqqi prosesdir. İlham Əliyev prezidentlik səlahiyyətinə başlandığı andan sahibkarlığın inkişafına xüsusi önəm ver-

mişdir. Bunu ölkədə güclü sahibkar ordusunun yaradılması, sahibkarlığın inkişafına xidmət edən fərman və sərəncamlar bir daha təsdiqləyir. 2 fevral 2004-cü il tarixdə Bakı Biznes Mərkəzinin təntənəli açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı, sahibkarlarla görüşü və orada proqram xarakterli çıxışı bu baxımdan, xüsusi əhəmiyyət kəsb edir. Ictimai-siyasi sabitlik nəticəsində Azərbaycanın investisiyalar məkanına çevrilməsi, əlverişli biznes mühitinin formalaşdırılmasına əsaslı zəmin yaratmışdır. Qarşılıqlı əməkdaşlıq və qabaqcıl təcrübə mübadiləsi əsasında ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası dövlətin həyata keçirdiyi siyasətin lokomotivinə çevrildi. 2006-cı ildə iqtisadiyyata 7 mlrd. dollar sərmayə yatırılmışdırsa, bu 2007-ci ildə 8 mlrd. dollara çatdı. Digər tərəfdən daxili investisiyaların həcmi xarici investisiyaların həcmindən artıq oldu. Yeni iş yerlərinin yaradılması və Dövlət Məşğulluq Proqramının uğurla yerinə yetirilməsində özəl sektorun rolu resbublikanın hər bir bölgəsində ilbəil artdı. Prezident İlham Əliyev Dövlət İnvestisiya Şirkətinin yaradılmasının əhəmiyyətini hər zaman diqqətə çatdıraraq bildirir ki, məqsəd ölkə iqtisadiyyatının lazım olan sahələrinə investisiyaların cəlbini təmin etmək, ölkədə yoxsulluğun həddini minimuma endirməkdir.

Dövlətin payı və birbaşa sərmayəsi və zamin olduğu qlobal biznes layihələri yerli və xarici sərmayədarlar üçün effektiv etibar yaratmışdır. Mütamadi olaraq, Azərbaycanın iqtisadi həyatında yerli və xarici sahibkarlar ilə keçirilən görüşlərin nəticəsi olaraq, ölkə iqtisadiyyatının inkişafına təkan verən, sahibkarların məna-

feyinə xidmət edən, onları iqtisadi tərəqqinin lokomotivinə çevirən mühüm sənədlər imzalandı.

Elmi əsaslara söykənən sosial-iqtisadi inkişaf strategiyasının yeni dövrün tələblərinə qurulması Azərbaycanın sürətli inkişafında mühüm rol oynamışdır. Xarici sərmayələr üçün cəlbediciliyinin artırılması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn investisiyaların qeyri-neft sektoruna, regionların inkişafına istiqamətləndirilməsi, sahibkarlıq fəaliyyəti üçün şəraitin formalaşdırılması, ölkənin iqtisadi siyasətinin əsas mahiyyətini təşkil etmişdir. 2007 və 2008-ci illərdə dövlət büdcəsindən sahibkarlığın inkişafına 80 mln. manat ayrılması bu sahəyə verilən önəmin göstəricilərindəndir. Ənənəvi olaraq, güzəştli kreditlər hesabına maliyyələşdirilmiş layihələrin 90 faizə yaxın hissəsi istehsal və emal yönümlüdür.

2007-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müvəkkil kredit təşkilatları vasitəsilə 55 şəhər və rayon üzrə 798 sahibkarlıq subyektinə 82,7 mln. manat güzəştli kredit verilmişdir. Layihələrin 77 faizdən çoxu regionların payına düşür. 2008-ci ilin altı ayında ölkənin 48 şəhər və rayonu üzrə 327 sahibkarlıq subyektinin investisiya layihələrinin maliyyələşdirilməsinə 40,7 milyon manat məbləğində güzəştli kredit verilmişdir. 2008-ci ilin 8 ayı ərzində Sahibkarlığa Kömək Milli Fondu müvəkkil kredit təşkilatları vasitəsilə 556 sahibkarlıq subyektinə 63,1 milyon manat güzəştli kredit verib. Verilmiş kreditlər sənaye malları istehsalının genişləndirilməsi məqsədilə 104 layihə, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına, fermer təsərrüfatlarının inkişafına 400 layihə, turizm infrastruktu-

runun yaradılmasına 29 layihə və xidmət sektoruna 22 layihə yönəldilib. Güzəştli kreditlə maliyyələşdirilən layihələrin 78 faizi regionlarda həyata keçirilir və onların 86 faizi istehsal və emal sahələrini əhatə edir. Bu layihələrin həyata keçirilməsi nəticəsində 6700 daimi iş yeri açılmışdır.

Dünyanın bir çox nüfuzlu kütləvi informasiya vasitələri və beynəlxalq təşkilatları ölkəmizin siyasi, iqtisadi həyatından, xüsusən də sahibkarlıq mühitindən analitik yazılar dərc edir, obyektiv hesabatlar hazırlayırlar. Bu xarakterli hesabatların əksəriyyətində Azərbaycanın siyasi və iqtisadi uğurları, regionda artan nüfuzu və sahibkarlığın inkişafı öz əksini tapıb. Dünyanın qabaqcıl sənaye və idarəetmə tədqiqatlarını aparan, təhlillər edən Londonun "Ekonomist Intelertic Unit" təşkilatı Azərbaycanla bağlı hazırladığı "2007-2008-ci illərdə Azərbaycanda iqtisadi artım iki dəfə artacaq" başlıqlı hesabatında Azərbaycnın iqtisadi və siyasi vəziyyətini təhlil edərək göstərir ki, Azərbaycanda 2006-cı ildə iqtisadi artım 33 faiz olub, 2007-ci ildə bu 38 faiz, 2008-ci ildə isə 41 faiz həddinə çatacağı gözlənilir. Sahibkarlığın inkişafı dövlətin apardığı iqtisadi siyasətin prioritet sahəsi kimi məşğulluğun təmin olunması, yoxsulluğun aradan qaldırılmasının birbaşa təminatçısı kimi çıxış edir.

Respublikada aparılan sosial-iqtisadi siyasətin əsas ağırlıq mərkəzi sahibkarlıq subyektləri üzərində qurulur. Ölkədə sahibkarlığın inkişafı dövlət başçısının yeritdiyi iqtisadi siyasət strategiyasının prioritet istiqaməti kimi daim diqqət mərkəzində olmuşdur. İlham

Əliyev iqtisadiyyatın liberallaşdırılmasında, inhisarçılığın qarşısının alınmasında sahibkarlığın mühüm rol oynadığını dəfələrlə vurğulayaraq iqtisadiyyatın inkişafında iş adamlarının gücündən və imkanlarından səmərəli istifadə etməyin zəruriliyini önə çəkmişdir.

Sahibkarlığın inkişafına xidmət edən kompleks tədbirlər 2003-2008-ci ildə uğurla davam etdirilmiş, özəl sektorun stimullaşdırılması, investisiyaların təşviqi istiqamətində mühüm addımlar atılmışdır. Bazar mexanizminin hərəkətverici qüvvəsi sayılan sahibkarlığın sosial-iqtisadi sistemin yenidən qurulmasında mühüm rol oynadığı üçün bu təbəqəyə xüsusi qayğı ilə yanaşılmışdır. Azərbaycanda həyata keçirilən iqtisadi inkişaf strategiyasının mahiyyətindən irəli gələn özəl sektorun inkişafı üçün bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsi, biznes fəaliyyətinin inkişafına əlverişli mühitin yaradılması məqsədilə əsaslı islahatlar aparılmışdır. Bununla yanaşı, yerli iş adamları, xüsusən də gənc sahibkarlarla xarici iş adamlarının təması, müxtəlif səpkili seminarların keçirilməsi, xarici dövlətlərdəki sərgi və toplantılarda onların müxtəlif ölkələrin iqtisadiyyatı ilə tanışlığı, TASİS proqramı çərçivəsində aparılan diskussiya və müzakirlər Azərbaycanın gələcəyinə hesablanmışdır. Ölkədə gənclər siyasəti sahəsində qəbul edilmiş dövlət proqramlarının yerinə yetirilməsinə yardım göstərmək məqsədilə gənclər arasında sahibkarlıq fəaliyyətinin təbliğ edilməsinə, sahibkarlığın müxtəlif problemləri ilə əlaqədar yerli və xarici mütəxəssislərin iştirakı ilə seminar və treninq-kursların təşkilinə xüsusi diqqət yetirilmişdir. Sahibkarlığın inkişafı ilə bağlı kom-

pleks tədbirlərin davam etdirilməsi məqsədi ilə "2008-2015-ci illər üçün Sahibkarlığın inkişafı Dövlət Proqramı"nın layihəsi hazırlanmışdır. Azərbaycanın hərtərəfli inkişafının bölgələrin tərəqqisindən asılı olduğunu qeyd edən dövlət başçısı, regionlarda yeni iş yerlərinin yaradılmasına xüsusi qayğı ilə yanaşmışdır. Təsadüfi deyil ki, yaradılan yeni iş yerlərinin 80 faizi regionların payına düşür. İlham Əliyevin ardıcıl olaraq bölgələrə səfərləri çərçivəsində məktəb, səhiyyə ocaqları, idman kompleksləri, sənaye müəssisələri və obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı yerlərdə məsuliyyəti artırmış, icra strukturlarının fəaliyyətinə nəzarət mexanizmini gücləndirmişdir. Sürətli inkişafa rəvac verən sərəncam və fərmanlar ölkəmizdə tarazlı və davamlı olaraq iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırmış, yeni müəssisələrin yaradılması yolu ilə Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faizdən 19 faizə enmişdir. Regionlarda nəqliyyat-kommunikasiya sisteminin yenidən qurulması, elektrik enerjisi, qaz, su, rabitə təminatı kimi sosial problemlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə yol açmaqdadır. Nazirlər Kabinetinin 2008-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası Azərbaycanda özəl sektorun inkişafı üçün hər cür imkanların mövcudluğunu bir daha təsdiqlədi. Bütövlükdə 2008-ci ilin altı ayı ölkə iqtisadiyyatına 4,4 milyard dollar sərmayə qoyulmuşdur və bunun da 3,1 milyard dolları daxili sərmayədir. Daxili sərmayələrin xarici sərmayələri üstələməsi ölkədə əlverişli biznes mühiti-

nin mövcudluğunu, eyni zamanda, yerli iş adamlarının imkanlarının genişləndiyini göstərir.

Görülən tədbirlər nəticəsində sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi halları azalmış, bu neqativ halların qarşısının alınması üçün qətiyyətli addımlar atılmışdır. Korrupsiyaya qarşı mübarizə tədbirlərinin genişlənməsi də iş adamlarının fəaliyyətinə geniş imkanlar açır. Anti-inhisar fəaliyyətinin gücləndirilməsi, inflyasiyanın qarşısının alınması üçün əsaslı tədbirlərin görülməsi, **"Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər)"** təsdiqlənməsi, ədliyyə sistemində aparılan islahatlar, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad məhkəmələrinin yaradılması və digər tədbirlər də dediklərimizi bir daha təsdiq edir. 2008-ci ilin ilk altı ayında özəl sektorun ümumi daxili məhsulun istehsalındakı xüsusi çəkisinin 84 faizə çatdı.

Sahibkarlıq fəaliyyətinin leqallaşdırılması, onun fəaliyyətini nizamlayan qanunvericilik bazası formalaşdırılması çoxsaylı qanun və hüquqi normativ aktların qəbulu bu prosesi sürətləndirir. Azərbaycanda sahibkarlığın inkişafına əngəl törədən süni maneələrin aradan qaldırılması, sərbəst bazar subyektlərinə əsaslanan plüralist iqtisadi mühitin yaradılması, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli dəstəklənməsi də dövlət başçısının xüsusi diqqət mərkəzindədir. Prezident daim biznesin qarşısında duran bürokratik əngəllərin aradan qaldırılması istiqamətində konkret addımlar atır, mövcud olan problemləri həll edir.

İlham Əliyevin 30 aprel 2007-ci il tarixli «Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında» fərman isə çoxpilləli biznesə başlama prosedurlarının sadələşdirilməsini, bu sahədə mövcud olan bürokratik əngəllərin, süründürməçilik hallarının aradan qaldırılmasını təmin etdi. Fərmana müvafiq olaraq sahibkarlıq subyektlərinin fəaliyyətini "bir pəncərə" (vahid qeydiyyat orqanı) prinsipi əsasında təşkil edilir. 2007-ci ilin dekabrın 29-da Vergilər Nazirliyinin Xüsusi Rejimli Vergi Xidməti Departamentində Azərbaycanda sahibkarlığın inkişafında mühüm mərhələ olan "bir pəncərə" sisteminin təqdimatında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı sahibkarlıq sisteminin daha da təkminləşdirilməsində mühüm hadisə oldu. Prezident İlham Əliyev mərasimdə demişdir: **"Artıq bütün bürokratik əngəllər aradan qaldırıldı, ən sadələşdirilmiş sistem tətbiq edilir. "Bir pəncərə" sistemi dünyada ən mütərəqqi praktikadır. Əminəm ki, həm şəffaflıq təmin olunacaq, həm də sahibkarlıqla məşğul olmaq istəyənlər üçün daha yaxşı şərait yaradılacaq və bu sistemin işə düşməsindən sonra Azərbaycanda bütövlükdə iqtisadi inkişaf daha da yüksək sürətlə davam etdiriləcəkdir. Azərbaycanda bütün sahələrdə ən müasir praktika tətbiq olunmalıdır".** Beləliklə, "Sahibkarlığın fəaliyyəti subyektlərinin dövlət qeydiyyatının "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsinə dair əlavə tədbirlər barədə" sərəncama əsasən 2008-ci ilin yanvarın 1-dən sahibkarlıq subyektlərinin qeydiyyatı bu sistemə keçdi. Qeydiyyatın "bir pəncərə" prinsipi üzrə aparılması sahibkarlıq sektoruna marağın güclənməsinə və biznesin

inkişafına təkan verdi. Yeni qeydiyyat qaydalarının görə, sahibkarlıq subyektləri müvafiq sənədləri təqdim etməklə 3 gün ərzində dövlət qeydiyyatına alınır ki, bu da müddətin 20 və prosedur qaydalarının 3 dəfə, təqdim edilən kağız formatlı sənədlərin isə dəfələrlə azalması deməkdir. Sistemin işə başlamasından qısa bir vaxt keçməsinə baxmayaraq, artıq 1900-dən çox sahibkar qeydiyyata alınmışdır. "Bir pəncərə" sisteminin tətbiqi investisiya mühitini daha da yaxşılaşdırılması sahibkarların dövlət qurumlarından asılılığını azaldır, uzunmüddətli qeydiyyat prosedurlarını sadələşdirilir. Hüquqi şəxsin qeydiyyatı prosesində bütün məlumat kitabçaları, elektron məlumat terminalları da sahibkarlara xidmət edir. Sistem vasitəsilə şəffaflıq tam təmin edilib və tətbiq olunan təcrübəyə görə, ölkəmiz Şərqi Avropa ölkələrini qabaqlayır.

Bazar iqtisadiyyatına keçid dövründə özəl sektorun fəaliyyətinə normal şərait yaratmadan iqtisadi yüksəlişi təmin etmək, yeni iş yerlərinin açılışına nail olmaq, eləcə də, sosial xarakterli problemləri həll etmək mümkün deyil. Bu reallığı son dərəcə düzgün qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev sahibkarlığın inkişaf etdirilməsi yolu ilə əhalinin faydalı məşğulluğunun təmin olğnmasına, yerli istehsalın həcminin genişləndirilməsinə, eləcə də, regional iqtisadi tarazlığın təmin olunmasına ciddi önəm vermişdir. Hazırda ölkə iqtisadiyyatınının yüksək inkişaf və tərəqqi mərhələsinə qədəm qoyması, çoxlu sayda yeni iş yerlərinin açılması İlham Əliyevin sahibkarlığa verdiyi diqqətin konkret nəticələr verdiyini bir daha təsdiqləyir.

## İNFRASTRUKTUR İSLAHATLARI

Müasir qloballaşma şəraitində hər bir dövlətin iqtisadi potensialı, gücü və qüdrəti, həm də onun malik olduğu yol-nəqliyyat kompleksinin inkişaf səviyyəsi, tranzit imkanları ilə ölçülür. Milli təhlükəsizliyin təmin edilməsi, respublikanın geosiyasi çəkisi də geniş və çoxşaxəli, mükəmməl infrastruktura malik, dövrün tələblərinə cavab verən yol-nəqliyyat şəbəkəsinin yaradılması ilə sıx bağlıdır.

Müasir dövrdə o dövlətlər iqtisadi sahədə naliyyətlər əldə edir ki, onlar əlverişldi tranzit statusa malik olmaqla yanaşı, həm də yol-nəqliyat təsərrüfatını dünya standartlarına uyğunlaşdıra bilər. Təsadüfi deyil ki, bu reallıqdan çıxış edən İlham Əliyev hakimiyyəti Azərbaycan iqtisadiyyatının bütün strateji əhəmiyyətli sahələrində müşahidə olunan pozitiv inkişaf və tərəqqini həm də nəqliyyat-kommunikasiya sisteminin inkişafına tətibiq etmişdir. Bu reallıq Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin avtomobil yolları şəbəkəsinin inkişafına həsr olunmuş müşavirədə bir daha öz əksini tapdı.

Etiraf edək ki, ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra respublikanın əlverişli geostrateji mövqeyini, eləcə də, beynəlxalq əhəmiyyətli qlobal kommunikasiya xətlərinin kəsişdiyi coğrafi məkanda yerləşdiyini nəzərə alaraq, yol-nəqliyyat sisteminin tamamilə yenidənqurulmasını və modernləşdirilməsini özünün iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən biri kimi müəyyənləşdir-

di. Ulu öndər Azərbaycanın perspektiv iqtisadi inkişafına hesablanmış mükəmməl fəaliyyət konsepsiyasında yol-nəqliyyat kompleksinin də müasir tələblərə uyğun qurulmasını son dərəcə vacib saymışdır.

Xüsusilə, Heydər Əliyev dəmir yolu, su, avtomobil, hava nəqliyyatı sahələrinin dinamik inkişafına, həm də Azərbaycanın xarici iqtisadi, ticarət, humanitar və mədəni əlaqələrinin inkişafı baxımından qiymət vermişdir. Həmin dövrdə bu yanaşma, həm də real vəziyyətin kritikliyi ilə şərtlənirdi. Çünki dövlət müstəqilliyinin ilk illərində Azərbaycanda hakimiyyətdə olan qüvvələrin yeritdiyi uğursuz iqtisadi siyasət nəticəsində respublikanın yol-nəqliyyat kompleksində dərin böhran hökm sürür, ictimai-siyasi sabitliyin olmadığı, özbaşınalığın, xaosun hökm sürdüyü bir şəraitdə Azərbaycana əlverişli tranzit zona kimi etimad azalır, respublikanın ərazisindən yük və sərnişin daşımalarının həcmi sürətlə aşağı düşürdü. Lakin ümummilli lider Heydər Əliyevin qətiyyəti və prinsipiallığı, habelə uzaqgörən daxili və xarici siyasəti nəticəsində, bu böhranlı vəziyyəti qısa müddətdə aradan qaldırmaq mümkün oldu. Azərbaycanın bir sıra aparıcı qonşu dövlətlərlə münasibətlərinin sivil məcraya yönəldilməsi xarici iqtisadi-ticari əlaqələrin bərpasına və bilavasitə nəqliyyat-kommunikasiya kompleksinin yüksəlişinə təkan verdi.

Həmin dövrdən etibarən dünya miqyasında qlobal nəqliyyat sistemi strukturunun konkretləşdirilməsi prosesi sürətlənmiş, Avropa və Asiya ölkələri arasında əməkdaşlıq üçün müəyyən beynəlxalq platformaların yaradılması istiqamətində qüvvələrin konsolidasiyası

yaranmışdı. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində respublikamız da bu prosesdən kənarda qalmamış, beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması kimi mürəkkəb sosial, iqtisadi və təşkilati-texniki prosesdə yaxından iştirak edərək, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin gerçəkləşdirilməsi təşəbbüslərini dəstəkləmişdir. Azərbaycanın əlverişli iqtisadi mövqeyə malik olması ona Şərq-Qərb və Şimal-Cənub əlaqələrində xüsusi əhəmiyyət verilməsinə gətirib çıxarmış, respublikamız bu əlverişli geoiqtisadi məkanda ticarət dəhlizi rolunu gücləndirmişdir.

Xüsusilə, Avropa və Asiyanın, Şimal və Cənubun kəsişməsində yerləşən Azərbaycan regionda enerji və yük axınları üçün qovşaq yolunu oynamaq üçün unikal imkanlara malik olduğunu nümayiş etdirmişdir. Tarixi İpək yolunun bərpası ideyasının əfsanədən reallığa çevrilməsi istiqamətində həyata keçirilmiş kompleks tədbirlər respublikamızın geostrateji və coğrafi əhəmiyyətini daha da artırmışdır. Beynəlxalq əhəmiyyətli bu layihənin reallaşması məhz ulu öndər Heydər Əliyevin gərgin və çoxşaxəli fəaliyyətinin, qətiyyətinin nəticəsidir. Xüsusilə, Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində "Böyük İpək yolu"nun bərpası üzrə keçirilən tədbirlər, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin inkişafı, onların iqtisadi potensialından daha səmərəli istifadə edilməsi, çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli şərait yaradıb. Bu Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer

tutması, respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir. 2001-ci ildə isə Avropa Birliyinin TRASEKA proqramının Bakıda rəsmi nümayəndəliyinin açılması ikitərəfli əlaqələrin perspektliyinə daha ciddi təminat yaratmışdır. Bu bir daha Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin formalaşdırılmasında Azərbaycana necə böyük əhəmiyyət verildiyini təsdiqləyir.

Beləliklə, Azərbaycanın əlverişli geoiqtisadi mövqeyi ona həm Şərq-Qərb, həm də Şimal-Cənub əlaqələrində "açar" əhəmiyyətli ölkələrdən biri kimi çıxış etməyə imkan verir. Bütün bunlar göstərir ki, beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan hər növ nəqliyyat daşımaları üçün əhəmiyyətli strateji mərkəzdir.

2003-cü ildə hakimiyyət estafetini ümummilli liderdən təhvil alan Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, ölkənin yol-nəqliyyat infrastrukturunda da əsaslı islahatlar həyata keçirmişdir. Təqdirəlayiq haldır ki, dövlət başçısı bu istiqamətdə siyasətini məhz hakimiyyətə gəldikdən dərhal sonra icra etməyə başlamışdır.

Xüsusilə, Prezident İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli **"Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında"** fərmanı və 11 fevral 2004-cü il tarixli **"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"** ölkənin yol-nəqliyyat kompleksində də həllini gözləyən

bəzi problemlərin həlli, bu sistemin müasir dövrün tələblərinə uyğunlaşdırılması baxımından vacib əhəmiyyət kəsb edir. Hər iki sənəddə ölkə həyatının digər strateji sahələri kimi, nəqliyyat-kommunikasiya şəbəkəsinin modernləşdirilməsinə və yenidən qurulmasına da xüsusi diqqət ayrılmışdır.

Prezidentin 25 oktyabr 2005-ci il tarixli **"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri ilə bağlı əlavə tədbirlər haqqında"** sərəncamı da, bu baxımdan, respublikanın yol-nəqliyyat sistemində mövcud problemlərin kompleks həlli üçün mühüm əhəmiyyət kəsb etmişdir. Sərəncama əsasən, Nazirlər Kabinetinin hazırladığı **"Azərbaycan Respublikasının avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı"** Prezident İlham Əliyev tərəfindən imzalanmışdır.

Qeyd edək ki, Dövlət Proqramında qarşıya qoyulan vəzifələr uğurla icra olunmaqdıdır. Belə ki, 2008-ci ilin əvvəllərinədək Dövlət Proqramı çərçivəsində Ələt - Hacıqabul yolunun 45,6, Gəncə - Şəmkir yolunun 21,5, Şəmkir-Qazax yolunun 73, Lənkəran-Lerik yolunun 50, Masallı - Yardımlı yolunun 53, Bakı - Quba yolunun 34, Bakı - Ələt - Qazax yolunun 25, Bakı - Şamaxı - Yevlax yolunun 62, Bakı - Sumqayıt yolunun 21 kilometri və s. təmir edilmiş, yaxud yenidən qurulmuş, paralel olaraq respublika ərazisi üzrə bir çox körpülərdə əsaslı təmir-bərpa işləri aparılmış, onların bir qismi yenidən qurulmuş, yeni körpülər tikilmişdir. Həmçinin, qısa müddət ərzində Bakı - Qazax - Gürcüstan sərhədi avtomobil magistralının

yenidən qurulması, Bakı dairəvi yolunun inşasına başlanılması, habelə Şimal-Cənub dəhlizi layihəsi çərçivəsində Bakı - Rusiya dövlət sərhədi avtomobil yolunun və Ələt - İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun yenidənqurulması ilə bağlı investisiya layihələrinin həyata keçirilməsi olduqca mühüm addımlardır.

Son illər respublikamızın artan maliyyə resursları da ölkəmizin nəqliyyat sahəsində transmilli layihələrin həyata keçirməsinə rəvac vermişdir. Belə ki, dövlət başçısı İlham Əliyevin şəxsi təşəbbüsü ilə Bakı - Tbilisi - Qars dəmir yolunun tikintisi tarixi nailiyyət sayıla bilər və bu dəmiryolunun tikintisi Azərbaycanın etibarlı tranzit ölkəyə çevrilməsinə zəmin yaradacaq. Eyni zamanda, son dövrlər dəniz nəqliyyatının inkişafı sahəsində də mühüm işlər görülmüşdür. Ölkəmizin hava nəqliyyatı sahəsində atdığı addımlar isə MDB məkanı üçün nümunə sayıla bilər. Belə ki, artıq ölkəmizdə 4 beynəlxalq statusa malik hava limanı var (Bakı, Naxçıvan, Gəncə, Lənkəran). Zaqatalada isə yeni beynəlxalq statusa malik hava limanının inşası nəzərdə tutulub. Prezidentin bu nailiyyətlərə münasibəti isə yol-nəqliiyat strategiyasının əsil mahiyyətini ifadə edir: "**...Bütün bu nailiyyətlər bir daha onu göstərir ki, biz öz siyasətimizlə, etibarlı tərəfdaş olmağımızla, gözəl geosiyasi vəziyyətdən istifadə etməklə Azərbaycanda çox güclü və hərtərəfli nəqliyyat infrastrukturuna malik oluruq, bunu gücləndiririk. Növbəti illərdə bu sahəyə həm diqqət artırılacaq, həm də maliyyə resursları cəlb ediləcəkdir**".

Bütün bunlarla yanaşı, Prezidentin 2006-cı il 1 fevral tarixdə imzaladığı **"Bakı şəhərində nəqliyyat sistemi-**

**nin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün tədbirlər planı**"nın icrası nəticəsində paytaxtda 9 körpü və 13 piyada keçidinin tikilməsi planlaşdırılıb ki, bu müddət ərzində bütövlükdə 6 yol ötürücüsü və 6 piyada keçidi tikilərək istifadəyə verilmişdir və hazırda bu plan uğurla davam etdirilir. Ədalət naminə etiraf edək ki, məhz bu körpü və keçidlərin istifadəyə verilməsi paytaxtda ənənəvi tıxac problemini aradan qaldırmış, insanların həyat tərzinə öz müsbət təsirini göstərmişdir.

Beləliklə, Azərbaycanda iqtisadiyyatın bütün strateji əhəmiyyətli sahələrində müşahidə olunan pozitiv inkişaf və tərəqqi respublikamızda yol-nəqliyyat sisteminin əsaslı yenidənqurulmasına da geniş imkanlar yaratmışdır.

Prezident İlham Əliyev reallıqdan çıxış edərək dəfələrlə bildirmişdir ki, müasir qloballaşma şəraitində hər bir dövlətin iqtisadi potensialı, gücü və qüdrəti həm də onun malik olduğu yol-nəqliyyat kompleksinin inkişaf səviyyəsi ilə ölçülür. Geniş və çoxşaxəli, mükəmməl infrastruktura malik, dövrün tələblərinə cavab verən yol-nəqliyyat şəbəkəsinə malik olmayan hansısa dövlətin dinamik inkişafından söz açmaq qeyri-ciddi olardı. Prezident İlham Əliyev hesab edir ki, avtomobil yolları şəbəkəsinin, yol infrastrukturunun bərpa edilməsi, yeniləşdirilməsi və inkişafı son illər ölkədə insanların rahatlığı, firavan yaşayışı naminə həyata keçirilən sosial tədbirlərin tərkib hissəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin bu sahədə yeritdiyi siyasəti inamla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın əlverişli geostrateji mövqeyini, eləcə də, beynəlxalq əhəmiyyətli qlobal kommunikasiya

xətlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşdiyini nəzərə alaraq, yol-nəqliyyat sisteminin tamamilə yenidən qurulmasını və modernləşdirilməsini elmi əsaslara söykənən iqtisadi inkişaf strategiyasının tərkib hissələrindən biri kimi müəyyənləşdirmişdir. Məqsəd Şərqlə Qərb arasında strateji körpü rolunu oynayan Azərbaycanın əlverişli tranzit əhəmiyyətli dövlətlərdən biri kimi bölgədəki lider statusunun təmin edilməsidir.

Bu gün dünya iqtisadiyyatını nəqliyyat amilindən kənarda təsəvvür etmək mümkün deyil və Azərbaycan da qloballaşan dünyanın tərkib hissəsi olaraq bir sıra regional layihələrdə iştirak edir, özünün müstəqil nəqliyyat siyasətini həyata keçirir. Hazırda respublikamızın iqtisadi inkişafında böyük keyfiyyət dəyişikliklərinin baş verməsi, eyni zamanda, nəqliyyat sektorunun dinamik inkişafı ilə şərtlənir.

Prezident İlham Əliyevin irəli sürdüyü konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, Azərbaycan regionun əlverişli tranzit və nəqliyyat-kommunikasiya sisteminə malik dövlətinə çevrilsin. Bu baxımdan ölkə prezidentinin baxışlar sistemi olduqca konkret, lakonik və strateji səciyyə daşıyır. **«Bütün nəqliyyat və enerji layihələri, yəni, Asiyanı Avropa ilə birləşdirən dəhlizlər Azərbaycanın ərazisindən keçir. Şübhəsiz ki, ölkəmizin coğrafi vəziyyətindən, təbii ehtiyatlarından çox məharətlə istifadə edib öz çəkimizi artırmalıyıq və biz buna nail olacağıq. Bütün yol təsərrüfatı yeniləşməlidir, həm magistral yollar, həm də şəhərdaxili yollar yüksək səviyyədə olmalıdır».**

İlham Əliyev ötən beş il ərzində energetika sahəsində qlobal əhəmiyyət kəsb edən olduqca ciddi islahatlar

həyata keçirmişdir. Prezidentin sərəncamı ilə təsdiq edilmiş «**Azərbaycan Respublikasında yanacaq enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı**" bu islahatların fundamental əsasını təşkil edir.

Proqramda nəzərdə tutulan layihələr, o cümlədən, Sumqayıtda 506 mVt, "Şimal Elektrik Stansiyası" MMC-də 400 mVt gücündə buxar-qaz qurğuları artıq istismara verilmişdir.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə qısa müddətdə tikilib istifadəyə verilmiş 450 meqavat gücündə modul tipli 5 stansiya Naxçıvanda, Astarada, Şəkidə, Xaçmazda, Bakıda istehlakçıların elektrik enerjisinə tələbatını ödəmək üçün yeni imkanlar açmışdır.

Eyni zamanda, Səngəçalda gücü 300 mVt olan modul stansiyanın inşası davam etdirilir, Füzuli rayonunda - Yuxarı Mil suvarma kanalı ərazisində isə 50 mVt gücündə "Füzuli" su elektrik stansiyası tikiləcəkdir. Elektrik enerjisi istehsal edən yeni müəssisələrin yaradılması Azərbaycan iqtisadiyyatının inkişafı üçün son dərəcə əhəmiyyətlidir.

Son beş ildə Abşeron iqtisadi rayonu üzrə elektrik enerjisi təminatı sisteminin yaxşılaşdırılması məqsədilə "Şimal" elektrik stansiyasında 400 mVt gücündə ikinci enerji blokunun tikintisi üçün meydança hazırlanmış, 2 saylı Bakı İstilik Elektrik Mərkəzi ərazisində 104 mVt gücündə yeni modul elektrik stansiyasının tikintisi başa çatdırılmış və istismara verilmişdir. Kredit müqaviləsi əsasında Almaniyanın KFV bankının maliyyələşdirdiyi "Elektrik enerjisinin ötürülməsi-2" reabilitasiya proqramı üzrə 110 kilovoltluq Maştağa yarımstansiyasında

yenidənqurma işləri uğurla tamamlanmış, yeni avadanlıqlar quraşdırılmışdır.

Bundan əlavə, Xırdalan, Binəqədi, Zabrat, Dübəndi, Puta, Abşeron, Hövsan və digər yarımstansiyalarda köhnə transformatorlar dəyişdirilmiş, elektrik avadanlıqları yeniləşdirilmişdir.

Gəncə-Qazax iqtisadi rayonu üzrə həyata keçirilmiş işlərin sırası da xeyli genişdir. Təkcə onu demək kifayətdir ki, aparılmış məqsədyönlü tədbirlər nəticəsində Tovuz rayonunda yeni tikilmiş 110 kilovoltluq "Qovlar", 35 kilovoltluq "Aşağı Quşçu", Gəncədə 35 kilovoltluq "Üzgüçülük hovuzu", Ağstafa rayonunda 35 kilovoltluq "Tatlı", Qazaxda 35 kilovoltluq "Kəmərli" yarımstansiyaları uğurla istismar olunur. Adı çəkilən iqtisadi rayonun elektrik enerjisi təminatını yaxşılaşdırmaq məqsədilə yarımstansiyalarda ifrat gərginlik məhdudlaşdırıcıları quraşdırılmış, elektrik verilişi xətləri yeniləşdirilmişdir. Bütövlükdə isə paylayıcı elektrik şəbəkələri tərəfindən yarımstansiyalarda və elektrik verilişi xətlərində təmir-bərpa işləri aparılmış, transformatorların gücləri artırılmış, yeni elektrik verilişi xətləri və kabel xətləri tikilmişdir.

Ötən müddətdə Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan Dəvəçi, Xaçmaz, Quba, Qusar və Siyəzən rayonlarının elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması üzrə proqramda nəzərdə tutulmuş tədbirlərin əksəriyyəti uğurla yerinə yetirilmişdir. Belə ki, ötən il Xaçmazda 87 meqavat gücündə yeni modul elektrik stansiyası istifadəyə verilmiş, elektrik enerjisinin ötürülməsi üçün 7,2 km uzunluğunda iki dövrəli 110 kilovoltluq

elektrik verilişi xətti çəkilmişdir. İqtisadi rayonun ərazisindəki paylayıcı elektrik şəbəkələri tərəfindən 110 kilovoltluq yeni elektrik verilişi xətləri təmir edilmiş, yarımstansiya və transformator məntəqələri istismara verilmiş, zədəli və ifrat yüklənmiş transformatorlar yeniləri ilə əvəz olunmuşdur.

Ötən müddətdə İmişli, Yevlax, Sabirabad, Bərdə və digər yarımstansiyaların imkanları artırılmış, elektrik avadanlıqları yeniləşdirilmiş, paylayıcı şəbəkələrin işi əsaslı şəkildə yaxşılaşdırılmışdır. Qeyd etdiyimiz kimi, Dağlıq Şirvan və Naxçıvan iqtisadi rayonları üzrə həyata keçirilmiş analoji işlər də bu sahədə ciddi dönüşə səbəb olmuş, adı çəkilən regionların elektrik enerjisi ilə fasiləsiz və etibarlı şəkildə təminatına imkan yaratmışdır.

Həyata keçirilmiş tədbirlərin nəticəsidir ki, regionların elektrik enerjisi ilə təchizatında əvvəllər müşahidə olunan fasilələr, demək olar ki, tamamilə aradan qaldırılmış, enerji israfçılığının qarşısı alınmış, sərf olunmuş enerjinin dəyərinin ödənilmə səviyyəsi xeyli artmışdır.

İlham Əliyevin 5 illik prezidentlik fəaliyyəti dövrü ərzində ölkənin qaz təsərrüfatında görülən işlərin siyahısı və miqyası çox genişdir. Qısa zaman kəsiyində 4 min kilometr magistral qaz kəmərinin, 40 min kilometrə yaxın şəhər və rayondaxili qaz xətlərinin çəkilməsi, 150 qazpaylayıcı stansiyanın yenidən qurulmasını bu siyahıya əlavə etsək, ölkəmizin qaz təsərrüfatının yeniləşdirilməsinin miqyası barədə konkret təsəvvür yaranar.

Həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkənin uzun müddət qaz almayan bölgələrinin mavi yanacaqla təminatı bərpa olunmuş və bununla da əhalinin

bir çox sosial-məişət problemləri öz həllini tapmışdır. 2003-cü ildən başlayaraq 2008-ci ilədək mərhələlərlə respublikanın 55 rayon mərkəzində 760500 nəfər əhalini əhatə etməklə 172142 mənzil qazla təchiz edilmişdir.

İlham Əliyevin imzaladığı **"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında", "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı" və "Bakı şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı"**nın təsdiq edilməsi haqqında sərəncamlar ölkənin qaz təminatının yaxşılaşdırılması ilə yanaşı, təsərrüfatın texniki baxımdan dinamik inkişafının təmin edilməsinə yönəldilmişdir. 2005-ci ildən başlayaraq 15 il blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası əhalisinə, sənaye və kommunal obyektlərə təbii qaz təminatı bərpa olunmuş və hazırda 12 min abonent mavi yanacaqla təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin **«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)»**nın təsdiq edilməsi haqqında fərmanına, **«Azərbaycan Respublikası regionlarının, o cümlədən, Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında»** 14 sentyabr 2005-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Tədbirlər planı"nın icrası olaraq Lerik və Yardımlı rayonlarının qazlaşdırılmasının birinci mərhələsi 2006-ci ilin oktyabrında başa çatdırılmış və həmin vaxtdan bu rayonların əhalisi təbii qazla təmin olunmuşdur. Qeyd

edək ki, bu iki rayon SSRİ dönəmində belə qazla təmin edilməmişdi.

Təbii qazın uçotunun daha dəqiq aparılması məqsədilə Nazirlər Kabineti tərəfindən verilmiş **"Respublika yaşayış fondunda qaz sayğaclarının quraşdırılması haqqında"** sərəncamın icrası istiqamətində də böyük işlər görülüb. Artıq abonentlərin 98,5 faizi sayğacla təmin olunmuşdur.

Əlbəttə, ölkənin bütün yaşayış məntəqələrinin başdan-başa qazlaşdırılması prosesi davam edir və şübhə yoxdur ki, yaxın 5 ildə bu problem tam şəkildə öz həllini tapacaq.

## İNFORMASİYA TEXNOLOGİYASI DÖVLƏTİN PRİORİTETİNƏ ÇEVRİLİR

İnformasiya texnologiyaları müasir dövrdə hər bir dövlətin, xalqın ümumi inkişaf səviyyəsindən, intellektual potensialından xəbər verən sosial, iqtisadi və mədəni yüksəlişi təmin edən mühüm göstəricilərdən birinə çevrilmişdir. Elmi-texniki tərəqqinin ən son nailiyyətlərinə əsaslanmaqla müasir informasiya texnologiyalarının inkişaf etdirilməsi, son 15 ildə Azərbaycanda da dövlətin qarşısında duran prioritet vəzifələrdən birinə çevrilmişdir. Yeni dünya düzəninin diktə etdiyi gerçəklik kimi son illər dövlət səviyyəsində internet və digər informasiya kommunikasiyalarının inkişafına xüsusi diqqət yetirilir.

1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bu sahənin ardıcıl və

sistemli inkişafına xüsusi önəm verilmiş, ötən müddətdə rabitə və informasiya texnologiyalarının fəaliyyəti üçün zəruri hüquqi-normativ baza formalaşdırılmış, maddi-texniki təminat müasir tələblərə uyğunlaşdırılmışdır. Ulu öndərimizin 2003-cü il 17 fevral tarixində imzaladığı **"Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"** müasir informasiya texnologiyalarının Azərbaycanda tətbiqi sahəsində strateji vəzifələr müəyyənləşdirmişdir. Respublikada informasiya texnologiyalarının geniş tətbiqinə isə 1994-cü ildən sonra başlanmışdır. 1994-cü ilin 20 sentyabrında ümummilli liderimizin qətiyyəti və siyasi iradəsi əsasında imzalanmış "Əsrin müqaviləsi" müasir rabitə və informasiya texnologiyalarının ölkəmizdə sürətlə tətbiqində böyük canlanma yaratmışdır.

Bu gün Prezident İlham Əliyevin də xüsusi diqqət yetirdiyi sahələrdən biri, məhz Azərbaycanda rabitə və informasiya texnologiyalarının sürətli yüksəlişinin təmin edilməsi, respublikamızın bu sahədə əlverişli tranzit ölkəyə və regional mərkəzə çevrilməsidir. Unutmayaq ki, İlham Əliyev prezident seçildikdən sonra ilk xarici səfərə, BMT-nin mandatı ilə Cenevrədə təşkil edilmiş İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirakla başlamışdır. Azərbaycan Prezidenti həmin sammitdə bəyan etmişdir ki, XXI əsrdə informasiya və kommunikasiya texnologiyalarının inkişafı Azərbaycanın sosial-iqtisadi inkişafında prioritet sahələrdən biri kimi nəzərdən keçirilir. Bu sahələrin inkişafı Azərbaycanda sosial-iqtisadi inkişafın, sivil dünya dəyərlərinin, insan hüquqlarının

etibarlı təminatı və demokratikləşmə prosesinin sürətləndirilməsi baxımından olduqca zəruridir.

Azərbaycan Prezidentinin 24 noyabr 2003-cü il tarixli **"Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında"** fərmanında və 11 fevral 2004-cü il tarixli **"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"**nda bir sıra sahələrlə yanaşı, rabitə və informasiya texnologiyalarının inkişafına da xüsusi diqqət ayrılmışdır. 2004-cü il fevralın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanı əsasında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması isə bu sahənin inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin informasiya texnologiyalarının geniş tətbiqi sahəsində ən böyük addımlarından biri kimi 2004-cü il avqustun 21-də imzalanmış dövlət proqramını xüsusi qeyd etmək lazımdır. Dövlət başçısının **"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı haqqında"** fərmanı 2005-2007-ci illər ərzində təhsilin keyfiyyətinin yüksəldilməsində, gənclərin inkişafında və ümumiyyətlə, Azərbaycanın tərəqqisində müasir texnologiyaların rolunu bir daha təsdiqləmişdir. Bu proqram ölkədə yeni informasiya texnologiyalarından istifadə olunmaqla, təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən, dünya təhsil sisteminə inteqrasiya imkanı verən vahid təhsil informasiya sistemi yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşıyır.

Dövlət başçısının 22 oktyabr 2005-ci il tarixli fərmanı ilə "**Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı**"nın imzalanması isə bu sahədə kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutan, rabitə və informasiya texnologiyalarının hökumətin fəaliyyətində geniş tətbiqinə imkan yaradan, habelə, bölgələrdə geniş yayılmasını təmin edən təkmil fəaliyyət konsepsiyasıdır.

Proqramda nəzərdə tutulmuş tədbirlər nəticəsində 2008-ci ildə Azərbaycan informasiya texnologiyalarının inkişafı sahəsində ümumdünya orta göstəricilərinə çatacaq, bu sektorun inkişafına 150 milyon ABŞ dolları yönəldiləcəkdir. Bütün sahələrdə inkişaf edən Azərbaycanda idarəetmənin müasir texnologiyalar əsasında qurulması, ilk növbədə, zamanın tələbindən irəli gəlir.

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2008-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında, respublikamızda kompyuter və informasiya texnologiyalarının inkişafı zəruriliyini bir daha önə çəkmişdir. Əlbəttə, bu diqqət Azərbaycanın gələcək inkişaf perspektivləri ilə şərtlənir. Təcrübə göstərir ki, müasir bilik və texnologiyalar olmadan cəmiyyətin davamlı inkişafını təmin etmək mümkün deyil.

Prezident İlham Əliyev müasir dövrün qarşıya qoyduğu vəzifələri düzgün qiymətləndirdiyi üçün məktəblərin kompyuterləşdirilməsini, gənclərin bu sahəni dərindən mənimsəməsini vacib amil kimi önə çəkir. Nazirlər Kabinetinin son iclasında dövlət başçısı dün-

yanın bir çox aparıcı şirkətlərinin Azərbaycanda məhz bu sahəyə maraq göstərdiyini vurğulamışdır. **"Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) sürətlə inkişaf edir. Mən çox şadam, görürəm ki, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin böyük proqramları var. Mən bu il dünyanın aparıcı İKT şirkətlərinin başçıları ilə görüşlər keçirmişəm. Azərbaycana çox böyük maraq var, Azərbaycan çox perspektivli yer kimi qəbul olunur. Bir tərəfdən, bizim ümumi iqtisadi inkişafımız, ümumi daxili məhsulun yüksək səviyyədə olması, Azərbaycanda iş görmək istəyən bütün şirkətləri, əlbəttə, təəccübləndirir və eyni zamanda, onları Azərbaycana gəlməyə sövq edir. Digər tərəfdən, bu sahədə görülən işlər, qəbul edilmiş proqramlar və bizim praktik uğurlarımız, əlbəttə, böyük İKT şirkətlərinin Azərbaycana gəlməsini təmin edəcəkdir. Bu, müasirlikdir, iqtisadi cəhətdən əlverişli sektordur. Azərbaycan gələcəkdə bu sahənin inkişafından milyardlarla dollar pul qazanacaqdır. Eyni zamanda, bu, müasirlikdir, inkişafdır, savaddır, bilikdir"** - deyə dövlət başçısı bildirmişdir. Kompyuter və informasiya texnologiyaları, eyni zamanda, hər bir ölkənin müasirliyindən, çağdaş dövrün mütərəqqi inkişaf meyillərini düzgün dəyərləndirməsindən xəbər verir.

Beləliklə, etiraf etməliyik ki, qısa müddət ərzində Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sektorunun inkişafı üçün mühüm addımlar atılmışdır.

Son zamanlar dünyanın ən böyük kommunikasiya şirkətləri Azərbaycana böyük maraq göstərir. Böyük şir-

kətlərin rəhbərlərinin respublikamıza səfərləri və 2007 və 2008-ci ilin yanvar ayında Davosda keçirilmiş ənənəvi iqtisadi forumda dünyanın aparıcı informasiya-kommunikasiya texnologiyaları şirkətlərinin (Microsoft, Cisco və İntel) prezidentlərinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə görüşlər bir daha göstərir ki, Azərbaycanın İKT sektoru potensial investorların diqqət mərkəzindədir və bu imkanlardan səmərəli istifadə olunur.

Aparılan işlərin bir istiqaməti də ölkədə güclü elektron şəbəkə infrastrukturunun qurulmasına yönəlmişdir. Müasir cəmiyyət üçün çox vacib olan bu telekommunikasiya şəbəkəsi təkcə rabitə və informasiya mübadiləsi deyil, eyni zamanda çoxlu sayda digər xidmətlərin və sosial-iqtisadi fəaliyyət növlərinin, o cümlədən, elektron KİV-nin yayımı, bank və kommersiya, təhsil və tibb, loqistika və yeni tipli xidmətlərin və qeyri-maddi rəqəmləşdirilmiş əmtəələrin istehsalı, saxlanılması və çatdırılması kimi funksiyalarını yerinə yetirir. Həmçinin qeyd edilməlidir ki, ölkə başçısı iqtisadiyyatımızda yeni sektorun - kosmik sənayenin inkişafı üçün də uyğun tədbirlər həyata keçirir. İlk mərhələdə məqsəd Azərbaycanın milli telekommunikasiya süni peykinin orbitə çıxarılması, bununla ölkəmizin bu sahəyə olan daxili tələbatını ödəmək və beynəlxalq kosmik bazara çıxarmaqla yanaşı, ölkəmizin Qərb-Şərq informasiya dəhlizində səmərəli seqmentə çevrilməsini təmin etməkdir.

Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişaf dinamikası, uğurla həyata keçirilən neft strategiyası nəticəsində ölkəyə olan inamın artması, beynəlxalq qurumlarla uğurlu əməkdaşlıq nümu-

nələri, yüksək texnologiyaya əsaslanan iqtisadiyyatın formalaşması üzrə qarşıya qoyduğumuz vəzifələr və ən nəhayət, dövlət siyasətinin tərkib hissəsi kimi İKT sahəsinə göstərilən böyük diqqət və qayğı, ölkəmizin yaxın gələcəkdə yüksək texnologiyalar sahəsində nəinki regionda, həmçinin, dünyanın aparıcı ölkələrinin ön sırasında olacağına böyük zəmanət verir.

## EKOLOJİ TƏMİZLİYƏ DÖVLƏT QAYĞISI

Ulu öndərimiz Heydər Əliyevin ekoloji problemlərin həlli istiqamətində 1970-1980-ci, o cümlədən 1993-2003-cü illərdə həyata keçirdiyi qlobal proqramlar (yaşıllıqların qorunması və artırılması, dənizin çirklənməsinin qarşısının alınması, sahil zolaqlarında istirahət-sağlamlıq obyektlərinin yaradılması, neft-kimya müəssisələrinin yenidən qurulması və s.) bu gün daha geniş miqyasda davam etdirilir.

Ən çox diqqət çəkən məsələ odur ki, İlham Əliyev dövlətə rəhbərlik etdiyi 2003-cü ildən bəri ekoloji tarazlığın pozulması qarşısının alınması üçün kompleks proqramlar qəbul etmiş, profilindən asılı olmayaraq ölkənin bütün nazirlik, komitə, idarə, müəssisə və təşkilatlarını, bələdiyyələri, özəl bölməni və əhalini həmin proqramların icrasına səfərbər etmişdir. Belə ki, 3 iyul 2006-cı il tarixdə Azərbaycan Prezidenti İlham Əliyevin yanında ekoloji vəziyyətlə bağlı keçirilmiş müşavirə və müşavirənin yekunları əsasında hazırlanaraq dövlət başçısının 28 sentyabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq olunmuş **"Azərbaycan Respublikasında ekoloji və-**

**ziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı"** ekoloji problemlərin həlli istiqamətində mühüm addımdır.

Prezident İlham Əliyev Abşeron yarımadasında çirklənmiş ərazilərin neftdən təmizlənməsi, gölməçələrin qurudulması üçün mütəmadi olaraq öz tapşırıqlarını verir, keçirdiyi müşavirələrdə ölkənin, xüsusilə paytaxtın, Abşeron yarımadasının ekologiyasının yaxşılaşdırılması üçün aidiyyatı orqanlardan bu məsələlərə diqqətlə yanaşmağı tələb edir. **"Bakı, Abşeron, Sumqayıt ekoloji cəhətdən çətin vəziyyətdədir. Burada təxminən 3 milyona yaxın insan yaşayır. Belə olan halda, biz bu məsələlərə ciddi baxmalı və nə lazımdırsa, onu da etməliyik"** - deyən dövlət başçısı problemin həllinə kompleks şəkildə yanaşmağın zəruri olduğunu vurğulayır.

Bakı buxtasının və əsrlərdən bəri neftlə çirklənmiş ərazilərin təmizlənməsi, kanalizasiya şəbəkəsinin yenidən qurulması, dənizə təmizlənməmiş suların axıdılmasının qarşısının alınması, Heydər Əliyev adına Beynəlxalq hava limanı ətrafında ekoloji vəziyyətin yaxşılaşdırılması və digər məsələlər Prezident İlham Əliyev tərəfindən imzalanmış və 2006-2010-cu illəri əhatə edən Tədbirlər Proqramında geniş əksini tapmışdır. Su ehtiyatlarının dəqiq hesablanması, suyun çirklənməsinin qarşısının alınması, meşələrin qorunması, yeni yaşıllıq zolaqlarının salınması, ekoloji təbliğat və maarifləndirmə tədbirlərinin gücləndirilməsi, tədris müəssisələrində ekoloji təhsilə geniş yer ayrılması və bu sahə üzrə kadrların hazırlanması kimi məsələlər də bu proqrama daxil edilmişdir.

İlham Əliyevin prezidentliyi dövründə ekoloji problemlərin kompleks həlli üçün 5 dövlət proqramı təsdiq olunmuş, qanunvericilik təkmilləşdirilmiş, ölkəmiz 20 beynəlxalq konvensiyaya qoşulmuş, həmçinin bu dövrdə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 2 dəfə artırılmışdır. Prezidentin 2006-cı il 24 mart tarixli sərəncamı ilə təsdiq edilmiş **"Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı"** ilə əlaqədar ardıcıl tədbirlər görülmüşdür.

Dünyada ətraf mühitin çirklənməsi və digər problemlərin həlli yollarından biri hazırda ən prioritet olan alternativ enerji mənbələrindən istifadədir. Ölkəmiz külli miqdarda neft və qaz ehtiyatlarına malik olmaqla yanaşı, alternativ enerji mənbələri olan günəş və külək enerjiləri ilə zəngin olduğundan bu sahədə böyük imkanlara malikdir. Bununla əlaqədar Prezident İlham Əliyev alternativ və bərpa olunan enerji mənbələrindən istifadə etməklə ətraf mühitin çirklənməsinin azaldılması, neft və qazdan alınan gəlirlərdən əhalinin sosial rifahının yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi kimi məsələlərin həllini vacib bir vəzifə kimi qarşıya qoymuş və 21 oktyabr 2004-cü il tarixli sərəncamı ilə **"Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"**nı təsdiq etmişdir. Bu sahədə artıq müəyyən işlər görülmüş, bioqaz qurğularının, külək enerjisindən istifadə etməklə elektrik enerjisi alan qurğuların və günəş batareyalarının quraşdırılmasına başlanılmışdır.

Bütün bunlarla yanaşı, Prezident İlham Əliyevin qabaqcıl dünya təcrübəsinə və yeni texnologiyaların tətbiqinə diqqəti nəticəsində, ölkədə ilk dəfə olaraq ətraf mühitin monitorinqi sistemi yaradılmış, ən müasir cihazlarla təmin olunmuş 8 laboratoriya təşkil edilmişdir. İndi Azərbaycanda çayların transsərhəd çirklənməsinin qarşısının alınması üçün NATO, TACİS, BMT-nin İnkişaf Proqramı, Almaniya hökumətinin yardımı ilə bir sıra regional layihələr həyata keçirilir və ETSN, QHT nümayəndələri bu layihələrin həyata keçirilməsində fəal iştirak edirlər. Eləcə də, çaylarda daimi monitorinqin keçirilməsi üçün Qazax və Beyləqan rayonlarında müasir avadanlıqlarla təchiz edilmiş analitik-tədqiqat laboratoriyaları yaradılıb istifadəyə verilmişdir. Bu laboratoriyalar vasitəsilə əldə olunmuş dəqiq məlumatlar müvafiq tədbirlərin görülməsi üçün beynəlxalq təşkilatlara təqdim olunur.

Azərbaycan Respublikasında meşəsalma və meşəbərpa işlərinin gedişi vəziyyəti də ölkə Prezidentinin diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bu sahədə görülmüş işlərin həcmi son dövrdə 3 dəfədən çox artmış, 39 min hektardan çox sahədə meşəsalma və təbii bərpa işləri aparılmış, 8 yeni meşəsalma və regional tingilik müəssisəsi yaradılmışdır.

Prezidentin 2007-ci il 20 iyun tarixli sərəncamı ilə təsdiq olunmuş **"Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında"** sənədlə isə Kür və Araz çaylarının suyundan istifadə edən bir sıra yaşayış məntəqələrinin ekoloji cəhətdən təmiz su ilə təmin edilməsi üçün Prezidentin Eh-

tiyat Fondundan 3 milyon manat vəsait ayrılmışdır. Artıq bu yolda ciddi addımlar atılmışdır. 2008-ci ilin sonunadək 50 yaşayış məntəqəsində modul tipli lokal sutəmizləyici qurğuların quraşdırılmasının təmin edilməsi üçün qurğuların yerinin və supaylayıcı bulaqlar sisteminin inşasına başlanmışdır.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2007-ci il 20 avqust tarixində təsdiq olunmuş **"Bakı şəhərinin bir sıra ərazilərinin landşaft dizaynı planının tərtib edilməsi və xüsusi təyinatlı ekoloji texnikanın alınması ilə əlaqədar bəzi tədbirlər haqqında"** sərəncam ilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 4,5 milyon manat vəsait ayrılmışdır. Sərəncamda qeyd olunan tədbirlərin həyata keçirilməsi məqsədilə əsaslı tikinti, yol çəkilişi və sair işlərin görülməsi zamanı çoxillik ağacların onlara ziyan vurulmadan başqa yerlərə köçürülməsində istifadə olunan xüsusi təyinatlı texnikanın alınması üçün tender elan olunmuşdur.

Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunması sahəsində qısa müddətdə əldə olunan bu uğurlar ölkə Prezident İlham Əliyevin iradəsi, qayğısı və qətiyyəti ilə həyata keçirilmişdir. Təsadüfi deyil ki, dövlət başçısının bu sahədə gördüyü işlər, atdığı addımlar beynəlxalq aləm tərəfindən də yüksək qiymətləndirilmiş, Prezident İlham Əliyev ekoloji tarazlığın və ətraf mühitin qorunmasındakı xidmətlərinə görə Almaniyanın Mixail Zukkov Fondu tərəfindən mükafatlandırılmışdır.

## HUMANİTAR VƏ SOSİAL SFERANIN YÜKSƏLİŞİ

Prezident İlham Əliyevin fəaliyyətində təhsil və səhiyyənin inkişafı bu sahələrdə həyata keçirilən islahatlar xüsusi yer tutur. İlham Əliyev dövlət siyasətində təhsilin inkişafını prioritet istiqamət kimi nəzərə alır və təhsil işçiləri qarşısında strateji vəzifələr müəyyənləşdirir: **"İndiki zamanda yaxşı təhsil almaq çox önəmlidir. Bu, o deməkdir ki, gələcəkdə uşaqlar, gənclər həyatda özlərinə layiq yer tutacaqlar. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, o ölkələr inkişaf edir ki, orada təhsil yüksək səviyyədədir, yeni texnologiyalar tətbiq olunur".** Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqətlə yanaşması, həm də respublikamızın sürətli iqtisadi inkişaf yolunda olması, geniş maliyyə imkanları qazanması ilə şərtlənir. Dövlət büdcəsinin vəsaitlərinin ildən-ilə artması təhsil sahəsində məhz maliyyə çatışmazlığı səbəbindən uzun illərdən bəri yığılıb qalmış bəzi problemlərin məhz hazırkı mərhələdə həlli məsələsini aktuallaşdırır, dövlət investisiyalarının həcmcə artımını təmin edir, bu sahənin dünya standartları səviyyəsinə qalxmasına geniş imkanlar açır.

Ötən 5 ildə elmin və təhsilin problemlərinin həlli üçün bir sıra fərman və sərəncamlar, mühüm dövlət proqramları imzalayan Prezident İlham Əliyev respublikanın iqtisadi imkanlarının genişlənməsi müqabilində bu sahəyə diqqətin daha da artırılacağını təsdiqləmişdir. Bu gün özünü qabarıq şəkildə büruzə verən problemlərin həlli - məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının inşası

Azərbaycan Prezidentinin 11 fevral 2004-cü il tarixli **"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında"** fərmanında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir.

Təhsilin səviyyəsini müasir standartlara uyğunlaşdırmaq, ali və orta məktəblərdə tədrisin keyfiyyətinin monitorinqini həyata keçirmək, təhsil sahəsində mövcud problemləri vaxtaşırı təhlil edərək, müvafiq tədbirlərin görülməsini təmin etmək məqsədi ilə dövlət başçısı 30 may 2005-ci il tarixdə **"Azərbaycan Respublikasının Prezidenti yanında təhsil üzrə xüsusi komissiyanın yaradılması haqqında"** sərəncam imzalamışdır. Komissiya təhsilin strateji inkişaf istiqamətləri ilə bağlı təkliflər verir, fundamental islahatların həyata keçirilməsi mexanizmlərini irəli sürür. Dövlət başçısının digər bir fərmanı ilə Azərbaycanda "Bilik günü" təsis edilmiş, təhsil müəssisələrində iş rejimi tənzimlənmişdir. Eyni zamanda, fərmanda ölkəmizin təhsil müəssisələrində təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edən səmərəli fəaliyyət sisteminin qurulması ilə əlaqədar bir sıra tədbirlərin görülməsi də nəzərdə tutulmuşdur.

Respublikamızda həyata keçirilən inkişaf strategiyası ölkədə yoxsulluq səviyyəsinin azaldılmasını, əhalinin maddi-rifahının yaxşılaşdırılmasını, işsizliyin aradan qaldırılmasını, xüsusilə gənclərin faydalı məşğulluğunun artırılmasını, rayon və kənd yerlərində sosial-məişət şəraitinin yaxşılaşdırılmasını, o cümlədən, təhsil sahəsində aktual problemlərin həlli kimi strateji istiqamətləri özündə əks etdirir.

**«2005-2009-cu illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı»** bu baxımdan xüsusi aktuallıq kəsb edir. Kadr çatışmazlığı səbəbindən bu gün respublikanın 469 məktəbində xarici dil tədris edilmir və şagirdlər faktiki olaraq həmin fəndən biliklərə yiyələnmək imkanından tamamilə məhrum olmuşlar. Eyni zamanda respublikanın 1748 məktəbində 14 fənn üzrə 54 min saatdan çox dərs yükü 4956 nəfər qeyri-ixtisaslı kadrlar tərəfindən tədris olunur. Sözügedən proqram bu problemin aradan qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud uşaqların təhsili də Azərbaycan Prezidentinin diqqətindədir. **«Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar proqramın (2005-2009-cu illər)»** əhəmiyyəti bu mənada xüsusi vurğulanmalıdır. Proqrama uyğun olaraq beynəlxalq təşkilatlarla birgə həyata keçirilməsinə başlanılmış 3 inklüziv təhsil layihəsi, ümumilikdə, 30-dək təhsil müəssisəsini, 100-dən artıq məktəbəqədər və məktəb yaşlı xüsusi qayğıya ehtiyacı olan uşağı əhatə etmişdir. Proqrama əsasən, bir neçə müəssisədə əlavə korpuslar, idman zalları tikilmiş, bir sıra müəssisələrdə əsaslı təmir işləri aparılmış, bu profildən olan məktəblər zəruri ehtiyacı olan avadanlıqlarla, müasir kompyuterlərlə, nəqliyyat vasitələri ilə təmin olunmuşdur.

Azərbaycan Respublikasında konseptual xarakterli sənədin - ümumi təhsilin Konsepsiyası - Milli Kurrikulumunun qəbulu da Prezident İlham Əliyevin məqsədyönlü inkişaf strategiyası sayəsində milli təhsilimizin

əldə etdiyi nailiyyətlərdən biridir. Milli Kurrikulum çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurrikulumlarının strukturunu əhatə edir.

**"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı (2005-2009-cu illər)"** bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini təmin etmişdir. İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi kimi, ötən 5 ildə Azərbaycanda 900-ə qədər yeni məktəb və əlavə korpuslar tikilmiş, həmçinin, təhsil müəssisələrinin əsaslı təmiri və bərpası, maddi-texniki bazasının gücləndirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır.

Təqdirəlayiq haldır ki, bu prosesdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da yaxından iştirak etmişdir. Fondun **"Yeniləşən Azərbaycana yeni məktəb"** layihəsi çərçivəsində təkcə 2005-2007-ci illərdə bölgələrdə 250-ə yaxın yeni məktəb inşa edilmişdir.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş **"Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)"** ölkəmizdə peşə təhsilinin inkişafı məsələlərini nəzərdə tutur.

Azərbaycan Prezidentinin 19 oktyabr 2006-cı il tarixli **"Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil al-**

**masına dair Dövlət Proqramı haqqında"** sərəncamı isə bu sahədə həyata keçirilən dövlət siyasətində ardıcıllığın və sistemliliyin təmin olunması baxımından təqdirəlayiqdir. Sərəncamda həyata keçirilən işlərin səmərəliliyinin artırılması, pərakəndəliyin aradan qaldırılması məqsədilə İqtisadi İnkişaf və Təhsil nazirliklərinə aidiyyəti qurumlarla birgə üç ay müddətində azərbaycanlı gənclərin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramını hazırlayaraq Azərbaycan Prezidentinə təqdim etmək tapşırığı verilmişdir.

Bu sərəncam əsasında **"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"** hazırlanaraq Azərbaycan Prezidentinin 16 aprel 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir. Dövlət proqramına müvafiq olaraq xarici ölkələrin təhsil müəssisələrində bakalavr dərəcəsi alacaq gənclərin seçimi ilə əlaqədar müsabiqə elan edilmişdir.

Təhsil işçilərinin sosial müdafiəsi, onların həyat səviyyəsinin yüksəldilməsi İlham Əliyevin fəaliyyətində önəmli yer tutur. 2003-cü ildən başlayaraq ildə bir neçə dəfə müəllimlərin və təhsil işçilərinin əməkhaqlarının artırılması ənənə xarakteri daşıyır.

Ümumiyyətlə, hazırda təhsil sisteminin müxtəlif sahələri üzrə ümumilikdə 15 proqram mövcuddur. Həyata keçirilmiş inkişaf proqramları və digər məqsədyönlü tədbirlər nəticəsində ayrı-ayrı təhsil pillələri üzrə bir sıra ciddi nailiyyətlər əldə edilmiş, perspektiv inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Həmçinin, son illərdə məktəbəqədər təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılması üçün bir sıra tədbir-

lər görülmüş, o cümlədən, YUNİSEF, YUNESKO, Ümumdünya Ərzaq Proqramı, Açıq Cəmiyyət İnstitutu Yardım Proqramı tərəfindən vacib layihələr həyata keçirilir. Azərbaycan hökuməti ilə Asiya İnkişaf Bankı arasında imzalanmış sazişə əsasən, "Erkən yaş dövründə uşaqların inkişafı" üzrə Asiya İnkişaf Bankı tərəfindən maliyyələşəcək proqram layihəsi üzərində iş başa çatdırılmışdır.

İlham Əliyevin imzaladığı **"Bakı şəhərinin kənd və qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramı"**na əsasən 2006-2007-ci illərdə 17 yeni məktəb, 20 məktəbin yanında əlavə korpuslar inşa edilmiş, eyni zamanda, proqram çərçivəsində 20 məktəb əsaslı təmir, 14 körpələr evi - uşaq bağçası, 4 məktəbdənkənar tərbiyə müəssisəsi, 1 peşə məktəbi əsaslı təmir edilmiş, 12 uşaq bağçası tikilib istifadəyə verilmişdir.

Prezident İlham Əliyev ölkə həyatının digər sahələri kimi, insanların sağlamlığına da böyük diqqətlə yanaşır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə tibbi xidmətin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır. Azərbaycan Prezidenti çıxışlarında dəfələrlə vurğulamışdır ki, **biz artan iqtisadi imkanlarımızı, ilk növbədə, sosial sahələrin inkişafına, o cümlədən səhiyyənin problemlərinin həllinə yönəltməliyik.**

Səhiyyənin son illərdəki əhəmiyyətli dərəcədə artan büdcəsinə nəzər saldıqda, dövlət başçısının verdiyi vədlərin real işə söykəndiyi bir daha təsdiqlənir. Əgər

2005-ci ildə səhiyyəyə dövlət büdcəsindən 110 milyon manat ayrılmışdısa, 2006-cı ildə bu rəqəm 179, 2007-ci ildə 269, 2008-ci ildə 330 milyon manata çatdırılmışdır. Dövlət başçısınını səhiyəyə ayırdığı diqqət onun maddi-texniki bazasını müasir səviyyədə qurulmasına həlledici təsir göstərmişdir.

Müstəqil respublikamız son beş ildə səhiyyə sahəsində həlledici uğurlara imza atmışdır. 2006-cı ildən həyata keçirilən dövlət proqramları sonrakı illərdə də uğurla davam etdirilmiş, əvvəlki dövrlərdən fərqli olaraq səhiyyənin "proqram maliyyələşməsi" prinsipi tətbiq olunmuşdur.

Prezidentin təşəbbüsü ilə son illərdə Səhiyyə Nazirliyi tərəfindən ən vacib sahələr üzrə - **"Qanın, qan komponentlərinin donorluğu və qan xidmətlərinin inkişafına dair Dövlət Proqramı", "Hemofiliya və talassemiya irsi qan xəstəliyi üzrə Dövlət Proqramı", "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı", "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı", "Onkoloji xəstələrin həyati vacib şiş əleyhinə preparatlarla təminatı üzrə Tədbirlər Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması haqqında Tədbirlər Proqramı"** hazırlanmış və Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir. İrsi qan və böyrək xəstəliklərindən əziyyət çəkənlərin də problemləri ildən-ilə öz həllini tapır, bu insanların 85 faizi dövlət hesabına hemodializlə və dərman preparatları ilə təmin olunur.

İrsi qan xəstəlikləri ilə bağlı Heydər Əliyev Fondunun həyata keçirdiyi nəcib layihələrin də əhəmiyyəti xüsusi vurğulanmalıdır. Fondun prezidenti YUNESKO-

nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü ilə reallaşdırılan bu proqramlar çərçivəsində 1200-dək talassemiyalı, bir o qədər də hemofiliyalı xəstələrin problemləri aradan qaldırılmışdır. Əvvəlki illərdə xəstəxanaların dərman preparatları ilə təmini üçün cəmi bir neçə min manat vəsait ayrılırdısa, proqram çərçivəsində hazırda bu məqsəd üçün 9 milyon manat vəsait sərf edilir. Şəkərli diabet xəstəliyindən əziyyət çəkənlərin problemlərinin həlli üçün təkcə 2007-ci ildə 12 milyon manat vəsait ayrılmışdır.

Respublikamızda uğurla həyata keçirilən səhiyyə islahatları, eyni zamanda, infrastrukturun yeniləşdirilməsinə, tibbi xidmətin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Hazırda səhiyyə sistemi geniş bir tikinti meydanını xatırladır. Təkcə 2007-ci ildə səhiyyə müəssisələrinin inşası, əsaslı təmiri və yenidənqurulması sahəsində çox böyük işlər həyata keçirilmişdir. Bakıda və ölkənin digər regionlarında, ümumilikdə, 50-yə yaxın tibb müəssisəsinin tikintisi və əsaslı təmiri aparılmışdır. Milli Onkologiya Mərkəzinin yeni, çoxmərtəbəli korpusunun tikintisi başa çatdırılmışdır. 20 ildən artıq tikintisi yarımçıq qalmış Zərifə Əliyeva adına Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda inşaat, Bakı şəhərində ən iri tibb müəssisəsi olan Klinik Tibbi Mərkəzdə isə (Semaşko adına 1 saylı klinik və Musa Nağıyev adına Təcili Təxirəsalınmaz Tibbi Yardım xəstəxanalarının bazasında yaradılmış) irihəcmli əsaslı təmir və yenidənqurma işləri başa çatmaqdadır.

2007-ci ilin ikinci yarısında başlanan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun inziba-

ti korpusunun, Sumqayıt şəhərində Təcili Tibbi Yardım xəstəxanasının, Füzuli rayonunun Horadiz qəsəbəsində 100 çarpayılıq xəstəxananın, respublika doğum evinin əsaslı təmiri artıq sona çatmışdır. Eyni zamanda Astara və Qobustan rayonlarında ilk dəfə olaraq həkimlərin fəaliyyəti üçün bütün şəraitin yaradılması ilə yeni tipli həkim ambulatoriyaları tikilmişdir.

Səhiyyəyə dövlət qayğısının tərkib hissəsi kimi Azərbaycan Respublikası Prezidentinin 13 mart 2008-ci il tarixli Azərbaycan Tibb Universitetinin tədris cərrahiyyə klinikasının yaradılması haqqında sərəncamı da xüsusi əhəmiyyət kəsb edir. Etiraf edək ki, son illər Azərbaycan Tibb Universitetinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində bir sıra əhəmiyyətli addımlar atılmış, ölkədə tibb kadrlarının hazırlanması səviyyəsinin yüksəldilməsi məqsədi ilə bir sıra əhəmiyyətli tədris klinikaları yaradılmışdır. Cərrahiyyə kafedralarının Bakı şəhərinin müxtəlif rayonlarının ərazisində yerləşməsi Azərbaycan Tibb Universitetində bu ixtisaslar üzrə tədris prosesinin normal təşkilində müəyyən problemlər yaradırdı. Dövlət başçısı bu problemləri həll etmək, bütün cərrahiyyə kafedralarını bir mərkəzdə cəmləşdirmək, tədris prosesinin təşkilini yaxşılaşdırmaq, həmçinin, ixtisaslaşdırılmış tibbi təhsilin və tibb elminin inteqrasiyasını təmin etmək, nəzəri bilikləri praktik təcrübə ilə daha sıx əlaqələndirmək məqsədi ilə Azərbaycan Tibb Universitetinin tədris cərrahiyyə klinikasının yaradılmasını qərara almış və bu məqsədlə Azərbaycan Prezidentinin Ehtiyat Fondundan zəruri maliyyə vəsaiti ayrılmışdır.






EXIT






MUXTAR
RESPUBLİKASI
ədərək
Şərur
Kəngərli


50 kq


















ENGLISH WRITERS




Salyan rayonu












BAKU








2007-ci İLİN ADAMI
Milli Qəhrəman Çingiz


SEÇİCİLƏRİN SİYAHISI





Səhiyyə işçilərinin sosial müdafiəsinin gücləndirilməsi də İlham Əliyevin diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin 23 yanvar 2007-ci il tarixli sərəncamı ilə səhiyyə əməkdaşlarının məvacibləri orta hesabla 25 faiz artırılmışdır. İlham Əliyevin 30 dekabr 2007-ci il tarixli sərəncamı ilə Bakı şəhərində və ölkə regionlarında təcili və təxirəsalınmaz tibbi yardım stansiyalarının (bölmələrinin) rəhbərlərinin, həkimlərinin, dispetçerlərinin, orta və kiçik tibb heyəti işçilərinin məvacibləri 2 dəfə artırılmışdır və bu proses ardıcıl xarakter daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyevin genişmiqyaslı islahatlar milli səhiyyə sistemimizi sürətlə müasirləşdirir, onu dünya səviyyəsinə yaxınlaşdırır.

Prezident İlham Əliyev ötən zaman kəsiyində ölkədə sosial problemlərin həllinə də diqqətlə yanaşmış və aparılan islahatlar nəticəsində əhalinin aztəminatlı hissəsinin yaşayış səviyyəsi yaxşılaşdırılmışdır. İlham Əliyevə yaxşı məlumdur ki, əldə edilmiş uğurlara baxmayaraq, əhalinin müəyyən hissəsi yoxsuldur, iş tapa bilmir, sosial müdafiə məsələləri istənilən səviyyədə həll edilmir. Bütün bu reallıqları obyektiv nəzərə alan dövlət başçısı 5 il ərzində əmək haqlarının, pensiyaların, ümumiyyətlə, pul gəlirlərinin artmasını təmin edən fərman və sərəncamlar imzalamışdır. 30 iyun 2004-cü il tarixli fərmanı ilə cari il iyul ayının 1-də minimum əməkhaqqının məbləği 30 min manatdan 50 min manata çatdırılmışdır ki, bu da təhsil, səhiyyə, mədəniyyət və digər büdcə təşkilatlarında çalışan 538 min nəfəri əhatə etmişdir. Prezidentin digər sərəncamları ilə hərbi qulluqçuların maaşları 1,5 dəfə və polis işçilərinin 2-3 dəfə, Milli Təhlükəsizlik Nazirliyinin mül-

ki işçiləri və hərbi qulluqçularının vəzifə maaşları müvafiq olaraq 1,5 və 2 dəfə, Çernobıl qəzasının nəticələrinin aradan qaldırılmasına cəlb edilmiş və bu zaman əlil olmuş hərbi qulluqçulara verilən aylıq müavinət 4 dəfə artırılmışdır. Elmlər namizədləri və elmlər doktorlarının dərəcəyə görə aldıqları müavinətlər, müvafiq olaraq 3 və 5 dəfə, aspirantura, ali, orta ixtisas, peşə məktəblərinin, peşə litseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlər isə bir neçə dəfə artırılmışdır. Əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə həyata keçirilən islahatlar sonrakı illərdə də davam etdirilmişdir.

Ötən beş ildə pensiyaçıların sosial müdafiəsi və sığorta-pensiya sahəsində ümummilli liderimizin Pensiya İslahatı Konsepsiyası və digər bir sıra sənədlərdə nəzərdə tutduğu proqram-xarakterli vəzifələr uğurla reallaşdırılmış, xüsusilə əhaliyə ödənilən pensiya və digər sosial ödənişlər üzrə xərclərin hər il artımı müşahidə olunmuş, bu sahədə köklü dəyişikliklər baş vermişdir.

Bütün bunların nəticəsində əmək pensiyalarının orta aylıq məbləği 2003-cü illə müqayisədə 3,6 dəfə artaraq 2007-ci ildə 65,7 manata çatdırılmışdır. Bu dövrdə əmək pensiyalarının minimum məbləği 3,6 dəfə artaraq 50 manat təşkil etmişdir. Dövlət Sosial Müdafiə Fondunun gəlir proqnozunun hər il nəzərdə tutulduğundan artıq yerinə yetirilməsi fondun xərclərinin, o cümlədən, əhaliyə ödənişlərin vaxtında maliyyələşdirilməsinə imkan vermişdir. 2003-2008-ci illərdə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların səviyyəsi xeyli artmışdır.

Sosial sığorta və pensiya təminatı sahəsində fərdi uçota əsaslanan yığım sisteminə keçidin sürətləndiril-

məsi və hər bir sığorta olunan üçün ödənilən sosial sığorta haqları ilə onun pensiya təminatı arasında birbaşa əlaqəni təmin edəcək pensiya sisteminin yaradılması üçün "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmiş, əhalinin sosial müdafiəsi və pensiya təminatı sahəsində yeni sistemə keçidin başa çatdırılması, islahatın mahiyyətini təşkil edən dövlət sosial müavinətləri və sığorta-pensiya sistemlərinin bir-birindən ayrılması təmin olunmuşdur.

İlk növbədə, işləməyən və işləyən əmək pensiyaçılarının hər biri üçün onların mövcud pensiya-müavinət məbləğlərinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun şərti çevrilməsi aparılmaqla, bu əsasda yeni sənədləşmənin tərtibi təmin olunmuşdur. Nəticədə, əvvəlki pensiya sistemi ilə əhatə olunmuş şəxslərin pensiya təminatı yeni normalara nəinki uyğunlaşdırılmış, hətta yeni sistemin tətbiqinin ilk günündən 210 min nəfərdən çox güzəştli kontingentin (I qrup əlillərin, o cümlədən, gözdən əlillərin, Azərbaycan Respublikası milli qəhrəmanlarının və şəhidlərin ailə üzvlərinin, öhdəsində əmək qabiliyyətsiz ailə üzvləri olan I və II qrup əlillərin, siyasi repressiyaya məruz qalaraq, sonradan bəraət almış şəxslərin, döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının, müharibə əlillərinin) pensiyasına artımlar tətbiq olunmuşdur.

Qeyd olunan sahədə Azərbaycan Respublikası Prezidentinin yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması haqqında sərəncamlarına əsasən, yaşa görə əmək pensiyasının baza hissəsinin 2006-cı il aprelin 1-

dən 30 manat, oktyabrın 1-dən 35 manat, 2007-ci ilin yanvarın 1-dən 40 manat, fevralın 1-dən 50 manat, 2008-ci il sentyabrın 1-dən 75 manat məbləğində müəyyən edilməsi ilə bütün əmək pensiyalarına eyni vaxtda artımlar tətbiq olunmuşdur. Eləcə də Azərbaycan Respulikası Prezidentinin əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi barədə sərəncamına əsasən müvafiq şəxslərin əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi həyata keçirilmişdir. Fond tərəfindən bu sahədə lazımi tədbirlər vaxtında və keyfiyyətlə icra edilmişdir.

Yeni sistemin əsas məzmunu olan sığorta olunanlar üçün ödənilən sığorta haqlarının fərdi uçotunun quruláraq vətəndaşların pensiya təminatının həmin uçotun məlumatlarına əsasən aparılması sahəsində işlər daha da intensivləşdirilmişdir. İndiyədək 1.400 minə yaxın sığorta olunana sosial sığorta nömrəsi verilmiş və onlar üçün fərdi hesab açılmış, 1.253 min nəfərə isə sosial sığorta şəhadətnaməsi təqdim edilmişdir. İslahatların mühüm həlqəsi kimi pensiya və müavinətlərin əhaliyə çatdırılmasında müasir texnologiyaların tətbiqinə nail olunmuşdur.

Azərbaycan Respublikasının şəhərlərində və rayon mərkəzlərində əhaliyə pensiya-müavinətlərin plastik kartlarla bankomatlar vasitəsilə ödənilməsi sisteminin qurulması müvəffəqiyyətlə başa çatdırılmışdır. Hazırda ölkə üzrə əmək pensiyaçılarının 763 min nəfərinin pensiya-müavinətlərinin ödənişi bankomatlar vasitəsilə plastik kartlarla aparılır ki, bu da ödənişi aparılan pensiya işlərinin 66 faizini təşkil edir.

Respublikamızın kənd yerlərində yaşayan pensiyaçılar üzrə də ödənişin mütərəqqi üsullarının tətbiqi diqqət mərkəzindədir. Bununla əlaqədar aidiyyəti qurumlarla birlikdə müvafiq təkliflər hazırlanmış, ölkə ərazisində vahid elektron məkanın qurulması prosesində kənd ərazilərində telekommunikasiya xidmətlərinə çıxış imkanlarının artırılmasına xüsusi diqqət yetirilməsi, milli poçt operatoru şəbəkəsinin modernləşdirilməsi və müasir texnologiya ilə təmin edilməsi, elektron ödəniş infrastrukturuna inteqrasiyanın gələcəkdə yaradacağı imkanlardan istifadə etməklə kənd əhalisinə pensiyaların ödənişində kart sisteminin tətbiqi məsələləri irəli sürülmüşdür. Bununla yanaşı, hazırkı mərhələdə müvafiq banklarla birlikdə pensiyaların plastik kartlarla ödənilməsi sisteminin inzibati ərazi baxımından rayon mərkəzlərinə yaxın məsafədə yerləşən və qəsəbə tipli kəndlərdə tətbiqi məqsədilə həmin ərazilərdə bankomat və poçt-terminalların quraşdırılması məsələlərinə baxılır.

Yeni sığorta-pensiya sisteminin üstünlüklərinin tətbiqi dairəsinin genişləndirilməsi məqsədilə 2007-ci il yanvarın 1-dən hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin məcburi dövlət sosial sığortasına cəlb edilməsinə və onların fərdi uçotla əhatə olunmasına başlanılmış, həmin şəxslərin və dövlət qulluqçularının əmək pensiyaları ilə təminatına keçilmişdir. Bununla yanaşı, şəhidlərin ailə üzvlərinin əmək pensiyasının baza hissəsinin üzərinə hesablanan əlavənin məbləğinin yaşa görə əmək pensiyasının baza hissəsinin 30 faizi həcmindən 80 faiz həcminə qaldırılması, yeni sistemlə pensiyaya çıxan şəxslərə pensiya hesablanması üçün orta aylıq

əməkhaqqına qoyulan məhdudiyyətin götürülməsi, işləyən pensiyaçılara əmək pensiyasının tam məbləğdə (baza və sığorta hissəsi) ödənilməsi və digər sosial tədbirlərin tətbiqi təmin olunmuşdur.

Azərbaycanda həyata keçirilən sığorta-pensiya islahatları nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankı özünün mərkəzi ofisində MDB ölkələrindən ilk dəfə Azərbaycanda qurulan sığorta-pensiya sisteminin geniş təqdimatının keçirilməsini təşkil etmişdir. Həmin tədbirdə Dünya Bankı tərəfindən Azərbaycanın sığorta-pensiya modeli keçid dövrü ölkələri üçün örnək kimi təqdim olunmuşdur.

Əhalinin həyat səviyyəsini yüksəltmək məqsədilə minimum əməkhaqqı 2003-cü ildə 30 manatdan 2008-ci ildə 75 manata, adambaşına düşən gəlir 35 faizə, orta aylıq əməkhaqqı 200 manata çatdırılmış, 2008-ci ilin 1 sentyabrından dövlət büdcəsindən maliyyələşən bütün işçilərin əməkhaqqı 25 faiz artırılmışdır.

Əhalinin məşğulluq səviyyəsini qaldırmaq və yoxsulluğun aradan qaldırılmasında ciddi əhəmiyyət kəsb edən yeni iş yerlərinin açılması İlham Əliyevin həyata keçirdiyi sosial siyasətin prioritetlərindəndir. Dövlət başçısı 2003-cü il prezident seçkiləri ərəfəsində xalqla keçirdiyi çoxsaylı görüşlərində bu problemi önə çəkmiş və prezidentlik dövründə əhalinin işlə təmin olunmasına xüsusi diqqət yetirəcəyini vəd etmişdir. Prezident İlham Əliyev öz vədinə sədaqət nümayiş etdirmiş, təkcə imzaladığı fərman və sərəncamlarla deyil, eyni zamanda, konkret addımlar atmaqla, yeni iş yerlərinin yaradılmasına göstərdiyi gündəlik qayğı ilə problemin həlli-

nə, demək olar ki, nail olmuşdur. Belə ki, 2003-2008-ci illərdə ölkə ərazisində 668 min yeni iş yeri açılmışdır ki, bunun da 478 mini daimidir.

## OLİMPİYA HƏRƏKATI UĞURLU NƏTİCƏLƏR VERİR

İlham Əliyevin fəaliyyətində idmanın və Olimpiya hərakatının inkişafı öncül istiqamətlərdən birini təşkil edir. Məlumdur ki, idman böyük qayğı və diqqət tələb edir. Hər hansı ölkədə onun kifayət qədər ardıcıl və məqsədyönlü inkişafı idman ənənəsi, idmanla məşğul olmağa şərait və imkan, idmançılara münasibət, mütəxəssislərin yetişdirilməsi, yarışların təşkili və keçirilməsi, idmançıların beynəlxalq yarışlarda iştirakının təmini, idmanın təbliği, kütləviləşdirilməsi kimi amillərdən çox asılıdır. Belə amillər cərgəsində dövlətin idmana münasibəti də özünəməxsus yer tutur.

Azərbaycanda isə idmana dövlət qayğısı ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra başladı. Heydər Əliyev idmanın xalqın və dövlətin həyatında necə böyük əhəmiyyət kəsb etdiyini diqqət mərkəzinə çəkərək daim bu istiqamətdə iş görməyin vacibliyini bildirmiş, idmanın inkişaf etdirilməsini dövlətin mühüm vəzifələrindən biri kimi qarşıya qoymuşdur. Heydər Əliyev bu strateji sahənin başlı-başına buraxılması və diqqətdən kənarda qalması ilə də qətiyyən barışa bilməzdi. Azərbaycan Prezidentinin 1994-cü ilin iyul ayında imzaladığı fərmanla Gənclər və İdman Nazirliyinin yaradılması bu istiqamətdə atılmış

çox ciddi addım olmuşdur. Elə həmin il Atlanta oyunlarına hazırlıq haqqında sərəncam imzalamış, respublika gənclərinin birinci forumunda gənclər və idman siyasəti sahəsində qarşıda duran prioritet vəzifələr müəyyənləşdirilmiş, onların ardıcıl surətdə həyata keçirilməsinə başlanılmışdır.

Şübhəsiz, idmanda qazanılan hər bir uğur uzun illər bu sahənin inkişafına göstərilən diqqət və qayğının, habelə gərgin zəhmətin bəhrəsi kimi üzə çıxır. Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması, daha da möhkəmləndirilməsi milli olimpiya hərəkatına da əhəmiyyətli təsir göstərmiş, xalq özünəməxsus irs, milli ənənələr əsasında yeni fiziki tərbiyə, məfkurə və kamilləşmə sistemini yaratmışdır.

1997-ci ildən Olimpiya Hərakatı ölkəmizdə həlledici mərhələyə qədəm qoydu. Rəhbərlik etdiyi bütün sahələrdə ciddi uğurlar qazanmış və cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi respublika idmanının həyatında son dərəcə əlamətdar hadisəyə çevrildi. Bu tarixi seçim ölkəmizdə idmanın inkişafı ilə bağlı ideyaların daha sürətlə gerçəkliyə çevrilməsini təmin etdi. Bir sıra idman cəmiyyətləri və federasiyaları arasında əvvəllər mövcud olmuş qeyri-sağlam münasibətlərə son qoyuldu, ölkədə idman hərəkatının genişlənməsinə xidmət edən kompleks tədbirlər planı işlənib hazırlandı və idmançıların maddi təminatı, sosial problemlərinin həlli istiqamətində ciddi addımlar atıldı.

**«Olimpiya oyunları dünyanın bütün dövlətlərinin diqqət mərkəzində olan ən möhtəşəm və mühüm idman tədbi-**

**ridir. Müasir dövrdə hər bir dövlətin Olimpiya Hərəkatındakı iştirakı, onu təmsil edən idmançıların Olimpiya oyunlarında göstərdikləri nəticələr, ölkənin təkcə idman sahəsindəki potensialını deyil, həm də ümumi inkişaf səviyyəsini nümayiş etdirir, beynəlxalq nüfuzuna təsir göstərir».**

Prezident İlham Əliyevin bu fikirləri ölkəmizdə Olimpiya Hərakatına və idmanın inkişafına diqqətin dövlət siyasətinin əsas həqəflərindən olduğunu bir daha nümayiş etdirir. Etiraf olunmalıdır ki, 1997-ci ildən İlham Əliyevin MOK-a rəhbərlik etdiyi vaxtdan ölkəmizdə idmanın inkişafı istiqamətində sistemli iş aparılır. Prezident İlham Əliyevin tövsiyələri əsasında qısa müddət ərzində federasiyaların işi yenidən təşkil olunub, onların rəhbərliyinə yeni adamlar gətirib.

MOK sədri Azərbaycanın bütün regionlarında idman mərkəzlərimizin yaradılması təşəbbüsü ilə çıxış etdi. Əvvəl Bakıda, daha sonra Maştağa qəsbəsində, Naxçıvan, Gəncə, Şəki, Quba, Lənkaran, Bərdə, Şamaxı və s. şəhərlərdə müasir standartlara cavab verən Olimpiya kompleksləri inşa olunub. İdman-konsert kompleksi təmir edildi, hərəsi 1000 kvm sahəyə malik olan iki nəhəng zal, duş və soyunma otaqları bərpa olundu. Ən başlıcası isə, Mingeçevirdəki avarçəkmə bazası bərpa olunub. Bura qışda buz bağlamayan nadir bazadır və burada il boyu avarçəkmə ilə məşğul olmaq mümkündür. Bazanın imkanları MDB məkanı idmançılarının da təlimlər keçməsinə imkan verir.

İlham Əliyevin təşkilatçılığı ilə yığma komandamız ilk dəfə olaraq Yaponiyanın Naqano şəhərində Qış Olimpiya Oyunlarında iştirak etmişdir. Həmin hadisə

Qış Olimpiya Oyunlarında Azərbaycanın birinci iştirakı kimi artıq idman və olimpiya tariximizə yazılmışdır. 1998-ci ildən başlayaraq Azərbaycanda Respublika Yeniyetmələr Oyunları təşkil edilmiş və yüksək səviyyədə keçirilmişdir. Milli Olimpiya Komitəsinin qərarı ilə 1998-ci ilin əvvəlindən qabaqcıl idmançılara və onların məşqçilərinə təqaüdlər verilmiş, keçmişdə Azərbaycanın idman şərəfini yüksəklərə qaldıran veteran idmançılarımız üçün təqaüd təyin olunmuşdur. İlk dəfə olaraq idmançılarımız Danimarkada Avropa Kuboku uğrunda keçirilən komanda yarışlarında qələbə qazanmış və Avropa Kubokunu Azərbaycana gətirmişlər.

İlham Əliyev prezident seçildikdən sonra Azərbaycanda idmana və Olimpiya Hərəkatına diqqət daha da artmışdır. Məhz bu qayğının nəticəsində qısa zamanda böyük nəticələr əldə edilmişdir. Milli Olimpiya Komitəsi respublikanın perspektivli idmançıları və onların məşqçiləri üçün xüsusi təqaüd təsis etmişdir. Mötəbər yarışlarda Azərbaycanın idman şərəfini layaqətlə qorumuş və yüksək nəticələr göstərmiş idmançılarımız, olimpiya və dünya çempionları da unudulmur. Onlar komitənin xüsusi təqaüdlərini alırlar. Həmçinin, MOK Azərbaycan idmanının maddi-texniki bazasını gücləndirmək, ayrı-ayrı idman növləri üçün avadanlıqların əldə olunması, idman obyektlərinin bərpası, idmançıların beynəlxalq yarışlarda iştirakı istiqamətində işləri həyata keçirmək məqsədilə xüsusi proqramlar hazırlamışdır. Təkcə onu demək kifayətdir ki, 2000-ci ildən bugünədək Azərbaycanın ayrı-ayrı regionlarında 15-ə yaxın müasir olimpiya idman

kompleksi tikilib istifadəyə verilmiş və yenilərinin inşasına başlanılmışdır. Bu sarayların inşası Azərbaycanda idmanın kütləviləşməsini təmin etmək, gənc nəslin sağlamlığını qorumaq məqsədi daşıyır. Şübhəsiz ki, İlham Əliyevin 2007-ci il iyulun 24-də imzaladığı "XXIX Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" sərəncamı da Azərbaycan idmançılarının Pekində ali mükafatlar qazanmaları üçün tam hazırlıqlarının təmin edilməsini nəzərdə tutur. Sərəncamda qeyd edilir ki, aparılan işlər və qalan müddət ərzində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər Azərbaycanın Pekin Olimpiadasına daha yüksək səviyyədə hazırlığını təmin etməli, qarşıda qoyulmuş məqsədlərə çatmaq imkanı yaratmalıdır.

Dövlət başçısının idmana və Olimpiya Hərəkatına göstərdiyi son dərəcə diqqət və qayğı Pekin olimpiyadasında uğurlu nəticələr verdi. Azərbaycan 7 medala sahib oldu. Bu ilk baxışdan kiçik rəqəm təəsüratını yarada bilər. Lakin Sidney - Pekin trayektoriyasının səkkiz ilində fərq dörd rəqəm fərqini göstərir və əslində, İlham Əliyevlə başlanan Olimpiya Hərəkatının uğurları məhz onunla da davam edəcək. Şübhə yoxdur ki, Azərbaycan növbəti olimpiya yarışlarında daha ciddi nailiyyətlərə imza atacaqdır.

Məhz düzgün, düşünülmüş islahatların nəticəsidir ki, bu gün ölkəmiz dünya birliyinin layiqli üzvü kimi qəbul edilir, ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni-yeni uğurlara imza atır.

Təsadüfi deyil ki, illər bir-birini əvəz etdikcə ölkəmizin iqtisadi qüdrəti möhkəmlənir, abadlıq-quruculuq işləri genişlənir, əhalinin sosial-rifah halı yaxşılaşır, ölkənin ümumi intellektual səviyyəsi artır.

Beləliklə, müasir dünyanın siyasi, iqtisadi, mədəni və geopolitik şərtləri ilə ayaqlaşan və Qərbə inteqrasiya strategiyasına üstünlük verən Prezident İlham Əliyevin hakimiyyət dövrü yeni tarixi mərhələdir və şübhəsiz ki, bu dövr tarixə fundamental islahatlarla zəngin və Azərbaycanın harmonik inkişafının yüksəlişi kimi artıq tarixə düşmüşdür.

# IV FƏSİL

# DEMOKRATİK CƏMİYYƏT YENİ MƏRHƏLƏDƏ

*Əgər Azərbaycanda azad cəmiyyət formalaşmasa, bizim iqtisadi uğurlarımızın gələcəyi olmayacaq, ancaq müvəqqəti xarakter daşıyacaqdır. Ona görə son illər ərzində Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin.*

**İlham Əliyev**

## DEMOKRATİK CƏMİYYƏTİN FUNDOMENTAL PRİNSİPLƏRİ

Yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin formalaşdırılması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlarımıza uyğun həlli, ölkə əhalisinin dinc və firavan həyat şəraitində yaşamasını təmin etmək kimi mühüm tarixi vəzifələr durur.

Müstəqil respublikamız bu vəzifələrin həyata keçirilməsini özünün siyasi strategiyasının əsas məqsədi hesab edir. Keçən dövr ərzində dövlətin və cəmiyyətin müxtəlif sahələrində baş vermiş fundamental dəyişikliklərin və bu sahədə qazanılmış təcrübənin dərindən təh-

lili nəticəsində müəyyənləşdirilən daxili və xarici siyasətin prioritetləri öz əksini ümummilli lider Heydər Əliyevin siyasi kursunda tapmışdır.

Yaşadığımız tarixi dövrün reallıqları hüquqi dövlət quruculuğu və demokratikləşmə prosesində xalqın iradəsini əsas imperativ kimi qəbul etməyi, intellekt azadlığına, peşəkarlığa, səriştəliyə əsaslanıb əhalinin bütün səylərini birləşdirməklə sosial yönümlü iqtisadiyyata və demokratik normalara arxalanan demokratik, hüquqi, dünyəvi dövlət qurmağı tələb edir. Yalnız güclü, qüdrətli müstəqil dövlət sayəsində xalqımızın tarixi arzularını reallaşdıra və onun taleyüklü məsələlərini həll edə biləcək. Odur ki, müstəqil, güclü və qüdrətli dövlətçilik ümummilli lider Heydər Əliyev siyasi kursunun əsas prinsipidir.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti hakimiyyətin qanunverici, icraedici, məhkəmə qollarına bölünməsini və onlar arasında bir-birini tamamlayan qarşılıqlı münasibətlərin yaradılmasını tələb edir. Sivil, demokratik dövlətin fundamental əsaslarından birini təşkil edən bu prinsip ictimai praktikada reallaşdırılmadan qanunların aliliyi, idarəetmədə peşəkarlığın üstünlyü və dövlət idarəçiliyinin mükəmməlliyi təmin edilə bilməz. Əks təqdirdə, ictimai həyatda prinsipsizlik, sosial ədalətin pozulması, ayrı-ayrı qrupların mənafelərinin milli maraqları üstələməsi baş verər ki, bu da cəmiyyətdə nizamsızlığa, xaosa və qeyri-sivil idarəetmə formalarına gətirib çıxarar.

Sivil cəmiyyətlərdə demokratik idarəetmə münasibətlərinin mövcudluğu vətəndaşların iqtisadi, siyasi, mədəni hüquqlarının müdafiəsində böyük rol oynayır.

Dünya praktikası sübut edir ki, hüquqi dövlət, vətəndaş cəmiyyətində qanunun aliliyi, qorunması və ictimai həyatda hüquqi normalara hörmət edilməsi ilə vətəndaş birliyi yaranır. Məhz bu baxımdan, dövlətimizin qarşısında duran əsas vəzifələrdən biri cəmiyyətdə qanunun aliliyini qorumaq, yalnız qanunlar çərçivəsində insanların və hakimiyyət orqanlarının fəaliyyətini tənzimləməkdir.

Azərbaycan Respublikası dilindən, dinindən, etnik və sosial mənşəyindən asılı olmayaraq, Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan, ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan bütün Azərbaycan vətəndaşları Azərbaycanı bölünməz Vətəni, doğma yurdu hesab edir. Müstəqil respublikamız Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin, milli əxlaqi mentalitetinin, dilinin, dininin qorunmasını hamı üçün ümumi Vətən hesab olunan və xalqımızın dövlətçilik hissələrini, dövlət rəmzini yaşadan vahid Azərbaycan dövləti ilə bağlayır. Azərbaycan dövləti xalqımızın milli varlığının, birliyinin, dinc və firəvan həyatın təmin edilməsinin, hər kəsin hüquq və azadlıqlarının qorunmasının yeganə, etibarlı vasitəsidir.

Tarix bizə güclü, demokratik, müstəqil dövlət qurmaq, xalqımıza firavan, dinc həyat bəxş etmək, planetimizin sivil, birgə yaşayış sisteminə qatılmaq üçün geniş imkan yaratmışdır. Bundan istifadə etməmək gələcək nəsillər qarşısında bağışlanmaz səhv olardı. Yeni cəmiyyət quruculuğunda tarixin ibrət dərslərindən nəticə çıxarıb keçmişin obyektiv, yaradıcı-konstruktiv istiqamətdə tənqid və təhlil olunması zəruridir. Bu məsələdə

nihilizmə yuvarlanaraq keçmişə nifrət hissindən çıxış etmək cəhdləri yolverilməzdir. Sağlam düşüncənin qüdrətinə, cəmiyyətin inkişaf qanunauyğunluqlarını nəzərə alaraq islahatların təkamül yolu ilə aparılmasının düzgün yol olduğuna inanaraq "inqilabi dağıntılar" vasitəsilə həyata keçirilən hər bir dəyişiklik rədd edilməlidir. Bununla əlaqədar özündə milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsini və onların yaradıcı təkamül yolu ilə inkişafını ehtiva edən varislik prinsipi əsas tutulmalıdır. Dövlətçiliyin varislik və yaradıcı təkamül prinsipinə əsaslanması həm cəmiyyətin, həm də ictimai şüurun inkişaf qanunauyğunluqlarından irəli gəlir və tərəqqinin qüdrətli vasitəsinə çevrilir.

Dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, Azərbaycanda demokratik hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılması vəzifələri ardıcıl və məqsədyönlü siyasətin həyata keçirilməsini və bu məqsədlə ölkənin bütün ictimai-siyasi qüvvələrindən, intellektual və sosial-iqtisadi potensialından səmərəli şəkildə istifadə olunmasını tələb edir. Son illər Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyətinin formalaşdırılması, əsas insan və vətəndaş hüquqları və azadlıqlarının qorunması sahəsində mühüm addımlar atılmışdır. Demokratik prinsiplərə və dünyanın sivil dövlətlərinin təcrübələrinə söykənərək, çoxpartiyalı sistem əsasında parlament seçkiləri keçirilmiş və referendum yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edilmişdir. Cəmiyyətin siyasi, iqtisadi və mədəni sahələrinin mütərəqqi inkişafına nail olmaq məqsədilə çoxşaxəli demokratik islahatlar aparılmışdır.

Böyük tarixi əhəmiyyəti olan və gələcəyə istiqamətlənmiş bu nailiyyətlər ümummilli lider Heydər Əliyevin rəhbərliyi və Onun siyasi varisi Prezident İlham Əliyevin ardıcıl və məqsədyönlü səyləri ilə əldə edilmişdir. Azərbaycanın dövlət müstəqilliyini, milli təhlükəsizliyini qorumaq, pozulmuş ərazi bütövlüyünü bərpa etmək, ən başlıcası isə, demokratik inkişafı təmin etmək üçün siyasi hakimiyyət tərəfindən çoxtərəfli, ardıcıl və səmərəli xarici siyasət kursu həyata keçirilmişdir.

Azərbaycanda aparılan demokratik, hüquqi islahatlar, insan haqlarının qorunması sahəsində görülmüş məqsədyönlü tədbirlər nəticəsində dövlətimizin beynəlxalq nüfuzu xeyli artmış, dünya birliyi ölkələrilə dostluq, əməkdaşlıq və tərəfdaşlıq münasibətləri, o cümlədən, hüquqi sahədə əməkdaşlığı genişlənmişdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi islahatların uğurla aparılmasında inkişaf etmiş dövlətlərin təcrübəsindən geniş istifadə olunmuş, nüfuzlu beynəlxalq təşkilatlarla bu sahədə işgüzar əlaqələr qurulmuşdur.

## İNSAN HÜQUQ VƏ AZADLIQLARI, HUMANİZM

Azərbaycanda sosial ədalət, milli həmrəylik, vətəndaşların hüquq və azadlıqlarının qorunması, bütün bunlar Prezident İlham Əliyevin rəhbər tutduğu prinsiplərdir. Prezident kimi öz səlahiyyətlərinin icrasına başladığı ilk vaxtlardan İlham Əliyev siyasi islahatlar sahəsində də prioritetləri müəyyən etdi və öz fəaliyyəti-

nin məzmununu da onlara uyğun şəkildə qurdu. Bütün sahələrdə öz həyati gücünü və effektivliyini sübut etmiş Heydər Əliyev kursunun davam etdirilməsi, Azərbaycanın da iştirakçısı olduğu qloballaşma şəraitində bu siyasətin əsas prinsiplərinin yaradıcı şəkildə istifadə olunması, Prezident İlham Əliyevin fəaliyyətini səciyyələndirən başlıca göstəricilərdəndir.

Prezident İlham Əliyevin fikrincə, yalnız iqtisadi cəhətdən güclü ölkədə demokratiya tam mənada bərqərar ola bilər. Yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması demokratik ölkəyə çevrilmək üçün çox önəmli şərtdir. Müasir dünyada gedən prosesləri diqqətlə izləyən İlham Əliyev yeni tarixi şəraitdə ölkənin qarşısında prinsipcə yeni vəzifələr durduğunu bildirir: **"İnkişafın ilk illərində Azərbaycanın müstəqil dövlət kimi yaşaması, sabitliyin qorunması, müstəqilliyin möhkəmlənməsi və ölkənin böhrandan çıxarılması əsas məsələlər idisə, bu gün qarşımızda yeni tələblər durur: bunlar ölkəmizi texnoloji cəhətdən inkişaf etdirmək, dünya birliyinə inteqrasiya etmək və demokratiyanı möhkəmləndirməkdən ibarətdir".**

Azərbaycanda demokratiyanın inkişafı, əsas insan hüquq və azadlıqlarının qorunması, siyasi plüralizmin, söz və ifadə azadlığının təmin olunması Prezident kimi İlham Əliyevin fəaliyyətində mühüm yer tutur. Onun dövlət başçısı kimi fəaliyyəti dövründə bu sahədə qəbul edilmiş qərarlar özünün ardıcıllığı, yeniliyi və cəsarətliliyi ilə seçilir. Prezident demokratiyanı, birinci növbədə, iqtisadi azadlıq, mülkiyyət toxunulmazlığı, məhkəmələrin müstəqilliyi kimi qəbul edir. Qanunun aliliyinin təmin olunması üçün verilən qərarlar, çoxsaylı əfv fərmanları, kütləvi

informasiya vasitələrinə dair qanunvericiliyin təkmilləşdirilməsi, İctimai Televiziyanın fəaliyyətə başlaması, 2005-ci il parlament seçkilərinin azad və demokratik şəraitdə keçirilməsi, Avropa Şurası, ATƏT kimi beynəlxalq təşkilatlarla əlaqələrin gücləndirilməsi, Avropa İttifaqı ilə əməkdaşlığın yeni səviyyəyə qalxması və s. demokratiyanın inkişafı sahəsində görülən tədbirlərin qısa siyahısıdır. Prezident demokratiyanı, ilk növbədə, qanunun aliliyi kimi qəbul edir, hər hansı qanundankənar hərəkətlərə, özbaşınalığa yol verilməyəcəyini bildirir. O, xüsusi qeyd edir ki, Avropa Şurası, Avropa İttifaqı kimi təşkilatlarla əməkdaşlıq bizim həyat normalarını Avropa standartlarına yaxınlaşdırmaq, sivil birgəyaşayış və siyasi mübarizə qaydalarını mənimsəmək baxımından əhəmiyyətlidir.

Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycana hansısa qərarların kənardan zorla qəbul etdirilməsini mümkün hesab etmir. 2005-ci il parlament seçkiləri zamanı Prezidentin qətiyyəti, ölkəmizə qeyri-konstitusion mübarizə metodlarını gətirmək cəhdlərinə qarşı sərt mövqeyi, seçki praktikasının təkmilləşdirilməsi haqqında sərəncamı proseslərin demokratik qaydalara uyğun keçməsində böyük rol oynadı. O, insan haqları, demokratiya, dialoq məsələsinə daha geniş prizmadan baxır, cəmiyyətdə əhalinin müxtəlif qrupları arasında, sözün geniş mənasında, dialoq olduğunu bildirir. İlham Əliyev Azərbaycan müxalifətini sağlam, konstruktiv, vətənpərvər və məsuliyyətli qüvvə kimi görmək istəyir: **"Cəmiyyətə sağlam, konstruktiv, bu və ya digər məsələyə hökumətin diqqətini cəlb edə bilən, hökuməti sağlam tənqid edən müxalifət lazımdır".**

Əlbəttə, bu gün istənilən cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyil. Demokratiya, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir. Insan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları kamilləşdirən ən əsas meyardır.

Məlumdur ki, sülh və əmin-amanlıq olmadan insan hüquqlarına tam əməl etmək mümkün deyil. Ermənistanın Azərbaycana qarşı artıq on il davam edən silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan artıq soydaşımız adi insan hüquqlarından məhrum edilmişdir. Vaxtilə ölkəmizdə insanların həyatını təhlükəyə məruz qoyan hərc-mərclik, qanunsuz silahlı birləşmələrin mövcudluğu, əhalidə qanunsuz silahların cəmləşməsi, terrorçuluq və mütəşəkkil cinayətkarlığın tüğyan etməsi insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarmış, Azərbaycan xalqı vətəndaş müharibəsi həddinə çatmış, milli dövlətçiliyin itirilməsi təhlükəsi yaranmışdı. Bu ağır sınaqlardan çıxmış Azərbaycan xalqı mətin iradə, həmrəylik və əzmkarlıq nümayiş etdirərək, bəşər sivilizasiyasının idealları olan azadlığı, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq hər bir insanın hüquq və azad-

lıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Artıq hüquqa və ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun təkmilləşdirilməsi davam etdirilir. Ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik cəmiyyət qurulmuş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur. Ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır.

Azərbaycan Respublikasının Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə və humanizm prinsiplərinə rəğmən İlham Əliyevin ardıcıl olaraq əfv fərmanlarını imzalaması müxtəlif səbəblərdən məhkum olunub, məhbus həyatı keçirən çoxsaylı insanların azadlığa buraxılması və onların reablitasiya olunaraq cəmiyyətin yararlı üzvünə çevrilmələri çox böyük əhəmiyyətə malikdir.

Ötən 5 ildə imzalanan çoxsaylı əfv fərmanlarda ailə vəziyyəti, həbsxanadakı davranışı nəzərə alınaraq yüzlərlə məhkum cəzasının çəkilməmiş hissəsindən azad olunmuş, bəzilərinin cəzaları yüngülləşdirilmiş, neçə-neçə ailəyə sevinc bəxş edilmişdir. Dövlət başçısı İlham Əliyev Azərbaycan Respublikasının humanizm və ədalət prinsiplərinə əsaslanan siyasətini davam etdirərək, insan hüquq və azadlıqlarına hörmət və ehtiram göstərərək, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə

üzvlərinin, qeyri-hökumət təşkilatlarının, İnsan hüquqları üzrə müvəkkilin Azərbaycan Respublikası prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, ailə üzvlərini, cəzalarının müəyyən hissəsini çəkdiklərini nəzərə alaraq, Azərbaycan Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq, xalqın ona əmanət etdiyi Prezidentlik səlahiyyətlərindən "hər bir azərbaycanlının prezidenti" formulunu təsdiq edir. Əfv fərmanlarında törətdiyi cinayət əməlindən səmimi peşmançılıq hissi keçirən məhkumların islah olunaraq layiqli vətəndaş kimi cəmiyyətə qovuşması, bir daha cinayət törətməməsi əsas məqsəd kimi nəzərdə tutulur. Bununla ölkə prezidentinin islahatçılıq misiyyası həyatın bütün sahələrini əhatə edir, bununla da ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olduğunu təsbit edir. Ümummilli liderimiz Heydər Əliyev insanları bağışlamağı bacarırdı, onlara islah olunmaq üçün imkan yaradırdı. Məhz bu alicənablılığın, humanizmin nəticəsidir ki, ölkəmizdə əfv fərmanlarının imzalanması və məhkumların bağışlanması artıq ənənəyə çevrilib.

İnsan hüquqlarına yüksək hörmətin təcəssümü kimi 1993-cü ildə ölüm hökmü üzərində moratorium tətbiq etmiş ulu öndərimiz, əfv komissiyasının fəaliyyətini bərpa etmiş, 1994-cü ildən etibarən törətdiyi cinayət əməlindən peşmançılıq keçirən insanların əfv olunması müsbət amplua yaratmışdır. Şəffaf və demokratik əsasda fəaliyyət göstərən komissiyada ictimaiyyətin müxtəlif təbəqələrinin təmsilçiliyinə lazımi şərait təmin edilmişdir. Azad cəmiyyətə və normal həyata qovuş-

maq istəyən məhkumların əfvlə bağlı müraciətlərinə həssaslıqla yanaşılmış, cəzalarının çəkilməmiş hissəsindən tam və ya qismən azad edilmişlər.

Ulu öndərimiz Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi nəticəsində 1998-ci il fevralın 10-da ölüm hökmünün ləğvi respublikamızda həyata keçirilən hüquq siyasətinin humanist səciyyə daşıdığını təsdiqlədi. Azərbaycanın Avropa Şurasına üzvlüyü prosesini sürətləndirməklə yanaşı, ölkəmizin regionda Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilata üzv qəbul edilənədək bu hökmü tamamilə ləğv etmiş ilk respublika oldu. Heydər Əliyevin humanizm siyasətinin nəticəsi olaraq Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən dövlət kimi tarixə düşmüşdür. 1995-2003-cü illərdə 7 amnistiya aktı, 32 əfv fərmanı imzalamış ümummilli liderimiz necə böyük qəlb sahibi olduğunu savab əməlləri ilə izhar etmişdir. Bəzi iddiaların əksinə olaraq bu addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımış, ölkədə cinayətkarlığın səviyyəsinin daha da azalmasını təmin etmişdir.

1995-2003-cü illərdə ümummilli liderimiz Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış və bu fərmanlar 3256 məhkuma şamil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2001-ci illərdə amnistiya haqqında 8 qanun imzalamış, 31584 məhkum azadlığa buraxılmış və yaxud cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmışdır.

Xalqın böyük etimadını qazanaraq, siyasi hakimiyycənab İlham Əliyev də bu müsbət ənənələri davam etdirir. İlk əfv fərmanını 29 dekabr 2003-cü ildə imza-

layan Azərbaycan prezidenti 165 məhkumu, o cümlədən, adı qondarma "siyasi məhbuslar" siyahısında olanların bir çoxunu əfv etmişdir. Ölkə başçısı Novruz bayramı ərəfəsində sayca ikinci əfv fərmanı imzaladı. Azadlığa çıxan 129 nəfərdən 42 nəfəri Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və dövlət hakimiyyəti və dövlət müstəqilliyi əleyhinə törədilmiş cinayətlərdə iştirak etdiklərinə görə məhkum olunan cinayətkar ünsürlərdir. Onlardan 9 nəfəri 1994-cü ilin oktyabr ayında Gəncə şəhərində, 24 nəfəri isə 1995-ci ilin mart ayında Bakı şəhərində, Qazax və Ağstafa rayonlarında qanunvericilikdə nəzərdə tutulmayan silahlı dəstələrin tərkibində hakimiyyətin zorla ələ keçirilməsində iştirak edənlərdir. Ardıcıl şəkildə imzalanan əfv fərmanları Azərbaycanın beynəlxalq aləmdə demokratik imicini daha da gücləndirir, xüsusilə Avropa Şurası ilə münasibətlərdə mövcud olan anlaşılmazlıqların aradan qaldırılmasına zəmin yaradır. Imzalanmış 34 əfv fərmanı nəticəsində adları qondarma "siyasi məhbuslar" siyahısında hallanan yüzlərlə məhbus azadlığa buraxılıb. Ulu öndərimizin əsasını qoyduğu bu humanist ənənəni davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev, əfvetmə institutunun çevik və işlək mexanizmlər əsasında fəaliyyətini təmin etmişdir. Dövlət başçısı son 3 il yarımda 10 əfv fərmanı imzalamış və 4900-ə yaxın məhkumu cəzasının çəkilməmiş hissəsindən tam və ya qismən azad etmişdir. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda hər 100 min nəfərə görə məhbusların sayı 200 nəfərdən aşağı düşmüşdür. Halbuki, bir sıra inkişaf etmiş demokratik dövlətlərdə bu rəqəm 340-360 nəfərə çatır.

Bəzi iddiaların əksinə olaraq bu addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımış, ölkədə cinayətkarlığın səviyyəsinin daha da azalmasını təmin etmişdir.

Respublikamızda cəza siyasətinin humanistləşdirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına xidmət edən addımlar ardıcıl və sistemli səciyyə daşıyır. Respublikamızda həyata keçirilən hüquq islahatları son nəticədə vətəndaş cəmiyyətinin möhkəmlənməsinə, demokratik ideallarin təntənəsinə xidmət edir. Azərbaycan Prezidenti cənab İlham Əliyev mütəmadi olaraq imzaladığı əfv fərmanları ilə hələ seçkiqabağı platformasında irəli sürdüyü və həmrəylik ideyasını praktik surətdə həyata keçirir. Cəzanın adekvatlığı və humanistliyi məsələlərinə daim diqqətlə yanaşan prezident İlham Əliyev bu məqsədlə hüquq-mühafizə orqanlarında yeni dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılmasını daim nəzarətdə saxlayır. Bu islahatlar mahiyyət etibarilə, insanpərvərlik, şəxsiyyətə inam və hörmət, vətəndaş taleyinə həssas münasibət, humanizm kimi ümumbəşəri prinsiplərə əsaslanmışdır. Ulu öndərimizin əsasını möhkəm təməllər üzərində qoyduğu siyasətin varisliyini bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizmlər əsasında fəaliyyətini təmin etdi.

Hər bir vətəndaşın prezidenti olduğunu əməli işi ilə sübuta yetirən dövlət başçısı müxtəlif səbəblərdən cinayət törətmiş insanların da taleyinə qətiyyən biganə deyil. Bu sahədə aparılan təhlilər göstərir ki, əfvetmə prosedurunun tərbiyəvi əhəmiyyətini nəzərə alan cənab

İlham Əliyev törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların müraciətlərinə həssaslıqla yanaşır, onlar zaman keçdikdə cəzalarının çəkilməmiş hissəsindən tam və yaxud qismən azad edilir. Dövlət başçısının yüksək insanpərvərliyinə və humanizminə dəlalət edən bu tədbirlər, bir qayda olaraq, mühüm tarixi günlər ərəfəsinə təsadüf etdiyindən insanlara səmimi, ülvi dəyərlər, sevinc hissləri aşılayır. Azərbaycanda əfv fərmanları səmimi peşmançılıq hissi keçirən məhkumların bağışlanması onların islah olunaraq azad cəmiyyətə qovuşması naminə həyata keçirilən humanist aksiyadır. Minlərlə ailəyə hədsiz sevinc və xoşbəxtlik gətirmiş bu fərmanlar böyük psixoloji və tərbiyəvi əhəmiyyət kəsb etməklə yanaşı, dövlətin vətəndaşlarına mərhəmətli münasibətini əks etdirir.

Azərbaycan prezidenti cənab İlham Əliyev Bratislavaya səfəri zamanı 2004-ci ildə martın 19-da ATƏT-in sədri, Bolqarıstanın xarici işlər naziri Solomon Passi ilə görüşündə ATƏT-in sədri Bakıda prezident İlham Əliyevlə görüşlərini xatırlamış və bu səfərdən sonra prezident İlham Əliyevin 129 məhbusu əfv etməsini yüksək qiymətləndirmişdi. Prezidentin əfv fərmanı Avropa Şurasında da müsbət qarşılanır. Baş katib Valter Şvimmer bu təşkilatın müstəqil ekspertlərinin siyasi məhbuslar adlandırdığı bütün şəxslərin azad edilməsi və ya işlərinə yenidən baxılması haqqında Azərbaycan prezidentinin yaxın günlərdə imzaladığı fərmanı alqışlamışdır. V.Şvimmer demişdir: "Bu, Azərbaycanda demokratik proses və ölkənin Avropa Şurasına daxil

olarkən götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində mühüm addımdır. Mən prezidentin barışıq üçün atdığı cəsarətli addımı bəyənirəm. Bu addım Azərbaycanın həmin problemi - Avropa Şurasına üzv dövlətlərdə mövcud olmamalı olan problemi həll etmək iradəsini göstərir".

Prezidentin əfv fərmanına ABŞ Dövlət Departamenti də münasibət bildirmişdir. Departamentin bəyanatında deyilir: "Amerika Birləşmiş Ştatları prezidenti İlham Əliyevin 129 məhbusun əfvinə dair imzaladığı 17 mart tarixli fərmanını alqışlayır. Əfv olunanların 26 nəfəri, sabiq baş nazir Surət Hüseynov da daxil olmaqla Avropa Şurası tərəfindən siyasi məhbuslar adlandırılan şəxslərdir. Biz bu addımı alqışlayırıq". Bəli, bu gün Azərbaycanı dünya tanıyır və ölkədə baş verən demokratik, hümanist dəyişikliklər alqışlanır. Ölkəmizdə siyasi məhbusların mövcudluğu barədə iddialar tamamilə əsassız olsa da, ölkə prezidenti cənab İlham Əliyevin apardığı siyasət nəticəsində antiazərbaycançı şəbəkələrin, qurumların bütün bəhanələrinə son qoymaq üçün uğurlu addımlar atılır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mehriban xanım Əliyeva amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etdi.Azərbaycan Respublikasının Milli Məclisi Heydər Əliyev Fondunun bu təşəbbüsünü dəstəkləyərək 2007-ci il mayın 8-də "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya

haqqında" qəbul etdiyi qərarı formalaşmış vətəndaş cəmiyyətinin inkişafında növbəti addım oldu. Minlərlə insanı azadlığa qovuşdurmuş, onların qayıtmasını həsrət və intizarla gözləyən ana-bacıların, övladların, ahıl valideynlərin hədsiz sevincinə səbəb olmuşdur. Amnistiya aktının icrasının nəticələrinə dair aparılmış ümumiləşdirmə və təhlillərlə müəyyən edilmişdir ki, amnistiya aktı ilə 9.877 şəxs cəzadan azad olunmuşdur. Amnistiya 8.560 kişi, 1.317 qadın, həmçinin, yetkinlik yaşına çatmayan 11 şəxs barəsində tətbiq edilmişdir.

Penitensiar müəssisələrdə cəza çəkən 2.861, intizam xarakterli hərbi hissədə saxlama cəzası çəkən 104, islah işləri növündə cəza çəkən 2.091, ictimai işlər növündə cəza çəkən 226 və maddi vəziyyəti ilə əlaqədar olaraq 3 milyon manatdan artıq məbləğdə cəriməni ödəyə bilməyən 4.225 məhkum amnistiya nəticəsində cəzalardan azad olunmuşdur. Həmçinin, şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 370 məhkum barəsində də amnistiya tətbiq edilmişdir. Amnistiyanın təsiri altına düşmüş 9.877 şəxsin böyük əksəriyyəti, yəni 98 faizi ciddi ictimai təhlükə törətməyən və az ağır cinayətlər törətməyə görə məhkum olunmuş şəxslərdir. Cəzadan azad edilənlərin 2 faizi isə ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş və cəzalarının sonuna az müddət qaldığı üçün amnistiya aktı ilə nəzərdə tutulan məhdudiyyətlərin təsiri altına düşməyən şəxslərdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistliyin nəticəsində 1995-ci il-

dən əfv və amnistiya təsisatları bərpa edildikdən sonra qəbul edilən 8 amnistiya aktı 87 mindən çox şəxsə tətbiq edilmiş, o cümlədən təxminən 23 min məhkum cəzaçəkmə müəssisələrindən azad olunmuşdur. 2008-ci ilin mayın 8-də Milli Məclisdə qəbul olunan "Amnistiya Aktı haqqında" qanunun icrası nəticəsində 500-ə yaxın məhkum azadlığa buraxılmışdır. Mayın 10-dan başlayaraq icra edilən Amnistiya Aktının icrası müddəti 3 ay vaxt nəzərdə tutulur. Üç ay ərzində 1500-ə yaxın məhkumun azadlığa buraxılması gözlənilir. Bütövlükdə isə akt 9 minə yaxın insana şamil edilir. Həyata keçirdiyi bir sıra sosial layihələrlə cəmiyyətdə böyük ictimai nüfuz və rəğbət qazanmış Heydər Əliyev Fondu qısa müddətdə köməyə ehtiyacı olan insanların ümid və pənah yerinə çevrilmişdir. Fond qısa müddətdə həm ölkə daxilində, həm də xaricdə elm, təhsil, səhiyyə, mədəniyyət, idman, ekologiya və sosial sahələrdə genişmiqyaslı tədbirlər həyata keçirmişdir. YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş amnistiya aktı məhz ulu öndərimizin humanizm ideyalarına sadiqlikdən irəli gəlir.

Son 5 ildə Prezident Ilham Əliyevin rəhbərliyi sayəsində ümumbəşəri dəyərlərin tərkib hissəsi kimi insan hüquq və azadlıqlarına, humanizm prinsiplərinə yüksək münasibətin mövcud olduğu respublikamızda məhkumların bağışlanması da müsbət ənənəyə çevrilmişdir. Siyasi idarəçiliyi dövründə vətəndaşlara əsil rəhbər qayğısı ilə yanaşmış ulu öndərimiz Heydər Əliyevin idarəçilik fəlsəfəsi, insanpərvərlik və humanizm ideyalarına söykənirdi. Ümummilli liderimizin hakimiyyətə qayıdışından sonra

ictimai-siyasi sabitliyin təminatı, qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində ciddi addımlar atılmış, insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş genişmiqyaslı islahatlar həyata keçirilmişdir. Müntəzəm olaraq imzalanmış əfv fərmanları Azərbaycanın demokratik imicini daha da gücləndirməklə, rəsmi Bakının insan hüquqları üzrə ixtisaslaşmış bir sıra beynəlxalq qurumlarla, xüsusən də, ATƏT, Avropa Şurası kimi təşkilatlarla münasibətlərinin genişlənməsinə geniş imkanlar açır. Bu və digər humanist addımlar rəsmi Bakının Avropa təşkilatları ilə normal əməkdaşlıqda maraqlı olduğunu, demokratik və hüquqi dövlət quruculuğu prinsipinə sadiqliyini nümayiş etdirir.

Prezident İlham Əliyevin 2008-ci ilin avqustun 26-da imzaladığı növbəti əfv fərmanına əsasən cəzasının yarıdan çox hissəsini çəkən, törətdiyi əməldən səmimi peşmançılıq hissi keçirən, həbsxanada olduğu müddətdə nümunəvi davranışı ilə seçilən bir qrup məhkum cəzalarının çəkilməmiş hissəsindən azad edildilər.

Demokratikləşmə, insan hüquqlarının etibarlı təminatı baxımından böyük zaman məsafəsi qət edərək yüksək inkişaf mərhələsinə çatmış bir sıra qabaqcıl dövlətlərin təcrübəsi göstərir ki, cəmiyyətin təkamül prosesini, habelə, dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların dövrün tələblərinə uyğun müasirləşdirilməsi davamlı və zəruri səciyyə daşıyır. Bu istiqamətdə həyata keçirilən mütərəqqi islahatların praktik nəticələr verməsi isə daha çox tətbiq olunan yeniliklərin zamanla nə dərəcədə səsləşməsi və cəmiyyətin inkişaf tempinə adekvatlığı ilə

şərtlənir. Qanunların yüksək liberallığı ilə ictimai şüur səviyyəsi arasında müşahidə olunan kəskin fərq isə "Ən pis qanun, işləməyən mütərəqqi qanundan daha yaxşıdır" postulatını tam gücü ilə işə salır. Hər bir islahatın uğurlu nəticələr verməsi, ilk növbədə, onun aktuallığından, əhatə dairəsindən, ən əsası, vətəndaşların hüquq və azadlıqlarını özündə tam ehtiva etdirməsindən asılıdır.

## MƏHKƏMƏ İSLAHATLARI TƏKMİLLƏŞDİRİLİR

Müstəqillik yoluna yenicə qədəm qoymuş Azərbaycanın qısa müddətdə demokratikləşmə sahəsində böyük nailiyyətlər qazanması da bilavasitə vətəndaş cəmiyyəti quruculuğuna hesablanmış məhkəmə-hüquq islahatlarının ölkənin sosial-iqtisadi inkişaf ahəngi və demokratik şüur səviyyəsi ilə uzlaşdırılması nəticəsində mümkün olmuşdur. Ulu öndərimiz Heydər Əliyev respublikada qanunun aliliyinin təmin olunmasını, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən biri elan etmiş və bu ali məqsədlərin gerçəkləşdirilməsinə yönəlmiş çoxşaxəli tədbirlərin həyata keçirilməsini daim diqqətdə saxlamışdır.

Ulu öndərimiz böyük siyasət ustadı olaraq cəmiyyətdə hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsi-

nin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının möhkəm təməlini qoymuşdur. Ölkə Konstitusiyasına əsasən, hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmələr dünyanın mütərəqqi təcrübəsinə əsaslanan modeldə formalaşdırılmışdır. Bu modelə əsasən, ölkəmizdə birinci instansiya, apelyasiya və kassasiya instansiyalı üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir. Üçpilləli məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etməklə, işlərə birinci instansiya qaydasında baxılmasına, sonra hüquqa və fakta görə apellyasiya qaydasında yoxlanılmasına, daha sonra isə, məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yenidən baxılmasına imkan yaradır. Bu sistem birinci instansiya məhkəməsinin buraxdığı hər hansı səhvin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə düzgün və obyektiv həllinə şərait yaratmış olur.

Avropa ailəsinin tamhüquqlu üzvünə çevrilmiş Azərbaycanda son illər insan hüquq və azadlıqlarının daha etibarlı təminatına yönəlmiş bir sıra səmərəli tədbirlər həyata keçirilmiş, 2002-ci il 24 avqustunda ümumxalq referendumu ilə ölkə Konstitusiyasına edilmiş dəyişikliklərə əsasən, Ali Məhkəməyə və Respublika Prokurorluğuna qanunvericilik təşəbbüsü ilə çıxış etmək hüququ verilmiş, vətəndaşlar Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək imkanı əldə etmişlər.

Məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar ölkənin Avropa standartlarına uyğun demokratik və hüquqi dövlət quruculuğu sahəsində inkişafı ilə bağlı vahid strategiyanın və məsələnin kompleks həllinə yönəlmiş siyasi iradənin mövcudluğundan xəbər verir.

Prezident səlahiyyətlərinin icrasına **«Mən hər bir azərbaycanlının Prezidenti olacağam»** deməklə başlayan ölkə başçısı İlham Əliyev, ulu öndərimizin möhkəm əsaslarla təməlini qoyduğu məhkəmə-hüquq islahatlarını dövrün tələblərinə uyğunlaşdırılmasını, ədalət mühakiməsinin keyfiyyətcə müasirləşdirilməsini və səmərəliliyinin artırılmasını mühüm vəzifələr kimi müəyyənləşdirmişdir. Son illər ardıcıllıqla davam etdirilən məhkəmə-hüquq islahatları Azərbaycanda qanunun aliliyinin təmin olunmasına, məhkəmə hakimiyyətinin nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapmasına, ədalət mühakiməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkilinə, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunmasına, peşəkar hakim korpusunun formalaşdırılmasına, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsinə və digər məsələlərin həllinə yönəlmişdir. Bu məqsədlə 2004-cü ilin dekabr ayında **«Məhkəmə-Hüquq Şurası haqqında»** qanun qəbul olunmuş, **«Məhkəmələr və hakimlər haqqında»** qanuna hakimlərin seçim prosedurunun daha da təkmilləşdirilməsi, sui-istifadəyə, qanun pozuntusuna yol vermiş hakimlər barəsində intizam məsuliyyətinin gücləndirilməsini, məhkəmələrin işində şəffaflığın təmin edilməsini nəzərdə tutan zəruri dəyişikliklər edilmişdir. Bu dəyişikliklərdən irəli gələn təxirəsalınmaz tədbirlərin

icrası məqsədilə məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən yeni qurum - Məhkəmə-Hüquq Şurası yaradılmışdır.

Ölkə başçısı İlham Əliyevin 19 yanvar 2005-ci il tarixli **«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi» və «Azərbaycan respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında»** Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə" fərmanı isə vətəndaş hüquq və azadlıqlarının təminatı baxımından daha əlverişli imkanlar yaradır. Cəmiyyətin sosial sifarişini əks etdirən bu fərman vətəndaşlarda haqlı narazılıq doğuran bir sıra problemlərin məcmu həlli baxımından yeni iqtisad və apelyasiya məhkəmələrinin yaradılmasını, eləcə də mövcud məhkəmələrdə hakimlərin sayının artırılmasının nəzərdə tutur.

Ədalət mühakiməsinin düzgün, səmərəli və qanunamüvafiq qaydada həyata keçirilməsinin başlıca prinsipi məhkəmələrdə işlərin tam, hərtərəfli, obyektiv araşdırılmasıdır. Bu prosedurun qanunla müəyyən olunmuş müddətdə başa çatdırılması həm işlərə baxan məhkəmələr, həm də məhkəmə çəkişmələrində bilavasitə iştirak edən fiziki və hüquqi şəxslər üçün son dərəcə vacib məsələlərdəndir. Hakimlərin icraatında olan işlərin son illər sürətlə çoxalması onların tam və obyektiv araşdırılmasını, qanunla müəyyən olunmuş müddətdə baxılmasını, habelə tam ədalətli qərarın qəbulunu praktik cəhətdən qeyri-mümkün edirdi. Bəzən gün ərzində iki-üç işə baxmaq məcburiyyətində qalan hakimin qanunun tələblərinə tam cavab verən qərar çıxarmasından danış-

maq qətiyyən mümkün deyildi. Ölkənin aktiv demokratikləşmə fazasına qədəm qoyduğu, hüquqi dövlət quruculuğunun geniş vüsət aldığı bir şəraitdə belə neqativ tendensiyaların mövcudluğu vətəndaşların məhkəmələrə inamsızlığına və etimadsızlığına rəvac verir, haqlı narazılıq doğururdu. Fərmanda vətəndaşların mənafeyi önə çəkilərək bu problemin həlli üçün Məhkəmə-Hüquq Şurasına məhkəmələrdə hakimlərin sayının artırılması ilə əlaqədar təkliflər hazırlamaq tövsiyə olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev regionların sürətli sosial-iqtisadi inkişafı, paytaxtla bölgələrin inkişaf tempindəki fərqin aradan qaldırılması naminə həyata keçirilən kompleks tədbirlərin daha uğurlu nəticələr verməsi baxımından, məhkəmə-hüquq islahatlarının əhəmiyyətini də ciddiliklə nəzərə alır. Məhkəmə sisteminin müasirləşdirilməsinin hazırkı mərhələsində regionların sosial-iqtisadi şəraitində əhalinin hüquq institutlarına, hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılığına səbəb olan sui-istifadə, süründürməçilik və digər neqativ halların aradan qaldırılması, məhkəmələrə inamın artırılması, onların fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiqi, habelə məhkəmə aparatları strukturunun və işinin daha optimal şəkildə qurulması nəzərdə tutulur. Prezident İlham Əliyevin 19 yanvar 2005-ci il tarixli fərmanı ilə Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki şəhərlərində 5 yeni Apelyasiya məhkəməsinin, Naxçıvan şəhərində Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsinin,

habelə Bakı, Sumqayıt və Şəki şəhərlərində yerli iqtisad məhkəmələrinin yaradılması da bu istiqamətdə atılmış çox ciddi addımdır.

## PREZİDENT VƏ AZAD MƏTBUAT

Yeni dünya demokratiyanı sivil və davamlı inkişafın prioritet istiqaməti kimi meydana çıxarmış, sivilizasiyalararası dialoqun əsas amili kimi müəyyənləşdirmişdir. Hazırda istənilən dövlətdə demokratiyanın inkişaf səviyyəsi həm də fərdin təbii azadlıqlarının qorunmasına zəmin yaradan plüralist mühitin formalaşdırılması, daha dəqiqi, söz, məlumat, informasiya və fikir azadlıqlarının yüksək səviyyədə təminatı ilə ölçülür. Bu azadlıqlar cəmiyyətdə şəffaflığı, siyasi plüralizmi və tolerantlığı şərtləndirməklə, insanların beynəlxalq konvensiyalar və digər normativ hüquqi aktlarda təsbit edilmiş hüquqlarının etibarlı müdafiəsinə geniş imkanlar açır.

Azərbaycanda bu gün insan hüquqlarının, siyasi plüralizmin, vətəndaş cəmiyyətinin mövcudluğu təsdiqini həm də demokratik institut kimi formalaşmış kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətində, onların inkişafı üçün yaradılmış hüquqi təminatlarda tapır. Həyata keçirilmiş islahatların nəticəsi olaraq bu gün Azərbaycanda söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Respublikada mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad ifadə etməsinə bütün imkanlar yaradılmışdır.

2003-cü ilin oktyabrından dövlətə inamla rəhbərlik edən Prezident İlham Əliyev respublikada söz və mətbuat azadlığını demokratiyanın fundamental şərti hesab edir. Dövlət başçısı milli mətbuatın mütərəqqi ənənələrə əsaslanmaqla, eyni zamanda xalqın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayır. 21 iyul 2005-ci il tarixdə **«Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında»**, **«Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında»**, habelə **«Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında»** sərəncamlar imzalayan Prezident İlham Əliyev jurnalistlərin əməyinə yüksək qiymət verdiyini, onlara qayğı göstərdiyini əməli şəkildə sübuta yetirmişdir.

İlham Əliyev dövlət orqanlarının işində şəffaflığın təmin olunması üçün azad mətbuatın imkanlarından səmərəli istifadə olunmasını başlıca tələblərdən biri kimi qarşıya qoyur: "Nazirlərə, hökumət nümayəndələrinə tapşırıq vermişəm ki, mətbuatla işləsinlər, müsahibə versinlər, bizim siyasətimizi izah etsinlər. Azərbaycan reallığını, gerçəkliyini əhaliyə çatdırsınlar". Əlbəttə, ölkədə azad mətbuatın mövcudluğu danılmazdır və onun mövcudluğunun qarşısını heç bir qüvvə ala bilməz. Çünki bu mövcudluq sosial sifarişə, ən əsası isə Prezident İlham Əliyevin siyasi iradəsinə söykənir.

Dünya sivilizasiyasanın bir hissəsi olan Azərbaycanda azad sözə, plüralizmə, əxlaqi-mənəvi maariflənməyə, ümummilli maraqların ifadəsinə olan tələbat İctimai Televiziyanın yaranması məsələsini gündəmə gətirdi. Cəmiyyətin demokratikləşməsi, Azərbaycanın ümu-

mavropa dəyərlərinə qovuşmaq istəyi İctimai Televiziyanının yaranmasını labüdləşdirdi və 2004-cü il sentyabrın 11-də "İctimai Televiziya və Radio Yayımı haqqında" Azərbaycan Respublikası qanununun qəbul edilməsilə şəffaflıq, qərəzsizlik və ictimai maraq prinsiplərini önə çəkən İctimai Teleradionun yaradılmasına start verildi. Qanun İctimai TV-nin müstəqil, tərəfsiz, qərəzsiz və doğru-dürüst informasiya çatdırmasını, plüralizm, dözümlülük, rəngarənglik və başqalarından fərqlənmək prinsiplərini əsas götürür.

Əhalinin bütün təbəqələrini dəqiq və qərəzsiz informasiya ilə təmin etmək pinsipini irəli sürən "İctimai Televiziya və Radio Yayımları haqqında" qanuna əsasən, bütün sosial qrupların maraqlarını təmin etmək məqsədilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Milli Elmlər Akademiyası, Mətbuat Şurası, Sahibkarlar Şurası, gənclər təşkilatları, qadın cəmiyyətləri, idman federasiyaları, dini konfessiyalar və yaradıcılıq təşkilatları hər biri iki nəfər olmaqla Yayım Şurası üzvlüyünə namizəd irəli sürdülər.

2005-ci ilin mart ayında parlament qanuna müvafiq olaraq YŞ-nın üzvlərinin heyətini formalaşdırdı. Yayım Şurasının üzvlərinin müxtəlif təşkilatları təmsil etmələrinə baxmayaraq, onlar cəmiyyətin ümumi maraqlarına xidmət edirlər. Beləliklə, 2005-ci il 29 avqust tarixində İTRYŞ-nın açılış mərasimi gerçəkləşdi.

Bu sərəncamlar əsasında milli mətbuatın ilk qaranquşu olan "Əkinçi" qəzetinin 130 illik yubileyi respublikanın bütün bölgələrində yüksək səviyyədə qeyd olunmuş, jurnalistlər mükafatlandırılmış, onlara fəxri adlar,

habelə prezident təqaüdləri verilmişdir. 2005-ci il iyulun 21-də "Gülüstan" sarayında keçirilən təntənəli mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkədə söz və mətbuat azadlığının inkişafında maraqlı olduğunu, bunun üçün üzərinə düşən bütün vəzifələri həyata keçirəcəyini növbəti dəfə bəyan etmişdir.

Prezident səviyyəsində nümayiş etdirilən qətiyyət və siyasi iradənin nəticəsidir ki, bu gün kütləvi informasiya vasitələri istənilən məsələ ilə bağlı mövqeyini açıq ifadə edə bilir, xüsusən də, müstəqil fəaliyyət göstərən qəzetlərin bu sahədə hər hansı bir problemi yoxdur. Ölkədə azad fikrə, tənqidi mövqeyə dözümlü münasibət mövcuddur. Jurnalistlər istənilən dövlət orqanını, yüksək vəzifəli məmuru sərt şəkildə tənqid edə bilirlər. Peşə etikasını, mənəvi-əxlaqi dəyərləri aşmayan obyektiv tənqid bütün səviyyələrdə qəbul olunur. Azərbaycan iqtidarı daim söz və mətbuat azadlığının inkişafına diqqət göstərir.

İlham Əliyev söz və mətbuat azadlığının yüksək səviyyədə təminatı üçün bütün zəruri tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Söz və mətbuat azadlığını ictimai nəzarət funksiyası kimi dəyərləndirir: **«Əgər güclü ictimai nəzarət olmasa, əgər Azərbaycanda azad cəmiyyət formalaşmasa, bizim iqtisadi uğurlarımızın gələcəyi olmayacaq, ancaq müvəqqəti xarakter daşıyacaqdır. Ona görə də, son illər ərzində Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda, o cümlədən, mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin**

**olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur».**

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə söz və mətbuat azadlığının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atılır. Bununla belə, söz, fikir və mətbuat azadlığı üçün respublikamızda yaradılmış liberal və tolerant mühit bəzi hallarda bu sahədə müəyyən problemlərin ortaya çıxmasına, xüsusən də, informasiyanın toplayıcısı və cəmiyyətə ötürücüsü funksiyasını yerinə yetirən kütləvi informasiya vasitələrində qanunların və peşə davranışı normalarının kobud şəkildə pozulması hallarına da gətirib çıxarır. Bu sahədə özünü göstərən köklü problemlər - bir sıra qəzetlərin öz fəaliyyətini "reketçilik", şantaj üzərində qurması, insanların şərəf və ləyaqətini təhqir etməsi, şəxsi toxunulmazlıq hüququnu pozması və digər neqativ hallar cəmiyyətdə haqlı narazılıq doğurur, insanlığın ali zinəti olan sözün dəyərdən düşməsinə səbəb olur. Təəssüf ki, bəzən mətbuat Konstitusiya və mövcud qanunların tənzimlədiyi hüquqi çərçivəni aşaraq bir sıra kütləvi informasiya vasitələrində istənilən fikrin, sözün məsuliyyətsiz formada ifadə edilməsi və heç bir məsuliyyət daşımamaq anlamında qəbul olunur.

Prezident İlham Əliyevin 2008-ci ilin iyulunda imzaladığı **«Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında»** və **«Azərbaycan Respublikasında kütləvi in-**

**formasiya vasitələrinə dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında»** sərəncamları ölkə ictimaiyyəti, jurnalist təşkilatları, kütləvi informasiya vasitələri tərəfindən böyük razılıqla qarşılandı.

2008-ci il iyul sərəncamı ilə ölkədə fəaliyyət göstərən 38 mətbuat orqanı və informasiya agentliklərinin hər birinə beş min manat birdəfəlik yardım və qəbul edilən konsepsiya, ümumiyyətlə, İlham Əliyevin bu baxımdan imzaladığı sənədlər şübhəsiz ki, kütləvi informasiya vasitələrinin müstəqilliyinin artırılması, onların iqtisadi vəziyyətinin yaxşılaşdırılması, maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin yaşayış səviyyəsinin yüksəldilməsi sahəsində Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin daha bir nümunəsidir.

Əlbəttə, İlham Əliyevin 2007-ci ildə ANS Şirkətlər qrupu və "Çingiz Mustafayev Fondu" tərəfindən "İlin adamı" mükafatı ilə təltif olunması, onun KİV-ə göstərdiyi diqqət və qayğının, KİV-in isə dövlət başçısına verdiyi qiymətin ifadəsi kimi dəyərləndirilməlidir.

## DEMOKRATİK SEÇKİLƏR ƏNƏNƏSİ MÖHKƏMLƏNİR

Demokratik cəmiyyətin və onun inkişaf səviyyəsinin göstəricilərindən ən mühümü seçkilərin müasir dünyanın qəbul etdiyi standartlara uyğun keçirilməsidir. Bu baxımdan, İlham Əliyevin hakimiyyətinin 2-ci ilində keçirilən parlament seçkilərinin qanunvericilik bazasının təkmilləşdirilməsi və seçkilərin azad, demokratik və şəffaf keçirilməsini xüsusi olaraq vurğulamaq lazımdır.

Hələ 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyası ölkədə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirmişdir. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra - 1993-cü ilin oktyabrından bəri, ölkəmizdə keçirilmiş seçkilərin əvvəlkilərlə müqayisədə ölkəmizin seçki sisteminin beynəlxalq standarlara uyğunlaşdırılması yolunda irəliyə doğru atılan addım hesab edilməsi heç də təsadüfi deyil.

Seçkinin nəticələri həm də onu sübut etdi ki, Azərbaycan seçicisi kifayət qədər sayıq və hadisələrdən baş çıxarmaq gücündədir. Təbii ki, radikal qüvvələr seçkilər dövründə baş verənlərə reallıq hissini əsas götürməklə proseslərə loyal yanaşmaq və hər şeyi öz adı ilə çağırmaq əvəzinə, inkarçılıq və nihilizm yolu tutdular. Lakin müxalifətin belə ifrat inkarçılığı və radikalizmi birdənbirə yaranmayıb. Həmin qüvvələrin partiya, qrup kimi formalaşdığı mərhələni nəzərə alsaq, onların bu mənfi siyasi keyfiyyətinin köklərinin haradan gəldiyini anlamaq çətin olmaz. Hazırda müxalifətdə olan qüvvələr 1990-cı illərin əvvəllərində siyasət meydanına çıxmış siyasi özfəaliyyətin təmsilçiləridir. Onları o dövrdə yalnız bir məqsəd birləşdirirdi - köhnə sistemi dağıtmaq. Təssüflər olsun ki, bu vərdiş həmin dövrdən ötüb keçən 14-15 ildə onları tərk etməyib. Bu adamların mütləq əksəriyyəti uzunmüddətli dövlət idarəçiliyində olmayıb və hakimiyyətdə olanda da, özlərinin təhtəlşüurunda ilişib qalmış impulsların - dağıdıcılıq instinktinin təsiri altında fəaliyyət göstəriblər.

O da məlumdur ki, İlham Əliyevin prezidentliyi ölkənin beynəlxalq əlaqələri baxımından keyfiyyətcə daha effektiv zamana təsadüf edir. İndi Azərbaycan nə beynəlxalq tanınma həsrətində olan, nə ətrafında formalaşdırılmış antitəbliğat maneəsini aşıb keçməyə çalışan, nə də dünyaya çıxış yolları arayan dövlətdir. Azərbaycan son 10 ildə ciddi əsaslara malik, balanslaşdırılmış xarici siyasət kursu hesabına, üstəlik məlum 11 sentyabr hadisələrindən sonra formalaşmış yeni mühitin, auranın şərtlərinə uyğun olaraq strateji əhəmiyyətli bölgədə yerləşən, bəzi müstəqil dövlətlərə xas olan "banan respublikası" imicini inkar edən regional güc mərkəzidir. Azərbaycan artıq daxildə dövlətçiliyimizin inkişafı, sosial-rifahın təminatı, xarici siysətdə isə milli maraqların ödənməsi üçün təsirli vasitəyə malikdir. Şübhəsiz ki, İlham Əliyevin Prezidentliyinə təsadüf edən ən fundamental amil köhnə ictimai düşüncə tərzinin tamamilə inkarı və yeni siyasi baxışlar sisteminin formalaşması mərhələsinin başlanmasıdır. Ümumiyyətlə, İlham Əliyevin hakimiyyəti bütövlükdə yenilik məfhumu ilə sıx surətdə bağlıdır. Əslində, 6 noyabr 2005-ci il parlament seçkisinin nəticələri Azərbaycan siyasəti üçün ənənəvi müxalifətçilik, populizm, radikallıq, dağıdıcılıq, qaraguruhçuluq, inqilabçılıq, destruktivlik tendensiyalarının aktuallığını itirməsi demək idi.

Seçkilər öncəsi ölkə vətəndaşları ölkədə siyasi sabitlik, sülh və əmin-amanlıq, sosial-iqtisadi inkişaf arzusunda olduqları halda, aqressiv müxalifət təşviqat mərhələsində bu reallığı nəzərə almadı. Onlar seçkilərə hazırlaşmaq, seçicilərlə normal iş aparmaq, plaftormalarını açıqlamaq əvəzinə narıncı qalstuk vurub ifrat inkar-

çılıq, barışmazlıq mövqeyi tutdular, yalan vədlərlə aldatdıqları məhdud saylı tərəfdarlarını küçələrə çıxartdılar. Lakin ictimai-siyasi reallıq radikal müxalifət partiyalarının siyasi taktikası və strategiyası ilə uzlaşmadı. Mühafizəkarlar liberal dəyərlər, liberallar solçuluq ənənələrinə müvafiq hərəkət etməkdə özlərini haqlı sayırdılar. İdeoloji prinsiplərin arxa plana keçməsi müxalifət partiyalarının siyasi strategiyasına da güclü təsir göstərdi, nəticədə siyasi ideologiyaya görə formalaşan siyasi spektr məfhumu pozuldu, normal partiya quruculuğu xətti darmadağın oldu, siyasi məkanda ideoloji deyil, başqa prinsiplər üzrə formalaşmış paranormal bloklar yarandı. Radikal müxalifəti parlament seçkisində məğlubiyyətə gətirib çıxaran digər bir amil isə elektoratla bağlıdır.

Ümumilikdə Azərbaycan elektoratını siyasi sistemdəki qüvvələrə simpatiya baxımından təsnif etsək, şərti olaraq üç böyük elektoral hissəni (iqtidar, müxalifət və neytral elektorat) müəyyənləşdirə bilərik. İqtidaryönlü elektorat mövcud hakimiyyəti və Prezident İlham Əliyevi dəstəkləyir. Bu elektoral kütlə daxilində heç bir parçalanma tendensiyası yoxdur və buna gələcək seçkilər baxımından yanaşdıqda da kifayət qədər stabil elektoral resursdur. Məhdud saylı müxalifətyönlü elektorat isə bir neçə siyasi qüvvə arasında bölünüb. Deməli, ziddiyyət bəri başdan aydın idi, eyni elektorata bir neçə qüvvə iddialı idi. İstər siyasi, istərsə də regional təmsilçilik baxımından sözügedən elektoral massiv çox rəngarəngdir. Bundan başqa, müxalifətyönlü elektoral kütlə daxilində kifayət qədər ciddi əhəmiyyət kəsb edən

dərin ziddiyyətlər də var və bu elektoratın siyasi-ideoloji, regional, sosial təbəqələr səviyyələrində də hiss olunmaqdadır. Nəhayət, üçüncü, şübhə yoxdur ki, ən geniş elektorat neytral insanlardan ibarətdir. Neytral elektoratın bir qisminin mövcud sosial vəziyyətini qənaətbəxş sayaraq siyasətdən uzaq durmağa çalışan, az qismini isə siyasiləşməmiş sosial narazılar kimi səciyyələndirmək olar. Azərbaycan seçicisi isə öz seçimini demək olar, həmişə rasional-instrumentar motivasiyaya uyğun edir, yəni, seçici müxalifətin hakimiyyətə gələcəyi təqdirdə bunun bilavasitə seçicinin vəziyyətinə necə təsir göstərəcəyini hesablayır. Məhz bu motivasiya xalqın və dövlətin gələcəyinə hakimiyyət və müxalifətin bir-birindən kəskin şəkildə fərqlənən münasibətlər, konseptual yanaşma tərzi, sonda neytral elektoratın da öz seçimində dəqiqləşmə apardı və nəticədə qurucu və stabil inkişaf konsepsiyası xaos, anarxiya və dərəbəyliyi ehtiva edən platformaya qalib gəldi.

6 noyabr 2005-ci il parlament seçkisində ümummilli lider Heydər Əliyev siyasi kursuna və bu kursun layiqli davamçısı, cənab İlham Əliyevin komandasına səs verən xalq ölkəmizin sosial-iqtisadi və demokratik inkişafına yeni bir vüsət vermiş oldu. Təsadüfi deyil ki, böyük siyasi irsin daşıyıcısı olan dövlət başçısı İlham Əliyevin seçkilərdən sonra imzaladığı bir sıra fərmanlar aparılan siyasətin sosial-iqtisadi inkişafı ilə bağlı olması respublika iqtisadiyyatının intensiv inkişaf edəcəyinin, nəticə etibarilə, əhalinin sosial müdafiəsini getdikcə daha artıq dərəcədə gücləndiriləcəyinin təsdiqidir. Eyni zamanda, 6 noyabr 2005-ci il parlament seçkisin-

dən sonra sosial-iqtisadi həyatdakı yüksəliş ardıcıl xarakter almış, qazanılmış yeni nailiyyətlərlə əlamətdar olmuş, bu prosesləri əyani nümayiş etdirən makroiqtisadi göstəricilər isə əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır.

Seçkinin nəticələri onu da göstərdi ki, Azərbaycan hakimiyyəti beynəlxalq standartlara uyğun, eyni zamanda, ölkənin hazırkı inkişaf mərhələsini və özünəməxsus xüsusiyyətlərini nəzərə alan seçki keçirmək iqtidarındadır və bunun üçün güclü iradəyə malikdir. Seçkinin nəticələri göstərdi ki, Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real gücə və nüfuza malik, sivil, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil Azərbaycan dövləti quruculuğu prosesində böyük əməyi olan, ölkənin inkişafı ilə bağlı real və fundamental konsepsiyaya malik iqtidar mövcuddur. Ümummilli lider Heydər Əliyev ideologiyasını rəhbər tutan hakimiyyət komandası Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı yeni, möhtəşəm uğurlara aparmaq gücündədir.

Nəhayət, ictimai rəyə hakim kəsilmiş və beynəlxalq birliyin də şərik çıxdığı rəy bir daha öz təsdiqini tapdı: Azərbaycanda radikal müxalifət xalq içərisində möhkəm dayaqlara malik deyil. Müxalifətin radikal qanadının əsas məqsədi Azərbaycanı inkişaf etdirmək, problemlərinin həllinə nail olmaq deyil, müstəqilliyinin 17-ci ilini yaşayan ölkəmizi yeni siyasi təlatümlərə, qarşıdurmalara, iğtişaşlara sürükləməkdir. Açıq göründü ki, radikal müxalifət Azərbaycanın inkişaf etdirilməsi yolları barədə aydın təsəvvürə malik deyil, bu günə kimi hər

hansı bir taleyüklü problemlə bağlı konseptual fikir ortaya qoymayan qüvvələr, yalnız hakimiyyət hərisliyi ilə yaşayır, onların davası isə kürsü davasıdır, revanşdır.

2005-ci ilin 6 noyabr seçkiləri nəticə etibarı ilə həm də Heydər Əliyev siyasi kursunun alternativsizliyini təsdiqləyən mühüm hadisəyə çevrilməklə, ümumilikdə, xalqın bu kursun davam etdirilməsində nə qədər maraqlı olduğunu növbəti dəfə aşkarlandı. 2005-ci ilin parlament seçkiləri sübut etdi ki, Azərbaycanda sivil, demokratik, hüquqi dövlət quruculuğu prosesi artıq dönməz xarakter daşıyır və bu prosesə mane ola biləcək qüvvə yoxdur. Hakimiyyət cəmiyyətin liberallaşması, demokratik dəyərlərin bərqərar olması, vətəndaş cəmiyyətinin qurulması, Azərbaycanın Qərbə, Avratlantik məkana inteqrasiyası vasitəsilə sivil dünyanın bir hissəsinə çevrilməsi istiqamətində müstəqil və məqsədyönlü siyasət aparır. Hakimiyyət həm daxili, həm də xarici siyasətdə impulsiv, ölçülüb-biçilməmiş qərarların tərəfdarı deyildir. Bütün məsələlər üzrə prinsipial qərarlar təhlildən sonra qəbul olunur və ölkənin, regionun davamlı inkişafına xidmət edir. Seçki prosesi göstərdi ki, Azərbaycan hakimiyyəti beynəlxalq standartlara uyğun, eyni zamanda, ölkənin hazırkı inkişaf mərhələsini və özünəməxsus xüsusiyyətlərini nəzərə alan seçki keçirmək gücündədir.

Radikal müxalifətin parlament seçkisindəki məğlubiyyətinə gəldikdə isə, ABŞ-ın "Ceymstaun Fondu"nun baş təhlilçisi və keçmiş Sovet İttifaqı respublikaları və MDB üzrə mütəxəssis Vladimir Sokorun "Eurasiya daily monitor" qəzetində dərc olunmuş fikirlərini misal

çəkmək maraqlı olardı. V.Sokore yazırdı ki, Azərbaycanda parlament seçkilərinə bəzi beynəlxalq müşahidəçilərin verdikləri müəyyən ədalətsiz qiymətlərdən ruhlanan və daha obyektiv qiymətləri qulaqardına vuran müxalifət liderləri seçkilərin nəticələrinin ləğv edilməsinə və bütün ölkədə yeni seçkilər keçirilməsinə nail olmaq məqsədi ilə kütləvi küçə mitinqləri təşkil edirdi: "Azadlıq" radikal müxalifət bloku seçkilərdə guya qələbə qazandığı barədə iddia ilə öz tərəfdarlarını səfərbər edirdi. Blokun liderləri həmişə bu seçkilərə siyasi prosesin yüksək nöqtəsi kimi deyil, əksinə, fiziki qarşıdurmaya ("rəngli inqilab", iqtidarın dəyişdirilməsi) doğru aparan keçid dövrü kimi baxmışlar. Seçki kampaniyası zamanı onlar bəyan edirdilər ki, müxalifətə parlamentdəki 125 yerdən 45 yerdən az verən hər hansı nəticəni saxtalaşdırılmış nəticə kimi qiymətləndirəcəklər. Deyəsən, müxalifət bu rəqəmi seçkilərdən sonra ictimai qayda-qanunun dəyəri barədə iqtidarla sövdələşmək üçün uydurmuşdur. Seçkilərdən əvvəlki bütün ictimai rəy sorğularının nəticələrini - bu sorğular onların reytinqinin aşağı olduğunu göstərmişdir. ABŞ-ın PA Consultinq şirkətinin keçirdiyi exit-pollun nəticələri müxalifəti son dərəcə məyus etdi, çünki sorğunun keçirildiyi 65 seçki məntəqəsindən 53-də qaliblər eyni adamlar olmuşdur. İndi "Azadlıq"ın "yaralanmış" liderləri bildirirlər ki, onların bloku parlamentdə yerlərin guya üçdə iki hissəsini (80-dən çoxunu) qazanmışdır və onlar namizədlərini irəli sürdükləri 116 seçki dairəsinin əksəriyyətində qalib gəlmişlər.

V.Sokorun fikrincə, müxalifətin strateqlərini ortaya "qəfil kütlə" anlayışı atmışlar. Yəni o, nümayişçilərin

mobil qruplarının köməyi ilə yaranacaq, eyni vaxtda müxtəlif yerlərdə nümayişlərə başlayacaq və bununla da polisin diqqətini özünə cəlb edəcəkdir. Nəticədə bəzi ərazilər qorunmamış qalacaq, müxalifətçilərin digər böyük qrupu isə bu ərazidə çadır şəhərciyi salacaqdır. Fəqət, hakimiyyət orqanları özlərini təmkinli apararaq, hər hansı qarşıdurmaya yol vermədilər. V.Sokorun bu fikirlərindən anlaşılır ki, xarici təhlilçilər və politoloqlar da Azərbaycan müxalifətinin dağıdıcı simasına bələddirlər.

6 noyabr 2005-ci il parlament seçkisindən sonra təkamül və mərhələli inkişaf yolunu tutan Azərbaycan Prezidenti cəmiyyəti bu istiqamətdə böyük peşəkarlıq və uğurla irəliyə doğru aparır. Parlament seçkisinin nəticələri həm də belə bir reallığı təsdiq etdi ki, ölkənin demokratik inkişafı, siyasi plyüralizmin təmin olunması, azad və ədalətli seçkilər, vətəndaş hüquq və azadlıqlarının təmin olunması İlham Əliyev hakimiyyətinin qarşısında duran ən ümdə vəzifələrdir. İlham Əliyevin səyləri nəticəsində ölkəmiz son illər bu istiqamətdə çox böyük naliyyətlər əldə edib, Qərbin demokratik ənənələrini uğurla mənimsəyib, beynəlxalq aləmdə böyük rəğbət qazanıb. Beləliklə, son parlament seçkisində "demokratik seçkilər sabit vətəndaş cəmiyyətinin və hər bir dövlətin mütərəqqi inkişafının əsasını təşkil edir" postulatı tam mənada təsdiqləndi. Seçkilər zamanında ölkənin gələcək inkişafı naminə olduqca fundamental siyasi şərtləri müəyyən etdi.

Beləliklə, ümummilli lider Heydər Əliyevin tərəfindən əsası qoyulmuş, bu gün isə Prezident İlham Əliyevin

uğurla həyata keçirdiyi siyasi və hüquqi islahatların mahiyyəti belə bir reallığı ifadə edir ki, vətəndaş cəmiyyətinin yaradılması və möhkəmləndirilməsi, demokratikləşmə prosesinin genişləndirilməsi, hüquqi dövlət quruculuğu dövlətimizin hərtərəfli inkişafı üçün əsas şərtlərdir.

# V FƏSİL

# XARİCİ SİYASƏTDƏ ARDICILLIQ VƏ MÜASİR DƏYƏRLƏR

*Azərbaycanın bu gün həyata keçirdyiyi xarici siyasət dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün, milli təhlükəsizliyinin qorunması, beynəlxalq aləmə çoxşaxəli inteqrasiyanın təmin olunması, iqtisadi və geostrateji maraqların ödənməsi, vətəndaşların firavan yaşayışının təmin olunmasını qarşıya əsas vəzifə kimi qoymuşdur.*

**İlham Əliyev**

## MİLLİ MARAQLARA XİDMƏT EDƏN SİYASƏT

Dövlət istiqlaliyyətini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycanın dövlətçiliyini müntəzəm şəkildə möhkəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəldilmişdir. Azərbaycan öz xarici siyasətini beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur.

Bu prinsipləri rəhbər tutaraq və milli mənafelərdən çıxış edərək, Azərbaycanın xarici siyasəti respublikanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və milli təhlükəsizliyinə təhdidlərin və risklərin, ilk növbədə,

ona qarşı Ermənistan Respublikası tərəfindən edilmiş təcavüzün aradan qaldırılması kimi həyat əhəmiyyətli başlıca məqsəd güdülür. Regional səviyyədə bölgədə əmin-amanlıq və sabitliyin bərqərar edilməsi, nəhəng nəqliyyat və əməkdaşlıq layihələrinin gerçəkləşdirilməsi kimi strateji məqsədlərə nail olmaq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Qloballaşan müasir dünyada Azərbaycan xalqının maraqlarının daha səmərəli müdafiəsi naminə ölkə iqtisadiyyatının inkişafı üçün müxtəlif layihələrə xarici sərmayələrin cəlb edilməsi də Azərbaycanın xarici siyasəti üçün müstəsna əhəmiyyətlidir. Demokratik inkişaf yolunu seçmiş Azərbaycanın xarici siyasəti qonşusu olan və olmayan dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı faydalı münasibətlərin qurulub-inkişaf etdirilməsinə yönəlmişdir.

Azərbaycan regional və qlobal səviyyədə fəaliyyəti, o cümlədən, beynəlxalq arenada əməkdaşlığı genişləndirib və dərinləşdirərək müstəqil dövlət kimi aparıcı beynəlxalq təşkilatlara - Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, İslam Konfransı Təşkilatına, Müstəqil Dövlətlər Birliyinə üzv olmuşdur. Azərbaycan Respublikası, həmçinin, GUAM regional qrupunun təsisçilərindən biridir. Azərbaycan dövlətinin Avropa məkanında atdığı digər addımlar onun həyata keçirdiyi xarici siyasət sisteminin tərkib hissəsidir. Dünyanın müasir inkişaf səviyyəsi köhnə nüfuz dairələri modeli əsasında deyil, tərəfdaşlıq və əməkdaşlığa söykənən Av-

ropa təhlükəsizlik və ümumi rifah strukturunun yaradılması ilə yanaşı, yeni tipli təhdidlərin yaranmasına da səbəb olur. Ona görə də, Azərbaycan yaranmış obyektiv vəziyyəti nəzərə alaraq, NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də, antiterror koalisiyası tərkibində fəaliyyətə xüsusi diqqət yetirir.

Beynəlxalq təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə Azərbaycan Respublikası öz milli maraqlarını müdafiə edib gerçəkləşdirir. Azərbaycan Respublikasının ölçülüb-biçilmiş və milli maraq və mənafelərin qorunmasına xidmət edən xarici siyasət kursunun işlənib hazırlanması və gerçəkləşdirməsi, bütövlükdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun güclü dövlətçilik duyğusu, uzaqgörənliyi, dərin məntiqi və məsələlərin mahiyyətini düzgün dərketmə qabiliyyəti beynəlxalq əlaqələrin qurulması işinə düzgün yanaşma yolunu müəyyən etməyə imkan yaradırdı. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən Azərbaycanın xarici siyasəti dünya dövlətlərilə xoşməramlı və qarşılıqlı faydalı münasibətlərin hərtərəfli inkişafı kursuna öz sadiqliyini nümayiş etdirir.

Digər sahələrdə olduğu kimi, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət xətti Prezident İlham Əliyev tərəfindən yaradıcı şəkildə davam etdirilir. Xarici siyasətdə varislik prinsipinin qorunub saxlanması çox mühüm əhəmiyyət daşıyır. Azərbaycanı Heydər Əliyev yolu ilə irəliyə aparan Prezident İlham Əliyev ötən illər ərzində bütün sahələrdə olduğu kimi, xarici siyasətdə də ciddi və əhəmiyyətli uğurlara nail ol-

muşdur. Azərbaycan diplomatiyasının yeni şəraitdə qarşısında dayanan vəzifələr İlham Əliyev tərəfindən dəqiq şəkildə müəyyən edilərək reallaşdırılmaqdadır. Xarici siyasətdə Azərbaycanın söykəndiyi balans siyasəti ölkəmizlə dünyanın aparıcı dövlətləri arasında sıx əməkdaşlıq qurulmasını təmin etmiş, beynəlxalq təşkilatlarda mövqelərimizi möhkəmləndirmişdir.

Azərbaycanın xarici siyasəti onun dövlətçilik ənənələri zəminində təşəkkül tapıb formalaşmış siyasətdir. O, ötən əsrin 90-cı illərinin əvvəllərində mövcud olan xaotik və ovqata köklənmiş formalarından çıxaraq məhz ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mükəmməl və təkmil konsepsiya şəklində formalaşmışdır. Azərbaycan xarici siyasətinin son dövr mənzərəsini onun məhsuldar mərhələsi kimi səciyyələndirmək olar və bu mərhələ öz başlanğıcını İlham Əliyevin ölkənin Baş naziri təyin edildiyi vaxtdan götürüb. Baş nazir kimi Türkiyə və ABŞ-a işgüzar səfərləri İlham Əliyevin bu ölkələrin Azərbaycan üçün hansı önəm kəsb etdiyini, əməkdaşlıq və tərəfdaşlıq məsələlərində hansı prioritet istiqamətlərin önə çəkildiyini ortaya qoymaqla yanaşı, ən müxtəlif coğrafi vektorlar üzərində yerləşən ölkələrlə siyasi-iqtisadi və diplomatik münasibətlərin daha taleyüklü və müstəsna əhəmiyyət daşıdığını nümayiş etdirdi. 2003-cü ilin sentyabrında BMT Baş Məclisinin 58-ci sessiyasındakı çıxışı İlham Əliyevin Azərbaycanın ümummilli problemlərinin həlli naminə ardıcıl, sistemli və prinsipial fəaliyyət göstərdiyini təsdiqlədi. Baş nazir kimi müxtəlif ölkələrin Bakıdakı səfirlərini, habelə çoxsaylı diplomatik missiyaların rəhbərlə-

rini qəbul edən İlham Əliyev, Azərbaycanın həmin ölkələrlə bərabərhüquqlu, qarşılıqlı, faydalı əməkdaşlığa söykənən münasibətlər qurmaq əzmini açıqlamaqla yanaşı, Dağlıq Qarabağ problemi və onun həlli yolları barədə də öz mövqeyini ortaya qoydu. İlham Əliyev Baş nazir kimi doqquz dəfə xarici ölkə jurnalistlərinə müsahibələr vermiş, mətbuat konfranslarında çıxış etmişdir.

İlham Əliyevin xarici siyasətdə uğurlarını şərtləndirən amillər Onun peşəkar siyasətçi, mahir diplomat, intellektual və hərtərəfli biliyə malik olmasıdır.

İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycanın bərabər mənafelərə söykənən və beynəlxalq əməkdaşlığı özündə əks etdirən milli maraqları tam təmin olunmuşdur. İlham Əliyev xüsusi geosiyasi əhəmiyyətli addımların atılmasında balans anlayışına ciddi əhəmiyyət verir. Peşəkar diplomat olan Azərbaycan Prezidentinin bu məharətini həm də Heydər Əliyevin siyasət - diplomatiya məktəbindən əxz etməsi şübhəsizdir. Olduqca mürəkkəb geosiyasi nöqtədə, dünyanın güc mərkəzlərinin maraqlarının toqquşduğu bölgədə yerləşən Azərbaycan xarici siyasət apararkən, çoxqütblülük prinsipini nəzərə alaraq, ölkələrlə yüksək səviyyəli münasibətlər qurmağa nail olmuşdur.

Azərbaycanın xarici siyasət prioritetləri - Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsi, regionda sülh və sabitliyin təmin olunması, bölgədə xarici ölkələrin hərbi bazalarının yerləşdirilməsinin qarşısının alınması, qlobal enerji-kommunikasiya layihələrinin həyata keçirilməsi zamanı Azərbaycanın milli maraqlarının qorunması kimi

önəmli və ciddi məqsədlərdən ibarətdir. Ölkə Prezidenti dəfələrlə dünya siyasi müstəvisində tutduğu yerdən, mövqedən asılı olmayaraq, Azərbaycanın müstəqil dövlətçilik idealına hörmətlə yanaşan, ölkəmizin inkişafına, mövcud problemlərimizin həllinə hər hansı formada fayda verə biləcək bütün əməkdaşlıq təşəbbüslərində iştiraka hazır olduğunu bəyan etmişdir. Həm də bu təşəbbüslərdə iştirak o qədər yüksək diplomatik məharətlə həyata keçirilir ki, proses hansısa dövlətin maraqlarına qarşı yönəlmir. Əksinə, Azərbaycan getdikcə bütün geostrateji maraqların balanslaşdığı, geopolitik çəkişmələrin diskussiya məcrasına yönəldiyi dialoq, əməkdaşlıq məkanına çevrilir.

Azərbaycan beynəlxalq birliyin tamhüquqlu subyektinə çevrilmək, eyni zamanda, hərbi-siyasi təhlükəsizliyinə təminatı gücləndirmək üçün bu baxımdan aparıcı beynəlxalq təşkilat olan NATO ilə əməkdaşlığa da mühüm önəm verir. Azərbaycan-NATO münasibətləri qarşılıqlı maraqlar əsasında, uğurla inkişaf etdirilir. O, Azərbaycan alyansla münasibətlərini regionun geosiyasi özəlliklərini nəzərə almaqla inkişaf etdirmək niyyətini gizlətmir və bu yöndə əməli addımlar atır. "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlıq ölkəmizə NATO hərbi strukturları ilə birgə təlimlər keçirmək, hərbi kadr hazırlığı sahəsində blokun təcrübəsindən bəhrələnmək və digər imkanları yaradır. Bu əməkdaşlıq strateji məzmun kəsb etməklə regionun mühüm enerji layihələrinin təhlükəsiz olaraq gerçəkləşdirilməsinə də əsas verir.

Ölkəmiz NATO-ya yeni daxil olmuş dövlətlərin modern ordu quruculuğu sahəsindəki addımlarını yaxın-

dan izləyir, bundan praktiki surətdə bəhrələnir. NATO standartlarına cavab verən peşəkar ordu quruculuğunu sistemli və ardıcıl şəkildə həyata keçirən respublikamız alyansın müxtəlif proqramlarında da yaxından iştirak edir. Azərbaycan ordusunun əsgər və zabit heyətinin NATO sülhməramlılarının tərkibində Kosovoda, Əfqanıstanda və İraqda keçirilən əməliyyatlarda iştirak hüququ qazanması faktını da xüsusi vurğulamaq lazımdır. Bu, o deməkdir ki, təşkilat münaqişə ocaqlarının söndürülməsində, mübahisələrin həllində, bir sözlə, qlobal planda sülh və sabitliyin təminatında Azərbaycanın potensialını yüksək qiymətləndirir.

Azərbaycanın NATO ilə əməkdaşlıq münasibətləri qlobal planda sülh və sabitliyə xidmət etməklə regionun nəhəng enerji layihələrinin təhlükəsiz gerçəkləşdirilməsinə əsaslı təminat verir. Xəzərin enerji resurslarının dinc şəraitdə mənimsənilməsi, habelə Bakı - Tbilisi - Ceyhan neft kəmərinin təhlükəsizliyinin təminatı baxımından Azərbaycan - NATO əməkdaşlığı mühüm əhəmiyyətə malikdir. Bakıda ardıcıl olaraq NATO tədbirlərinin keçirilməsi bu təşkilatda Azərbaycanla əməkdaşlığa olan yüksək marağın ifadəsidir. Azərbaycan regiondakı proseslərdə lider rolunu oynamaqla, təşkilatın ən etibarlı, sadiq müttəfiqinə çevrilib.

Ümumiyyətlə, dünyanın nüfuzlu beynəlxalq təşkilatlarında fəal təmsilçilik açıq və demokratik cəmiyyət quruculuğu yolu ilə sürətlə addımlayan müstəqil Azərbaycan dövlətinin xarici siyasət strategiyasında, bu gün də aparıcı istiqamətlərdən biri kimi diqqəti cəlb edir. Ölkəmizin BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz

İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətləri də yüksələn xətt üzrə inkişaf edir. Azərbaycan, həmçinin, MDB, GUAM kimi əməkdaşlıq formatlarında böyük fəallıq nümayiş etdirməklə malik olduğu imkanlarla öz üstün mövqeyini ildən-ilə artırır və əsas söz sahiblərindən birinə çevrilir. Bu təşkilatlarla siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və digər sahələri əhatə edən əməkdaşlıq əlaqələri çoxşaxəli xarakter daşımaqla Azərbaycanın dövlət maraqlarının daha dolğun şəkildə ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə yönəlmişdir.

Xarici siyasət strategiyası dövlətlərin gücü, qüdrəti, resursları, dünya siyasətindəki rolu və yerindən asılı olaraq müxtəlif məqsəd və vəzifələr üzərində qurulur. Hər bir dövlət özünəməxsus prinsip və xüsusiyyətlərlə fərqlənən müxtəlif istiqamətli daxili və xarici siyasət yeridir. Dövlətçiliyin, müstəqilliyin, ərazi bütövlüyünün, milli təhlükəsizliyin qorunması, beynəlxalq aləmə çoxşaxəli inteqrasiyanın təmin olunması, enerji asılılığının azaldılması, iqtisadi və geostrateji maraqların ödənməsi, vətəndaşların firavan yaşayışının təmin olunması xarici siyasətdə mühüm istiqamətlər kimi nəzərdən keçirilir.

Xarici siyasət və diplomatiya, eyni zamanda, hər bir dövlətin beynəlxalq arenada nüfuz və mövqelərinin möhkəmlənməsinə, ümummilli problemlərinin həllinə yönəlir. Müstəqil Azərbaycan Respublikası da son 14 ildə xarici siyasətini məhz bu vacib meyarlar əsasında müəyyənləşdirərək qarşıya qoyduğu məqsədlərə doğru

inamla irəliləmiş, tarazlı xarici siyasət yeritməklə müxtəlif maraqların toqquşduğu Cənubi Qafqaz regionunun rəqabət və qarşıdurma meydanına çevrilməsinə yol verməmiş, milli mənafelərini yetərincə qoruya bilmişdir. Respublikamızın xarici siyasət fəaliyyətinin formalaşması prosesi Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi ilə paralel getdiyindən meydana çıxan problemlər rəsmi Bakının xarici siyasətinə də müəyyən təsirini göstərmişdir.

Rəsmi Bakı bütün beynəlxalq və regional məsələlərə münasibətdə beynəlxalq norma və prinsiplərə əsaslanmış, ayrı-ayrı dövlətlərlə sivil, bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əlaqələrə üstünlük vermiş, "ikili standartlara" qarşı çıxmışdır. Yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yeridən müstəqil Azərbaycan, Cənubi Qafqazın aparıcı və lider dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi dövlətçilik fəlsəfəsi respublikamızın müasir dünyada xüsusi yerini müəyyənləşdirməklə, milli dövlətçiliyimizin bünövrəsini təşkil etmiş, beynəlxalq əlaqələrində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Ulu öndərin rəhbərliyi altında Azərbaycanın xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri ümummilli mənafelərə əsaslanan xətlə inkişaf etmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar

atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətlidir.

Ulu öndərimiz Heydər Əliyevin balanslaşdırılmış xarici siyasət doktrinasını uğurla davam etdirən Prezident İlham Əliyev, dünya siyasətinə əsaslı təsir imkanları olan dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək istiqamətində böyük səy və əzmkarlıq göstərir. Dövlət başçısı dünyada gedən mürəkkəb, ziddiyyətli proseslər fonunda respublikanın müstəqilliyini və milli təhlükəsizliyini daha da möhkəmləndirməyə nail olmuşdur. Azərbaycan dövlətinin xarici siyasətinin gücləndirilməsi, fəal və çevik diplomatiyanın həyata keçirilməsi, xaricdə yaşayan azərbaycanlıların mütəşəkkil qüvvə kimi formalaşdırılması, diaspor və lobbi quruculuğu Prezident İlham Əliyevin xüsusi diqqət yetirdiyi məsələlərdəndir. İlham Əliyev dünya azərbaycanlılarının 2005-ci ilin martında Bakıda keçirilmiş II qurultayında milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd etmiş, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mübarizə aparması ilə bağlı dəyərli tövsiyələrini vermişdir. Eyni zamanda, xüsusi vurğulamışdır ki, xarici ölkələrdə güclü diaspor və lobbi formalaşdırmadan xarici siyasətdə qarşıya qoyulmuş strateji hədəflərə çatmaq, milli maraq və məna-

feləri beynəlxalq səviyyədə müdafiə etmək qeyri-mümkündür.

Azərbaycan Prezidentinin xarici siyasət kursu müstəqil dövlətimizin milli mənafelərinə hörmətlə yanaşan bütün beynəlxalq təşkilatlar və xarici dövlətlərlə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi müstəvisi üzərində qurulmuşdur. Avropa ailəsinə inteqrasiya edən Azərbaycanda cəmiyyət bütün liberal dəyərləri mənimsəmiş, insan hüquq və azadlıqları, bütün demokratik prinsiplər və normalar tam bərqərar edilmişdir. Ötən illərdə Avrora Şurası qarşısında götürülən öhdəliklər yerinə yetirilmiş, ölkəmiz Avrora Birliyinin "Yeni Qonşuluq Siyasəti" proqramına qoşulmuş və bunun çərçivəsində fərdi tərəfdaşlıq layihəsi artıq təsdiqlənmişdir.

## YENİ MƏRHƏLƏ VƏ MÜASİR DƏYƏRLƏR

Prezident İlham Əliyevin diplomatlarla görüşdəki proqram xarakterli, dərin məzmunlu çıxışları, məhz xarici siyasət sahəsində perspektiv fəaliyyət prioritetlərinin müəyyənləşdirilməsi baxımından ciddi əhəmiyyət kəsb edir. Dövlət başçısı yüksək dinamizmlə inkişaf edən Azərbaycanın beynəlxalq arenadakı nüfuz və mövqelərinin daha da gücləndirilməsini, respublikamız haqqında tam obyektiv, dolğun informasiyaların dünya ictimaiyyətinə çatdırılmasını səfirliklərimiz qarşısında vacib məsələ kimi qoymuşdur.

Respublikamızın sosial-iqtisadi sahədə qazandığı nailiyyətlərin dünya miqyasında təbliğ olunması beynəlxalq əməkdaşlıq əlaqələrinin gücləndirilməsi baxı-

mından da olduqca vacibdir. Azərbaycanın zəngin təbii resurslara, habelə Şərqlə Qərbi qovuşduran əlverişli tranzit imkanlarına malik olması, qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi iştirak etməsi, eləcə də, balanslaşdırılmış xarici siyasət yürütməsi Onun dünyanın siyasi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə əlaqələrinin genişlənməsinə yeni və geniş imkanlar açır. Qlobal iqtisadi layihələrin uğurla həyata keçirilməsi həm də siyasi aspektdən Azərbaycan üçün son dərəcə faydalıdır.

Dövlət rəhbəri ölkəmizin inkişafına, milli təhlükəsizliyinə, demokratik tərəqqisinə xidmət edən balanslaşdırılmış xarici siyasət strategiyasına sadiqdir. Azərbaycan xarici dövlətlərlə ikitərəfli münasibətlərin inkişafı üçün bütün imkanlardan faydalanır, çoxqütblü dünya prinsipini əldə rəhbər tutaraq Azərbaycanla münasibətlərin inkişafına maraq göstərən bütün xarici dövlətlər və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edir. Azərbaycan Qərbin mövqeyini təmsil edən ölkələr və təşkilatlarla da, İslam dünyası ilə də, işğalçı Ermənistan dövlətini çıxmaq şərtilə postsovet ölkələri ilə də bərabər səviyyəli əməkdaşlıq əlaqələrinə malikdir. Bütün bunlar Azərbaycan xalqının ümummilli maraqlarına cavab verməklə yanaşı, dünya üçün də çox önəmlidir.

İlham Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu, Azərbaycanın timsalında bütün siyasi iddiaların, geostrateji maraqların, fərqli sivilizasiyaların mübahisə müstəvisindən normal dialoq, diskussiya məcrasına yönəldiyi təhlükəsiz, sabit bir məkan formalaşdırır. Azərbaycanın cəmiyyətimizdə mövcud

olan dini, milli tolerantlıq mühitinə görə bütün dünya üçün örnək sayılması da BMT, ATƏT kimi nüfuzlu beynəlxalq qurumların etirafıdır. Bütün bunlar ən ağrılı problemimiz olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində də Azərbaycanın imkanlarını genişləndirir.

Beləliklə, Azərbaycanın beynəlxalq aləmdə yeri və rolunun getdikcə möhkəmlənməsi uğurla həyata keçirilən xarici siyasət kursunun məntiqi nəticəsidir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, xalqımızın və ölkəmizin milli mənafeyinə hesablanan siyasi kurs Azərbaycanın dünyada müstəqil siyasət yürüdən dövlət kimi tanınmasına gətirib çıxarmışdır.

Xarici siyasət kursunun prioritet istiqamətlərindən biri də, məhz ölkəmizin inkişaf etmiş dövlətlərlə səmərəli əməkdaşlığının təmin edilməsinə yönəldilməsidir. Ən başlıcası isə, odur ki, Azərbaycanın xarici siyasət sahəsində mühüm uğurlar əldə etməsi, beynəlxalq əməkdaşlıq paytaxtına çevrilməsi respublikamızın balanslaşdırılmış xarici siyasət kursunun son beş ildə inamla davam etdirilməsi və bu sahədə varislik ənənələrinin qorunması ilə şərtlənir. Prezident İlham Əliyevin xarici siyasətdə ulu öndərimiz tərəfindən müəyyənləşdirilmiş vahid strategiya və dəyişməz prioritetlərə sadiqlik nümayiş etdirməsi, dünya dövlətlərinin Azərbaycana inamını, etimadını gücləndirən ən başlıca amildir.

Xarici siyasətdə qarşıda duran hədəflərin dəqiq şəkildə müəyyənləşdirilməsi, bu sahədə həyata keçirilən diplomatiyanın daha çevik və işlək mexanizmlərə əsaslanması, yeni səfirliklərin açılması yolu ilə Xarici İşlər

Nazirliyinin fəaliyyətinin gücləndirilməsi Prezident İlham Əliyevin xüsusi olaraq diqqət mərkəzindədir. Bu gün Azərbaycanın 160-a yaxın dövlətlə diplomatik münasibətləri, 46 ölkədə səfirliyi, beynəlxalq təşkilarlar yanında 4 nümayəndəliyi, 5 baş konsulluğu, 1 konsulluğu, 2 fəxri konsulluğu fəaliyyət göstərir. Xüsusi vurğulamaq lazımdır ki, xarici ölkələrdə təsis edilmiş 46 səfirlikdən 21-i dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə açılmışdır. Dövlət başçısı bununla kifayətlənmir və Azərbaycanın imkanları artdıqca, yeni səfirliklərin açılacağını bildirir: **«...Bizim artıq 46 ölkədə səfirliyimiz təsis edilibdir. Bəzi ölkələrdə hələ səfirlik yaranmayıb, onlarda da yaranacaqdır. Son iki il ərzində 21 ölkədə səfirlik təsis olunubdur. Biz bunu nə üçün edirik? Baxmayaraq ki, çox böyük maliyyə vəsaiti tələb edir, ona görə edirik ki, Azərbaycanı tanısınlar, Azərbaycan müxtəlif ölkələrdə öz mövqelərini möhkəmləndirə bilsin. Bizim imkanlarımız artsın və dünyada gedən proseslərdə Azərbaycanın rolu artsın. Bu istiqamətdə hələ böyük işlər görmək lazımdır».**

Prezident İlham Əliyevin fəaliyyətinin təhlili göstərir ki, konturları hələ Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla həyata keçirilmiş, zəruri hallarda dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir. Prezidentin bugünkü fəaliyyəti deməyə əsas verir ki, O, Heydər Əliyev ideyalarının, sadəcə, davamçısı yox, eyni zamanda, bu ideyaları XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun olaraq təkmilləşdirən, inkişaf etdirən qüdrətli şəxsiyyət, alternativsiz liderdir.






Assemblée
Parlementaire
de l' OTAN
26-30 Mai 2006






ORGANIZATION FOR DEMOCRACY
G U A M
AND ECONOMIC DEVELOPMENT
SUMMIT
BAKU





















İlham Əliyev prezident kimi xarici dövlətlərlə ikitərəfli münasibətlərin qurulmasında mühüm amil olan rəsmi səfərlərə böyük üstünlük verməkdədir. Belə ki, ötən dörd il ərzində işgüzar səfərlər istisna olmaqla Prezident İlham Əliyev 30-dan çox xarici dövlətə rəsmi səfər etmişdir. Bü səfərlərin ən önəmli xüsusiyyəti ondan ibarətdir ki, O, bütün ölkələrə və dövlətlərə eyni dərəcədə əhəmiyyət verir. Bu baxımdan istər ABŞ və Qərb dövlətlərinə, istər ərəb ölkələrinə, istərsə də Mərkəzi Asiya respublikalarına, Çin, Yaponiya, Cənubi Koreya, Baltikyanı Respublikalar, Rusiya, Türkiyə, Şərqi Avropa ölkələrinə etdiyi səfərlər ölkələrimiz arasında qarşılıqlı münasibətlərin - iqtisadi və diplomatik əlaqələrin yaradılması və inkişaf etdirilməsi, qarşılıqlı dövlət maraqlarını təmin edən bir sıra saziş və müqavilələrin imzalanması, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsində dövlətimizin haqq işinin dünyaya çatdırılması, ölkə iqtisadiyyatına yeni investisiyaların cəlb edilməsi baxımından çox əhəmiyyətlidir.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın beynəlxalq nüfuzu güclənmiş, müstəqil dövlətimiz yeni dünya düzənində özünə layiqli yer tutmuşdur. Ölkəmizin bu gün qlobal enerji-kommunikasiya layihələrinin əsas iştirakçısı kimi Qafqaz və ümumilikdə, Avropada əsas söz sahiblərindən birinə çevrilməsi də danılmaz həqiqətdir.

Dövlət başçısı yüksək siyasi qətiyyət nümayiş etdirərək Azərbaycan üçün taleyüklü məsələlərin yoluna qoyulmasına nail olmuşdur. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı - Tbilisi - Ceyhan əsas

ixrac neft boru kəməri artıq istifadəyə verilmiş, Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin çəkilişi uğurla başa çatmış, vaxtilə bir çoxlarına əfsanə kimi görünən bu layihələr reallığa çevrilərək Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına daşınmasını təmin etmişdir. Azərbaycanın bu gün Avropanın enerji təhlükəsizliyi sisteminin əsas təminatçısı qismində çıxış etməsi danılmaz faktdır. Enerji təhlükəsizliyi məsələsinin müstəqil dövlətlər üçün nə dərəcədə böyük problem olmasını qonşu dövlətlərin nümunəsində dəfələrlə müşahidə etmişik. Bu problem bir çox hallarda ölkələrin müstəqilliyini təhdid edən, müstəqil dövlətlərin demokratik inkişafına maneələr yaradan çox ciddi əngələ çevrilir. Azərbaycan isə nəinki belə problemlərdən uzaqdır, üstəlik, respublikamız Avropa regionunun enerji təhlükəsizliyinin təminatında əsas söz sahiblərindən biri kimi çıxış edir. Bu fakt Azərbaycanın dünya üçün önəmini daha da artırır, ölkəmizin Avratlantik strukturlara inteqrasiya prosesini sürətləndirir.

Azərbaycan malik olduğu enerji resursları ilə artıq Avropa regionunun enerji təhlükəsizliyinin ən başlıca təminatçısına çevrilmişdir. Sirr deyil ki, enerji təhlükəsizliyi məsələsi hazırda bütün dünya üçün ən aktual məsələlərdən biri və bəlkə də birincisidir. Uğurla reallaşan qlobal enerji layihələri dünya üçün ölkəmizin önəmini daha da artırır. Bu, amil həm də müstəqil dövlətimizin təhlükəsizliyi, regionun aparıcı dövləti kimi önə çıxmasında həlledici rol oynayır.

Ölkəmizin daha böyük tərəqqisinə əsaslı zəmin yaradan Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru və Bakı - Tbilisi - Ərzurum qaz kəmərlərinin reallaşması ulu

öndər Heydər Əliyevin strateji inkişaf kursunu uğurla həyata keçirən İlham Əliyevin öz xalqına, millətinə dəyərli töhfələridir. BTC neft kəmərinin istifadəyə verilməsi faktı Azərbaycanı ümumilikdə Avropa regionunun enerji təhlükəsizliyinin başlıca təminatçısına çevirmişdir. Bu misilsiz nailiyyət Azərbaycanın uzunmüddətli iqtisadi strategiyasını müəyyənləşdirməklə bərabər beynəlxalq aləmdə ölkəmizin mövqelərini daha da artırır, Avratlantik strukturlara inteqrasiyası prosesini sürətləndirir, ölkəmizin yaxın gələcəkdə Avropa İttifaqına tamhüquqlu üzv qəbul edilməsi üçün malik olduğu imkanların sırasını genişləndirir. Bu baxımdan Avropa İttifaqı rəsmilərinin Avropa regionunun enerji təhlükəsizliyi ilə bağlı Azərbaycanla apardıqları danışıqlar, ölkəmizin Avropada qonşuluq siyasəti proqramında aktiv iştirakı uğurlu başlanğıc kimi diqqəti cəlb edir.

Müasir qloballaşma dövründə bu və ya digər dövlətin neft və qaz kəmərləri sisteminə malik olması enerji təhlükəsizliyində vacib amil kimi çıxış edir. Bu baxımdan əsas məsələ təkcə boru kəmərinin çoxvariantlılığı deyil, həm də bu kəmərlərin hansı ölkələrin ərazisindən keçməsidir.

Təsadüfi deyil ki, "Əsrin müqaviləsi" imzalandıqdan sonra hasil olunacaq milyonlarla ton xam nefti Qərb bazarlarına daşıyacaq boru kəmərlərinin marşrutu mübahisəli məsələlərdən olmuşdur. İlk gündən bununla əlaqədar müxtəlif təklif və ideyalar irəli sürülür, hətta bəzi region dövlətlərinin Azərbaycana təzyiq cəhdləri də özünü açıq şəkildə göstərirdi. Çünki Xəzərin zəngin karbohidrogen ehtiyatlarının Qərb bazarlarına

nəqli məsələsi təkcə Azərbaycanın deyil, eyni zamanda, Rusiyanın təsir dairəsindən çıxa bilməyən bəzi MDB dövlətlərinin enerji təhlükəsizliyi baxımından da strateji əhəmiyyət kəsb edirdi. Rəsmi Bakı bu məsələdə yalnız iqtisadi səmərəlilik amilini deyil, həm də fövqəlgüc dövlətlərin mənafelərini əsas götürməklə balanslaşdırılmış xarici siyasət kursuna sadiqlik nümayiş etdirməli idi. Ulu öndərimiz Heydər Əliyevin qətiyyətli mövqeyi, eləcə də, həmin illərdə ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyevin danışıqlar prosesində nümayiş etdirdiyi yüksək diplomatik məharəti nəticəsində, Azərbaycan neftinin nəqli marşrutları haqqında optimal qərarlar qəbul edildi.

1996-cı ilin yanvar ayında "Azərbaycan neftinin Bakı - Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında" Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalandı, 1997-ci il oktyabrın 12-də isə həmin xətt istifadəyə verildi. Geosiyasi amillərlə bağlı ixrac boru kəmərlərinin çoxvariantlılığının zəruriliyi alternativ layihələr üzərində də gərgin iş aparılmasını tələb edirdi. 1997-ci ildə neftin Qara dənizə çıxarılması üçün onun Bakı - Tbilisi - Supsa marşrutu ilə nəqli haqqında Azərbaycanla Gürcüstan hökumətləri arasında saziş imzalandı. 1999-cu ilin 17 aprelində isə müstəqil Azərbaycanın tarixində daha bir əlamətdar hadisə yaşandı. Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 km, illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı - Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Beləliklə,

Azərbaycan Qərbə alternativ çıxış imkanı qazanaraq "təkvektorlu" boru kəməri asılılığından çıxdı.

Əsas ixrac neft boru kəmərinin hansı ölkələrin ərazisindən keçəcəyi isə təkcə Azərbaycan üçün deyil, ümumilikdə, regionda iqtisadi maraqları olan Qərb dövlətləri üçün də strateji məsələlər sırasında idi. Mümkün marşrutlar içərisində hansının siyasi, kommersiya, iqtisadi, ekoloji və təhlükəsizlik baxımından daha əlverişli olması uzun müddət dünya siyasətinin aparıcı mövzusuna çevrildi. Məsələnin aktuallığı həm də Bakı - Novorossiysk və Bakı - Tbilisi - Supsa neft kəmərlərinin Azərbaycanın getdikcə artan ehtiyaclarını ödəyə bilməməsi, xüsusən də, birincinin geosiyasi baxımdan əlverişli olmaması, rəsmi Bakıya təzyiq alətinə çevrilməsi ilə şərtlənirdi.

Region dövlətlərinin əksəriyyəti əsas ixrac boru kəmərinin məhz öz ərazisindən keçməsinə çalışırdı. Çünki bu, regional kommunikasiya vasitəsi üzərində nəzarətlə yanaşı, həm də külli miqdarda tranzit gəliri və bütövlükdə Avropa və dünya siyasətinə nüfuz etmək baxımından alternativsiz təzyiq imkanının qazanılması demək idi. Belə bir prinsipial məsələdə səhvə yol verməyin ölkənin milli maraqları baxımından yolverilməzliyini yaxşı bilən ümummilli liderimiz, son nəticədə əsas ixrac neft boru kəmərinin ən optimal variantı üzərində dayandı. Heydər Əliyev regionun geosiyasi mənzərəsini və mövcud siyasi münasibətlər sistemini nəzərə alaraq əsas ixrac boru kəmərinin Azərbaycan - Gürcüstan - Türkiyə marşrutu ilə çəkilməsi vacibliyini önə çəkdi.

Ümummilli liderimizin bu məsələ ilə bağlı seçimi son dərəcə düzgün idi və obyektiv gerçəkliyin tələbi kimi meydana çıxmışdı. İqtisadi cəhətdən nisbətən baha başa gəlsə də, Bakı - Tbilisi - Ceyhan (BTC) neft kəmərinin üzərində təkidlə israr edən Heydər Əliyev, onun strateji və siyasi baxımdan ən düzgün qərar olduğunu sübuta yetirdi. 2006-cı il iyulun 13-də istismara verilmiş Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri layihənin bilavasitə iştirakçısı olan ölkələrin iqtisadi maraq və mənafelərinin təminatı ilə yanaşı, həm də, həmin dövlətlərin uzun zamandan bəri aktual məsələ kimi gündəmdə saxlandığı enerji təhlükəsizliyi probleminin həlli baxımından geniş imkanlar əldə etməsi deməkdir.

Əsas enerji mənbələrinə nəzarət uğrunda rəqabətin kəskinləşməsi BTC-nin gerçəkləşməsinə və səmərəli əməkdaşlıq mexanizminə çevrilməsinə olan marağın gerçək miqyası barədə kifayət qədər aydın təsəvvür yaradır. Qərb dövlətlərinin neftə olan tələbatının ödənməsində əsas ağırlığı üzərinə götürən bu nəhəng mühəndis qurğusu, ümumilikdə, Avropa dövlətlərinin enerji təhlükəsizliyi baxımından fundamental mahiyyət daşıyır. BTC ABŞ və Qərb dövlətləri, onlarla müttəfiq münasibətlərində olan dövlətlərin birgə əməkdaşlıq layihəsi olmaqla yanaşı, həm də subregional enerji təhlükəsizliyi modelinə çevrilməkdədir.

Layihəyə ilk gündən dəstək verən ABŞ hökuməti onun iqtisadi və siyasi əhəmiyyətinin daha da artmasına təsir göstərən bütün təşəbbüsləri dəstəkləyir. Zəngin neft ehtiyatlarına malik Qazaxıstanın BTC-yə qoşulması məsələsinin rəsmi Vaşinqton tərəfindən təqdir olunması da bunun bir daha təsdiqidir. Rəsmi Astananın Rusiyanın

maraq dairəsində olan Xəzər Boru Kəməri Konsorsiumuna (XBKK) deyil, BTC-yə qoşulmağa üstünlük verməsi, sadəcə, iqtisadi sərfəlilik meyarına söykənmir. Qazaxıstanın BTC-yə qoşulmaq qərarı kəmərin iqtisadi-siyasi əhəmiyyətini artırmaqla yanaşı, həm də ABŞ-ın Cənubi Qafqaz və Orta Asiya regionu ilə bağlı maraqlarına tamamilə uyğundur.

Perspektivdə Xəzər dənizinin dibi ilə çəkiləcək daha bir neft kəməri Orta Asiya regionunun Avropaya alternativ çıxışını təmin edəcək. Bu kəmər həm də Azərbaycanın enerji təhlükəsizliyinin daha da gücləndirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. BTC-nin işə düşməsi Qərbə inteqrasiya prosesində eyni mövqedə olan, müxtəlif regional məsələlərdə maraqları uzlaşan GUAM dövlətlərinin enerji təhlükəsizliyi baxımından vacibdir. GUAM-ın ötən il yeni formatlı beynəlxalq quruma çevrilməsi də, əslində, Ukrayna, Gürcüstan və Moldovanın Rusiyanın neft-qaz asılılığından çıxması, bu dövlətin ərazisindən yan keçməklə çoxşaxəli enerji-kommunikasiya sistemi yaratmaq istəyi ilə bağlıdır.

Rusiyanın enerji təhdidlərindən ən çox əziyyət çəkən bu dövlətlər Azərbaycanla əməkdaşlığa həyati əhəmiyyətli məsələ kimi yanaşır. Xatırladaq ki, 2006-cı ilin dekabrında Gürcüstanın Baş nazirinin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı Azərbaycan hökuməti qonşu dövlətə mavi yanacaq satışına razılıq vermiş və bununla əlaqədar ikitərəfli saziş imzalanmışdır. Gürcüstanın dövlət başçısı Mixail Saakaşvili Azərbaycan Prezidenti İlham Əliyevin bu qətiyyətli qərarını alqışlamış və qəhrəmanlıq nümunəsi kimi qiymətləndirmişdir.

Əldə olunmuş razılaşmaya əsasən, 2007-ci il yanvarın 10-dan Azərbaycandan Gürcüstana sutkada 3 milyon kubmetr (hər kubu 120 ABŞ dollarına) təbii qaz verilmişdir.

Göründüyü kimi, Azərbaycanın zəngin təbii resursları istər Ukrayna və Moldovanı, istərsə də Gürcüstanı Rusiyanın enerji asılılığından çıxara bilər. Bu baxımdan Bakı - Tbilisi - Ceyhan və Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin istismara verilməsi Gürcüstan, Ukrayna və Moldova üçün prinsipial əhəmiyyət kəsb edir. Bu respublikalar Azərbaycanın təbii sərvətlərinin Qərb bazarlarına daşınması ilə bağlı tranzit imkanlarının genişləndiyini açıq etiraf edir. Ukrayna hökumətinin strateji məqsədlərindən biri hazırda Xəzər neftinin Qərb bazarlarına daşınması prosesində özünün tranzit-kommunikasiya imkanlarını gerçəkləşdirmək və bu yolla enerji təhlükəsizliyini təmin etməkdir.

Rəsmi Kiyevin 10 ilə yaxın müddətdə üzərində israr etdiyi layihələrdən biri də məhz Xəzər neftinin Odessa - Brodı - Qdansk kəməri ilə nəqlini nəzərdə tutur. İstər texniki imkanların yetərli səviyyədə olmamasına, istərsə də, daşınma qiymətlərinin bahalığına görə indiki mərhələdə tam qənaətbəxş sayılmayan həmin layihənin hansısa mərhələdə aktuallaşacağına ümid bəsləyən rəsmi Kiyev, bu məqsədlə Azərbaycan və Qazaxıstan hökumətlərinin razılığını almağa çalışır. 2004-cü ildə Ukrayna hər iki ölkəyə rəsmən müraciət edərək Bakı - Tbilisi -Supsa kəmərinin davamı kimi Odessa - Brodı - Qdansk layihəsini dəstəkləməyə çağırıb. Xəzərin neft ehtiyatlarının yüksək həcmini nəzərə alan ekspertlər qarşıdakı illərdə Odessa - Brodi layihəsinin aktuallaşa-

cağını istisna etmirlər. Bu kəmər hansısa mərhələdə Azərbaycan neftinin dünya bazarına çıxarılmasında alternativ vasitələrdən birinə çevrilə bilər.

Azərbaycanın və region dövlətlərinin etibarlı enerji təhlükəsizliyinin təminatında boru kəmərləri sistemi ilə yanaşı, nəqliyyat-kommunikasiya şəbəkəsinin də rolu xüsusi vurğulanmalıdır. Dəmir yolu, o cümlədən, magistral avtomobil yolları enerji daşıyıcılarının lazımi ünvanlara maneəsiz çatdırılmasında geniş imkanlara malikdir. Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində Böyük İpək Yolunun bərpası üzrə keçirilən tədbirlər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin inkişafı, onların iqtisadi potensialından daha səmərəli istifadə edilməsi, çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsi, ən başlıcası, enerji təhlükəsizliyinin təminatı üçün əlverişli şərait yaradır. Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyətə malikdir.

Avropa Birliyi Azərbaycanın regiondakı rolunu yüksək qiymətləndirməklə respublikamızla enerji sektorunda əməkdaşlığı genişləndirmək niyyətini açıq bildirir. Dövlət başçısı İlham Əliyevin Brüsselə səfəri zamanı təşkilatın Baş katibi Xavyer Solana rəhbərlik etdiyi Avropa Birliyinin Azərbaycanla ikitərəfli münasibətlərin genişləndirilməsində maraqlı olduğunu xüsusi vurğulamış, "Yeni qonşuluq siyasəti" proqramı çərçivəsində hə-

yata keçiriləcək tədbirlərin bu baxımdan mühüm nəticələr verəcəyinə əminliyini ifadə etmişdir: **"Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyur. Yeni qonşuluq siyasətinə dair tədbirlər planının həyata keçirilməsi gələn həftənin ikinci günündən etibarən başlanacaqdır və bu, təkcə enerji sahəsinə aid deyildir. Burada bir çox digər müddəalar da vardır. Prezident (İlham Əliyev - F.A), həmçinin, vurğuladı ki, siyasi, iqtisadi və digər sahələrdə dəyişikliklərin olması üçün çox iş görülür və bu, faydalıdır. Biz Azərbaycanla ikitərəfli münasibətlərimizi dərinləşdirmək əzmindəyik və bu, təkcə enerji sahəsini əhatə etmir. Baxmayaraq ki, o, vacib sahədir. Azərbaycan yalnız enerji məhsulları ölkəsi deyil, regionun mühüm ölkəsidir".**

Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun imzaladıqları Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun əhəmiyyətini də xüsusi vurğulamaq lazımdır. Bu memorandum, ilk növbədə, Azərbaycanın Avropa məkanının enerji təhlükəsizliyindəki müstəsna rolunu aşkara çıxarır.

Daxili tələbat daxili imkanlar hesabına ödənilir. Azərbaycan Prezidenti İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk gündən, ölkəmizin güclü enerji sektoruna malik dövlətə çevrilməsi üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Dövlət başçısının göstərişi əsasında Mingəçevirdə və Əli Bayramlıdakı istilik - elektrik stansiyalarında fəaliyyət göstərən blokların əsaslı təmir-bərpa işləri yerinə yetirilmiş, Bakıda Bay-

ramzadə adına və "Şimal" istilik - elektrik stansiyaları istismara verilmiş, Sumqayıtda istilik - elektrik stansiyası bərpa olunmuşdur. Hazırda əlavə olaraq Sumqayıtda daha bir elektrik stansiyası tikilir. Astarada, Xaçmazda və Naxçıvanda modul tipli elektrik stansiyaları istismara verilmişdir. Prezident İlham Əliyev çıxışlarında hasil edilən elektrik enerjisinin son hədd olmadığını bildirərək, ölkənin müvafiq strukturların rəhbərlərinin qarşısında enerji təhlükəsizliyi sisteminin daha da yaxşılaşdırılması sahəsində çoxsaylı tədbirlərin görülməsi təklifini irəli sürmüşdür. Azərbaycanın regionda enerji təhlükəsizliyini müstəqil şəkildə təmin edən azsaylı dövlətlərdən biri olduğunu Rusiya qazının qiymətlərinin artırılması zamanı cərəyan edən gərgin proseslər də təsdiqlədi. Rusiyanın Avropa və MDB ölkələrinə ixrac etdiyi təbii qazın qiymətlərini qaldırmaq niyyəti, əksər dövlətlərin etirazı ilə qarşılansa da, Azərbaycan hökuməti ilk gündən bu məsələdə kifayət qədər obyektiv və təmkinli mövqe tutdu. Prezident İlham Əliyev "Exo Moskvı" radiosuna müsahibəsində mavi yanacağın qiymətlərinin artırılmasını Rusiyanın daxili işi kimi qiymətləndirdi və respublikamızın bundan narahatlıq keçirmədiyini bildirdi. Bununla yanaşı, dövlət başçısı "Qazprom" şirkətinin qiymətləri qaldırmaq qərarının Rusiya - Azərbaycan münasibətlərinin hazırkı səviyyəsinə adekvat olmadığını da qeyd etdi. **«Qazın qiyməti birdən-birə 230 dollara, son məqamda isə 235 dollaradək qaldırıldıqda bunun Rusiya - Azərbaycan münasibətlərinə uyğunsuzluğu hiss edilir. Bu isə təəssüf doğurur, çünki bizim münasibətlərimiz çox müsbət, çox konstruktiv**

**tərzdə qurulur və energetika ilə müqayisədə daha geniş sahələri əhatə edir. Rusiyaya borcla bağlı problemi olmayan yeganə ölkə bizik. Biz qabaqcadan ödəmişik, biz borclu deyilik, heç vaxt müqavilələri pozmamışıq. Qiyməti birtərəfli qaydada qaldırmağa və Azərbaycanı müəyyən dərəcədə məcburiyyət qarşısında qoymağa çalışmaqdansa birgə fəaliyyət, müştərək layihələr üçün təmas nöqtələrini axtarmaq daha məntiqi və ağlabatan olardı. Azərbaycanı məcbur etmək qeyri-mümkündür»** - deyən dövlət başçısı əlavə etdi ki, "Qazprom"un qiymətləri qaldırmaq, Azərbaycanın isə bundan imtina etmək hüququ var. Dövlət başçısı həmçinin bildirdi ki, yaranmış vəziyyət Azərbaycan hökumətini adekvat addımlar atmaq, maraqlarını məhz bu yolla müdafiə etmək məcburiyyətində qoya bilər. Söhbət Bakı - Novorossiysk kəməri ilə ixrac olunan xam neftin həcminin azaldılmasından gedir. Hadisələrin bu məcrada inkişafı Azərbaycan hökumətini elektrik stansiyalarını təbii qazla deyil, mazutla işlətməyə, deməli, həm də Rusiya ərazisi ilə nəql olunan xam neftin həcmini azaltmağa vadar etdi. **«Biz öz enerji balansımızı dəyişdirməli, onu mazut-qaz yanacağından mazut yanacağına keçirməliyik. Bu halda biz Azərbaycan neftinin Novorossiysk limanına nəqlini azaltmalı olacağıq. Gördüyünüz kimi, kommersiya baxımından belə aqressiv addım atıldıqda o, bu cür nəticələrə doğru aparır. Ən başlıcası odur ki, ölkələrimiz arasında mehriban qonluşuq münasibətlərinin inkişafını o qədər də istəməyən qüvvələr bu vəziyyətdən istifadə etməsin və baş verən hadisələrin mahiyyətini siyasi baxımdan səhv yozmasınlar»** - deyən Prezident İl-

ham Əliyev, qətiyyətlə bəyan etdi ki, Azərbaycanın bu tip şantaj elementlərinə məruz qalan dövlətə çevrilməsinə qətiyyən yol verməyəcəkdir.

İlham Əliyevin sədrliyi ilə 2005-ci il qış mövsümü ilə əlaqədar keçirilmiş müşavirə hökumətin siyasətində enerji təhlükəsizliyi məsələsinin mühüm yer tutduğunu bir daha təsdiqlədi. Xatırladaq ki, bu məsələyə həssaslıqla yanaşan Prezident xüsusi müşavirə keçirmiş, əhalinin qış mövsümündə qaz və elektrik enerjisi ilə fasiləsiz təminatı üçün bütün zəruri tədbirlərin keçirilməsini aidiyyəti orqanlardan tələb etmişdi. Son müşavirə bir daha göstərdi ki, Azərbaycanın daxili imkanları - uğurla həyata keçirilən neft strategiyası, tikintisi geniş vüsət almış modul tipli elektrik stansiyaları, habelə infrastrukturu tamamilə yeniləşən qaz sənayesi əhalinin qış mövsümündə hansısa ciddi kommunal problemlərlə üzləşməsinə imkan verməyəcəkdir.

Dövlət başçısı Azərbaycanın elektrik enerjisi ilə təminatının daha da yaxşılaşdırılması üçün hökumət səviyyəsində digər tədbirlərin də həyata keçirildiyini diqqətə çatdırdı, 2008-ci ilədək əlavə iki min meqavatdan çox elektrik enerjisinin istehsal olunacağını bildirdi. İlham Əliyev haqlı olaraq dedi ki, görülən işlər Azərbaycanın elektrik enerjisi ixrac edən ölkəyə çevrilməsi ilə nəticələnəcək: **«Bilirsiniz ki, Sumqayıt elektrik stansiyası tikilməkdədir. "Şimal-2" elektrik stansiyasının tikintisi üçün lazımi işlər görülür. Bakıda, Səngəçalda 300 meqavat gücündə modul tipli stansiyanın tikintisi nəzərdə tutulur. Eyni zamanda, Mingəçevir Elektrik Stansiyasında yenidənqurma işləri aparılır. Beləliklə, 2008-ci ilə qə-**

**dər əlavə 2 min meqavatdan çox enerji istehsal olunacaqdır. Bu, çox böyük irəliləyişdir. Azərbaycanın mövcud enerji potensialının, demək olar ki, 50-60 faizinə bərabərdir. Beləliklə, biz Azərbaycanın elektrik enerjisinə tələbatını tam şəkildə təmin edəcəyik və gələcəkdə ixrac haqqında da fikirləşmək mümkün olacaqdır».**

2005-ci ilin qış mövsümünə həsr olunmuş müşavirə göstərdi ki, əhalinin qazla təminatı sahəsində həyata keçirilən tədbirlər də uğurlu nəticələr verir. Azərbaycanın hər bir bölgəsinin qazlaşdırılacağını deyən Prezident İlham Əliyev bunu əməli işi ilə sübuta yetirir. Dövlət başçısı Azərbaycanın yaxın perspektivdə daxili imkanlar hesabına mavi yanacağa olan ehtiyacını tamamilə ödəyəcəyi qənaətindədir: **«...Rusiya tərəfi gələn il Azərbaycana veriləcək qazın miqdarını, demək olar ki, üç dəfə azaldır, qiymətini isə iki dəfədən çox artırmaq istəyir. Belə olan halda, əlbəttə, əlavə mənbələr axtarmaq zərurəti yaranır və ilk növbədə biz daxili resurslara arxalanmalıyıq. Mən, demək olar ki, bir neçə ay bundan əvvəl hadisələrin bu cür inkişafını təxmin edirdim. Çünki vəziyyətin inkişafı bunu göstərirdi. Ona görə 6 ay bundan əvvəl Dövlət Neft Şirkətinə göstəriş verilmişdir ki, bütün əsas səylərini qaz hasilatına yönəltsin, yeni işlər görülsün, kəmərlər tikilsin, qaz yataqlarında qazma işləri sürətləndirilsin. Əminəm ki, bunun nəticəsində gələn il Azərbaycanda hasil ediləcək qazın həcmi kifayət qədər artacaqdır... Bir sözlə, bu məsələ çox böyük əhəmiyyət kəsb edir. Çünki Azərbaycan öz daxili tələbatını tam şəkildə ödəməlidir. İlk növbədə əhali elektrik enerjisi və qazla təmin olunmalıdır».**

Bütün bunlar bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu enerji strategiyası Azərbaycanın xarici siyasətinin və milli təhlükəsizliyinin vacib komponenti kimi çıxış edir. Dövlət başçısı müasir dövrdə hər bir dövlətin iqtisadi potensialının və gücünün həm də onun enerji təminatının səviyyəsindən asılı olduğunun fərqindədir. Prezident ölkənin artan iqtisadi potensialını məhz səmərəli və güclü enerji kompleksinin formalaşmasına yönəltməklə respublikamızın həm də ardıcıl olaraq müstəqil xarici siyasət yeritməsini təmin edir.

Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, güclü diaspor yaratmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin diaspor siyasəti bu gün Onun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İham Əliyev hər zaman bildirmişdir ki, yalnız güclü diaspora malik xalqlar xarici siyasətdə mühüm uğurlar qazanır, dünya miqyasında mənafelərini hər zaman layiqincə qoruyur, ümummilli problemlərinin həllinə nail olur, öz dilini, mədəniyyətini, incəsənətini, tarixini lazımi səviyyədə təbliğ edirlər.

Prezident İlham Əliyev hələ 27 iyul 2004-cü il tarixdə ölkə diplomatlarının iştirakı ilə Xarici İşlər Nazirliyində keçirdiyi geniş tərkibli müşavirədə diaspor quruculuğu işini xarici siyasət sahəsində prioritet istiqamətlərindən biri kimi qiymətləndirmiş və bu fəaliyyətin daha da

gücləndirilməsi vacibliyini önə çəkmişdir. Dövlət başçısı milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd etmiş, onların daha geniş şəkildə təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mücadilə aparması ilə bağlı dəyərli tövsiyələrini vermişdir.

Prezident İlham Əliyev xaricdə yaşayan hər bir soydaşımızın maraq və mənafeyinin Azərbaycan dövləti tərəfindən qorunmasını təmin etmişdir. Xarici ölkələrdə yaşayan həmvətənlərimizlə əlaqələri genişləndirmək, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər uğrunda səfərbər etmək, son 14 ildə müstəqil Azərbaycanın xarici siyasətində mühüm istiqamətlərdən olmuşdur. Dövlət başçısı milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd etmiş, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mücadilə aparması ilə bağlı dəyərli tövsiyələrini vermişdir. Bu sahədə qazanılan uğurlarla qətiyyən kifayətlənməyən Azərbaycan Prezidenti diasporumuzun fəaliyyətini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq niyyətindədir.

Hazırda bu yöndə aparılan dövlət siyasətinin mahiyyəti dünya azərbaycanlılarının potensial imkanlarını müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həlli naminə səfərbər etmək, milli birli-

yə, həmrəyliyə və mütəşəkkilliyə nail olmaqdır. Prezident İlham Əliyev ölkə diplomatlarının iştirakı ilə keçirdiyi müşavirədə diaspor təşkilatlarının qarşısına yeni vəzifələr qoymuşdur: **"Xaricdə yaşayan azərbaycanlılar, bu və digər məsələlərdə səfirliklərə öz köməyini göstərə bilərlər. Mən demək olar ki, səfər etdiyim əksər ölkələrdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmişəm. Biz, bir tərəfdən, onları qorumalıyıq, müdafiə etməliyik. Çalışmalıyıq ki, onlar yaşadıqları ölkələrin bütün təbəqələrində təmsil olunsunlar. Həm icra orqanlarında, həm qanunvericilik orqanlarında, həm də biznes sahəsində onların mövqeləri daha da güclənsin. Yəni, bu, bizim vəzifəmizdir. Eyni zamanda, onlar da öz doğma vətənlərinə xidmət etməli, kömək göstərməlidirlər. Ona görə də səfirliklər Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə sıx əlaqədə olmalıdırlar və xaricdə yaşayan soydaşlarımızla işlər daha yüksək səviyyədə qurulmalıdır".**

Son dörd ildə bu yöndə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini təmin edən Prezident İlham Əliyev müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. 2006-cı ilin dövlət büdcəsindən diaspor quruculuğu sahəsinə 5 milyon manatın (AZN) ayrılması da bu diqqət və qayğının nümunəsi idi.

Ölkə Prezidenti Azərbaycan diasporunun fəaliyyətini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq məqsədilə ardıcıl addımlar atmaqdadır. Onun 8 fevral 2006-cı il tarixdə imzaladığı sərəncam əsasında 2006-cı

il martın 16-da keçirilən Dünya Azərbaycanlılarının II qurultayında xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğıları bir daha nəzərdən keçirildi, Azərbaycan Respublikası ilə əlaqələrin daha da möhkəmlənməsi, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələr hərtərəfli müzakirə edildi. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində yeni vəzifələri müəyyənləşdirən II qurultay Azərbaycan diasporasının inkişafında əhəmiyyətli hadisəyə çevrildi.

Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsində məqsəd hesabat dövründə diaspor quruculuğu istiqamətində görülmüş işləri dəyərləndirmək, xaricdə yaşayan soydaşlarımızın üzləşdiyi problemləri, yaşadıqları ölkələrin daxili siyasətinə təsir imkanlarını öyrənmək, onların tarixi Vətənlə daha geniş əlaqələrinin qurulmasına xidmət edən tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə yardım göstərmək idi. Qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir. Yüksək mütəşəkkillik və ruhyüksəkliyi ilə başa çatan qurultayın nəticəsi kimi Azərbaycan diasporunun fəaliyyət konsepsiyasının hazırlanması barədə qərarın qəbul edilmə-

si, dünya azərbaycanlılarına müraciətin, habelə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı xüsusi bəyanatın, işğal olunmuş ərazilərdə tarixi abidələrimizin, mədəni irsimizin dağıdılması ilə bağlı beynəlxalq təşkilatlara müraciətlərin və digər sənədlərin qəbulu istər təbliğati, istərsə də səmərəli əks-hücumun təşkili baxımından strateji əhəmiyyətə malikdir.

Müasir dövrdə diaspor quruculuğunun konkret zamanla məhdudlaşmayan, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli proses olduğunu xüsusi vurğulamağa ehtiyac yoxdur. Reallıq göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi yolunda hələ çox işlər görülməlidir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması deməyə əsas verir ki, yaxın illərdə Azərbaycan diasporu daha da güclənəcək, taleyüklü problemlərin həllində daha yaxından iştirak edəçəkdir. 2007-ci il martın 9-da Bakıda Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumu, həmçinin noyabrın 17-də Türk dövlətləri və cəmiyyətlərininin X-cu qurultayı keçirilmişdir.

Beləliklə, müasir dövrdə diaspor quruculuğunun konkret zamanla məhdudlaşmayan, strateji əhəmiyyət daşıyan, daim fəallıq və zəhmət tələb edən uzunmüddətli proses olduğunu xüsusi vurğulamağa ehtiyac yoxdur. Müxtəlif səbəblərdən xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin genişləndirilməsini xarici siyasətdə prioritet istiqamətlərdən biri kimi əsas götürən İl-

ham Əliyev, ölkədəki sosial-iqtisadi inkişaf strategiyasının mahiyyətinə uyğun olaraq, diaspor quruculuğu sahəsində dövrün nəbz və tələbləri ilə səsləşən genişmiqyaslı tədbirlərin həyata keçirilməsini son dərəcə vacib sayır. Bu yöndə aparılan dövlət siyasətinin mahiyyəti dünya azərbaycanlılarının potensial imkanlarını müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həlli naminə səfərbər etmək, milli birliyə və həmrəyliyə nail olmaqdır.

## TƏCAVÜZKAR ERMƏNİSTANA QARŞI BARIŞMAZ MÖVQE

İlham Əliyev prezidentlik fəaliyyətinə başladıqdan dərhal sonra xarici siyasətinin əsas istiqamətini işğal olunmuş torpaqların azad edilməsinə və Dağlıq Qarabağ probleminin həllinə yönəltdi. Ötən illərdə Ermənistanla danışıqların davam etdirilməsi ilə yanaşı, beynəlxalq təşkilatlarla iş və ikitərəfli əlaqələr sahəsində fəaliyyət daha da genişləndirildi, ən başlıcası isə, Dağlıq Qarabağ məsələsi BMT Baş Assambleyasına çıxarıldı və Azərbaycanın maraqlarına uyğun qətnamələr qəbul edildi.

İlham Əliyevin Ermənistanın işğalçı siyasətinə qarşı Avropa Şurasında Azərbaycan parlamenti nümayəndə heyətinin rəhbəri kimi başladığı səmərəli fəaliyyəti prezidentliyi dövründə daha ardıcıl və prinsipial şəkildə davam etdirilir.

Azərbaycan Prezidentinin 2004-cü il aprel ayının 29-da Strasburqda çıxışı beynəlxalq aləmdə böyük maraq və diqqətlə qarşılandı və bu nitq Avropa Şurasının

2005-ci ilin yanvarında Ermənistanı işğalçı dövlət, Dağlıq Qarabağı isə separatçı rejim kimi tanınmasına mühüm təsir göstərdi. Azərbaycan Prezidenti İlham Əliyevin gərgin və səmərəli fəaliyyəti Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində ciddi dönüş yarandığını, Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq aləmdə getdikcə daha artıq müdafiə olunduğunu, işğal olunmuş Azərbaycan torpaqlarının geri alınacağı günün getdikcə yaxınlaşdığını sübut etməkdədir.

Bütövlükdə Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyi, həyata keçirilən qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrini ciddi şəkildə təhdid edən Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına və xalqımızın milli mənafeyinə uyğun həlli, ötən dörd il ərzində rəsmi Bakının xarici siyasətində prioritet məsələ olaraq qalmışdır. Azərbaycan Prezidentinin ardıcıl və düşünülmüş diplomatik səyləri ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda rəsmi Bakının siyasi-hüquqi və psixoloji üstünlüyünü təmin etməklə yanaşı, təbliğati baxımdan da son dərəcə əhəmiyyətli olmuşdur. Münaqişənin həlli strategiyası ilə bağlı ulu öndər Heydər Əliyevin beynəlxalq hüquq normalarına əsaslanmaqla müəyyənləşdirdiyi prioritetlərdən çıxış edən İlham Əliyev yeni siyasi mexanizmlərin tətbiqi yolu ilə prosesi Azərbaycanın milli maraqlarına uyğun irəliyə aparmışdır. Prezident real situasiyanı düzgün dəyərləndirərək Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə təsir amillərini gücləndirmək siyasətinə üstünlük vermişdir.

Münaqişə tərəfləri arasında aparılan birbaşa təmasların intensivləşməsi, həmsədrlərin iştirakı ilə istər prezidentlər, istərsə də xarici işlər nazirləri səviyyəsində keçirilən bir sıra görüşlər son nəticədən asılı olmayaraq, prosesin "ölü nöqtə"dən çıxdığını deməyə müəyyən əsaslar verir. Bu da təsadüfi deyil, dünyada baş verən mühüm geosiyasi dəyişikliklər fonunda Cənubi Qafqazdakı bu əsas münaqişə ocağının söndürülməmiş qalması qlobal planda cərəyan edən proseslərə mənfi təsir göstərməklə yanaşı, burada iqtisadi və siyasi maraqları olan aparıcı dövlətlərin, habelə beynəlxalq təşkilatların mənafelərini də ciddi şəkildə təhdid edir. Bu, həm də İraq müharibəsindən sonra Qərbin aparıcı dövlətlərinin, xüsusən də, ABŞ-ın beynəlxalq sülh və təhlükəsizliyə əngəl törədən, mahiyyətcə regional çərçivədən çıxaraq qloballaşan münaqişə ocaqlarının söndürülməsinə yönəlmiş cəhdlərinin artması ilə bağlıdır.

Azərbaycanın diplomatik mövqelərinin güclənməsi özünü təkcə beynəlxalq təşkilatların təcavüzkar tərəfə təsir göstərmək səylərini intensivləşdirməsi ilə şərtlənmir. Artıq dünyanın aparıcı dövlətləri münaqişənin həllinin uzanmasına görə narahatlıqlarını açıq ifadə edirlər. Münaqişənin həllinə beynəlxalq səviyyədə yönəlmiş səylərin nəzərəçarpacaq dərəcədə güclənməsi, ATƏT-in Minsk qrupu səviyyəsində aparılan danışıqların xaotik məcradan çıxarılaraq konkret həll formatına salınması da İlham Əliyev diplomatiyasının mühüm siyasi üstünlüyüdür. İlham Əliyev münaqişənin həllinin yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində mümkün saydığını, sülh danışıqlarının da yalnız bu

formatda aparıla biləcəyini qətiyyətlə vurğulayaraq, bir daha aydın və qətiyyətli mövqe ortaya qoymuşdur. **«Bir daha bəyan edirəm, nə 5 ildən sonra, nə 10 ildən sonra, nə 15 ildən sonra, nə də 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır. Mən nə qədər Prezidentəm, buna yol verməyəcəyəm»** - deyən dövlət başçısı Ermənistanla aparılan danışıqların nəticə verməyəcəyi təqdirdə Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün digər zəruri vasitələrdən, daha konkret desək hərbi yoldan istifadə olunması məsələsinin ictimai müzakirəyə çıxarılacağını da açıq bəyan etmişdir.

Bu qətiyyətli bəyanatı ilə İlham Əliyev Azərbaycandan güzəşt umanlara sərt mesaj ünvanlamış, xalqın heç zaman ərazi itkisi ilə barışmayacağını bir daha önə çəkmişdir. Bu bir daha rəsmi Bakının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin keyfiyyətcə yeni mərhələyə transformasiyasını və siyasi-hərbi yolla həllini hər an gündəmə gətirə biləcəyini ortaya qoydu. Dövlət başçısının bildirdiyi kimi, təcavüzkar ölkə Azərbaycanın çox güclü, mobil və peşəkar orduya malik olduğunu aşkar duymalı və bu psixoloji təsir amili aparılan danışıqların pozitiv məcrada getməsini təmin etməli, Azərbaycan haqlı mövqeyini bundan sonra da müxtəlif beynəlxalq təşkilatlarda müdafiə etməli, Ermənistanın təcavüzkar siyasətinin daha qlobal miqyasda ifşasına nail olmalı, ideoloji-təbliğati sahədə psixoloji üstünlüyü ələ almaq üçün diplomatik fəaliyyətini gücləndirməlidir.

Prezident İlham Əliyevin münaqişənin həlli istiqamətində yeritdiyi siyasətin əsas mahiyyəti, yenə də Er-

mənistanın mövqeyinin beynəlxalq hüquq baxımından tam əsassızlığını sübuta yetirmək, təcavüzkar ölkəni Cənubi Qafqazdakı dinamik inkişaf prosesindən, qlobal enerji-kommunikasiya layihələrindən təcrid etmək və Azərbaycanın iqtisadi, hərbi qüdrətini artırmaqla qarşı tərəfin mövqeyinə təsir göstərmək olmuşdur. Dövlət başçısı münaqişənin hərb yolu ilə həlli variantının aktuallaşa biləcəyini də istisna etmir. Ötən dörd ildə Azərbaycanın iqtisadi cəhətdən daha da qüdrətlənməsi, respublikamızın hərbi büdcəsinin əhəmiyyətli dərəcədə artması fonunda danışıqlar prosesi də keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Ermənistan rəsmilərinin ictimai rəyə hesablanmış ənənəvi və populist bəyanatlarına rəğmən, son bir ildə təcavüzkar dövlətin mövqeyində ciddi diplomatik geriləmələr müşahidə olunmuşdur. Əgər rəsmi Yerevan əvvəllər qondarma "DQR"-in ya müstəqil, yaxud Ermənistana birləşdirilməsi kimi cəfəng iddia ilə çıxış edirdisə, 2005-2007-ci illərdə ciddi diplomatik təpkilər qarşısında münaqişənin mərhələli həlli ilə bağlı müzakirələrə qatılmağa məcbur olmuşdur.

Təcavüzkar dövlətin "Praqa prosesi", yəni "mərhələli həll" modeli ətrafında danışıqları davam etdirməsi rəsmi Bakının mühüm diplomatik nailiyyətlərindən biri kimi vurğulanmalıdır. **«Biz danışıqlarda öz mövqeyimizi gücləndirmişik. Azərbaycanın hər zaman israr etdiyi yanaşma - məsələnin mərhələli həll olunması artıq Minsk qrupu tərəfindən qəbul edilir və danışıqları aparan tərəflər - Ermənistan və Azərbaycan artıq bu prosesin iştirakçılarıdır. Baxmayaraq ki, Ermənistanı bu prosesə cəlb etmək üçün çox böyük səylər göstərilmiş, çox böyük dip-**

**lomatik gedişlər edilmişdir. Biz buna nail olduq və onu da bilirik ki, "Praqa prosesi" ifadəsi, sadəcə olaraq, mərhələli həll sözünün əvəzinə işlədilmiş bir ifadədir ki, erməniləri və Ermənistanı çox qıcıqlandırmasın»** - deyən İlham Əliyev həmsədrlərin iştirakı ilə keçirilən danışıqların ərazi bütövlüyü prinsipi çərçivəsində aparılmasını da haqlı olaraq Azərbaycanın mühüm uğuru kimi dəyərləndirmişdir.

Bu fakt bir daha təsdiqləyir ki, dərin siyasi-iqtisadi böhranla üzləşmiş Köçəryan rejimi mühüm beynəlxalq təşkilatların, habelə aparıcı dövlətlərin münaqişənin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həlli tələblərinə, o cümlədən, beynəlxalq hüquq normalarına daha saymazyana yanaşmaq gücündə deyil. Beynəlxalq təcridlə üzləşəcəyindən ehtiyatlanan R.Köçəryan danışıqların davam etdirilməsi imitasiyası yaratmaqla mövcud stasus-kvonu qoruyub saxlamağa və uzatmağa çalışdı.

Ermənistanın qeyri-konstruktiv və riyakar mövqedə olduğunu iki ölkə prezidentlərinin Fransa Prezidenti Jak Şirakın təşəbbüsü ilə Parisin Rambuye qəsrində keçirilən görüşü bir daha nümayiş etdirdi. Rambuye danışıqları Ermənistan prezidenti Robert Koçəryanın nəinki diplomatik normalara, hətta etik qaydalara sığmayan isterik davranışları ilə yadda qaldı. Onun danışıqlar prosesini yarımçıq dayandıraraq müzakirələri davam etdirməkdən boyun qaçırması bir daha təsdiqlədi ki, rəsmi Yerevan reallıq, fakt və ciddi təzyiqlər qarşısında necə hərəkət etməyi özü üçün müəyyənləşdirməyib. Danışıqlar prosesində küncə sıxılan R.Köçəryan hakimiyyə-

tini qoruyub saxlamaq üçün çıxış yolunu "qarın ağrısını" əsas gətirib müzakirələrdən qaçmaqda gördü. Bu addımı ilə R.Koçəryan həm də ölkəsinin kənardan idarə olunan forpost olduğunu təsdiqlədi. Həmin danışıqlarda hər hansı nəticə əldə olunmasa da, R.Köçəryanın davranışı Ermənistanın təcavüzkar mövqeyinin ifşasına xidmət etdi və bu ölkənin sülh prosesinə hazır olmadığını göstərdi. Ermənistan bununla bir daha qeyri-konstruktiv mövqedə dayandığını, təcavüzkarlıq niyyətindən əl çəkə bilmədiyini növbəti dəfə təsdiqlədi.

"Rambuye isterikası" göstərdi ki, Qarabağ kartı üzərində hakimiyyətə gəlmiş R.Koçaryan vəziyyətdən çıxmaq üçün vaxt udmağa, danışıqlar prosesini mümkün qədər uzatmağa çalışır. Rambuye danışıqlarından dərhal sonra sərt bəyanatla çıxış edən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev respublikamızın öz ərazi bütövlüyünü istənilən yolla həll etməyə qadir olduğunu bir daha vurğuladı. Dövlət başçısının hərbi geyimdə düşmənlə üzbəüz mövqelərə getməsi, hərbçilərlə səmimi görüşməsi və söhbətləşməsi özündə olduqca ciddi psixoloji-siyasi çalarları ehtiva edirdi. Bu, əslində, Azərbaycanın heç zaman ərazi itkisi ilə barışmayacağı bütün dünyaya verilən növbəti ciddi mesaj idi. Bundan narahat olan Qərb dövlətləri, o cümlədən ABŞ administrasiyası tərəfləri danışıqları davam etdirməyə, hərbi əməliyyatlara başlamamağa çağırdılar.

Azərbaycan Prezidenti sonrakı mərhələdə keçirdiyi çoxsaylı görüşlərdə, rəsmi səfərlərdə, müxtəlif səviyyəli danışıqlarda münaqişənin həlli ilə bağlı prinsipial mövqeyini bir daha ortaya qoyaraq Dağlıq Qarabağ erməniləri-

nin "öz müqəddəratını təyin etməsi" iddiasının tamamilə cəfəng və reallığa adekvat olmadığını diplomatik məharətlə önə çəkmişdir. Beynəlxalq normalara görə, müstəqil dövləti olmayan xalqlar müəyyən hüquqi çərçivədə öz müqəddəratlarını təyin etmək iddiası ilə çıxış edə bilərlər. Erməni xalqının isə müstəqil dövləti var və bu baxımdan, Dağlıq Qarabağdakı separatçı rejimin belə bir iddiadan çıxış etməsi beynəlxalq hüquq normalarına söykənmir.

İlham Əliyev münaqişənin həllinin mühüm prinsipi kimi müqəddərat məsələsini daim diqqət mərkəzində saxlayır: **«Dağlıq Qarabağ ermənilər muxtariyyət çərçivəsində milli azlıq kimi yaşamağı davam etdirə bilərlər. Yaxşı məlumdur ki, Avropada və dünyanın digər hissələrində muxtar qurumlar mövcuddur. Dünyanın bir çox ölkələrində milli azlıqlar vardır. İndi təsəvvür edin ki, dünyada hər bir milli azlıq özü üçün müstəqillik tələb etsə, nələr baş verər! Bu, cəfəngiyatdır. Bu məsələ ilə bağlı Azərbaycanın mövqeyi ədalətə, həqiqətə və beynəlxalq hüquq normalarına söykənir. Ermənilər vaxtaşırı beynəlxalq hüququn vacib elementi olan "millətlərin öz müqəddəratını təyin etmək" hüququ ilə manipulyasiya etməyə çalışırlar. Lakin bildirmək istəyirəm ki, ermənilər artıq bir millət kimi öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti vardır. Ermənilərin yaşadıqları bütün ölkələrdə "öz müqəddəratlarını təyin etməyə" başladıqları halda nələrin baş verəcəyini təsəvvür etmək çətin deyildir».**

2006-cı il il iyunun 6-da ATƏT-in Minsk qrupu həmsədrlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentlərinin Rumıniyanın paytaxtı Buxarestdə ke-

çirilmiş növbəti görüşü, yenə də məhz R.Köçəryanın qeyri-ciddi və konstruktivlikdən uzaq mövqeyi üzündən hansısa nəticə ilə yadda qalmadı. Təcavüzkar tərəf əvvəlcə görüşün hansı ölkənin səfirliyində keçirilməsi məsələsi ətrafında ajiotaj qaldırmaqla, danışıqlardan yayınmağa cəhd göstərdi. Azərbaycan tərəfi R.Koçaryanın bu bəhanəsini də kəsəndə, o, riyakar xislətinə sadiq qalaraq danışıqlarda pozitiv nəticənin əldə edilməsinə mane oldu. Rambuye görüşündə həll edilməmiş məsələlər bu dəfə də açıq qaldı. Fəqət, bu danışıqlar rəsmi Yerevanın xarici siyasətinin dalana dirənməsini təsdiqləyən növbəti fakt idi. Rəsmi Bakı bu görüşdə də danışıqların məhz ərazi bütövlüyü çərçivəsində aparılmasına nail olmuş, bəzi prinsipial məsələlərdə öz mövqeyini gücləndirə bilmişdi. Hər iki ölkənin prezidentlərinin 2006-cı ilin 28 noyabrında MDB sammiti çərçivəsində Belarusun paytaxtı Minskdə keçirilmiş üçüncü görüşü isə əvvəlkilərlə müqayisədə nisbətən bir qədər nikbin bəyanatlarla yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyev danışıqların Azərbaycanın maraqlarına uyğun məcrada keçdiyini, bir sıra məsələlərdə razılaşmaların olduğunu bəyan etdi. Sonradan Ermənistan tərəfi əldə olunmuş həmin razılaşmalardan geri çəkilsə də, beynəlxalq ictimaiyyət bir daha hansı tərəfin daha ədalətli və konstruktiv mövqedə dayandığını gördü.

Etiraf etməliyik ki, son illər rəsmi Bakı Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası istiqamətindəki fəaliyyətini də gücləndirmişdir. Belə ki, 2006-cı il avqustun 14-də diplomatik xidmət orqanlarının iştirakı ilə Xarici İşlər Nazirliyində keçirilmiş ikinci müşavirədə çıxış

edən Azərbaycan Prezidenti İlham Əliyev erməni lobbisinin apardığı çirkin təbliğata qarşı əks-hücumun gücləndirilməsini mühüm vəzifələrdən biri kimi qarşıya qoydu. Dövlət başçısı bu məqsədlə Azərbaycan diasporunun fəaliyyətinin daha da gücləndirilməsinə ehtiyac olduğunu vurğulamışdır: **«Erməni lobbisi bizim əleyhimizə çox fəal kampaniya aparır və bunu hiss edirik, görürük. Bəzi hallarda müxtəlif xarici mətbuat orqanlarında Azərbaycana qarşı qərəzli məqalələrin arxasında da məhz erməni lobbisi dayanır. Biz bunu bilirik, öz mübarizəmizi aparmalıyıq və daha fəal olmalıyıq. Bu istiqamətdə siyasətimizi daha da güclü aparmalıyıq. Mən bir neçə dəfə demişəm, bir də demək istəyirəm, biz informasiya hücumuna keçməliyik. Biz Ermənistanın işğalçı siyasətini ifşa etdirməliyik».**

Təcavüzkar tərəfin bəzi düşünülməmiş addımlar atması onları daha da çıxılmaz vəziyyətə salmış, eyni zamanda, Ermənistanın ifşası üçün Azərbaycana kifayət qədər yeni imkanlar qazandırmışdır. Söhbət ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqları pozmaq mövqeyi tutan rəsmi Yerevanın patronajlığı altında Dağlıq Qarabağdakı separatçı rejimin avqust ayında "referendum" adı altında növbəti təxribata əl atmasından gedir. Bu qeyri-qanuni "referendum" nəinki baş tutmuş, əksinə, bu addım beynəlxalq ictimaiyyət tərəfindən pislənilmişdir. ATƏT, Avropa Şurası, Avropa Birliyi, GUAM və digər qurumlar, o cümlədən, aparıcı dövlətlər sülh danışıqlarının pozulmasına xidmət edən, anneksiya məqsədi daşıyan bu addımın yolverilməz olduğunu bəyan etmişdir. Eyni zamanda, qondarma "re-

ferendum"a etiraz edən beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha nümayiş etdirmişdir. İşğal altında saxladığı torpaqları gec-tez tərk etmək məcburiyyətində qalacağını yaxşı başa düşən Ermənistanın 2005-ci ildən başlayaraq Dağlıq Qarabağ və işğal olunmuş digər Azərbaycan ərazilərində törətdiyi yanğınlar bu dövlətin beynəlxalq təşkilatlar tərəfindən daha sərt təzyiqlərə məruz qalmasına gətirib çıxarmışdır.

Bununla bağlı Azərbaycan tərəfinin konkret faktları əsasında AŞ PA-nın payız sessiyasında müzakirələr aparılmışdır. Eyni zamanda, rəsmi Bakı diplomatik səylərini gücləndirərək ərazilərinin işğalçı dövlət tərəfindən yandırılması məsələsini BMT-nin müzakirəsinə çıxarmağa nail olmuşdur. Azərbaycanın daha bir ciddi nailiyyəti isə postsovet məkanında separatçılıq meyilləri nəticəsində baş vermiş bütün münaqişələrin vahid paketə salınmasıdır. Bununla əlaqədar GUAM tərəfindən BMT qarşısında məsələ qaldırılmış, Dnestryanı, Abxaziya və Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişələrinin kökündə məhz etnik separatizmin, ərazi iddiası siyasətinin dayandığı vurğulanmışdır.

Azərbaycanın danışıqlar prosesindəki mövqelərini gücləndirən ən ciddi amillərdən biri də respublikamızın iqtisadi cəhətdən qüclənməsi, bir sıra qlobal enerji və kommunikasiya layihələrini uğurla başa çatdırmasıdır. Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin tam istismara verilməsi, Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin inşasının uğurla həyata keçirilməsi, eyni zamanda Bakı - Tbilisi - Qars dəmir yolunun çəkilişi ilə bağlı mü-

hüm razılaşmaların əldə edilməsi Azərbaycanın dünya siyasətindəki, habelə Avropanın enerji təhlükəsizliyindəki rolunu gücləndirmiş, beynəlxalq mövqelərini möhkəmləndirmişdir.

Cənubi Qafqaz regionunda həyata keçirilən bu qlobal layihələrdən tamamilə kənarda qalan Ermənistan isə Avropa və Qərb üçün əhəmiyyətini getdikcə itirməkdədir. Azərbaycan Türkiyə və Gürcüstanla müxtəlif iqtisadi layihələr həyata keçirməklə, Ermənistanı faktiki olaraq üç strateji müttəfiqin əhatəsində təcrid vəziyyətində yaşamaq gerçəkliyi ilə üz-üzə qoymuşdur. Təcavüzkarlıq siyasətindən əl çəkməyən Ermənistan, əslində, özü-özünü Cənubi Qafqazda gerçəkləşən bütün strateji layihələrdən kənarda saxlamışdır.

İşğalçı dövlətin xarici borcları getdikcə artır, sosial-iqtisadi tənəzzülün qarşısının alınmaması əhalinin vəziyyətinin pisləşməsi ilə müşahidə olunur. Rusiyayaya borclarını ödəmək iqtidarında olmayan Ermənistan, bu ölkənin forpostuna çevrilərək bütün strateji əhəmiyyətli müəssisələrini itirir. Yoxsulluğun həddinə görə MDB-də liderliyi əldən verməyən Ermənistan siyasi sahədə də ciddi problemlərlə üz-üzədir. Miqrasiyanın yüksək artım sürəti nəticəsində Ermənistan yaşayış üçün perspektivsiz, inkişaf üçün potensialsız dövlətə çevrilmişdir. Hələlik xarici yardımlar və kreditlər hesabına dolanan Ermənistan strateji layihələrdən kənarda qaldığı üçün perspektiv inkişafı təmin etmək baxımından bütün resurslardan məhrum olmuşdur. Bütün resurslar təcavüzkar ordunu saxlamağa, kütləvi silahlanmaya yönəlmişdir.

Münaqişənin uzanması Ermənistanda iqtisadi inkişafı ciddi şəkildə əngəlləyən tormozlayıcı amilə çevrilmişdir. Üstəlik, rəsmi Yerevan Dağlıq Qarabağdakı separatçı rejimi yaşatmaq üçün də hər il milyonlarla dollar əlavə vəsait xərcləməyə məhkumdur. Bütün bu reallıqlar fonunda diplomatik uğursuzluqları getdikcə çoxalan rəsmi Yerevan vəziyyətdən "az itki ilə çıxmağa", danışıqları uzatmağa çalışır. Ermənistanı himayə edən siyasi dairələr, o cümlədən erməni lobbisi Azərbaycanda iqtisadiyyatın sürətlə inkişaf etdiyi, Gürcüstanda isə bu istiqamətdə müəyyən irəliləyişlərin gözlənildiyi bir mərhələdə Ermənistanda iqtisadi tənəzzülün qarşısının alınmamasından ciddi narahatçılıqlar keçirməkdədilər.

Müasir qloballaşma dövründə iqtisadi maraqların daha üstün mövqelərə çıxdığını nəzərə alsaq, münaqişənin həllində Azərbaycanın daha böyük təsir imkanlarına malik olduğunu görmək çətin deyil. Bununla yanaşı, Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərtərəfli təchiz olunmuş ordunun formalaşdırılması istiqamətində atılan addımlar son illərdə daha da intensivləşmişdir. Həyata keçirilən uğurlu islahatlar nəticəsində respublikamızın iqtisadi qüdrətinin ildən-ilə güclənməsi Prezident İlham Əliyevə bu sahədə ardıcıl tədbirlər həyata keçirməyə, hərbi xərcləri durmadan artırmağa imkan vermişdir.

"Sülh istəyirsənsə, müharibəyə hazırlaş" prinsipini rəhbər tutan dövlət başçısı İlham Əliyev ölkəmizin hərbi potensialının daha da gücləndirilməsi, bu prosesdə qabaqcıl dövlətlərin təcrübəsinə istinad olunması kimi mühüm məsələləri diqqət mərkəzində saxlamışdır: **«Or-**

**duya ayrılan xərclər hər il artır. Büdcədə nəzərdə tutulan xərclər artır. Bundan sonra da orduya ayrılacaq vəsaitlər artacaqdır... Bizim ordumuz istənilən vaxtda torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Amma istəyirik ki, ordumuz daha güclü olsun. Orduda xidmət edən zabitlərin, əsgərlərin şəraiti daha yaxşı olsun. Siz görürsünüz ki, mənim fəaliyyətimin əsas istiqamətlərindən biri də ordunu gücləndirməkdən, onun maddi-texniki bazasını möhkəmləndirməkdən ibarətdir. Biz güclü orduya malikik, amma hər gün, hər an bu istiqamətdə daha böyük addımlar atmalıyıq».**

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında hərbi quruculuq sahəsində başlanmış islahatlar 2003-cü ilin prezident seçkilərindən sonra İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Son beş ildə Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrinin dinamik inkişafına yol açan, ardıcıl və sistemli islahatlar həyata keçirən Azərbaycan Prezidenti ordu quruculuğuna da diqqətlə yanaşmışdır. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, onun maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir. Dövlət başçısı ölkəmizin hərbi potensialının daha da gücləndirilməsi, bu prosesdə qabaqcıl dövlətlərin təcrübəsinə istinad olunması kimi mühüm məsələlərə xüsusi əhəmiyyət verir. Milli Orduya dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi ildən-ilə artırılır və bu da paralel olaraq maddi-texniki təminatın, döyüş əhvali-ruhiyyəsinin, nizam-intizamın güclənməsinə səbəb olur.

2005-ci il sentyabrın 16-da isə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Müdafiə Nazirliyində ölkəmizdə ordu quruculuğunun inkişafına həsr olunmuş geniş müşavirənin yekunları bunu bir daha təsdiqləmişdir. Müşavirə göstərdi ki, rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin keyfiyyətcə yeni mərhələyə transformasiyasına üstünlük verir. Başqa sözlə desək, təcavüzkar ölkə Azərbaycanın çox güclü, mobil və peşəkar orduya malik olduğunu aşkar duymalı və bu, psixoloji təsir amili aparılan danışıqların pozitiv məcrada getməsini təmin etməlidir. Bununla yanaşı, Azərbaycan haqlı mövqeyini bundan sonra da müxtəlif beynəlxalq təşkilatlarda müdafiə etmək, Ermənistanın təcavüzkar siyasətinin daha qlobal miqyasda ifşasına nail olmaq, ideoloji-təbliğati sahədə psixoloji üstünlüyü ələ almaq üçün diplomatik fəaliyyətini davam etdirməlidir.

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin rəhbərliyi ilə görüşdə bildirmişdir ki, Milli Ordunun durmadan gücləndirilməsi Azərbaycan hakimiyyətinin qarşısında duran strateji məqsədlərdən biridir. **«Azərbaycan müharibə şəraitində yaşayır. Bizim torpaqlarımız işğal altındadır və belə olan halda orduya diqqət ən yüksək səviyyədə olmalıdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi mən bu məsələlərə çox böyük diqqət göstərirəm. Demək olar ki, gündəlik bu məsələlərlə məşğulam»** - deyən İlham Əliyev həmin görüş zamanı ordu quruculuğu ilə bağlı bir sıra tapşırıq və tövsiyələrini vermiş, bu sa-

hənin hər zaman dövlətin yüksək himayəsi ilə əhatə olunacağını bildirmişdir. Dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin mümkün olmayacağı təqdirdə, xalqın öz torpaqlarını azad etmək üçün bütün vasitələrdən istifadə edəcəyini gizlətmir və Silahlı Qüvvələrin buna tam qadir olduğunu bəyan edir.

Son beş il müddətində onlarla hərbi hissədə olan Azərbaycan Prezidenti ordunun qarşısında hələ mühüm vəzifələrin dayandığını bildirir. **«Orduya ayrılan xərclər hər il artır. Büdcədə nəzərdə tutulan xərclər artır. Bundan sonra da orduya ayrılacaq vəsaitlər artacaqdır... Bizim ordumuz istənilən vaxtda torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Amma istəyirik ki, ordumuz daha güclü olsun. Orduda xidmət edən zabitlərin, əsgərlərin şəraiti daha yaxşı olsun. Siz görürsünüz ki, mənim fəaliyyətimin əsas istiqamətlərindən biri də ordunu gücləndirməkdən, onun maddi-texniki bazasını möhkəmləndirməkdən ibarətdir. Biz güclü orduya malikik, amma hər gün, hər an bu istiqamətdə daha böyük addımlar atmalıyıq. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Şübhə etmirəm ki, biz torpaqlarımızı azad edəcəyik. Amma, əlbəttə, biz istərdik bu, sülh yolu ilə olsun»** - deyən Azərbaycan Prezidentinin hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı xüsusi sərəncamlar imzalaması Onun verdiyi bütün vədlərin əməli işə söykəndiyini bir daha təsdiqləyir. Azərbaycan Ordusunun beynəlxalq əməkdaşlığı dövlətin xarici siyasətində xüsusilə aktuallıq kəsb edən məsələyə çevrilmişdir.

Azərbaycan Ordusunun əsgər və zabit heyətinin NATO sülhməramlılarının tərkibində Kosovoda, Əfqanıstanda və İraqda keçirilən əməliyyatlarda iştirak hüququ qazanması faktını da xüsusi vurğulamaq lazımdır. Bu, o deməkdir ki, NATO münaqişə ocaqlarının söndürülməsində, mübahisələrin çözülməsində, bir sözlə, qlobal planda sülh və sabitliyin təminatında Azərbaycanın potensialını yüksək qiymətləndirir.

İlham Əliyev bölgələrə səfərləri zamanı müntəzəm olaraq hərbi hissələrə baş çəkir, zabit və əsgərlərlə görüşür. O, Azərbaycan Ali Hərbi Məktəbində, Hərbi Akademiyada, Cəmşid Naxçıvanski adına hərbi liseydə və onun Naxçıvan şəhərindəki filialında olmuş, hərbi təhsilin səviyyəsi ilə maraqlanmışdır.

Bərdə, Ağdam və Tərtər rayonlarında səfərdə olan Ali Baş Komandan düşmənlə üz-üzə dayanmış "N" saylı hərbi hissəyə baş çəkməklə, əsgər və zabitlərimizin döyüş və mübarizə əhvali-ruhiyyəsinin daha da qaldırılmasına ciddi impuls verdi. Prezident İlham Əliyev cəbhə bölgəsində, səngərdə Vətənin keşiyində dayanan əsgər və zabitlərimizlə görüşdü, onların hərbi xidmət şəraiti ilə maraqlandı, cihazlar vasitəsilə düşmənin üzbəüz mövqelərini müşahidə etdi. Ali Baş Komandan İlham Əliyev hərbi xidmətdə fərqləndiklərinə görə təltif olunmuş qulluqçulara elə səngərdəcə medallar və qol saatı təqdim etdi.

İlham Əliyevin Ali Baş Komandan kimi hərbi geyimdə düşmənlə üzbəüz mövqelərə getməsi, hərbçilərlə səmimi görüşməsi və söhbətləşməsi özündə olduqca ciddi psixoloji-siyasi çalarları ehtiva edir. Bu, əslində,

Azərbaycanın heç zaman ərazi itkisi ilə barışmayacağı ilə bağlı bütün dünyaya verilən növbəti mesaj idi. Əsgərlə söhbət zamanı Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu, ölkəmizin iqtisadi qüdrətinin və hərbi potensialının artdığını vurğulayan Prezident İlham Əliyev, əlavə etdi ki, ordumuz hər an öz sözünü deməyə hazır olmalıdır: **«12 ildir atəşkəs şəraitində yaşayırıq, amma heç bir nəticə yoxdur. Azərbaycanda çox güclü, nizami, yüksək qabiliyyətli ordu yaranır və o, ən müasir texnika ilə, silah-sursatla təmin olunur. Qarşı tərəf anlamalıdır ki, Azərbaycanda ordu quruculuğu sürətlə gedir və bu proses bundan sonra da davam edəcəkdir. Düşmənlə üz-üzə dayanan siz əsgərlər isə xüsusi diqqətə layiqsiniz".**

Azərbaycan Ordusunun mütəşəkilliyi sahəsində görülən irimiqyaslı işlər ictimaiyyət tərəfindən razılıqla qarşılanmışdır. Ölkə vətəndaşları, o cümlədən, yurd-yuvasından didərgin düşmüş qaçqın və məcburi köçkünlər yürüdülən düzgün siyasət nəticəsində torpaqlarımızın işğaldan azad ediləcəyinə inanırlar. Milli Ordunun gücləndirilməsi işi bu gün də, dövlət başçısının birmənalı şəkildə vurğuladığı kimi, dövlət siyasətinin əsas istiqamətlərindəndir və proses dönmədən aparılır.

Bu gün İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusunun beynəlxalq standartlar səviyyəyəsinə çatdırılması və inkişafı üçün bütün zəruri addımlar atılır. Ordu quruculuğuna dair bütün mühüm tədbirlər müvəffəqiyyətlə, ardıcıl surətdə, mövcud siyasi kursun tələblərinə uyğun şəkildə yerinə yetirilir. Ölkədə hərbi xarakterli cinayətlərin, xüsusən də fərarilik hallarının

azalması da məhz ordumuzun gücləndirilməsi istiqamətində həyata keçirilmiş tədbirlərin, hərbi-vətənpərvərlik əhval-ruhiyyəsinin nəticəsidir. Azərbaycan ordusunun mütəşəkkilliyi sahəsində görülən irimiqyaslı işlər ictimaiyyət tərəfindən də son dərəcə razılıqla qarşılanır.

Azərbaycanın 2008-ci illərdə dövlət büdcəsində ən böyük vəsaiti məhz Azərbaycan ordusu üçün nəzərdə tutulmuş, Prezident İlham Əliyevin vəd etdiyi kimi, ölkəmizin təkcə hərbi büdcəsi bütövlükdə Ermənistanın dövlət büdcəsinə çatmışdır. Bütün bunlar isə münaqişənin həlli ilə bağlı danışıqların Azərbaycanın maraqlarına uyğun keçməsini şərtləndirən mühüm amillərdir.

Ölkə prezidenti bütün siyasi və diplomatik vasitələrdən istifadə edərək, problemin konstruktiv həllinə çalışdığını aydın və birmənalı şəkildə dünya ictimaiyyətinə nümayiş etdirməkdədir. Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasından sonra Dağlıq Qarabağın statusuna baxılmasını, məcburi köçkünlərin doğma yurdlarına qayıtmasını nəzərdə tutan strategiya ardıcıl surətdə davam etdirilir. Bura, həmçinin, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının dinc-yanaşı yaşaması, bölgənin iqtisadi inkişafı və əhalinin sosial-rifahı məsələləri də daxildir.

İlham Əliyev hələ 2003-cü ildə, prezident səlahiyyətlərinin icrasına başladığı ilk günlərdə bəyan etmişdi ki, Ermənistan - Azərbaycan münaqişəsində biz informasiya hücumuna keçməliyik. Mübaliğəsiz demək olar ki, informasiya mübarizəsində Prezidentin fəal və hücumçu mövqeyi hamıya nümunə göstərilə bilər. İstər xarici ölkələrə rəsmi və işgüzar səfərlərində, istərsə də

müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlərində Prezident diqqəti Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ və qaçqın-köçkün məsələsinə yönəldir. Azərbaycan Prezidenti AŞPA-da, Avropa Birliyində, NATO-da, BMT Baş Assambleyasının sessiyasında çıxışlarında, nüfuzlu kütləvi informasiya vasitələrinə müsahibələrində Ermənistanın işğalçılıq siyasətinə geniş yer ayırır, Dağlıq Qarabağ və qaçqın-köçkünlər probleminin həllinə yönələn çağırışlar edir. Prezidentin qeyd etdiyi kimi, bu çıxışların məqsədi təkcə problem haqqında məlumat vermək yox, həm də beynəlxalq terrorizmə qarşı mübarizənin ümumdünya xarakteri aldığı bir dövrdə, Ermənistanın işğalçılıq-terrorçuluq siyasətinin doğurduğu təhlükəni bir daha beynəlxalq aləmin diqqətinə çatdırmaqdır.

İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində BMT Baş Məclisinin noyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində Azərbaycanın işğal edilmiş ərazilərində baş verən yanğınlardan və onun vurduğu böyük ekoloji ziyandan ciddi narahatlığını bildirmişdir. Dağlıq Qarabağ münaqişəsinin BMT Baş Məclisinin 61-ci sessiyasında müzakirəyə çıxarılması Ermənistanda siyasi atmosferi gərginləşdirmişdi. Rəsmi Yerevanın məsələyə soyuqqanlı yanaşmağa çalışması, erməni siyasətçilərinə münaqişənin BMT səviyyəsinə çıxarılmasının Ermənistan üçün nə dərəcədə təhlükəli olduğunu demələrinə maneçilik törətmir.

2008-ci ilin martın 14-də BMT-nin Baş Assambleyasının geniş iclasında 62-ci sessiyanın gündəliyində 20-

ci bənd kimi duran "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" məsələsinin müzakirəsi Azərbaycan Respublikasının xarici siyasət tarixində yeni mərhələ oldu. BMT-nin üzvü olan dövlətlərinin "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" barədə 9 bənddən ibarət qətnamə layihəsi BMT Baş Assambleyasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyinin ifadəsi baxımından Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən siyasi hadisədir. Qətnamənin əhəmiyyətini nəzərə alaraq onun mətnini və səsvermənin yekunlarını olduğu kimi kitaba salmağı vacib hesab etdik. Layihədə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstəklənməsi, işğal olunmuş bütün ərazilərdən Ermənistan silahlı qüvvələrinin tam və qeyd-şərtsiz çıxarılmasını və məcburi köçkün düşən azərbaycanlıların öz yurdlarına qayıtması üçün müvafiq şəraitin yaradılması əksini tapmışdır.

Müzakirələrdə ABŞ-ın BMT-dəki daimi nümayəndəsinin müavini Alexandro Vulf ATƏT-in Minsk qrupunun həmsədr ölkələri adından çıxışında Minsk qrupu ölkələri qətnamə layihəsinin əleyhinə səs verəcəklərini, İslam Konfransı Təşkilatının mövqeyini ifadə edən Pakistan nümayəndəsi, GUAM dövlətləri adından danışan Ukrayna nümayəndəsi, habelə Türkiyə və Uqan təmsilçiləri Azərbaycanın ərazi bütövlüyünü tanıyaraq, layihəni dəstəkləməyə çağırmışlar. Müzakirələrin sonunda keçirilən səsvermə 39 lehinə, 7 əleyhinə, 100 bitərəf səslə BMT-nin Baş Assambleyası "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" barə-

də qətnaməni qəbul etmişdir. Qətnamənin qəbul olunmasının ortaya çıxardığı, paradoks ondan ibarətdir ki, 3 həmsədr dövlət Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığının bərpa edilməsini, münaqişənin nizama salınmasının tezliklə həyata keçirilməsini özündə ehtiva edən ədalətli bir qətnamənin qəbulunun əleyhinə çıxmasıdır. Sözügedən qətnamənin əleyhinə səs verməklə Minsk qrupu həmsədrləri öz mahiyyətini ortaya qoydu. Burada söhbət təkcə həmsədrlərdən getmir. Minsk qrupunun 13 üzvündən yalnız Türkiyə və Azərbaycan sənədin lehinə səs veriblər. Bununla da Minsk qrupu bütövlükdə iflasa uğradığını sübut etdi. Azərbaycanın neft və qazından faydalanan Avropa dövlətlərinin məsələyə bitərəf qalmasına da etiraz etdi. Finlandiya, Almaniya, İtaliya, Portuqaliya, İsveç, Hollandiya bitərəf qalıb. Belarus səsvermədə iştirak etməyib. Prinsip etibarı ilə qətnamənin lehinə və əleyhinə çıxan qüvvələrin nisbəti onu göstərir ki, münaqişənin Azərbaycanın maraqaları çərçivəsində həlli və pozulmuş hüquqlarının tezliklə bərpa olunması istiqamətində aradan qaldırılması ideyasını dəstəkləyənlər kifayət qədər çoxdur.

Qətnamənin nəinki əleyhinə çıxan, hətta onun lehinə səs verməmələri üçün ayrı-ayrı ölkələrə təzyiq göstərən Minsk qrupu həmsədrləri mövqelərini belə etməyə çalışdılar ki, guya qətnamə birtərəflidir və yalnız Azərbaycanın maraqlarını ifadə edir.

Prezident İlham Əliyev "İnterfaks" agentliyinə müsahibəsində qətnaməni şərh edərkən, qətnamənin əleyhinə səs vermiş ölkələrin, xüsusilə, Minsk qrupuna həm-

sədrlik edən Fransa, Rusiya və ABŞ-ın mövqeyinin təəccüb doğurduğunu vurğuladı: "Mən belə hesab edirəm ki, həmin ölkələr vasitəçilər kimi bitərəf mövqe tutmalı idilər. Biz onların qətnamənin lehinə səs verəcəyini gözləmirdik və düşünürdük ki, onlar bitərəf qalacaqlar. Ona görə də indiki vəziyyətdə danışıqlar prosesinin gələcəyi həm də danışıqlar prosesinə cəlb edilmiş ölkələrlə vasitəçilər arasında etimadın səviyyəsindən asılı olacaq. Deməliyəm ki, qətnamənin əleyhinə səs verilməsi etimadı nəinki artırmayıb, əksinə, ona ciddi xələl gətirib".

Dövlət başçısı bildirmişdi ki, qətnamə layihəsində danışıqlar prosesinin bütün bəndlərinin əks olunmaması kimi izahatlar tamamilə əsassızdır: "Belə ki, BMT-yə təklif olunmuş qətnamədə belə bir bənd var idi ki, biz Minsk qrupunun səylərini, tənzimləmə prinsiplərinə sadiqliyi dəstəkləyirik. Ona görə də bu cür dəlillər əsassızdır, onlar məsələdən xəbərdar olmayan adamlar üçün nəzərdə tutulub".

BMT-nin Baş Assambleyasında qəbul edilən "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında" Qətnamə ölkə prezidenti İlham Əliyev diplomatiyasının növbəti qələbəsi və Azərbaycanın beynəlxalq aləmində mövqeyinin güclənməsinin göstəricisidir. Qətnamənin qəbulu Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesində Baş assambleyada 39 dövlətin bu sənədi dəstəkləməsi Azərbaycanın gələcəkdə də bu istiqamətdə mövqeyini daha da gücləndirmək imkanını yaradır.

BMT Baş Assambleyasının 62-ci sessiyası çərçivəsində qəbul olunmuş qətnaməni əksər xarici ekspertlər

Azərbaycan diplomatiyasının son illər əldə etdiyi ən böyük uğurlardan biri kimi qiymətləndirdilər.

Rusiyanın tanınmış politoloq və ekspertləri BMT-də qəbul olunmuş qətnaməni Azərbaycanın ən böyük uğuru hesab edirlər. Kremlin aparıcı analitiklərindən biri, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov hesab edir ki, qətnamənin qəbulu Azərbaycan diplomatiyasının ən böyük qələbəsi və Ermənistanın ciddi məğlubiyyətidir. Politoloq qətnaməyə səs verməyən ölkələr sırasında ABŞ, Rusiya və Fransanın olmasını müxtəlif səbəblərlə əlaqələndirir.

"Exo Moskvı" radiostansiyasında efirə getmiş "Koda daxilolma" proqramının aparıcısı Ceyla Latıninanın səsləndirdiyi fikirlər də maraqlıdır: "Ermənistan-Azərbaycan münaqişəsinin ən qızğın mərhələsində Qərbin dəstəyi Ermənistana idi. Azərbaycan türklərin və hansısa asiyalıların yaşadığı ölkə kimi nəzərdən keçirilirdi. Lakin rəsmi Bakı sülh yolu, inkişaf, ümumi daxili məhsulun artırılması yolunu tutdu. Ölkə regionda vicdanlı mübarizə aparan bir ölkə olaraq strateji mövqeni itirmək istəmədi və çox ağır şəraitdə Xəzərdə neft çıxarmağa başladı. Biz aydın şəkildə görürük ki, on ildən artıq bir müddətdə yalnız öz iqtisadiyyatını dirçəltmək üzərində işləyən Azərbaycan Qərbin gözündə Ermənistanı ötüb keçən bir dövlət imici qazandı. Bu, çox vacib bir mərhələdir".

Ermənistan mətbuatında da həmin məsələ barədə geniş yazılar dərc olunmuşdur. Qətnamə erməni diplomatiyasının məğlubiyyəti kimi göstərilir. "Qolos Armenii" qəzetindəki məqalədə qətnamə erməni

diplomatiyasının məğlubiyyəti kimi şərh olunur və əlavə edilir ki, bu hal Ermənistan üçün çox təhlükəli bir presedentdir. Erməni diplomatiyasının BMT-də lobbi fəaliyyətinin uğursuzluğu da qeyd edilir. 15 il ərzində erməni diplomatiyasının danışıqlar prosesində ekspert paketini ortaya qoymaq iqtidarında olmadığı da vurğulanır. Rusiyalı politoloq Sergey Markedonov və digərləri BMT Baş Assambleyasında qəbul olunmuş qətnamənin mühüm əhəmiyyət kəsb etdiyi qənaətindədirlər.

S.Markedonov Minsk qrupu üçün bu qərarın həyəcan təbili olduğunu önə çəkdi. Politoloq Aleksandr Karavayev də diqqəti münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun bundan sonrakı fəaliyyətinə yönəltmişdir. Onun sözlərinə görə, həmsədrlər rəsmi Bakının onların fəaliyyətindən razı olmadığını başa düşməlidirlər.

İlham Əliyevin Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi qətidir. O, dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həll edilə bilər. Dövlət rəhbərinin münaqişənin həllinə dair baxışlar sisteminin ana xəttini təşkil edən bu aparıcı tezisi onun istər ölkə daxilində, istərsə də xarici dövlətlərə rəsmi səfərləri zamanı keçirdiyi görüşlərdə, beynəlxalq toplantılardakı çıxışlarında dəfələrlə ifadə olunub. Azərbaycanın həm bu cür birmənalı və qətiyyətli mövqenin, həm də enerji təhlükəsizliyi mərkəzi kimi dünya üçün əhəmiyyətinin artması son dövrlər nüfuzlu beynəlxalq təşkilatların, aparıcı dövlətlərinin Dağlıq Qarabağ münaqişəsi ilə

bağlı mövqelərində nisbətən obyektiv çalarlar müşahidə edilir. Dünya birliyi artıq Dağlıq Qarabağ həqiqətlərinə daha açıq gözlə baxmaq meylindədir. Bütün siyasi manevrlərə, ikili standartlara, psixoloji təzyiqlərə baxmayaraq beynəlxalq təşkilatlara və aparıcı dövlətlərə də bəllidir ki, Azərbaycan dövləti və onun rəhbəri torpaq itkisi ilə heç zaman barışmayacaqdır.

Bu mövqeyi Milli Məclisin 2006-cı ilin payız sessiyasının ilk iclasındakı çıxışı zamanı dövlət başçısı bir daha bəyan etdi: «**Bizim ən böyük güzəştimiz sülh danışıqlarına sadiqliyimizdir. Ancaq biz bütün bu imkanlardan istifadə edib yeni vəziyyət yaratmalıyıq. Hərbi potensialı möhkəmləndirməklə bərabər, bütün siyasi, iqtisadi, diplomatik və regional amillərdən istifadə edib Ermənistana çox güclü təzyiq göstərə biləcəyik. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik. Bəzi hallarda opponentlərimiz istəyirlər bizi tənqid etsinlər ki, Qarabağ məsələsi niyə həll olunmur. Ona görə həll olunmur ki, Azərbaycan bizi qane etməyən razılaşmaya heç vaxt getməyəcəkdir. Ona görə həll olunmur ki, bütün təzyiqlərə baxmayaraq, Prezident kimi mən Azərbaycan dövlətinə, Azərbaycan xalqına sərf etməyən razılaşmaya getməyəcəyəm**».

İşğal olunmuş ərazilərimizin azad edilməsinə yönələn bu sözlər Azərbaycan xalqının və onun prezidenti İlham Əliyevin siyasi iradəsinin ifadəsidir, yaxın gələcəyə hesablanan və uğur gətirən strategiyadır.

# NƏTİCƏ

Azərbaycan xalqının ötən 5 ildə sürətlə dəyişən siyasi, iqtisadi, sosial həyatında baş verən köklü islahatlar təsdiqlədi ki, Prezident İlham Əliyev qarşısına qoyduğu strateji hədəflərə və ümumilli məqsədlərin reallaşdırılması istiqamətində ciddi uğurlara nail olub. Bu, iqtisadi sahədə sabit və dinamik inkişafı, firavan, təhlükəsiz cəmiyyətin qurulmasını, siyasi müstəvidə demokratik və sivil dövlətçilik ənənələrinin təşəkkül tapmasını, geosiyasi planda qüdrətli Azərbaycan dövlətinin mövcudluğunu, humanitar və mənəvi-əxlaqi kontekstdə isə milli birliyi özündə təcəssüm etdirir. Beləliklə, İlham Əliyevin dövlət başçısı kimi siyasi hakimiyyətinin 5 ili, dövlətin və ictimai-siyasi həyatın ən müxtəlif sahələrini əhatə edən gərgin və səmərəli fəaliyyəti hər bir azərbaycanlının qürur mənbəyinə çevrildi. Başqa sözlə desək, son beş il həm də liberal islahatlar və praqmatik siyasətlə şərtlənmişdir.

Yaşadığımız yüzillikdə sürətlə dəyişən reallıqlar, qloballaşma prosesinin bütün ölkələrdə intelektual nəsli dünya siyasi elitasına çıxarması və İlham Əliyevin bu baxımdan Azərbaycanda missiyanı öz üzərinə götürməsi həm sosial sifariş, həm də dünyada gedən yeniləşmə prosesinin məntiqi nəticəsi kimi dəyərləndirilməlidir.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli dövlətçilik və onun inkişaf meyilləri Azərbaycanda güclü hüquqi demokratik dövlətin yaranması ilə səciyyələnir. Cənubi Qafqazda lider dövlətə çevrilən Azər-

baycan artıq beynəlxalq aləmdə də mövqeyini möhkəmləndirmiş, söz sahibinə çevrilmişdir.

Xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin zəngin irsinin tədqiqi istiqamətində görülən işlər artıq bir neçə ildir ki, tarix, fəlsəfə, politologiya və digər ictimai elmlərin metodologiyasını formalaşdırmaqdadır. Azərbaycan milli dövlətçilik ənənəsinin formalaşması və həyatın bütün sahələrini əhatə edən çoxşaxəli fəaliyyət və əldə olunan uğurlar, milli-mənəvi dəyərlərin təşəkkül tapması, tarixi soy-kökə qaydış, azərbaycançılıq dünyagörüşünün formalaşması ulun öndərin tarixi xidmətləri idi.

İlham Əliyev Heydər Əliyevin ən dəyərli yetirməsi və davamçısı kimi milli dövlətçilik konsepsiyasının bütün incəliklərini mənimsəmiş və onları müasir səviyyə qaldırmağı bacarmışdır. Artıq müasir dünya Azərbaycanı etibarlı, sivil, demokratik və regionun lider dövləti kimi dəyərləndirir. 2003-cü ildən başlayaraq Azərbaycanın regional və beynəlxalq səviyyədə cərəyan edən hadisələr zəminində yüksək sürətlə inkişaf edən dövlətə çevrilməsi sübut edir ki, Heydər Əliyev siyasi irsinin fundamental prinsipləri və ali məqsədləri bütün mənalarda özünü doğrultmuşdur.

Dünya tarixinin belə bir həqiqəti etiraf olunmalı və qəbul edilməlidir ki, dövlətçilik sosial-siyasi, iqtisadi, mənəfi-psixoloji ənənələr üzərində formalaşır. Ötən yüzillikdə gərgin situasiyalarla, vətəndaş qarşıdurmaları və kataklizmlərlə, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə müşahidə olunan zaman kəsiyində müasir demokratik dövlət qurmaq kimi son dərəcə çə-

tin bir missiyanı həyata keçirən Heydər Əliyev, həm də Azərbaycanı yaxın gələcəkdə regionun lider dövlətinə çevirə biləcək siyasi kursun bütün parametrlərini cızdı. Bu parametrlər siyasi varislikdən, Heydər Əliyevin dövlətçilik konsepsiyasının birmənalı şəkildə qorunub saxlanılmasından və inkişaf etməsindən keçirdi.

Azərbaycan xalqı bunun fərqindəydi. Dövlətçiliyimizə və Heydər Əliyev ideyalarına sədaqətilə fərqlənən siyasi elita da İlham Əliyevə siyasi olimpin yeganə layiqli namizədi kimi baxırdı. Əslində XXI yüzilliyin başlanğıcından ölkənin sosial-siyasi və ideoloji baxışlar sistemi növbəti prezident seçkilərində İlham Əliyev amili üzərində köklənmişdi.

2003-cü ildə seçicilərin böyük dəstəyi ilə prezident seçilən İlham Əliyev xalqın ona göstərdiyi inam və etimadı yüksək şəkildə doğrultdu və millətin lider statusunu qazandı.

Dövlət başçısı İlham Əliyev sadə bir vətəndaşla ünsiyyətdə də, ən möhtəşəm beynəlxalq təşkilatların tribunasından çıxış edən də səmimi, peşəkar və alicənab rəftarı, məntiqli ifadələri, opponentlərinə sosial-psixoloji təmkini ilə dövlət başçısı kimi özünə böyük nüfuz qazandırmışdır. İlham Əliyevin ümummilli lider Heydər Əliyevin siyasi varisi olmasına təminat verən daha mühüm və fundamental şərtlər ölkədə iqtisadi islahatların davam etdirilməsi, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsi, xüsusilə neft-qaz yataqlarınının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrə sədaqət, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft və

Bakı - Tbilisi - Ərzurum qaz kəmərləri haqqında müqavilələrin reallaşdırılması və Azərbaycanın müstəqil Respublika kimi dünyaya geniş inteqrasiyası idi. Məlum həqiqətdir ki, Prezident Ilham Əliyevin ulu öndərimizin müəyyən etdiyi siyasi kursa yaradıcı yanaşması ölkəmizin inkişaf strategiyasına yeni dividentlər qazandırmışdır.

Bu baxımdan "Davamlı və dinamik inkişaf" fəsli İlham Əliyevin birbaşa prezidentlik fəaliyyəti dövründə həyata keçirilmiş sosial-iqtisadi islahatların effektiv mexanizmlər üzərinə qurulan konsepsiyası, iş prinsipi, problemin həllinə yönələn tədbirləri əhatə edir. Ilham Əliyevi prezident kimi bir çox dövlət başçılarından fərqləndirən cəhətlərdən biri də onun fəaliyyətinin çoxşaxəliliyi və yüksək dinamikliyi, hadisələrə orjinal və operativ yanaşması və təşəbbüskarlığıdır. Bu amil harmonik inkişafın yüksəlişinə əsaslı zəmin yaradan prinsip kimi dəyərləndirilməlidir. Beş il ərzində dövlət büdcəsinin 12 dəfə, iqtisadi artım tempininsə ikiqat artdığı ölkələr barmaqla sayıla bilər. Azərbaycanın nümunəsi həm də ona görə nadirdir ki, ərazisinin beşdə bir hissəsi erməni işğalı altındadır və hər səkkiz nəfərdən biri məcburi köçkün vəziyyətində yaşamağa məhkum olunub.

Ölkəmizin hərtərəfli inkişafının başlıca göstəricilərindən biri kimi infrostruktur layihələrin uğurla həyata keçirilməsi, informasiya texnologiyalarının geniş şəkildə tədbiq olunması, ekoloji təmizliyə xüsusi diqqət ayrılması, səhiyyə və təhsil sisteminin yenidən qurulması əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına dövlət qay-

ğısı kitabda konkret faktlar əsasında şərh edilmişdir.

Son beş ildə təhsilin inkişafı, tədris prosesinə kompyuter vasitəsilə daxil edilən prinsipial yenilik - interaktivlik, multimedia, modelləşdirmə, kommunikativlik və yaradıcılıq kimi müasir pedaqoji alətlərin məqsədyönlü şəkildə istifadəsi yeni pedaqoji texnologiyaların, ənənəvi dərsliklərlə müqayisədə bir sıra aşkar üstünlüklərə geniş perspektivlər açdı.

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan prezidenti İlham Əliyev məqsədyönlü şəkildə tarazlşdırılmış sosial-iqtisadi siyasət aparır və ölkənin umummilli inkişaf perspektivini aydın şəkildə görür. Razılaşaq ki, belə ağır şəraitdə olan ölkənin qısa zaman kəsiyində dünyanı heyrətləndirən iqtisadi artım tempi nümayiş etdirməsi səmərəli dövlət idarəçiliyi mexanizminin nəticəsində mümkün olmuşdur. Həm bölgələrə, həm də xarici dövlətlərə intensiv səfərləri, ardıcıl olaraq ölkənin sosial-iqtisadi problemlərinə həsr olunan müşavirələr, qaçqın və məcburi köçkünlərin problemləri, regional layihələrin işlənib hazırlanması və bu layihələrdə Azərbaycanın aparıcı rolunun təmin edilməsi ölkənin gələcək perspektivləri və ən başlıcası Dağlıq Qarabağ probleminin həlli Onun üçün ciddi strateji rol oynamışdır. Ən əsası isə İlham Əliyevin cəmiyyətimizin bütün sahələrinə aid müasirlərinin heç birində müşahidə olunmayan bir tələbkarlıq və qətiyyəti dövlətçiliyimizdə, işğala məruz qalmış torpaqlarımızın azad olunmasında və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində ortaya qoyduğu iradə Ona böyük rəğbət yaratdı.

Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş layihə və proqramların icrası, əsasən, başa çatdırılmış, ölkəmizin Qərb dünyasına inteqrasiyası möhkəmlənmişdir. Son beş ildə İlham Əliyevin qloballaşma prosesində, mədəniyyətlərarası dialoqda əldə edilən uğurlar, demokratik dəyərlərin ölkə həyatına daxil olması, ölkənin inkişafını müəyyən edən ictimai-siyasi xətt göstərdiyi fəaliyyətinin tərkib hissəsi kimi önə çıxıb. Heydər Əliyev tərəfindən başlanan və istiqamətləri müəyyən edilmiş olan məhkəmə-hüquq islahatlarının uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə dünya təcrübəsinə əsaslanan mütərəqqi məhkəmə-hüquq sisteminin yaradılması, insan hüquq və azadlıqlarının qorunması, söz və mətbuat azadlığının təmin edilməsi və seçki islahatlarının təkmilləşdirilməsi ölkəmizin beynəlxalq nüfuzunu xeyli artırmışdır. Həyata keçirdiyi islahatlar nəticəsində ölkəmizdə yeni dünyəvi huquq dəyərlər bərqarar olmuş, qanunvericilik bazası təkminləşdirilmişdir. Müxtəlif səbəblər üzündən azadlıqdan məhrum edilmiş vətəndaşların taleyinə biganə qalmayan dövlət başçısı cəzanın adekvatlığı və humanistliyi məsələlərinə daim diqqətlə yanaşmışdır. Prezident İlham Əliyev bu məqsədlə hüquq-mühafizə orqanlarında yeni dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılmasını, insanpərvərlik, şəxsiyyətə inam və hörmət, vətəndaş taleyinə qayğı və həssas münasibət, humanizm kimi ümumbəşəri prinsipləri ardıclıqla həyata keçirib.

Bir sözlə, son beş ildə Azərbaycanın güclü, müasir və zəngin dövlətə çevrilməsi üçün iqtisadi, hüquqi və

siyasi islahatlar paralel şəkildə aparılmış və onlar bir-birini tamamlamışdır.

Beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq İlham Əliyevin dövlət başçısı seçilməsindən sonra da böyük vüsət almışdır. Ölkənin xarici siyasətinin əsas istiqamətlərindən biri Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılmasıdır. Prezident Ilham Əliyevin xarici ölkələrə səfərləri zamanı keçirdiyi görüşlər, Azərbaycana gəlmiş dövlət və hökumət başçıları, eləcə də, beynəlxalq təşkilatların nümayəndələri ilə apardığı danışıqlarda bu məsələ daim diqqət mərkəzində olmuşdur. Dövlət başçısının praqmatik, qətiyyətli və hücum xarakterli diplomatik kursu təcavüzkar Ermənistanın beynəlxalq aləmdə getdikcə daha çox təcrid olunmasına, bir sıra beynəlxalq iqtisadi layihələrdən kənarda qalmasına gətirib çıxarmışdır. Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində ərazi bütövlüyün bərpa olunması istiqamətində 2008-ci ilin martın 14-də BMT-nin Baş Assambleyasının 62-ci sessiyanın gündəliyində 20-ci bənd kimi duran **"Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət"** haqqında qətnamənin ölkəmizin maraqları çərçivəsində qəbulu dövlət başçısının xarici siyasətdə əldə etdiyi uğurların başlıca göstəricilərindəndi.

Bütün bu və digər məsələlərdən bəhs edən **"Xarici siyasətdə ardıcıllıq və müasir dəyərlər"** fəslində bir daha belə bir realıq öz əksini tapmışdır ki, Azərbaycanın xarici siyasətinin prioritetləri ölkənin ərazi bütövlüyünün tezliklə bərpa edilməsindən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin

aradan qaldırılmasından, qonşu ölkələrlə mehriban qonşuluq və qarşılıqlı fayda kəsb edən münasibətlərin inkişaf etdirilməsindən, NATO, Avropa Birliyi və Avropa Şurası da daxil olmaqla Avropa və Transatlantik təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiyadan, Azərbaycanın Qərb və Şərqin qovşağında yerləşməsindən faydalanmaqla, mühüm strateji-coğrafi mövqeyindən bəhrələnərək, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafını sürətləndirməkdən, Azərbaycanın iştirakçısı olduğu Avrasiya nəqliyyat dəhlizini inkişaf etdirməkdən, regionda təhlüksizliyin və sabitliyin gücləndirilməsindən ibarətdir. Ötən beş ilin yekunları göstərir ki, sadalananlar Prezident İlham Əliyevin xarici siyasətində prioritet istiqamətlər təşkil etmişdir.

Bütövlükdə prezident İlham Əliyevin prezidentlik fəaliyyətinin təhlili birmənalı olaraq göstərir ki, son beş ildə Azərbaycanda həyata keçirilən islahatlar ölkəmizi hərtərəfli yüksəliş və tərəqqi mərhələsinə çıxarmışdır.

Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilmiş, onun beynəlxalq nüfuzu güclənmiş və o, sabit və dinamik inkişaf edən dövlət imici qazanmışdır.

## KİTABIN İÇİNDƏKİLƏR

Giriş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .5

## I FƏSİL

## MİLLİ DÖVLƏTÇİLİK KONSEPSİYASI

Milli dövlətçiliyin təməl daşı . . . . . . . . . . . . . . . . . .15
Siyasi olimpə qayıdış: anarxiyanın sonu, milli dirçəlişin başlanğıcı . . . . . . . . . . . . . . . . . . . .20
Yüksək inkişafa, vətəndaş cəmiyyətinə xidmət edən islahatlar . . . . . . . . . . . . . . . . . . . . . .29
Dövlətimizin milli təhlükəsizlik konsepsiyası . . . 40

## II FƏSİL

## SİYASİ VARİSLİK: SİYASİ VƏ İDEOLOJİ ƏSASLAR

Siyasi varisliyi şərtləndirən amillər . . . . . . . . . . .51
Siyasi varisliyin sosial-siyasi və ideoloji aspektləri 62
Siyasi varislik və xarici amil . . . . . . . . . . . . . . . . .75
Cüclü lider, zəif müxalifət . . . . . . . . . . . . . . . . . .82

## III FƏSİL

## DAVAMLI VƏ DİNAMİK İNKİŞAF

Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi . . .89
İqtisadi islahatların dönüş mərhələsi . . . . . . . . . .99
Sahibkarlığa önəmli diqqət . . . . . . . . . . . . . . . . .119
İnfrostruktur islahatları . . . . . . . . . . . . . . . . . . .129

İnformasiya texnologiyası
dövlətin prioritetinə çevrilir . . . . . . . . . . . . . . . . .141
Ekoloji təmizliyə dövlət qayğısı . . . . . . . . . . . . . .147
Humanitar və sosial sferanın yüksəlişi . . . . . . . . .152
Olimpiya hərəkatı uğurlu nəticələr verir . . . . . . .167

## IV FƏSİL

## DEMOKRATİK CƏMİYYƏT YENİ MƏRHƏLƏDƏ

Demokratik cəmiyyətin fundomental
prinsipləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .173
İnsan hüquq və azadlıqları, humanizm . . . . . . . .177
Məhkəmə islahatları təkmilləşdirilir . . . . . . . . . . .191
Prezident və azad mətbuat . . . . . . . . . . . . . . . . . .196
Demokratik seçkilər ənənəsi möhkəmlənir . . . . .201

## V FƏSİL

## XARİCİ SİYASƏTDƏ ARDICILLIQ VƏ MÜASİR DƏYƏRLƏR

Milli maraqlara xidmət edən siyasət . . . . . . . . . .211
Yeni mərhələ və müasir dəyərlər . . . . . . . . . . . .221
Təcavüzkar Ermənistana qarşı barışmaz mövqe .244
Nəticə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .270

**FƏZAİL AĞAMALI**
**«Harmonik inkişafın yüksəliş dövrü»**


***Nəşriyyat redaktoru:*** A.Rüstəmli
***Tərtibatçı:*** E.Hacıyev
***Kompyuter dizaynı:*** A.Əmrahov
***Kompüter operatoru:*** H.Məlikova
***Korrektorlar:*** S.Səmimi, A.Axundova
***Fotolar:*** O.Aydınoğlu

Kitabın mətni Ana Vətən Partiyasının
kompüter mərkəzində yığılmışdır.
Tel.: +994 12 432 28 33; Faks:+994 12 434 59 12

---

Yığıma verilib 05.09.2008, Çapa imzalanmış 16.09.2008.
Kağız formatı-60x90 1/16. Ofset çapı. Tirajı 500.

---

«Ozan» nəşriyyatı
Bakı- 143. Akademiya şəhərciyi. Əsas bina.
Tel.: +994 12 434-50-04

«CBS Polygraphic production»
Mətbəəsində çap olunmuşdur.
Bakı şəh., Şərifzadə küç. 3, AZ1073
Tel.: +994 12 447 75 05, Faks: +994 12 447 75 04
e-mail: info@cbs.az